**XƏZƏR UNIVERSITETI**

**Fakültə: Təhsil**

**Departament: Azərbaycan dil və ədəbiyyatı**

**İxtisas: Azərbaycan ədəbiyyatı**

**PH. D Dissertasiyası**

# Mövzu: Azərbaycan dramaturgiyasında tarixilik, çağdaşlıq və ulusal dramaturgiyanın inkişafı

**Doktorant: Vəli Lotfduxt**
**Elmi rəhbər: Dilbər Zeynalova**

**Bakı- 2012**

## MÜNDƏRİCAT


GIRIŞ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 10

I. FƏSİL

Dramaturgiyada tarixilik, çağdaşlıq və ulusal kimliyin əsas xüsusiyyətləri

I. 1. Tarixilik və çağdaşlıq əsas bədii prinsip kimi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13

I. 2. Dramaturji əsərlərdə tarixi mövzu və obrazların bədii əksi. . . . . . . . . . . . . . . . . . . . 26

I. 3. Ulusal kimlik, tarix və ədəbiyyat dramaturji əsərlər kontekstində. . . . . . . . . . . . . . . .36

II. FƏSİL

1920-ci ilə qədər ki dövrdə Azərbaycan dramaturgiyasında tarixi mövzulara Müasir baxış

II. 1. N. Nərimanovun "Nadir şah" faciəsində vətənpərvərlik ideyasının tarixilik və çağdaşlıq prizmasından həlli. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50

II. 2. Ə . Haqverdiyevin"Ağa Məhəmməd Şah Qacar" faciəsi özgürlük və Türkçülük düşüncəsi müstəvisində. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58

III. FƏSİL

Sovet dövrü Azərbaycan dramaturgiyasında tarixi şəxsiyyətlərin bədii səciyyəsi

3. 1. C. Cabbarlının"Od gəlini" əsərində tarixi mübarizənin təsvirində müasir ideyalar. . .67

3. 2. M. Hüseyn in "Şeyx Şamil" dramında özgürlük mübarizəsi müstəmləkə rejiminə qarşı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75

3. 3. S. Vurğun un "Vaqif" dramında şair və hökmdar probleminə çağdaş baxış. . . . . . . . 94

IV. FƏSİL

Tarixilik və müasirlik cənubi Azərbaycan mövzusunda yazılmış dramaturji əsərlərin ideya-bədii cəhəti kimi

4. 1. Ə . Məmmədxanlının "Od içində" pyesində özgürlük hərəkatının tərənnümü. . . . . . 97

4. 2. İ. Əfəndiyevin"Şeyx Məhəmməd Xiyabani" əsəri: tarixi hadisələrin bədii səciyyəsində Türkçülük düşüncəsi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .102

4. 3. M. S. Ordubadinin "Dumanlı Təbriz" pyesində milli özgürlük mücadiləsi. . . . . . . .121

NƏTİCƏ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .133

ƏDƏBİYAT. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .150

## REFERAT

**Mövzunun aktuallığı.** Azərbaycan dramaturgiyasının görkəmli nümayəndələri olan, N. Nərimanov, M. S. Ordubadi, C. Cabbarlı, H. Cavid, Ə. Haqverdiyev, Ə. Məmmədxanlı, İ. Əfəndiyev, S. Vurğun, M. Hüseyn və s. tarixi dramlara, Azərbaycan dramaturgiyasının irəliyə doğru hərəkət etməsinə, zamanın doğurduğu mürəkkəb məzmunlu suallar axtarmalarında, bədii təfəkkür və düşüncənin, ictimai-sosial görüşlərin daha dərin qatlarına nüfuz edərək, həm ulusal, həm də qlobal səciyyəli problemlərin araşdırılmasında müstəsna əhəmiyyətə malikdir. Azərbaycan dramaturgiyasında tarixi mövzuya müraciət, tarixi hadisə və proseslərin, şəxsiyyətlərin, bədii düşüncənin köməkliyi ilə yenidən canlandırılıb, sənət dünyasına gətirilməsi N. Nərimanovun "Nadir şah" tarixi dramı ilə başlanmışdır. Həm N. Nərimanov, həm də sonrakı dövrlərdə yazıb-yaradan sənətkarların yaradıcılığında tarixi hadisə və şəxsiyyətlərə müraciət, tarixə görə deyil, tarixi yaşadıqları dövrün, zamanın xidmətçisinə çevirmək, öz müasirlərinin fikri və baxışlarına təsir etmək, zehinlərə çökmüş qaranlıqları, cəhaləti aradan götürmək və milli şüur və düşüncənin oyatmaq məqsədi ilə edilmişdir. Bədii təfəkkürümüzdə tarixin müasirliyi xidmətlər, tarixin müasir dövr üçün müəllim kimi, çıxış etməsi, poetik dil və fikirlər təsvir edilmişdir. XİX əsr ictimai-siyasi, bədii estetik dünyagörüşü mövzuda özünəməxsus yeri olan M. F. Axundov tarixi mövzudan müasir problemlərin qaldırılmasına elmi tənqidi baxışlarla əsaslandırmış, onu zamanın doğurduğu proses və ehtiyac kimi dəyərləndirmişdir. Tarixi dramların mövcud olduğu bir əsrlik zaman nəzər yetirəndə XX əsrdə yaşıyıb-yaratmış aydın və ziyalı dramaturqlarımız, N. Nərimanov, M. S. Ordubadi, C. Cabbarlı, H. Cavid, Ə. Haqverdiyev, Ə. Məmmədxanlı, İ. Əfəndiyev, S. Vurğun, M. Hüseyn dramlarının yüksək bədii-intellekt səviyyələri, fəlsəfi dərinlikləri, milli, özgürlük və türkçülük düşüncələri, tarixi hadisələrə analitik münasibətlərlə seçildiklərini görürük. Dramaturqların tarixi hadisələrə müraciətlərində, istinad etdikləri məqsəd və prinsipləri araşdırdıqca bir daha inanırıq ki, bu sənətkarların tarixə yüksək maraqları məhz özlərinin müasir olduqları dövrə, yaşadıqları mühitə ictimai-siyasi şəraitə həssas münasibətləri ilə əlaqədardır, yuxarıda adları çəkilən yazıçıların, dramlarında qaldırılan ictimai-fəlsəfi problemlər, siyasi baxışlar, dramatik münasibətlər, mürəkkəb ictimai psixologiya bilavasitə müasir dövrdə, sənətkarların yaşadıqları siyasi şəratlərlə bağlıdır. Müraciət edilən tarixi hadisələrin, fəlsəfi dərinliyi, ictimai-siyasi məzmunların geniş miqyasları, tarixi

şəxsiyyətlərin fikri və baxışların, mühitə sosial gərçəkliyə münasibətlərinin mürəkkəbliyi, analitikliyi, ən əsasi isə müasir ictimai problemlər, fikir və düşüncələrdə olan yeniliklər, zamanın zəruriləşdirdiyi suallara cavab axtarışları ilə həmahəngləşmələri, milli aydın yazıçıların bütün yaradıcılıq boyu müasirliyə sadiqliklərindən xəbər verir. Bu böyük dramaturqlar bir daha inandırır ki, həm müasir dövrdən həmdə tarixdən bəhs edən dramaturqlarında müasirlik və tarixçilik əsas estetik prinsip kimi götürülmüşdür. Azərbaycan dramaturgiyasında tarixilik və çağdaşlıq ulusal dramaturgiyanın yaranması baxımından tədqiqata cəlb olunması çağdaş ədəbiyyatşünaslığımızın qarşında duran önəmli və aktual məsələlərin biridir. Ulusal dramaturqların yaradıcılıqlarında günün tələbləri səviyyəsində dəyərləndirilməsi aktuallıq kəsb etməkdədir. Məsələnin bu aspektdə araşdırılması bir də ona görə aktualdır ki, ulusal dramaturqların təkcə ideya, mövzu və məzmun, sosioloji səciyyəsi ilə deyil, həmçinin bədii estetik ruhu ilə müasirdir. Oxucu və tamaşaçıların zövqünü oxşamaqdadır. Tarixilik və çağdaşlıq ulusal dramaturgiyanın əsil qolu olması kontekstində araşdırılmamışdır. Məhz bu cəhət tədqiqatın bilimsəl yeniliyini şərtləndirən amillərdən biridir.

Çağdaşlıq böyük toplumsal hadisələrdən maraqlı insan toplumlarından danışır. Bu toplumlardan yaranan sənət həyatın önəmli və böyük problemlərini çözməyə çalışıb, onları sənət yolu ilə təsvir edir. Tarixi insanlar, toplumda yaşayan, toplumla ilgili insanlar yaradır. Xalqın gələcək günləri, yaşamları, keçmişdən ayrılmadan onunla ilgili canlı alış-verişdə həyatını sürür. Ziyalı bir yazıçının yaratdığı əsər qaynağı yaşadığı yer, vətən, dünya, hər yer olsa, kəsin çağdaş olmalıdır, çünki çağdaşlıq yazıçının öz əsərinə münasibəti deməkdir. Əgər şair və ya ədib bu günün fəlsəfi idealları ilə yaşamırsa, əgər onu çağdaş insanları həyəcanlandıran məsələlər maraqlandırmasa, aydın məsələdir ki, onun əsərlərinin təsir gücü heç vaxt arzu olunan səviyyəyə çatmayacaqdır, yaratdığı əsər əgər yazıçının zamanını adamlarını təsvir etməklə kifayətlənməsə, etkisiz bir əsər olaraq bir az zamanda hafizələrdən silinib unudular. Məsələ dövrün ruhunu əsas xüsusiyyətlərini görməyi bacarmaq və toplumun inkişaf meyllərini duymaqdadır. Çağdaş mövzuda yazmaq, eyni zamanda xalqın ən qabaqcıl fərdlərinin və qəhramanlarının, xalqın çağdaş istək və amacları ilə daha yaxın ilgi bağlamaq deməkdir. Bu fərdlərdə gördüyü işlərə daha dərin bir eşq və həvəs oyatmaq deməkdir. Yazıçının yaratdığı obrazlar çağdaş insanlara tarixi baxımdan eyni olmasa da düşüncə və duyğu insanı amalları və humanisti baxımdan eyni olmalıdır. Müsbət surətlərin yaranması üçün sənətkar yüksək mənəvi səviyyədə durmalı, zəngin

və hər tərəfli bilik ehtiyatlara elmi idraka malik olmalıdır. Sənətkara bu baxımdan önəm verməklə Azərbaycan dramaturgiyasında bir çoxlu ziyalı, sosial xadimlərini, o cümlədən A. Şaiq, S. S. Axundov, M. F. Axundov, Ü. Hacıbəyov . s. vəgörmək olur. Bu böyük ziyalı yazıçıların yaratdığı obrazlar və surətlər Azərbaycan xalqının amac və məişətlərindən alınmışdır. Tarixilik və çağdaşçılıq sənətkara və ədibə öz xalqı ilə necə danışmaq, onların əhvalı- ruhiyyatını oxşamağı və dəqiq sözlə ifa etmək ulusal ədəbiyyatı yaratmasını təklif edir. Sənətdə çağdaşçılıq həmişə kəşfiyyatçılıqdır. Çətin mürəkkəb bir aləmə səfər deməkdir. Azərbaycan ziyalılarının çağdaşçılıq düşüncələri onları xalqın içindən fanatik təfəkkürlərini və övhamlarını qaldırmaq üçün teatr sənətinə maraqlandırırdı. Güclü teatr sənətinin etkiyə malik olduğu M. F. Axundov kimi filosof və alimi Azərbaycan toplumundan bütün geriliyə qarşı pyes və drama sənəti yaratmağa həvəsləndirdi. Axundov sevdiyi xalqın yaraların və xəstəliyin yaxından görüb dərindən duyan bir insan kimi bütün qüdrəti ilə yaralara məlhəm qoymaq amacı ilə təmsilatını yaradır. Elə çağdaşlığın əsl anlamı budur, niyə ki yaxşı duyurdu ki öyüddən yaxşı gülüş ya yumorla komediya janrında xalqın içindən toplumsal xəstəlikləri yaxşı sağaltmaq mümkündür. Çağdaş düşüncəli Axundov yaxşı bilirdi ki, ən yaxşı teatrın zamanla münasibətləri həmişə məhz çağdaşlıq deyilən bir anlayışın konkret məzmunundan başqa bir şey deyildir. Onun dövrünün xəstəlikləri fanatizm, övhama dayanmış din və onun gerilik meylli istilası, yalançı din xadimlərinin hiləgərlikləri, savadsızlıq, dünya inkişafına göz bağlamaqlıq, ərbabların rəiyyətlərə zülm və istilaları, şahların istibdadı və b. xalqı günü-gündən geriliyə sövq verməklə Axundov kimi ziyalıları bu acı və kobudluqları qaldırmağa düşündürür, və bu nöqsanlara qarşı onun başlanğıcıla Azərbaycan dramaturgiyası öz həqiqət və humanizm mövqeyini anlayıb ulusal əsərlərlə inkişaf etməyə və çağdaşlıq və tarixilik bir keyfiyyət kimi onu yalnız keçmişini yox, gələcəyini də ifadə yönəldə. Çağdaşlıq və tarixilik dramaturgiya ilə xalq toplumsal həyat arasında möhkəm bağlılıqdan yaranır. Onun Azərbaycan toplumsal həyatında mənəvi-estetik rolu günü-gündən artır. Azərbaycan toplumu dinc quruculuq yolları ilə addımladıqca çağdaş insana məxsus dünya görüşünün əxlaqi inancın və mənəvi mədəniyyətin formalaşmasına ədəbiyyat və incə sənət də daha fəal iştirak edir. Azərbaycan dramaturgiyası zəmanənin problemlərini tanıyan M. F. Axundov 1850-ci ildə "təmsilat" əsərini yazmağa başlamışdı, ulusal səhnə mükəmməl peşəkar dramaturgiyanın altı komediyası bu kitabda Azərbaycanın ilk dram əsərləri təşəkkül tapmışdır. "Azərbaycan dramaturgiya peşəkar teatrın yox teatr dramaturgiyanın ovladı kimi boya

başa çatmışdır. Azərbaycan mədəniyyətinin bütün sahələrində "yeni dövr" Axundovla və onun təmsilati ilə başlamişdir. Yeni dövrün yeni çətinlikləri və problemləri qarşında Azərbaycan xalqı başqa sahələr kimi dramaturgiyada da inkişafa doğru ən önəmli addımlar atır. Zəngin tarixə sahib olan türk soyu, onun ölkə və dünyası Azərbaycan bu dünyanın bir parçası olaraq tarix, kültürünə və keçmişinə müraciət edərək çağdaş siyasi və sosial məsələləri teatrların səhnələrində inikas verməyə çalışdı. Türk dünyasının şahları, imperatorları, böyük mübariz qəhrəmanları və ziyalıları dram əsərlərinin obrazlarını təməl-binasını təşkil etdi. Axundov əgər əlifbanın dəyişməsi, fəlsəfi-siyasi məktubları və povest və komediyaları ilə Azərbaycanı və türk dünyası olan parçalanmış ölkəni Azərbaycanın yeni dövrünü "hacı qara", "Vəzir xan Lənkəran", "aldanmış kəvakib" əsərləri ilə təsir edirdi, ədəbiyyatı özəllikləri ilə sənət paltarı geydirib ulusal ədəbiyyat N. Nərimanov "Nadir şah", H. Cavid "Topal Teymu" Ə. Haqverdiyev, "Ağa Məhəmməd Şah Qacar" M. Hüseyn "Şeyx Şamil", "Nizami", "Cavanşir", İ. Əfəndiyev "Xurşidbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani", Söhrab Tahir "Ana Hökmdar", B. Vəhabzadə" Şeyx Xiyabani Ə. Məmmədxanlı "Xorrəmilərin Ağ Şahini", "Od İçində", Səməd Vurğun "Vaqif", "Fərhad və Şirin", C. Cabbarlı "Ədirnə Fəthi", "Ulduz", "Bakı Müharibəsi" "Od Gəlini" M. S. Ordubadi "Dumanlı Təbriz" və b. əsərləri ilə Azərbaycanı sovetlər istilasında olan türk dünyasının zəngin parçasını yenidən oyanmağa və keçmişini tanıtmağa və kimliyini qorumağa türk qardaşlarına bir qardaş nəğmə və bağırtısı kimi bu əsərlər ulusal ədəbiyyatda inikas edilir və Azərbaycan ziyalıları bu yolun ən önündə gedən mübarizlərinə çevrilir. "Fuyuzat" jurnalı Əli Bəy Hüseynzadənin başçılığıyla və "Molla Nəsrəddin" jurnalı Qulizadə başçılığıla bu hərəkatı başlarına yığan ziyalılarla birlikdə ölkənin inkişaf yolunda dayaq olub himayə edirdilər. Bu iki jurnal ana dildə Azərbaycanın təbibləri kimi onun geriliyini, xəstəliyini, böyük ziyalıların qələmi və yüksək düşüncələri ilə təbabət edirdilər. Onlar yeni dövrün yeni ədəbiyyatının inkişafında böyük rol oynayırlar. H. Cavid, Məhəmməd Hadinin romantikası M. Ə. Sabir və başqalarının realizmi elə bu iki məktəbdən xalqın mübarizə yolunda doğulmuşdu. Hər iki jurnal Azərbaycanı və onun inkişaf yolunda kəskin mübarizə edirdilər. Özəlliklə Azərbaycan dilinin inkişafı və gücü onların ədəbi qələm sayəsində ay kimi parlayıb və istilaçı və istismarçı Rus kültürünün basqısı qarşında dayanırdı bu mübarizə elə zamanda gedirdi ki, hər gün rus dili Azərbaycanın məktəb və universitetlərində sovet hakimiyyətinin güclü dövrlərində bütün ana türk dilinin əsil düşməni kimi təbliğ və tərvic olunurdu və Azərbaycan dilini türk

dilindən ayırmaq və başqa bir dil olduğunu iddia edilirdi. Belə bir dövrdə Azərbaycan ədəbiyyatı ana dildə ziyalılar tərəfində bu iki jurnalda hekayə, nağıl, məqalə, dram, povest, oçerk və başqa forma və janrlarda yayılırdı. Elə əsil ədəbiyyat xalqın dilində və məzmunları onların məişət və təfəkkür düşüncələrində yaranmalıdı. Nəsrin, şerin əsas magistral yolu ana dildən keçir. Müəllifin elə ulusal mənsubiyyətində əsərlərinin məzmunu, mövzusu, ruhu qaldırdığı ulusal problemlər, yaratdığı ulusal xarakterlər onun hansı ədəbiyyata mənsub olduğunu dəqiq göstərirdi. Elə dram əsərləri də bu tədqiqdə və incələmədə adları qeyd olunan tarixdən mövzusunu almış əsərlərdən olacaq, bu tədqiqin və araşdırmanın önəmli hədəfi tarixi qaynaqlı dram əsərlərini tədqiq etmək də ulusal ədəbiyyatın yaranması və onun önəmli rolu ulusal şüurun və düşüncənin oyanmasında rolu göstəriləcək.

**Tədqiqatın obyekti və predmeti:**Dissertasiyanın obyektinə Azərbaycanın tarixi dramlarının təşəkkülü üçün zəmin rolu oyanmış Azərbaycan ulusal tarixini və xalqın özgürlük mübarizələri kontekstində daxil edilir. Burada Azərbaycan tarixi dramlarında önəmli rol oynamış iki istiqamət formalaşdığı aydın türkçü ziyalılar və ulusal dramaturqlarından söz açılır. Birinci istiqamətdən əsasən H. cavid və Ə. Məmədxanlının ulusal türkçü şüurlarından və yaradıcılığlarından və düşüncələrindən və vətənpərvərlik ideyaları təmsil olunur. İkinci istiqamətdə isə, S. Vurğun, N. Nərimanov, Ə. Haqverdiyev, İ. Əfəndiyev, C. Cabbarlı, M. S. Ordubadi, M. Hüseyn dramaturgiyaları yer alır. dissertasiyada Topal Teymur və "Od İçində" əsərləri iki türkçü və H. Cavidin özəlliklə turançılıq düşüncəsindən yararlanan və ulusal türk tarixindən qaynaqlanan əsərlərdən, başqa maarifçi ziyalıların türk qaynaqlı tarixi dramlarından və onların ənənələrindən və yaradıcılıqları ilə formalaşdığı yenilikdən söz açılır. Bu tarixi dramlarda müstəqillik, özgürlük və türkçülük çalışma və mübarizələrdən və ziyalı yazıçıların ulusal, türk, tarix və kimlik savunma və mücadilələrindən tarixi dramlarda, ənənə, novatorluq, ulusal dövlətçilik müstəvisində tədqiqatın obyekt və predmetinə çevrilir. Azərbaycanın tarixi dramlarının çağdaşlığının estetik kateqoriya kimi izahlarını verməkdə, onun əsərlərini öyrənib araşdırmaqda bədii mənbə məlumat rolunu oynayır. Bədii düşüncə inkişaf etdikcə həyatın daha mürəkkəb problematikası ilə məşğul olduqca bütövlülükdə zamanı, tarixi şəraiti tədqiqat obyekti götürdükcə bədii idrakın, mühitin dərinliyinə işləməsi bütünlüklə aydınlaşır və bu estetik düşüncənin bədii fikrin nailiyyətlərindən faydalanaraq inkişaf etməsinə irəliləməsinə zəmin yaradır. Tarixi dramların yüksək bədii intellekt səviyyəsi, fəlsəfi dərinliyi, tarixi olaylara analitik

münasibətilə seçildiyini görürük. Dramaturqların tarixi olaylara müraciətdə istinad etdiyi məqsəd və prinsiplər araşdırdıqca bir daha inanırıq ki sənətkarın tarixə yüksək maraqları məhz özlərini çağdaş olduğu dövrə, yaşadığı mühitə, sosial-siyasi şəraitə həssas münasibətləri ilə əlaqədardır. Onların dramlarında qaldırılan sosial-fəlsəfi problemlər, siyasi baxışlar, dramatik münasibətlər, mürəkkəb sosial psixoloji bilavasitə müasir dövrlə sənətkarın yaşadığı siyasi şəraitə bağlıdır. Ədəbiyyatşünaslıqda ədəbiyyat tarixinə, onun çeşidli, meyl və tendensiyalarına yeni müasir təfəkkür işığında, dünya elmi-nəzəri fikir bucağından qiymət vermək meyli gücləndirməkdədir. Dramaturgiya ədəbiyyatla bərabər ötən əsrlərin müxtəlif ədəbi cərəyanları ayrı-ayrı ədəbi şəxsiyyətlərin yaradıcılığı yenidən tədqiq edilir. Dəfələrlə çözülən sorunlara təzə ədəbi meyarlarda qiymət verilir. Azərbaycan tarixi dramları üzərində apardığımız bilimsəl araşdırmalar göstərir ki tarixi dramların ulusal oyanış və səfərbərlik zamanlarında xalqın, ulusun özünüdərk və gələcəyini düşünmə çağlarında meydana çıxır. Müasir dövrümüz üçün xarakterik olan cəhətlər keçmiş mübarizə və ədəbiyyat ənənələrini də əlaqələndirir. Məhz buna görə də mövzuda qoyulan problemin tarixi poetik istiqamətlərində işlənməsi zərurəti ortaya çıxır. Müşahidələr göstərir ki tarixi dramlar Azərbaycan ədəbiyyatında hər zaman gərgin tarixi məqamlarda meydana məhz buna görə də çağdaşlıq və tarixilik və ulusal dramaturgiyanın doğuşu məsələsinin araşdırılması özlüyündə Azərbaycan ədəbiyyatşünaslığımızın mühüm bir problemi kimi irəli sürülür. Bu gün üçün də son dərəcə aktual səslənən bir çox problemlər tarixi dramlar da öz əksini tapmışdır. Bir sözlə tarixlə çağdaşlıq bir-birini tamamlamışdır. Bu baxımdan tarixi dramlar ulusal Azərbaycan dramaturgiyasının doğuşu tarixilik və çağdaşlıq açısından tədqiq etmək zərurəti meydana çıxır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın başlıca məqsədi türk ulusal tarixi mövzuda yazılmış tarixi dramların çağdaşlıq açısından ulusal dramaturgiyanın doğuluş və gəlişmə problemləri və bu dramların Azərbaycan türk kimliyini qorumasında rolunu təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı istiqamətlər diqqət mərkəzinə saxlamışdır:

1. bu əsərlər Azərbaycanın dramaturgiya tarixinin müxtəlif dövrlərindən seçilib;

2. bu əsərlər türk tarixinin və türk qəhrəmanlarının həyatını və onların yaşadığı dövrünü inikas edir

3. araşdırılan əsərlər və yazıçılar türkçülüyün Azərbaycan dramaturgiyasında demək olar binasını qoyanlardır və onların çabaları bir üslub kimi gələcək yazıçılar və dramaturqlara ulusal şüuru canlandırmaq və ulusal kimliyi qorumaqla ulusal ədəbiyyatı zənginləşdirməkdə örnəkdirlər;
4. Ulusal ədəbiyyat ki dili və mövzusu xalqın kök, soy, inanc, gələnək, ənənələri, kültürəl kimliyindən qaynaqlanır. Ulusun tarixindən yaranan bu ulusal əsərlər, tədqiqdə tarixi qaynaqlı dram əsərlərinin ulusal ədəbiyyatın yaranmasında önəmli rolları göstəriləcək;
5. tarixlik və çağdaşlıq ulusal dramaturgiyanın əsas xüsusiyyətlərindən sayılan bir mövzu olaraq yuxarıda zikr olunan xüsusiyyətlərə görə aya bu gün Azərbaycan ulusal dramaturgiyası varmı? Əgər varsa bu dramaturgiyanın özəllikləri və Azərbaycanın kültürəl, mədəniyyət gəlişməsində və ulusal kimlik və şüurunun oyanmasında nə qədər önəmlidir?
6. Azərbaycan ulusal dramaturgiyasının ulusal tarix və kimliyindən qaynaqlanaraq bu əsərlərdə tarixilik və çağdaşlıq açısından tarixi dramların və estetik prinsiplərinə formalaşmasında rolu olan Türkçü-Azərbaycançı aydınların düşüncə və şüurlarından yararlanıb qaynaqlanan tarixi dramları incələmək türk kimlikli Azərbaycan xalqının kültür inkişaf gəlişməsinə nədən olacaq;
7. tarixi dramların yaradılıb gəlişməsində türkçü ziyalılara böyük etki və ilham qaynağı olan Azərbaycan xalqının özgürlük və ulusal kimlik mücadiləsi rus, fars şovinizminə qarşı apardıqları mübarizələrin incələmək bugünkü hər bir Azərbaycan ziyalısına maraqlıdır.
8. tarixi dramların çağdaşlığı və Azərbaycan xalqının müasir istək və tələblərinin tanıdılması;
9. Azərbaycan türkünü başqa uluslar kimi qoruyub kökləndirmədə ulusal şüur və düşüncənin inikas və ədəbi təsvirləri olan ulusal dramaturgiyanın araşdırması.

**Tədqiqatın metodolojisi əsası: T**ədqiqatın metodoloji prinsip kimi ulusal müstəqillik, türkçülük dövrünün ideya və metodları türk yazıçı aydınların düşüncələrinə söykənmişdir. Tədqiqat tarixi müqayisəli tipoloji metodlar əsasında yazılmışdır. Dissertasiya içində biz obyektiv gərçəyi aşkara çıxarmağa imkan verən tarixilik və çağdaşlıq prinsipinə və türkçü yazıçı və aydınların düşüncəsinə istinad etmişik. Dissertasiyada rus, Azərbaycan, türk, fars, Batı və Doğu tədqiqatçıların araşdırıcılara problemə bağlı mühüm əsərləri bilimsəl düşüncələri əsas götürmüşük. Tədqiqatın bilimsəl yeniliyi hər şeydən öncə bununla bağlıdır ki, Azərbaycan tarix mövzulu-qaynaqlı dramları tarixilik və çağdaşlıq və ulusal dramaturgiya açısından türkçülük düşüncəyə bağlı ilk dəfə məhz bu dissertasiyada müstəqil araşdırmanın predmetinə çevrilir.

## GİRİŞ

İctimai-siyasi hadisələrlə zəngin olan XX əsr ədəbiyyatımızın da qarşısında taleyüklü problemlər çıxarmışdır. Kəskin ideoloji mühitdə, ictimai həyatın siyasiləşdirildiyi bir şəraitdə bu dövr ədəbiyyatının metodoloji əsası üçün başlıca meyar partiyalılıq, sinfilik hesab olunurdu. Partiya
və dövlət sənədləri ədəbi hadisələrə istiqamət verən konsepsiya kimi qələmə verilirdi. «Prinsiplər» klassik irsə, ənənəyə münasibətdə mənfi meyllər yaradırdı. Lakin yazıçıdan sinfi mövqe nümayiş etdirmək, siyasi «ustanovka»lara riayət etmək tələblərinə baxmayaraq ədəbiyyat .özünün möhkəm özülü əsasında dikəlirdi
O zamankı ədəbi prosesin aparıcı simalarından olan H. Cavidin ətrafında mühit nə qədər qatılaşdırılıb dumanlandırılsa da, ədib romantik yaradıcılıq prinsiplərinə sadiq qalmışdır. Romantik qayəsini tarixi keçmişlə möhkəm əlaqələndirən H. Cavid mövzu və qəhrəmanlarını xalqımızın milli-mənəvi dəyərlərinin təsdiqinə yönəltdi, milli ruhu yüksək sənət eşqi ilə oxşadı, mühitin fövqünə ucalmağın, ideala qovuşmağın yol və vasitələrini meydana çıxardı, millikliklə bəşəriliyi, tarixiliklə müasirliyi vəhdətdə vəsf etdi,ideologiya, «zamanın tələbləri» əsasında deyil, məhz ruhi-mənəvi tələb, ümumİnsani istək əsasında ədəbiyyat yaratdı. H. Cavid dramaturgiyası geniş kontekstli anlayışdır. Burada kəmiyyətdən daha öncə keyfiyyət, sambal önəm kəsb edir. Onun dramaturgiyasının özünəməxsus poetikası, estetik xüsusiyyətləri var. Şairin yaratdığı əsərlər sonrakı dövrün dramaturgiyasına ciddi təsir etmiş, ədəbiyyatın bu növündə mənzum formanın inkişafına səbəb olmuşdur. H. Cavid dramaturgiyaya həcm etibarilə yığcam, lakin ideya-bədii və əxlaqi-mənəvi dəyərinə görə mühüm əhəmiyyət kəsb elədi. Bu tədqiqatı çalışmada H,Cavid başda olmaqla, M,S,Ordubadi, N,Nərimanov, Ə. Məmmədxanlı, C. Cabbarlı, İ. Əfəndiyev, S. Vurğun, M. Hüseyn və Ə. Haqverdiyevdən, hər yazıçıdan bir tarixi dram"Dumanlı Tıbriz, Od gəlini, Ağa Məhəmməd Şah Qacar, Nadir Şah, Od İçində, Şeyx Şamil, Şeyx Məhəmməd Xiyabani, Vaqif" əsəri tarixilik və çağdaşlıq açısından incələnibdir. Dissertasiya giriş, dort fəsil, nəticədən və ədəbiyat siyahəsindən təşkil tapır. birinci fəsildə tarixlə dramaturgiyanın ilgiləri və tarixi dramların milli dramatugiyanın yaranmasında böyük etkisi və həm milli kimlik kayğısı çəkən aydın ziyalıların, tarixilik,çağdaşlıq düşüncəsi və təfəkkürləri əsasında milli dramaturgiya yaradıcılarının,vətənpərvərlik duyğusu və milli şüuru yaratmağa

çalışanları araşdırılır. Ikinci fəsildə iki tarixi dram iki Türkçü vətənpərvər, N. Nərimanov və Ə. Haqverdiyevin "Nadir şah, Ağaməhəmməd Şah Qacar" əsərləri tarixilik və çağdaşlıq cəhətdən araştırılır. N. Nərimanovun "Nadir Şah"tarixi dramı Azərbaycan dramaturgiya tarixinin ilk tarixi əsəridir ki 1899-ci ildə yazıçının millətinin talehini düşünərkən və milli şüura hiss etdiyi ehtiyaclardan dolayı yaradır. Nərimanovun yolunun davamçısı olan Haqverdiyev də "Ağaməhəmməd Şah Qacar" əsərini vətəni Azərbaycanda gördüyü problemlər və xalqının düşündürücü halindən dolayı bu əsərini yaratmağa qalxır. Üçüncü fəsildə sovet dövründə tarixi şəxsiyyətlərin bədii səciyyələri incələnib M. Hüseyn "Şamil",C. Cabbarlı"Od gəlini" və S. Vurğunun "Vaqif" əsəri milli düşüncə və şüurun oyanmasında təsiri, tarixilik və çağdaşlıq baxışa sahib olan yaradıcılarının uluslarına olan bağlılıqları təhlil və yorumlanır. Dördüncü fəsildə "Dumanlı təbriz" və "Od içində" digər iki tarixi dram əsərləri iki böyük ulusçu vətənpərvər yazıçı, M. S. Ordubadi və Ə. Məmmədxanlıdan ki,Türk tarixinin unudulmayan özgürlük uğrunda mübarizələrini əsərlərinə mövzu seçərək, iki devrimi anlatan,milli əsərlərində təsvir olunan dramlar incələnir. tədqiqatın nəticəsində də ulusal dramaturqların əsərlərinin qaynaq və mövzularını yaşadığı yaşadıqları toplumda olan sorunlar və məsələlərdir. bu teatr xalqa və onun arixi ilə bağlıdır. görülən araşdırmaların sonucuna görə əski Türlərin həyatında inanclarının doğrultusunda gərçəkləştirdikləri teatral törənlər olduğu görünür. Şölən "Qurban ziyafəti" "sığır Toplucu" "ava çıxma" və "yuğ Matəm"adını alan bu törənlər birlikdə yapılmaqda və təmsili bir xarakter daşıyır. Ulsal tarix,kültürəl və inanca dayanan Azərbaycan dramaturgiyası toplumu doğru bir yola çıxartmaqda ən önəmli rol oynayırlar. Onların sürəci və sənətsəl metodları toplumun sorunlarıla sıx-sıx ilişqidə ulusal dramaturgiyanın gəlişməsini sağlayır. Türk tarixi qaynaqlarına dayanan Azərbaycan dramaturgiyası əsərlərdə tarixilik və çağdaşlığa önəm və dəyər verərək,böyük sənət əsərlərinin yaradmasına ulusçu Türkçü şair və yazıçıların ulusal şüuru o cümlədən S. Vurğunun təmsil etdiyi ulusal Türk mübariz şairi "Vaqif" Ə. Haqverdiyevin dəyərli ulusçu xalq və toprağına sevgi inanan aydın hökmdar "Ağa Məhəmməd Şah Qacar" N. Nərimanovun ulusal devlət quran və yanlış fanatik düşüncələrin düşməni olan və xalqı vətəni uğrunda savaşa mübariz Türk Şahı "Nadir Şah Əfşar" M. S. Ordubadının Türk tarixinin zəngin səhifələrindən biri olan olay, Güney Azərbaycanda Türk xalqının yaratdığı lük devrimini təsvir edən "Dumanlı Təbriz" Ə. Məmmədxanlının Güney Azərbaycan ulusal hökumətin 1946-ci ildə imperiyalar tərəfindən dağılması və xalqın bu ulusal devrimə olduğu sevgi və həsrətlərini təmsil

edən "Od İçində" əsəri M. Hüsenin Dağıstan Türklərinin unudulmaz vətənpərvər və xalqsevər ulu qəhrəman və öndərləri olan və onların düşmənə qarşı kəndi lükləri və vətən pərvəriliklərini təsvir edən "Şeyx Şamil" əsəri,Türkçü və turançı H. Cavidin ulusal düşüncəsindən yaranan və Türk imparatorlarının parlaq ulduzu olan Teymurun tarixi döyüşlərindən birini təsvir edən "Topal Teymur" əsəri, Azərbaycan Türklərinin inanc və vətənpərvərliklərini inikas edən C. Cabbarlının "Od Qəlini" faciəsi, İ. Əfəndiyevin Güney Azərbaycanın ziyalı demkrat vətənpərvər mübariz və ulusçu mücahidi Xiyabani və Azərbaycan xalqının 1918-1920 –ci illərdə apardıqları ulusal mücadelələrin tarixi olayların tablolarını "Şeyx Məhəmməd Xiyabani"əsərində vbş. Azərbaycan ziyalı ulusçu dramaturqların yaratdığı əsərlərin üzündən Türk tarix və kültür gələnəklərinə dayanan yaradılan sənətlərə görə bu gün yaranan bu əsərlərə güvənərək .Azərbaycan ulusal dramaturgiyasından fəxri ilə danşmaq doğrudur

# I FƏSİL

# DRAMATURGİYADA, ÇAĞDAŞLIQ, TARİXİLİK VƏ ULUSAL KİMLİYİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

## I. 1. Tarixilik və çağdaşlıq əsas bədii prinsip kimi

ədəbiyyat və o cümlədən dramaturgiya sosial və toplumsal həyatın aynası olaraq tarixlə də ilgisi çoxdur. Özəlliklə pyes əsərlərində yazıçılar mövzuları üçün tarixdən dramın mövzusunu alıb artıq tarixə müraciət edirlər. Azərbaycan dramaturgiyası 19-cu əsrin sonundan başlayaraq dramaturqları xalq hərəkatı və mübarizəsi ilə çiyin-çiyinə Türk tarixinə və keçmişinə tez – tez başvururlar və tarixi şəxsiyyətləri və olayları bədii surətlərini yaratmağa çaba göstərirlər. bu

dönəmdə batıdan alınan və yeni bir janr olaraq ədəbiyatımıza gətirilən teatr, baştan bəri hökmranlığını sürdürən şerin yanında ədəbiyyatın ünsürlərini oluşdurmuşlardır. Tarixdə ki olaylar və şəxsiyyətlər yeni Azərbaycan ədəbiyyatının özəlliklə teatrına hazır vəsait verdiklərindən, tarix dramaturqlarımızın ilgi alanlarından biri olmaya davam etməkdədir. İnsanlıq tarixində tarix anlayışı başlanandan bəri önəmli dəyişikliklər göstərmişdir. Bu nədənlə tarix nədir Sorusuna verilən cavablar da hər dövrdə bir - birindən fərqli olmuşdur. Tarix bir bilim olub onu meydana gətirən olaylar və şəxsiyyətlər bir sıra bəlgələr və sənədlərə dayandıralaraq verilir. Ancaq bu gün bu sənələrin də birər yorum olduğu onların da başqaları tərəfindən yazdığı üçün gərçəkləri tam olaraq yansımadığı düşünülməkdədir. Sənət əsərləri kimi tarix də bir yorumdur və bu yorum dövrün şərtlərinə və yorumu edən adamlara bağlıdır. Tarixdəki olayların oluş tarixləri hər tarixçi tərəfindən kəsin olaraq bilindiyi halda bunların necə olduğu şərtlərin gəlişməsi sonuclarının ilgili ölkələrə etkisi dəyişik tarixçilər tərəfindən fərqli şəkillərdə yorumlanır. Eyni tarixi olayı yada şəxsiyyəti mövzu olan ədəbi əsərlərdə də yorumlar bir-birini tutmamaqdadır. Ədəbiyyat – tarix ilişgisi ilk zamanlardan bəri insanların qafalarını məşğul etmişdir. Aristoteles poetikasında dram sənəti ilə tarixi müqayisə edərkən dramı tarixə görə daha dəyərli görür. ona görə dram sənəti, tarix bilgisindən daha fəlsəfi və daha yüksəkdir. Çünki sənət evrənsəl olanı, tarix isə özəl olanı verir. Tarix gərçəklərlə günümüz olayları arasında çox baxımdan bənzərlik tapmaq mümkündür. Bu nədənlə bu günü mövzu götürən yazıçılarımız üçün də tarix önəmli bir qaynaq olmalıdır. Tarixi olayların hər tarix kitabında aşağı yuxarı bir-birinə bənzər yorumları vardır. Ancaq sənətkarımızın tarixi olaylar Içində ki yorumları çox artıq çeşidlidir. Yorumlar dövrlərə və sənətçilərə görə böyük fərqləri var. (örnək vermək üçün Azərbaycan dramaturgiyasında 1850 – 1920 illəri ikinci dünya müharibəsindən 1960-ci illərə qədər sovet hakimiyyəti dövrünün dramaturgiyası 1990-ci ildən sonra kı müstəqillik dövrü əsərləri mövzu və forma baxmından fərqlənir) yazıçılar mövzu və mövzularını tarixdən də alsa, əsərlərini gələcək üçün qələmə alırlar. Bu gündən yarını görmək ancaq keçmişi bilməklə mümkündür. sənətçi keçmişdəki bir olayı ya da şəxsiyyəti olduğu kimi bir ayıqlama etmədən alırsa bu əsər keçmişin günümüzə nəql, şəxsiyyəti olduğu kimi alırsa bu bir yaşam öyküsü olur, amma sənət əsəri olmaz. sənətçi mövzusunu tarixdən alırsa gərçəklik pozulmadan sənətsəl bir yaradcılıqla yenidən yaşıyacaqdır. Tarixçi və sənətçinin tarixi bir olayı işləməsi fərqlidir. Tarixi bir əsəri, tipatip tarixdəki bir olaya bənzəmədi diyə tənqid etmək yersizdir. Bir tarixi olay üçün

kəskinliklə belə demək mümkün deyildir. Olaylara baxış və olayların yorumu, tarixçilər üçün bilə tək olmayacağına görə, sənətçinin yorumu da dəyişik olacaqdır. Mövzu tarixdən alınmış ədəbi əsərlərdə, tarixilik prinsipinin pozulması sonucunda oluşan keçmişi idealizə, tarixi təhrifə səbəb olur. Keçmişi idealizə və tarixi təhrifi ilə tarixin həqiqətləri unudularaq arxa plana atılması, bağışlanmayacaq, sıx xətalara səbəbiyyət verə bilir. tarixin məntiqi eşiyində olay və şəxsiyyətləri işlətməkdə bir əsəri tarixdən uzaqlaşdırır. Tarixi əsərlərdə kino tarixi dönəmlərlə ilgili kimi isə də əsərlər yazıldığı dövrün sorunlarını göstərir. Tarixi olay sadəcə bir paravandır. Tarixilik və çağdaşlıq bu əsərlərdə bir-biri ilə örtüşür. Günün sorunlarına diqqət çəkmə, onlara çözüm yolları arama, xalqı, yönəticiləri uyarma görəvini də üstlənirlər. Yoxsa keçmişdə olan bir olayın bu günə daşınmasının anlamı olmaz. böyük sənət əsərlərində tarix və çağdaşlığın bir-biri ilə iç - içə olduğu görülməkdədir. Batı ədəbiyyatlarında yazıçı və şairlərin tarix yönəlmələri çox əski olduğu halda Azərbaycan ədəbiyyatında tarix duyğusunun ələ alınıması on doqquzuncu yüz ilin ikinci yarısından sonradır. Azərbaycanda tarixi görüş M. F. Axundovun yaratdığı yeni ədəbiyyat 1850- ci ildən başlayaraq çağdaşlıq və tarixilik də ədəbiyyatda özünə özəl yer tutur. Yeni ədəbiyyatda şüurlu bir tarix görüşü olduğu üçün yaşanılan dövrdə ki olaylar və şəxsiyyətlər önəmli yer tutur. Güney Azərbaycan da ki məşrutə devrimi Səttarxanın ulusal mübarizəsi, pişəvərinin 21 azər ulusal devrimi, Şeyx Məhəmməd Xiyabaninin mübarizəsi və. s. çağdaş devrimlər, olaylar və ulusal qəhrəmanların həyatı, Azərbaycanın ulusal ədəbiyyatının əsas mövzusu olur. Ədəbiyyat keçmişdəki bir şəxsiyyət, olayı mövzu olduğunda ortaya çıxan tarix duyğusu, çağdaş insanların taleyinə yaxın uyğunlaşdırır. vətən, ulus kimi ulusal qavramlarla, tarixin şöhrət və qəhrəmanlarını mövzu etməklə yeni ulusal ədəbiyyat xalqın uğurlu və yüksək ulusal duyğularını və ruhunu oxşayır. Yeni ədəbiyyat da tarix və tarixi şəxsiyyətlərin birər dəyər olaraq ələ alınıb işlənməsi güclənir. Azərbaycan ədəbiyyatında N. Nərimanov M. S. Ordubadi, Yusif Vəzir Çəmənzəminli, C. Cabbarlı, N. Vəzirov Ə. Haqvrdiyev, H. Cavid və s. yazıçıların əsərləri ilə başlayan tarix duyğusunu, yeni ədəbiyyatın dönəmində milliyyətçilik axımının gəlişməsi uğranılan böyük xidmət yazıçıların kəndi tariximizdə 1912-ci ildə qurulan Türk ocaqlarının yayınladığı tarix kitabları və Türkçülük üzərinə yapılan yayınlar tarixi mövzuları əsərlərində işləyən Türk yazıçılarını Türkiyədə etkiliyən kimi Azərbaycan yazıçı Türklərini də etkiləyir. Azərbaycanın böyük dramaturqu C. Cabbarlı yazdığı uç pyesində Türkiyə savaşlarını inikas edir, diqər başqa yazıçılarda Azərbaycan tarixini əsərlərində canlı obrazların vasitəsi ilə

bədii tarixini ədəbiləşdirirlər. tarixin qalibiyyətlərlə dolu səhifələri ilə birlikdə fəlakətli dövrlərinin çeşidli sənət dallarında olduğu kimi, ədəbi əsərlərdə də sürəkli bir şəkildə işlənməsi, uluslarını qorumaq üçün verdikləri mücadilələrdə ihmamlı mümkün olmayan önəmli bir güc qaynağıdır. Azərbaycan yazıçlarının tarixdən aldıqları şeylər çoğunlukla həsrətini çəkdikləri dəyərlər olmuşdur. Azərbayçan ulusunun varlığı, kimliyi, rus və farsın şiddətli kültürəl və siyasi basqısına məruz qaldığı dördə aydınları və ziyalıları keçmişdən alınan örnəklərlə, toplumlarının bilincində təhlükəli qovğa da, uluslarında imanının güvənliyin doğmasına çalışırdılar. Bir var olma mücadiləsi sonunda 1918-ci ildən Məhəmməd Əmin Rəsulzadən ün öndərliyində qurulan milli hökumətin dövründə tarixə baxış açımızda önəmli dəyişikliklər olmuşdur. Türk tarixinə qarşı getdikcə artan birliyi başlanmışdır. Yeni Türk Azərbaycan hakimiyyəti kimliyin və varlıq səbəblərini fars və rus dışında aramağa çalışmışdılar. Türk Azərbaycan toplumunu, çağdaş uyğarlıq səviyyəsinə çıxartmağı amaclayan milli hökumət dönəminin yönəticiləri gələnəkçi tutumu yox edərək yeni qurumlar təsis etməyi Müsavat Türk müsəlmanları birləşdirən partiyanı yenidən gücləndirmək, ulusal ədəbiyyatı yaradan yazıçılar və ziyalıları himayə edərək Türk tarixini yeni ulusal ədəbiyyatda canlandırır. Rus və fars kültürü ilə bağları qoparmağa çalışır. Tarixi mövzulara ədəbi növlərində yönəlmə milli hökumət dönəmindən güclü başlayaraq 1970-ci illərdən sonra bu yönəlmə daha artmışdır. Yeni Azərbaycan ədəbiyyatının önəmli ədəbi növlərindən yeni yaranmış olan dramaturgiyaya, tarixin dünyada olduğu kimi Azərbaycanda da bu janra önəmli bir yaranma qaynağı olmuşdur. Mövzusunu tarixi olaylar və tarixi şəxsiyyətlərdən alan oyunlar, tarixi dramaturgiya deyilən janrın doğmasına səbəb olmuşdur. Tarixi dram nədir Sorusuna Mətin and "mövzularını tarixi qaynaqlardan alan komu düzəninin önəmli olayların işləyən çoxu kəz tarix veriləri ilə çağdaş sorunlara deyinən, gənəlliklə bir örnək, bir xəbərdar etmə tonu daşıyan pyeslərdir". Cavabını verir. Tarix ilə tarixi dramaturgiyanın bir-biri ilə ilgisi sənətçiləri zaman - zaman məşğul etmişdir. Tarixi dramlar tarixdən hansı olayları və şəxsiyyətləri alır və bunları necə işlər sorusu tarixi dram yazıçılarına çox sorulan sorulardandır. Niyazi Akı" tarixi dram yazıçılarının mövzularını tarixin arxa planında gəlmiş az bilinən tarixi olay və şəxsiyyətlərindən seçdiklərini bu seçimin də yazıçıya özügürlük sağladığını söylədir. Yazıçılar tarixi olayı və kişiləri nə qədər az dəyişdirsə o qədər tarixi drama yaxın, nə qədər çox dəyişsə o qədər romantik drama yaxın olurlar" deyir. Dram yazarları tarixdən necə bir şəxsiyyəti seçməli sorusuna Orhan Asena, "əlbətdə günümüzdə yaşayanı, yaşaması yetməz çağımızın

insanın etkiləməli hələ toplumumuzu etkilərsə, daha da yaxşıdır, hansı mövzunu seçməliyik sorusuna da günümüzdə sürüb gedəni, yalnızca sürüb getməsi bəs deyil, çalxantısı içində yetirməliyik kəndimizi. Tragik yada komik bir ucundan duya bilməliyik yanğısını. Əgər toplumumzun bir çeşid yaşantısı halında sürüb gedirsə, bu keçmiş olaylardan yaxşı demişdir". Dramaturgiya əsərləri dövrünün şərtlərindən ən çox etkilənən ədəbi janrdır. Mövzusunu keçmiş zamanlardan alsa da, dövrünün olaylarından kəndini qoruya bilməz. Çünki dram içində yer aldığı topluma ayna tutar. Toplum kəndi içindən çıxan oyunlar aracılığı ilə yaşamını dramatizə edir. Sorunlarını səhnədə aydın görən toplum, çevrəsinə və kəndinə tənqidi gözlə baxar. Tarixi dram yazıçısı tarixçidən fərqlidir. Tarixi dram yazan tarixçi deyil, o bir zamanlar nə olmuş olduğunu anlatmaz, ancaq bir olayı təkrar gözlərimizin önünə gətirir, bunu etməklə də yalnız bir tarixi gerçəyi xatırlamaq amacını güdməz, başqa və daha yüksək amacı vardır. O bizi qandırmaq, ürəklərimizi etkiləmək istər. Olayların özün və tarixi gerçəyə uyqun olaraq, tarixçi tərəfindən təqdim olması, ideyaya oranla daha uyqundur. Tarixlə qarşılaşdırıldığında tragediyada, olaylar olaysal içərikdən mərhumdur. Dram yazıçısı üçün tarix atəşləyici bir ünsürdür. O xəyal gücü yaradıcılıq, üslub, estetik ünsürləri ilə bir sənət əsəri yaradır. Tarixçi hər nə qədər yorum da yapsa, xəyal gücünü də yararlansa, yenə də bir olayı axtaran şəxsidir. Halbuki dram yazıçısı sənətçi olaraq, yorum yaparkən o olayı yenidən yazır və səhnədə oynaya bilməsi için gərəkli düzənləmələri meydana gətirir. Tarixçi ilə dram sənəti zaman və məkan istifadəsində tarixçiyə görə sənətçi daha güclüdür. Çünki yazdığı əsərdə zaman və məkan zorunluluğunu aşa bilir. Bir dram əsəri oxucu və tamaşaçılarına mövzu olduğu olay və şəxslərin ötəsində dəyişik olay və şəxsləri yarada bilir. Bir zamanlarda yazıçılar əsrindəkiləri bəzi tarixi olayları bəlli bir zamana oturda bilməkdə davrana bildikləri üçün bu oyunlar evrənsəl cəhətlər da qazana bilir. Kimi oyunların tam ölkələrdə bəyanı ilə izlənməsinin səbəbi də budur. Tarixi əsərlər hər nə qədər tarixi tamamı ilə uymağa məcbur, heç olmasa da, yazıçı tamaşaçının tarix bilgisini diqqətə almağa məcburdur. Keçmişi günümüz insanına günümüzün sorunları ilə gətirməsi lazımdır. sənətçinin əsərində, tarixdə qalmış sorunları tarixdəki çözümləri ilə verməsi onu zor duruma soxar, hətta gülünc edər. Hər sorunun çözümü hər dövrdə başqa olmaqdadır. hər dövr sorunu kəndi çözümü ilə həll edilməlidir. Mövzusunu tarixdən seçən bir yazıçının çalışmasını anladan Sadiq Tural "yazıçı bəlgə və sənədlərin ortaya qoyduğu yolları öncə öyrənir sonra kəndisinə təsir edən ünsürlər arasında seçmələr ayıqlamalar yapar. Daha sonra da ədəbi yaratmanın sehri ilə

onlara can verir" söyləyir. Yazar tarixi olay və şəxsləri ələ alırkən olayların səbəb və sonuclarını kəndinə görə yorumlaya bilir. Hulya Nutqu "tarixsəl dramlar, nostalgiya, yəni keçmiş duyulan özləm deyildir, kimi kəz keçmişlə bir hesablaşma, kimi kəz yanlızca keçmişdən bir yapraq, bir statdır, bəzən də bu gün adına bir səsdir " deyir. dramın tarixdən daha evrənsəl olduğunu, çünki dramın gerçəyi, ideal ələ aldığı halda, tarixin olanları işlədiyini söyləyir. Bir sənətçi olan dram yazarının tarixə baxaraq, ondan dövr üçün çox sonuclar ala bildiyi halda, bir bilim adamı olan tarixçinin olaylardan hökm çıxaraq genəl yarğılara vardığını işarət edir. tarixi dram tarixə dayanır, amma tarixə təslim olmur. Bu nədənlə də yazıçı, gərçəkliyini qurarkən hissiliyini verirkən tarixçiyə deyil, tamaşaçıya qarşı sorumludur. Bir tarixçi ilə bir sənətçi bir çox kəz inandırıcılıq və gerçəkçilik üzərində çarpışırlar. tarixi dramda danışılan dil ilə kostyumlar olay zamanına uymalıdır. Əksi təqdirdə bu tarixi bozar, gerçəkçilik özəlliyini itirər. Çeşili çağlarda tarixi dramların çeşidli yazılışı gerçəkləri dəyişik olmuşdur. Ən çox yazıldıqları çağlar daha çox ulusal bilincin qurulmağa çalışdığı dönəmlərdir. Ancaq estetik qayğının bildiri, propaqanda gününə üstün gəldiyi zamanlarda tarixi dramlar, tarix mövzusundan gerçəkçiliyindən uzaqlaşmışdır. kimi çağlarda isə, tarixi dramlar çağdaş sorunlara bağlanacaq yerdə tərsinə bu sorunlardan uzaqlaşmışdır. tarixi dramlarda keçmişi alıb bu günə gətirmək gərəkir. Oxsa yazıçı sadəcə keçmişdə bir gəzinti yaptırmış olur. Ttarixdə qalan sorunların çözümləri keçmişdə buluna bilir. bir sənətçi keçmişdəki çözümlərə bağlanmaz. Çünki hər çağ kəndi çözümünü öz çağının yollarını axtarar. Əgər sənətçi keçmişdəki çözümlərə bağlanırsa, komik durumlara düşər. Çünki hər çağ öz yaşantısını yaşamış və sorununu çağın gərçəklərinə görə çözmüşdür. Yazıçı tarixi dramlarda olayları tarixçi kimi sərgiləməz. Onları çağının düşüncə və sorunları açısından dəyərləndirərək tamaşaçısını bir məhkəməyə götürür. Azərbaycan dramaturgiyasında, tarixi dram növünə batıda tarixi dramların ilk örnəklərində ki antik yunan dramlarına rastlaşırıq. Asikhylosun "Parslar"ı bilinən ilk tarixi dramdır(M. ö 472) yüzillikdə antik çağ dastanları ilə orta çağın dini hekayələri, yerini fərdi – tragik olaylar ilə toplumsal tarixə buraxmışdır. Ulusçuluk bilincinin gəliştiyi bu yüz ildə ulusal dramaturgiya da qurulmağa başlayır. Bu dövrdə görülən ilk tarixi oyunlar Shakspearə Corneillə, lope De Veqa aitdir. Tarixi dramlar milliyyətçilik hərəkətlərinin bir anlatım biçimi olaraq romantik dram içində önə çıxmışdır. XX yüzilliyin başında Strinqdberqin verdiyi örnək, tarixi oyunlar, bəlli bir estetik görüşə vasitəsilə edən dramla davam etmişdir. Sartre, Shaw kimi tarixi dramlar daha sonra gerçəkçi yöntəmlə, toplumsal

gərçəkliklə ələ alındıqları zaman tarixin gərçək dialektik anlamı içində ortaya qoymalıdır. Avropada uzun bir keçmişə sahib olan romantik cağda, yazıçıların milli tarixə yönəlməsilə gəlişmə göstərən tarixi dramlar Azərbaycanda N. Nərimanovun. Nadir Şah (1899) əsəri ilə başlayır. Tarixi dramlar yıxılmaqda olan və yabançı şovinist imperiyalar tərəfindən basılan vətən və dövləti qorumağa çaba göstərir. Bu dramlar yox olmaqda olan yurdu qurtaracaq qəhrəmanların bir aracı olaraq çıxmışdır. 1850-ci ildən başlanan Azərbaycan dramaturgiyası tarixi ilk örnəklərini Türk xalqının kültür, tarix və onların yaşamından qidalanmış və pyes şəklində formalaşmışdır. Axundovun "Təmsilat" Azərbaycan xalqının əsərin yaranmış dövründə yaşam və düşüncə aynası olur. Azərbaycan dramaturqlarının əsrlərində ilk yaranma günlərindən etibarən tarixə qarşı ilgili duyduqları görülmüşdür. Tarix dramaturgiyaya mövzu seçilərək milli kimliyin olşumasında və yayılmasında önəmli bir funksiyası işləvi olmuşdur. Çox pyes yazarlarının tarixi, önəmli bir qaynaq görməsi ilə bu gün Türk tarixinin çox olayları və tarixi şəxsiyyətləri teatr səhnələrində xalqdan maraq və sevgilə qarşılanmışdır. M. Hüseyin "Şeyx Şamil, Cavanşir" C. Cabbarlı "Od Gəlini", Ədirnə Fəthi "Ulduz", Ə. Məmmədxanlı "Od İçində - Şərqin Səhəri, Xurrəmilərin Ağ Şahini", H. Cavid "Peyğəmbər", "Topal Teymur", "Xəyyam", S. Vurğun "Vaqif", "Xosrov və Şirin", Ə. Haqverdiyevin "Ağa Məhəmməd Şah Qacar", M. S. Ordubadi "Dumanlı Təbriz- Sevgililər", İ. Əfəndiyevin "Xurşidbanu Natəvan – Şeyx Xiyabani", Aşurov" Nəsimi "B. Vahabzadə "Fəryad" və s. ad aparmaq olar. Bu yazıçılar çoxəsərlik Azərbaycan ədəbiyyatının ulusal iftixarları, dünya bədii mədəniyyətinin görkəmli nümayəndələri Azərbaycan – Türk olay və qəhrəmanlarını tarixi dram əsərlərində bədii surət və obrazlarla dünya ədəbiyyat tarixində ulusal özəllikləri ilə yerləşdirib qalarğı ediblər. bunların əsərlərində humanist düşüncə ön planda olaraq demokratik təfəkkür, özgürlük sevgisi, ulusçuluk, vətənpərvərlik, cağdaş düşüncə prosesində ulusal ədəbiyyatın çərçivəsində formalaşdırılır. Tarixi mövzu və çağdaşlıq Azərbaycan yazıçılarının əsərlərində, onların tarixə müraciətlərində yalnız keçmiş olaylarını işıqlandırmaq, onları canlandırmaq və dəyərləndirmək məqsədi güdmürlər. Onlar bu günün hadisələrinə, tarixin prizmasından baxmaq və onları müəyyən mənada müqayisədə göstərmək üçün, mövzuların tarixdən alırlar. Tarixi əsər bu günə işıq saçıb, sabahı göstərmirsə, həmin əsər zamanla səsləşmir və öz bədii estetik funksiyasını yerinə yetirmir. tarixi dramlar dövrlə ayaqlaşmalıdır, bilavasitə ta çılpaqlığı ilə göstərilməsi mümkün olmayan problemlər, dramaturqlar tərəfindən tarixi materialda işıqlandırılır. XVIII əsr maarifçilik dövr

faciələrində, tarixi mövzu keçmişin buxov və cəhalətindən qurtulmaq insanı inkişaf edərək, qalıb gəlməsi ideyası, maarifçilik ideyalarına daimilik universallıq vermək baxımından istifadə edilmişdi romantizm dövrü isə tarixi mövzuya həm roman, həmdə dramda bir yenı ünsür kimi həyat verdi. Tarixi dramın yaranma yolunda ilk əngəlləri Azərbaycanda da Avropada olduğu kimi əyləncəli dram, komediyalara üstünlük vermək, tarixi əsərlərin səhnələşdirmək çətinliyi, tarixi faktların dəqiqliyi və yazıçılar tərəfindən bu faktların necə işlənmə məsələsi, tarixi olayların epik təsviri, bu tarixi mövzuların, dramaturgiya da cağdaşlaşdırılması, cağdaş ulusal kimlik və ulusçuluq düşüncəsinin tarixi qəhrəmanların dramlarda yaranmış bədii obrazlarla xalqa yayılmasını ad aparmaq olar. Bu tarixi dramlar bir sənət əsəri olduğundan çağdaşlığı bir qanuniyyət kimi, xalqın kültürəl inkişafına daha önəmlidir. niyə ki çağdaşlıq sənətin məzmunudur. Çağdaşlıq konkret tarixi bir zaman olmaqla bərabər, toplumun inkişafını əks etdirir. Bu nədənə görə də deyişir, mükəmməlləşir, yeni bir sıçrayış üçün zəmin olur. Şüur fəaliyyəti olan sənət də təbii ki dəyişməyə bilməz və doğrudan da elmi sürətli inkişafı sənətkarla həyat arasında münasibəti dəyişmiş, sonucda sənətin funksiyası bərabər, sənət özü də müəyyən inkişaf keçirmiş məzmun və formada müəyyən yeniliklər əmələ gəlmişdir. Çağdaşlıq çağdaş mövzusu düşünülmür, lakin çağdaş bədii düşüncə mövzulara sərhəd də qoymur, klassik əsərin tamaşasında da biz çağdaş görünə bilərik. həm də bu çağdaşlığı əsərə biz daxil eləmirik, onun öz varlığında bu keyfiyyət vardır, cünki klassik əsər elə ona görə də klassikdir ki onda keçilməz, daimi ədəbi bir gözəllik vardır, bizim çağdaşlığımız bu gözəlliyi daha da etkili edir. H. Cavidin Topal Teymur əsəri cağdaş əsəridir, çünki məzmunu, ruh, hətta yazılışıda çox çağdaşdır. Obrazlarının tərkib və hərəkətlərində onu klassik realizmlə bağlayan cəhətlər olduğu kimi çağdaşlığa çizgilərlə az deyildir. Klassik pyesi oyanmaqların məqsədi, onun bu gün üçün qiymətini çağdaş anlamın açmaq, onu yeni gözlə görməkdir. Bu gərçək bəzən klassiki "çağdaşlaşdırmaq" kimi anlaşılaraq əsəri deyişmək mühitə uyğunlaşdırmaq, rejissor materiyalına çevirmək həvəsini oyadır. çağdaşlıq sənətdə və o cümlədən dramaturgiyada əsərin əbədiliyi istər ideyaca istərsə də, estetik anlamda ümum bəşəri yüksək duyğu və düşüncəyə malik olmasındadır. Örnək üçün "ölülər" əsərinin çağdaşlığı Cəfərovun fikrincə, avamlıqla tərəqqinin ölü şüurla diri şüurun ağılla kütlüyün mübarizəsindədir. Bu anlamda ölülər həm ulusal faciədir, çünki bizimdə ulusal tariximizdə bu mübarizənin qanlı bir səhifə açdığı olmuşdır, həm də bəşəri bir faciədir. Komediya şəklində meydana çıxması, daha doğrusu, ağlar-gülüş doğulması, tragikomik

qəhrəman vasitəsi ilə ifadəsi olunması, əsərin fəlsəfi anlamın deyişmir, bəlkə əksinə, onu daha da obyektivləşdirir. Çünki tərəqqiyə qarşı duran avamlıq, düşüncəyə qarşı meydan oxuyan düşüncəsizlik, gülməli olduğu dərəcədə də ağlamalıdır. Həm də söhbət böyük bir kütlədən, eldən və xalqdan getdikdə, gülüş ancaq göz yaşı içərisindən sızıb keçə bilir. Ölülər tamaşasının dəyəri orasındadır ki, pyes də məzmun, fikir, ideya çağdaş olduğu kimi onun ifadəsi də çağdaş və yenidir, bugünkü estetik tələblərə uyqundur, realizmin nailiyyətlərində müvəffəqdir. Dramaturq tarixi dramda yaratdığı, modernizasiya, hər şeydən öncə realizm və tarixə sağlam baxış anlamına gəlməlidir. Yazıçının yaratdığı obrazlar öz dövrünün reallığındakı insanlar kimi təsvir olmalıdır. tarixi dram keçmiş dövrdən bəhs etsə də onun çağdaş dövrü ilə əlaqələndirilməsi, keçmiş yalnız material, ondan çıxarılmış nəticə və ibrət dərsi əsasında çağdaş dövr hadisələrinə qiymət verilməsi öz bariz nümunəsini İ. Əfəndiyevin "Xiyabani" dramında tapır. XIX əsrin sonu XX əsrin əvvəllərində, ulusal şüurun oyanışı, maarifçilik hərəkatının geniş vüsət alması, müəllifləri çağdaşlığa tarixin prizmasından baxmağa, keçmişə qiymət verməklə bu günün problemlərinin çözüm yollarını axtarmağa sövq edir. N. Nərimanovun "Nadirşah Əfşar" (1899) tarixi faciəsi Azərbaycan dramaturgiyasının ilk tarixi dramı olaraq, Nadirşah dövrünü, o əsrdə demokratiya və özgürlükdən çox uzaq olan saray mühitini, islahatlar həyata keçirmək istəyən hökmdarın belə gücsüz olduğunu və saraydakı gerilik bataqlığı ilə toqquşmada, onun həlak olduğunu göstərmişdir. Ə. Haqverdiyev də tarixi dram yaradarkən qacarlar şahlığının əsasını qoyan "Ağaməhəmməd Şah Qacar" faciəsini yaradır. Azərbaycan dramaturgiyasında, tarixi mövzuda yazılmış üçüncü pyes C. Cabbarlının"Nəsrəddin Şah" (1916) tarixi dramıdır. Bu dramlarda tarixilik yazıçılarının dövrlərinin abı-havasının düzgün ümumiləşdirib canlandırmasında əsas tendensiyaları qarşılaşdıra bilmələrindədir. H. Cavidin "Topal Teymur" əsərində pyesin süjetinin əsasında Teymurun böyük və qanlı müharibələr fondundan olduqca kiçik görünəcək bir hadisə və döyüşü iki qardaş davasını (Sultan Bayəzid – Teymurr) bir məqamı sıravi hadisəsi dayanır. Dramaturq Teymur qoşununun Bayəzid torpağı və hökmranlığı olan Türkiyəyə hücum edir və bu tarixi olayı sevgi və Türk dünyasını birləşdirmək və bir ulus olaraq qarşı-qarşıya durmalarını sonucda qardaş sevgisi ilə Teymur Bayəzidin öldürməsindən, təhqirindən vaz keçərək bir Türkçü Turançı H. Cavid yaradır. Teymur Bayəzidə qalib gələndən sonra hörmətlə qarşılayır. Türkçü şüurlu dramaturq Cavid əfəndi bu tarixi müraciətlə oxucunun diqqətini öz dövrünə cəlb etmişdir. Türk torpaq və ulusunun birləşməsi, qardaşlıq, ulusçuluk duyğu və şüurundan uzaq olduqları

pyesin iç süjet xəttində əsas yer tutaraq, çağdaş dövründə ki yaşayan Türk övladlarının ulus-kültür tarixlərinə sahib çıxmağa, ulusal şüur və düşüncə yaratmağa dərin və yüksək səviyyəli sənət əsəri yaradır. Hərbi gərginlik durumunda düşüb yaşayan insanları düşündürən bir sıra suallara cavab verməyə çalışır və ən ümdəsi Türk ulusunun içində qardaşların bir biri ilə savaş müharibə gərginliyi və müharibənin romantik örtüyünü yaradaraq onun antihomanist mahiyyətini aşkarlamaq məqsədi güdmüşdür. H. Cavid uzaq keçmişə, "Topal Teymur" əsərində müraciət etsə də, yenə də çağdaş gərçəkliyin problemlərini ön plana çəkir. C. Cabbarlının, "Nəsrəddın Şah" əsəri Cabbarlının İran tarixinə müraciət etmək məqsədi vətəni Azərbaycanın taleyində böyük rolu olduğundan irəli gəlir. Vətənin bölünməsi, rüşvətxorluq, özbaşınalıq, xalqın mədəni, maddi, mənəvi haqlarının örtüb-basdırmaq, xarici dövlətlər qarşında gücsüzlük, qeyri-müstəqillik, Qacar dövlətlərinin strukturunda əsas yer tutur. Qacarların yalnış polotikasının sonucu olan gərginlikdən etkilənən Cabbarlı, tarixə müraciətinin nədənidir. Şəxslərin toqquşması ilə başlayan konflikt son nəticədə hökmdarın öldürülməsi ilə başa çatır. Hadisələrin cərəyan etdiyi vaxtda İranın dövlət aparatında öz başınalıq 1813 və 1828-ci illərdə cabbarlının ana vətəni Azərbaycanı iki sömürgəçi dövlət arasında parçalanmasına nədən olur. Qacar xanədanı hakimiyyəti əlində saxlayır və heç kimdən çəkinmədən istədiyini edir. Hərc-mərcliyin, özbaşınalığın ağırlığı isə şəhər və kəndin sıravi zəhmətkeşlərin üzərinə düşür. Bu üsyanlara səbəb olur. Yazıçı hər şeydən öncə bir söz adamıdır. içində yaşadığı toplumun gələnək dəyərlərini qəbul ya rədd edə bilər. Hər iki durumda da yazıçı içində yaşadığı toplumun həyatını inikas edir. başqa ədəbi əsərlərdə olduğu kimi teatr əsərlərində də durum eynidir. Dram yazıçısı genəlliklə, toplumun günlə və tarixlə ilgili bilgilərini inanclarını kəndi düşüncəsinə qulluq edən, kəndi doğru ölçüsünə görə, qəbul olunan doğrularını canlandırıb kəndi naminə əyləmə dönüşdürən adamdır. Dram yazıçısı əsərində olayı danışaraq tamaşaçılar üzərində etkili və onlardakı inanc və inamları dəyişdirməyə çalışır. Mövzusunu tarixdən alan dram yazıçısı tarixi olayı teatra döndərərək olayın saxladığı yaradıcı gücə çox yönlü və sürəkli bir etkinlik qazandırma amacı güdür. üzərində inanclarımızla danışdığımız olay, dramda kəndisi danışaraq, bizi qane edir. İnancımızda dəyişikliklər olar. Bu yöndən dram, insanların tərbiyələrində onların anlayışı və davranışlarının dəyişdirilməsində çox etkili bir sənət dalıdır. Tarix bilimsəl gərçəkliyin teatr estetik gərçəkliyin dalısıncadır. İkisi də inandırıcı olmaq zorundadır. Tarixi bir olaya və olayın qəhrəmanlarına sənət yolu ilə verilən çağdaş biçim ruhumuza güc və ümid verir.

Beləcə olmayanı, ya da olmazı olura deyişməkdə dram əsəri etkilidir. Tamaşaçını etkiləyir və onları olmazı olura çevirərək bir yüksək güc və enerji ilə doludur. Belə zamana qarşı durma, toplumun tarixi mülkünü zamanın yağmalamasına qarşı müdafiə, hətta bu mövzuda da əmələ keçmə mümkün olur. Yazıçı bir söz adamıdır, söz də əyləmə hökm etməzməsə, belə hərəkətin yolunu açmada etkili bir aracdır. dram sənəti ilə, özəlliklə səhnə də kəndisi danışan olaylarla oluşan dram əsərində, insanların tərbiyəsinə və əyləmə yönəltmə çox istifadə olunan yaxın yoldur. Dram əsəri toplumun yaşadığı tarixdə qaynaqlansa amacı və böyük istəyi toplumun inkişafı və kültürün yüksəlişidir. Tarixi dram bu yolda önəmli yer tutur. Dram yazıçısının ideyası toplumunun ziyalı və ünlülərinin ideyası ilə birləşib tarixi dram əsərləri süjetinin əsas xəttini ümumbəşəri humanisti düşüncələr, vətənpərvərlik duyğusunu təşkil edir. İdeyalar birləşir, toplumu gələcəyə yeni saf və təmiz həyata və gözəlliyə səfərbər edir. Tarixi dramlarda, Azərbaycan dramaturqları Türk ulusunun tarixi olaylarını araşdırıb incələməklə böyük tarixi qəhrəmanlar və mübarizlərini, politik, ulusal şəxsiyyətlərini kəndi düşüncə və şüur açılarından. ulusal dram əsərlərini yaradırlar. Bu bölümdə M. Hüseynin "Şamil", "Cavanşir", H. Cavidin "Topal Teymur", C. Cabbarlının "Ədirnə fəthi", "Trablis müharibəsi", "Od Gəlini", "Bakı müharibəsi", S. Vurğunun "Xosrov və Şirin, "Ə. Haqverdiyevin "Ağaməhəmməd Şah Qacar"N. Nərimanovun, "Nadir Şah Əfşar", M. S. Ordubadinin "Dumanlı Təbriz", İ. Əfəndiyevin "Xiyabani", Ənvər Məmməd Xanlının "Od İçində", "Xorrəmilərin Ağ Şahini" və s. əsərlərdən ad aparmaq olar. Azərbaycan tarixi dramlarının ikinci bölümü dramaturqların yaratdıqları şair və yazıçıların həyatlarından mövzuları alınmış dram əsərlərdir. Ədəbi şəxsiyyətlərin həyatı yaradıcılığı, dövrünün ədəbi proseslərinin səhnəyə gətirilməsi, tarixi dramların mövzu baxımından yeni sahəsidir. Bu sıra dramlardan "Xəyyam" (H. Cavid), "Məhsəti" (K. Ağayeva), "Xaqani" (M. Rahim), "Nizami"(M. Hüseyn), "fəryad" (B. Vahabzadə), "Nəsimi"(Ə. Məftun), "Karvan, Gedir" (A. Zeynallı), "Vaqif" (S. Vurğun), "Xurşidbanu Natəvan" (İ. Əfəndiyev), "Molla Nəsrəddin Bakıda" (S. S. Axundov), "Xəyalat", (Ə. Haqverdiyev), "Sabir", (H. Nəzərli) və "Qəmkusar", (M. Tarverdiyev) və b. əsərlər mövzusu, tarixi olaylar və konkret məzmunlarda əks etdirilən əsərlərdir. Bu baxımından və həmdə bədii xüsusiyyətləri, sənətkarlıq məsələlərinə görə doğru və düzgün şüurlu faydalandıqda, Azərbaycan dramaturgiyasının uğurlu ədəbi nümunələridir. On ikinci əsrdən bəri Azərbaycan şair və yazıçılarının yaradıcılığında ulusal şüur, vətənpərvərlik, toplumsal-politikal baxımından, mövzu və ideya bağlılığı vardır. Xaqani və

Məhsətinin vətən həsrəti, Nizaminin adil hökmdar arzusu, Füzulinin eşq və sevgi duyğuları, Nəsiminin özgür insan ideyaları, Vaqif və Xurşidbanu Natəvanın xalqa bağlılığı və s. məsələlər bir tərəfdən yeni dövr ədəbi şəxsiyyətlərin yaradıcılığında, digər tərəfdən də ulusal mübariz qəhrəmanların həyati mövzusu ilə yanaşı öz əksini tapır və ulusal ədəbiyyatın bünövrəsinin möhkəmlənməsində böyük yer tutub zəngin, Türk ədəbiyyatının xəzinəsinə tükənməz əsərlər bağışlayırlar.

Çağdaşlıq böyük toplumsal hadisələrdən, maraqlı insan toplumlarından danışır. Bu toplumlardan yaranan sənət, həyatın önəmli və böyük problemlərini çözməyə çalışıb, onları sənət yolu ilə təsvir edir. Tarixi insanlar, toplumda yaşayan, toplumla ilgili insanlar yaradır. Xalqın gələcək günləri, yaşamları, keçmişdən ayrılmadan onunla ilgili canlı alış-verişdə həyatını sürür. Ziyalı bir yazıçının yaratdığı əsər qaynağı yaşadığı yer, vətən, dünya, hər yer olsa, kəsin çağdaş olmalıdır, çünki çağdaşlıq yazıçının öz əsərinə münasibəti deməkdir. Əgər şair və ya ədib bu günün fəlsəfi idealları ilə yaşamırsa, əgər onu çağdaş insanları həyəcanlandıran məsələlər maraqlandırmasa, aydın məsələdir ki, onun əsərlərinin təsir gücü heç vaxt arzu olunan səviyyəyə çatmayacaq, yaratdığı əsər əgər yazıçının zamanını adamlarını təsvir etməklə kifayətlənməsə, etkisiz bir əsər olaraq bir az müddətdə hafizələrdən silinib unudular. Məsələ dövrün ruhunu əsas xüsusiyyətlərini görməyi bacarmaq və toplumun inkişaf meyllərini duymaqdadır. Çağdaş mövzuda yazmaq, eyni zamanda xalqın ən qabaqcıl fərdlərinin və qəhrəmanlarının, xalqın çağdaş istək və amacları ilə daha yaxın ilgi bağlamaq deməkdir. Bu fərdlər də gördüyü işlərə daha dərin bir sevgi və həvəs oyatmaq deməkdir. Yazıçının yaratdığı obrazlar çağdaş insanlara tarixi baxımdan eyni olmasa da, düşüncə və duyğu insanı amalları və humanisti baxımdan eyni olmalıdır. müsbət surətlərin yaranması üçün sənətkar yüksək mənəvi səviyyədə durmalı, zəngin və hər tərəfli bilik ehtiyatlara bilimsəl idraka malik olmalıdır. Sənətkara bu baxımdan önəm verməklə, Azərbaycan dramaturgiyasında bir çoxlu ziyalı, sosial xadimlərini o cümlədən A. Şayiq, S. S Axundov, M. F. Axundov, Ü. Hacıbəyov və s. görmək olur. bu böyük ziyalı yazıçıların yaratdığı obrazlar və surətlər Azərbaycan xalqının çağdaşda yaşadığı insanlardan amal, amac və məişətlərindən alınıb yaranmışdır. Tarixilik və çağdaşçılıq sənətkara və ədibə öz xalqı ilə necə danışmağı, onların əhvalı – ruhiyyəsini oxşamağı və dəqiq sözlə ifa etmək ulusal ədəbiyyatı yaratmasını təklif edir. Sənətdə çağdaşçılıq həmişə kəşfiyyatçılıqdır. Çətin mürəkkəb bir aləmə səfər deməkdir, niyə ki elə Azərbaycan ziyalılarının çağdaşçılıq düşüncələri, onları

xalqın içindən fanatik təfəkkürlərini və vahimələrini qaldırmaq amacı teatr sənətinə maraqlandırırdı. Güclü teatr sənətinin etkiyə malik olduğu M. F. Axundov kimi filosof və alimi Azərbaycan toplumundan, bütün geriliyə qarşı pyes və drama sənəti yaratmağa həvəsləndirdi. Axundov sevdiyi xalqın yaraların və xəstəliyin yaxından görüb dərindən duyan bir insan kimi, bütün qüdrəti ilə yaralara məlhəm qoymaq amacı ilə təmsilatını yaradır. Elə çağdaşlığın əsl anlamı budur, niyə ki yaxşı anlayırdı ki, öyüddən yaxşı gülüş ya yumorla komediya janrındır. Bu sənətlə xalqın içində üz vermiş toplumsal xəstəlikləri yaxşı sağaltmaq mümkündür. Çağdaş düşüncəli Axundov yaxşı bilirdi ki, ən yaxşı teatrın, zamanla münasibətləri həmişə məhz çağdaşlıq deyilən bir anlayışın konkret məzmunundan başqa bir şey deyildir. onun dövrünün xəstəlikləri fanatizm, övhama dayanmış din və onun gerilik meylli istilası, yalançı din xadimlərinin hiləgərlikləri, savadsızlıq, dünya inkişafına göz bağlamaqlıq, ərbabların rəiyyətlərə zülm və istilaları, şahların istibdadı və. b. xalqı günü – gündən geriliyə sövq verməklə Axundov kimi ziyalıları bu acı və kötülükləri qaldırmağa düşündürür və bu nöqsanlara qarşı onun başlanğıcıyla Azərbaycan dramaturgiyası öz həqiqət və humanizm mövqeyini anlayıb. Ulusal əsərlərlə inkişaf etməyə və çağdaşlıq və tarixilik bir keyfiyyət kimi onu yalnız keçmişini yox, gələcəyini də ifadə edir. Çağdaşlıq və tarixilik dramaturgiya ilə insanların toplumsal həyatı arasında möhkəm bağlılıqdan yaranır. Onun Azərbaycan toplumsal həyatında mənəvi -estetik rolu gündən-günə artır. Azərbaycan toplumu, dinc quruculuq yolları ilə addımladıqca, çağdaş insana özəl dünya görüşünün əxlaqi inancın və mənəvi mədəniyyətin formalaşmasına, ədəbiyyat və incə sənət də daha fəal iştirak edir. Azərbaycan dramaturgiya zəmanənin problemlərini tanıyan M. F◌́xundov 1850-ci ildə "Təmsilat" əsərini yazmağa başlamışdı, ulusal səhnə mükəmməl peşəkar dramaturgiyanın altı komediyası bu illərdəki Azərbaycanın ilk dram əsərləri təşəkkül tapmışdırş. "Azərbaycan dramaturgiya peşəkar teatrın yox teatr dramaturgiyanın ovladı kimi boya başa çatmışdır. Azərbaycan mədəniyyətinin bütün sahələrində "yeni dövr" Axundovla və onun təmsilati ilə başlamışdır. Yeni dövrün yeni çətinlikləri və problemləri qarşında Azərbaycan xalqı başqa sahələr kimi dramaturgiyada da inkişafa doğru ən önəmli addımlar atır. Zəngin tarixə sahib olan Türk soyu, onun ölkə və dünyası Azərbaycan bu dünyanın bir parçası olaraq tarix, kültürünə və keçmişinə müraciət edərək çağdaş politikal və sosial məsələləri teatrların səhnələrində inikas verməyə çalışdı. Türk dünyasının şahları, imperatorları, böyük mübariz qəhrəmanları və ziyalıları dram əsərlərinin obrazlarını təməl binasını təşkil etdi.

Axundov əgər əlifbanın dəyişməsi, fəlsəfi-siyasi məktubları və povest və komediyaları ilə Azərbaycanı və Türk dünyası olan parçalanmış ölkəni Azərbaycanın yeni dövrünü "Hacı qara", "Vəziri-xani Lənkəran", "Aldanmış kəvakib" əsərləri ilə təsir edirdi, ədəbiyyatı özəllikləri ilə sənət paltarı geydirib ulusal ədəbiyyat N. Nərimanov "Nadir şah", H. Cavid "Topal Teymur", Ə. Haqverdiyev "Ağa Məhəmməd Şah Qacar", M. Hüseyn "Şeyx Şamil", "Nizami", "Cavanşir", İ. Əfəndiyev "Xurşidbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani", Söhrab Tahir "Ana Hökmdar", "B. Vəhabzadə" Şeyx Xiyabani Ə. Məmmədxanlı "Xorrəmilərin Ağ Şahini", "Od İçində", Səməd Vurğun "Vaqif", "Fərhad və Şirin", C. Cabbarlı "Ədirnə Fəthi", "Ulduz", "Bakı Müharibəsi" "Od Qəlini" M. S. Ordubadi" dumanlı Təbriz" və b. əsərləri ilə Azərbaycanı sovetlər istilasında olan Türk dünyasının zəngin parçasını yenidən oyanmağa və keçmişini tanıtmağa və kimliyini qorumağa, Türk qardaşlarına bir qardaş nəğmə və bağırtısı kimi bu əsərlər ulusal ədəbiyyatda inikas edilir və Azərbaycan ziyalıları bu yolun ən önündə gedən mübarizlərinə çevrilir. "Fuyuzat" jurnalı Əli Bəy Hüseynzadənin başçılığıyla və "Molla Nəsrəddin" jurnalı Quluzadə başçılığıla bu hərəkatı başlarına yığan ziyalılarla birlikdə ölkənin inkişaf yoluna dayaq olub himayə edirdilər. Bu iki jurnal ana dildə Azərbaycanın kültür təbibləri kimi onun geriliyini, xəstəliyini, böyük ziyalıların qələmi və yüksək düşüncələri ilə təbabət edirdilər. Onlar yeni dövrün yeni ədəbiyyatının inkişafında böyük rol oynayırlar. H. Cavid, Məhəmməd Hadinin romantikası M. Ə. Sabir və başqalarının realizmi elə bu iki məktəbdən, xalqın mübarizə yolunda olduğundan doğulmuşdu. hər iki jurnal Azərbaycanı və onun inkişaf yolunda, kəskin mübarizə edirdilər. Özəlliklə Azərbaycan dilinin inkişafı və gücü, onların ədəbi qələm sayəsində ay kimi parlayıb və istilaçı və istismarçı rus kültürünün basqısı qarşında dayanırdı bu mübarizə elə zamanda gedirdi ki, hər gün rus dili Azərbaycanın məktəb və universitetlərində, sovet hakimiyyətinin güclü dövrlərində, bütün ana Türk dilinin əsil düşməni kimi təbliğ olunurdu və Azərbaycan dilini Türk dilindən ayırmaq və başqa bir dil olduğunu iddia edilirdilər. Belə bir dövrdə Azərbaycan ədəbiyyatı ana dildə ziyalılar tərəfindən bu iki jurnalda hekayə, nağıl, məqalə, dram, povest, oçerk və başqa forma və janrlarda yayılırdı. Elə əsil ədəbiyyat xalqın dilində və məzmunları onların məişət və təfəkkür düşüncələrində yaranmalı idi. Nəsrin, şerin əsas magistral yolu ana dildən keçir. yazıçının elə ulusal mənsubiyyətində əsərlərinin məzmunu, mövzusu, ruhu qaldırdığı ulusal problemləri, yaratdığı ulusal xarakterlərlə onun hansı ədəbiyyata mənsub olduğunu dəqiq göstərirdi. Elə dram əsərləri də bu tədqiqdə və incələmə də adları qeyd

olunan tarixdən mövzusunu almış əsərlərdən olacaq, bu arşdırmanın önəmli hədəfi tarixi qaynaqlı dram əsərlərini tədqiq etmək də ulusal ədəbiyyatın yaranması və onun önəmli rolu ulusal şüurun və düşüncənin oyanmasında göstərilməsidir.

**I. 2. Dramaturji əsərlərdə tarixi mövzu və obrazların bədii əksi**

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan dramaturgiyasının, ulusal mədəniyyətində, sosial-politikal hadisələr tarixinin, elə faktorları olayları vardır ki, bu faktorlar və olaylar onların səhnəyə gətirilməsi zərurətini doğururdu. Azərbaycan siyasi və sosial tarixi üçün xarakterik olan mövzulara müraciət etmək, dram janrının yeni məzmunlu və janrlı, dramın yaranmasını əsaslandırırdı. bir sıra tarixi dramların yaranması da bu zərurətin nəticəsi idi. Tarixi dramlar ədəbi qəhrəmanın, şəxsiyyətinə görə fərqlidir. Bu qəhrəmanların bir qismi, hökmdar, şah, vəzir, dövlət xadimi, aşıq və bir qismi də şair, alim, filosof idi. Birinci qismindən Ə. B. Haqverdiyevin "Ağa Məhəmməd Şah Qacar", H. Cavidin "Topal Teymur", N. Nərimanovun "Nadir Şah", İ. Əfəndiyevin "Şeyx Məhəmməd Xiyabani", M. Hüseynin "Cavanşir", "Şamil" əsərləri, Ənvər Məmmədxanlının" Xorrəmilərin Ağ Şahini", "Od İçində", "Şərqin Səhəri" əsərlərini və s. ad aparmaq olar. İkinci qisimdən "Xəyyam" H. cavid "Məhsəti", K. Ağayeva "Xaqani", M. RAhim "Nizami", M. Hüseyn" Fəryad", B. Vahabzadə "Nəsimi", Məftun "Karvan gedir", A. Zeynallı "Vaqif", S. Vurğun "Xurşidbanu Natəvan", İ. Əfəndiyev "Xəyanət", Ə. Haqverdiyev "Sabir" əsərlərin adını çəkmək olar. Bu əsərlər Azərbaycan xalqının və Türk dünyasının böyük hökmdar, şair və alimlərinin həyatından alınmış və bədii obrazlarla dram janrında yeni həyatla sənət dünyasına vətənpərvər ulusal yazıçılar və dahilərin yaradıcılığı ilə daxil olub, ədəbi həyat tapmışdırlar. Mübariz və böyük, dahi, alim, şahların və qəhrəmanların ədəbi obrazlarını yaratmaq onların həyat və fəaliyyətlərini səhnəyə gətirmək XX əsr ədəbiyyat tarixinin Azərbaycan dramaturgiyanın ən aktual mövzularından olub. Olayların və münasibətlərin təbii məzmununun ifadəsi tarixi dramlara xas olan əsas sənətkarlıq xüsusiyyətlərindəndir, çünki tamaşaçı təbii və gerçək olanı qəbul edir. Milli vətənpərvər yazıçılar tarixdən alınan olayları və şəxsiyyətləri sırf tarixi şəxsiyyət kimi təqdim etmir. Onlara bədii don geydirmiş sosial-politikal hadisələrin fonunda, onları yaşadıqları dövrün səciyyəvi cəhətlərini səhnəyə gətirirlər, onların həyatlarında öz dövrlərinin olayları və faktları yaşayır. Beləliklə milli bir yazıçı kəndi tarixinə və keçmişinə bağlı və maraqlı olaraq tarixi şəxsiyyətlərdən bədii obrazların yaratmasına çalışır ki, tarixi şəxsiyyətdən daha qüvvətli və nəhəng bir şəxsiyyətlər yarada və bu yaradıcılığı ilə

xalqının, ölkəsinin, vətəninin uğrunda çalışmağa və onlarda ulusal qüruru və şüuru oyatmağa nail ola. ulusal dramaturgiya bu baxımdan yalnız ulusal tarixdən və bir ulusun uluslar arası münasibətlərindən kimliklərindən, ortaq duyğularından və düşüncələrindən ulusal dilinin kültür və mədəniyyətindən qol-qanad açıb çiçəklənər. Çətin və zor anlarda Alim və ziyalı yazıçılar hər zaman xalqının həyatında gərginlik üz verəndə və ya toplumsal bunalıma düşdüyündə əsərləri ilə onların taleyinə yaxından qələmi ilə və duyğuları ilə çözməyə çalışıb yaradıb və danışırlar. Azərbaycan xalqının neçə-neçə alim yazıçı, şair və ziyalılarının repressiya qurbanlarına çevrildiyi bir vaxta S. Vurğun bir ulusal şair kimi Vaqif mənzum faciəsini yaradır. "Xorşidbanu Natəvan" əsərində isə İlyas Əfəndiyev, çarizmin bütün Qafqaza hakim olduğu xanların və bəylərin çar məmurları tərəfindən təqib edilməsi və tabe olunmayanlara divan tutulması dövrü kimi səciyyələndirir. Hər iki əsərdə zaman dəyişikliyi olsa da məkan birdir. S. Vurğun istəsə də, I. Əfəndiyev xalqın mübarizə ruhunu önə çəkir qəhrəmanlıq ruhunu xalq nümayəndələrinin simasında əks etdirir. Vaqif xalq tərəfdarı olmaqla bərabər dövlət xadimidir. Xarakterində bir ciddilik, əyilməzlik cizgiləri var. Xorşidbanu isə hökmdar olsa da, qadındır, Xalqının xoşbəxt gələcəyi naminə nvorontsavlara qarşı gedə bilmir, Xasay bəylə evlənir, Vaqifdə İbrahim xan çarıqlı patavalı kəndlilərin saraya gəlişinə nə dərəcədə etiraz edirsə, şuşa zadiganları da Şuşada bir kişi tapılmadımı? Xurşid bu sünnüyə ərə getdi - diyə bu izdivaca qarşı çıxırlar. Bütün bu haqsızlıqlara dözməyən Xurşidbanu əsərin sonunda torpaqları xalqa paylayır və kəndliləri azad edir. Xoşbəxt gələcəyinə, xalq birliyinin, hər şeyə qadir olacağı ideyası hər iki əsərin ana xəttini təşkil edir. Obrazların yaranmasında yazıçının dünya görüşü yaşadığı məkan və zaman ən böyük rol oynayır. Sovet dövründə Azərbaycan yazıçıları rusun kültür hücumu qarşında Türk tarixinə və keçmişinə müraciətdə kəndi istək və tələblərini xalqdan özgürlük uğrunda yaratdığı obrazların dilindən söyləyərlər. H. Cavid xalqının kimliyi və tarixinin ruslar tərəfindən təhriflərə məruz qalan zamanda bir alim mübariz kimi Türk imperatoru "Topal Teymur" əsərini yaradır və onun dilindən Türk birliyi, Türk şücaətini və əski zamanlardan bəri qüdrətin xalqın qarşında səsləndirir və tamaşaya qoyur ki "Teymur"un obrazın bir Azərbaycan Türkü olaraq, Azərbaycanın ulusal, kültürəl və politikal sitəmə və təcavüzə qarşı həyəcanla kəndini bütün zəncirləri qırmağa, ana vətənin tarixini kültürünü qorumağa ayağa qalxıb mübarizə edir. Elə bu amacın ardıncadır ki, H. Cavid çoxlu əsərlərini Türk xalqlarının yaşamından və tarixindən alır, ulusal bir yazıçı kimi bir Türk olaraq, bütün əsərlərində Türkün izi vardır. Humanitar düşüncə

içində H. Cavid məxsus romantizmlə özgür mədəni insanların ruhunu oxşayır. Ulusal yazıçı, həyatı, yaşadığı məkan və zamanı bədii surətlərdə əks edir. Toplumsal həyatın canlı yaradır. İnsana həyatı idrak və mübarizə üçün yardım edən, ona təlim və tərbiyə verən böyük qüvvədir. Nərimanovun "Nadir Şah" əsərindən böyük Türk şahının ağıl, zəka və şücaətindən Türk xalqı bir qürur hiss edərək, onun zəkası şüuru siyasətçilik yöneticiliyindən tamaşaya baxan, insan etkilənir və kəndini bir insan olaraq çalışmağa mübarizəyə güclü hiss edir, bu əsərlərlə qarşılanan, düşünür, oyanır, düşüncəli və bilimli hərəkət edir. N. M. Qorki deyən kimi "ədəbiyyat insanşünaslıqdır" insan dram əsərləri oxuyanda və tamaşaları görəndə yaxşı insanın hər cəhətini tanıyır, axı bu əsərlər bədii bir əsər olaraq toplumsal şüurun özəl yəni surətli bir formasıdır. Toplumsal həyat şüuru insanın mənəvi aləmini, varlığı, cəmiyyəti təbiəti əks edir və insan bədii əsərin mərkəzində durur. Bədii ədəbiyyat toplumsal, həyatın inkişafını, insaların intereslərini, əlaqələrini, münasibətlərini, gələnək və adətlərini xarakterlərini təsvir edir, konkret insanların təsvirini verməkdə bərabər fərdi və təsadüfi cəhətlərini deyil, müəyyən bir dövrdə baş verən toplumsal hadisələr üçün tipik mühüm olan cəhətləri qəhrəmanları əhatə edən, tarixi şəraiti, təbiəti əşyanı toplumsal inkişaf prosesində göstərir. Ənvər Məmməd Xanlının "Xorrəmilərin Ağ Şahını" faciəsi də elə zaman yaranmışdır ki Azərbaycan rus istilası altında yaşayırdı. "Od İçində" adlı faciəsi, Seyyed Cəfər Pişəvəri liderliryilə güney Azərbaycanda yaranan fars istilasına qarşı milli qiyamın inikasıdır. M. S. Ordubadının "Dumanlı Təbriz" faciəsi Səttar Xanın qiyamının inikası və Güney Azərbaycanın məşrutə devrimi yolunda mübarizələrinin bir guşəsini əks edir. Tarixilik və müasirlik dramaturgiyada ən yaxşı anlamı odur ki tarixdə yazıçının yaşadığı zaman dövrə bədii dramla bir körpü qurula ki yazıçının bütün ulusu o körpüdən keçməyə bir-biri ilə danışıb birliyə çalışmağa və mübarizəyə, kimliklərini qorumağa və ixtiyarlarını kəndi əllərinə almağa imkan, cəsarət və şücaət tapalar, əsər bütün müasir dövrün ruhunu oxşayır. Yazıçı müasir dövrdə yaşadığı üçün başqa soydaşları kimi onunda kəndi amalları ulusal və vətənpərvərlik duyğuları toplumsalla bərabər bir nöqtəyə gəlir. O nöqtə onun üslub xüsusiyyətlərini ideya və dünya görüşünü təşkil edir. Bu bədii üslub xüsusiyyətləri yaradıcılığıda ifadə etdiyi bədii vasitələr yazıçının poetikasını təşkil edir. Yazıçı kəndi poetikası ilə bir sənətkar olaraq dramlarını tarixdən faydalanaraq, tarixi hadisələri canlı misallarla verərək insanların çeşidli durumlarda necə hərəkət etdiklərini təsvir edir. Ə. Məmmədxanlının "Xorrəmilərin Ağ Şahini"ndəki Babək obrazı neçə qiyam və hərəkət edir, Azərbaycan xalqı da zamana və dövrə uyğun şəkildə

mübarizə etməlidir və bu əsərdən xalqa yazıçı mübarizə yollarından birini öyrədir, ya C. Cabbarlının "Od Gəlini" əsərində Orxan obrazı, H. Cavidin "Topal Teymur" əsərində Teymur obrazı və s. ulusal dramaturgiya cəsarətli mübariz, filosof və ziyalı insanların vətənpərvərlik, ulusçuluk və şüurularından yaranır, necə ki M. F. Axundovun komediyaları Azərbaycanın 19-cu əsrdə geriliyinə, mövhumat və fanatik köhnəliyinə qarşı onun bir azərbaycanlı Türk kimi bu əsərlərini yaratmağa, mübarizə meydanın önünə atır. Gülüs və yumor ilə bütün vücudu ölkəsinin, xalqının yolunda çalışır, mübarizə edir. o komediya sənətinin kəskin qılıncı ilə Azərbaycanın inkişaf yolunda bütün ölkəsini, xalqını geriliyə saxlayan xəstəlikləri sağaltmağ yaratdığı komik tiplərlə mübarizə edir, bu tipləri o zaman Azərbaycanın hər yerində tapmaq olurdu. Axundov insan surətlərini konkret tablolarla, bütün zahir və daxili görüşləri ilə bütün fərdi xüsusiyyətləri ilə təsvir edir. Bu ədəbi təsvir isə heç şübhəsiz müəyyən vasitələrlə olmalıdır ki bunların biri dilidir, Türk dilində yaranan Azərbaycan dramaturgiyası Axundovdan başlayaraq, Azərbaycan kültürəl və politikal inkişafında müəyyən dərəcədə təsirli və önəmlidir. Dramaturqlar mövzuları toplumsaldan götürüb və əsəri yaratmağa bu obyektiv gərçəkləri kəndi subyektiv aləmləri ilə üzvi şəkildə bağlayırlar, bu səbəbdən bədii əsərdə ki, həqiqətlə onun əsasını təşkil edən həyat həqiqəti arasında heç vaxt eyniyyət tam ola bilməz, məzmunun yaxınlığı gərçək həyata dramın anlamını, yaxınlığını və səmimiyyətini təsirini çoxaldır və tamaşaçıda onun tərbiyəvi və mübarizəçi rolunu artır, elə teatrın diriliyi və mübariz bir sənət olduğu onun tarixdə sanatçılarının acı, qorxulu hakimlər və şahlar tərəfindən təhlükəli ölümlü yaşadığı həyatları və teatrın dünyaları haqları yolunda insanı kəskin mübarizlərində doğur. Ulusçu və aydın ziyalı vətənpərvər xalqına, yurduna can yandıran yazıçı keçmiş tarixdə kəndi ideyasına uyğun keçmiş hadisələri bədii sistemə salıb mənalandırmaqda öz üslubuna uyğun əsər yaradır, elə H. Cavid bir turançı kimi çoxlu əsərlərində obrazların amac və ideyalarında bu düşüncə və fikir onun gözəl romantikasında gözə dəyir, obrazların iç və dış quruluşu bu ideya uğrunda yaranır. H. Cavid yaşadığı zaman Azərbaycan adlanan ölkə Rus-İran arasında parçalanıb sovetlə hakimiyyəti 1917-ci il oktyabr devrimi ilə yerini bərkitməkdə idi, milli düşüncəli və ziyalı Azərbaycan Türkləri parçalanmış ölkənin quzeyində milli hökumət qurmağa çalışıb 1918-ci ildə Azərbaycan Türkləri qürurla özgürlük bayrağını vurular. C. Cabbarlı uç pyesi ilə Türk qardaşı olan Türkiyənin savaş meydanlarında uğurlu qalibiyyətlərini inikas etdirir. H. Cavid mövzularını Türk dünyasından seçərək ulusçuluk turançılıq uğrunda ideyalarını şer və dramlarında unudulmaz obrazlar yaradır.

Yusif vəzir Çəmənzəminli, Ə. Cavad, Ə. Huseynzadə və s. ulusçu ziyalılar bu yolda ədəbiyyatla tarixi olaylar və gerçəkləri şer və dram və romanlarında bədii surətlərlə kütlələrə xitab, qəzet və jurnallarda yaydırırlar və milli hökumətin az ömründə milli ədəbiyyata elə bina əsas şüur və düşüncə yaradırlar ki qələcək ədəbiyyat axımında və prosesində bu dövrün izlərini əsil sosialist internasional əsərlərdə də görmək olar. Misal üçün M. Hüseynin, Sabit Rəhmanın komediyalarında yaranan tiplər obrazlar və olay yerləri və komediyaları dili mövzusu hər bir Azərbaycan Türkünə tanış və yaxındır. Azərbaycan Türklərinin tarix boyu çəkdikləri mücadilələri dolu həyat yolu yaşadıqları sevincli və kədərli dönəmləri əldə etdikləri bilgi və təcrübələr inandıqları mənəvi və əxlaqi qənaətlər bütün yönləri ilə bu ədəbiyyatda inikas etmişdilər. bu ulusun ən dəyərli ədəbiyyatı" Dədə Qorqud "dastanlarıdır. Dədə Qorqud kitabı qəhrəmanlıq dastanıdır, çünki burada ilk sırada elinin, ulusunun, kəndinin özgürlüyü əgəmənliyi uğrunda savaş verən düşmən gördüyündə ucalmağı düşünən haqqı ədaləti savunan alp ərənlərin həyatı və mübarizəsi təsvir edilmişdir. Çünki burada vətən uğrunda ölüm, ölümlərin ən şərəflisi sayılır. Ən doğru və düzgün Dədə Qorqud övladı olan ədəbiyyat gərəyi H. Cavidin əsərləri sayıla bilər, çünki onun əsərləri özəlliklə dram əsərləri bütün Türk dünyasının, Türk övladının amac, dilək və arzularının inikası olaraq dramaturgiyada ən öndə milli dramın bayraqdarıdır. Azərbaycan dramaturgiyasında əsərlər Azərbaycan Türkcəsində yazılıb və bu çox önəmlidir çünki milli ədəbiyyatın əsas faktoru, əsas əlaməti milli dildir bu əsərlərin yazıçıları əgər başqa dildə yazsalar da, əksər halda mövzuları milli mövzulardır, mənsub olduqları ulusun həyatını anlatmaya onun psixologiyasını dilə gətirməyə önəm vermişdilər. M. hüseynin "şamil" əsəri Dağıstan Türklərinin qəhrəman və mübarizinin həyatını və qəhrəmanlığını təsvir edir. H. cavidin "Topal Teymur"u Türk imperatorunun həyatının bir guşəsini inikas edir və s. milli dramaturgiyanın ilk addımların atan "Təhsilat"əsərinin sahibi M. F. Axundov ədəbiyyatın qarşısına ciddi tələblər qoyan, onun xalqın ən önəmli sorunlarını gündəmə gətirməsini istəyən sənətkarıdır. Onun fikrincə çağdaş və dünyəvi məzmunlu mövzusu xalq həyatından alınmış ilk nəsr və komediya örnəyin verməyə təşəbbüs göstərdi. Axundov 1850-1855-ci illərdə yazdığı 6 komediyanın və orta şərqdə realist dramaturgiyasının əsasını qoyur, pyeslərində Axundzadə ənənəvi müsəlman toplumunun qayda-qanunlarını ifşa edir. Mövhumata qarşı çıxır və 1857-ci ildə yazdığı "Aldanmış kəvakib" əsəri ilə Azərbaycanda siyasi roman ənənəsinin əsasını qoyur. Axundov bir çağdaş düşüncəli, görkəmli filosof, maarifçi və dramaturq kimi yeniləşmə, insan

hüquqları, qadınların hüquq bərabərliyi, kostitusyon islahatlar, dini praktikanın islahatı, əlifba islahatı haqqındakı ideyalarını bir xalqsevər, vətənpərvər ziyalı olaraq ulusunun gələcəyinə, inkişaf yoluna işıq salıb çoxlu ziyalıları bu yolda ardıca maraqlı çəkib və hələ indi də heç nədən çəkilmədən çəkir və yaşadığımız zamanda da onun fikirləri öz önəmini dəyərini itirməmişdir. M. F. Axundov və Azərbaycanın başqa ulusçu yazıçıları və maarifçiləri dramaturgiyada Türk tarixi ilə bağlı olaraq bədii müasir və tarixi əsərlərini yaratmaqda, onların kimlik gərçəyini milli ədəbiyyatda milli sevimli obrazlar və surətlərin yaratması ilə Azərbaycan Türklərinin, illər boyu ruslar tərəfindən basılmış kültürlərini qurtarmağa çalışdılar. XX əsrin başlanışında etnik məsələsi və ulusal kimliyi günü-gündən uluslar arasında yerini bərkitmişdir, Azərbaycanda bu mövzu dramaturgiyasında çox gözəl yerini tarixi dramlara Azərbaycan xalqının amal və diləklərini və milli istəklərinin çeşidli mürəkkəb və dərin yaranan obrazlarla bədii formalarda, ulusçu yazıçıların konsepsiyalarından bədii əsərlərlə səhnə mədəniyyətini zənginləşdirib xalqı ulusal hakimiyyətə doğru səfərbərlik edirdilər. Ziyalı yazıçılar milliyyətin qurulmasında keçmişini, tarixin dəyərli olaylarını gözə alaraq, yaşadığı müasir zamanda kəndi ulusunu, birliyə kimliklərini möhkəmləşdirməyə, anlamağa və kəndilərinə inanmağa doğru əsərlərini sunurlar. Bu əsərlərdə xalq kəndi tarixlərin, qəhrəmanların, həyatlarının acı-şirin günlərini, davamlı, anlamlı keçmişlərini ortaq və kütləvi duyğu və anlaşmalarını, kültür və tarixlərini canlı və şüurlu duyub anlayırlar, bu ədəbiyyat milliyyətin aynası olur, çünki kültürəl keçmişi, milliyyətin çeşidli dövrlərdə həyatını ayrılıb-birləşməsi, zəngin tarixi mübarizələrini inikas edir. Azərbaycan dramaturgiyası müstəqillik dövrü, həm də sovetlər hakimiyyəti dövründə də, milli yazıçı və ziyalıların milli şüur sayəsində milli dramı dil, mədəniyyət, tarix, milli şüur birliyi ilə bağlanan insan toplumunun aynası olub və Azərbaycanda Türk ulusunu, zəngin tarixi əsərlərlə çox aydın və aşkar görmək hər bir tədqiqatçıya, Azərbaycan ədəbiyyatına milli açıdan baxmağı üzərinə qoyur. Elə bizə də ədəbiyyatın, milli anlamının üstünlüyü bu tədqiqdə, Azərbaycan Türkü olaraq, Azərbaycan dramaturgiyasında tarixiliyinə və müasirliyinə milli açıdan baxmaq zərurətini ön plana çəkir. Milli ədəbiyyat milli hakimiyyətin qurulmasında, doğma yurda, ulusa sonsuz məhəbbət və sayğı, sabaha iman hissi, mənsub olduğu soyun qəhrəmanlar və mübarizlərini, ziyalı və alimlərini, şairlərini bədii əsərlərdə canlı obraz və surətlərlə yaşadığımız zamana gətirib, xalqın istək və diləklərinin simvolu tək, onların inkişafı yolunda bütün sahələrdə hərəkətə çəkir. Və ulusuda milli qurula sevə-sevə onları qarşılayıb, mənəvi toplumsal həyatın

zənginləşməsində aktual pafos ilə iştirak edirlər. Bu sənət əsərləri hər zamanda açıqdırlar, yenə xalq tərəfindən çeşidli yollarla yorumlanırlar, bir gün olar xalqı vətən yolunda ya soydaşlarını qorumaq savunmaq üzərində bir vətəndaş, qardaş kimi çaba Göstərməyə çalışmağa, mübarizəyə dəvət kimi yormlanır, başqa gündə ulusal kimlik və etniksəl kimliyini qorumaq üzrə, onunla birləşməyə yorumlanırlar və başqa uluslar arasında bir sənət əsəri kimi humanisti ünsürlər və sənət dəyərlər gözə çarpıb, qarşılanır və bu açıdan yeni əsərin açıq olmasından "Ömberto-eko"nun görüşünə yaxınlaşır ki, sənət əsəri bir eleman, istiarə və təsvirdən başqa bir şey deyil. Bütün ədəbi əsərlər hər dövrdə o zamanın və çağın kültür və bilim gözü baxışı və üslubu ilə yorumlanır. xalqın içindən doğan ulusal ədəbiyyat, kimliyin inikası və xalqı birləşdirmək onun ilk amaclayaraq, elə bir mənəvi həyat yaradır ki, insanlar həyatda kəndlərini, həyatın gərçəklərini və durumlarını tanımağa böyük kömək edir. kimlik toplumsal bir varlıq olaraq, insanı özgür olan məlum nitelik və özəlliklərlə birinin, bəlirli kimsə olmasını sağlayan şərtlərin bütün tərif olunsa, milli ədəbiyyat bütünlüklə topluma ən önəmli amacı elə bu kimliyi qorumaq düşür. Milli ədəbiyyat bir tərəfdən insanı kəndisini necə tərifləməyə və başqa tərəfdəndən də toplumun insanı necə tərifləməsinə yardım edir. Ulusun keçmiş və əski ədəbiyyat və ədəbi əsərləri yüksək düşüncələr və duyğularla, onun kültürəl özəlliklərini ki sırtında daşıyır, iki əskilik və davam edən qavramını özü ilə saxlayır. Bu ədəbiyyatın köhnə və keçmişə aid olduğuna baxmayaraq, yenə müasirdə də oxunur və gələcək nəsillərin içində də canlı yaşayır. Bu ədəbiyyat digər tərəfdən dildə ki kimliyin ən önəmli göztəricilərindən olaraq, etniksəl və ulusal bölmələrin əsas hissəsi və uluslar arası sınırların hüdudlarını təyin və konkret edən amil kimi yəni dilə doğru qırılmayan ilgisi vardır. Milliyyətin təşkil olma prosesində dil, torpaq, soy, din kimi ünsürlərə təkid olunur. Bu təkid etkili olmaq üzrə milli ədəbiyyat da özəlliklə gözəl dillə, ulusun danışdığı ana dildə yazıb əsərlər yaratmaqla, ulusun keçmiş, hazır və gələcək həyatını əks etdirməklə inikas tapır və sənətlə güclü və etkili milliyyətin təşəkkülündə və onun tərifində önəmli yer tutur. Kimlik və milliyyət sınırları bu gün əgər uluslararası politikal və hüquqla təriflənsə də, bir ulusun tarixi kimliyindən və anlamlı keçmişindən söz açılanda politikal və yasal sınırlar anlamın əldən verir, bir soydan olan xalqlar çeşidli uzaq-yaxın polotika, müəyyən ölkələrdə yaşasalar da kültür və kimlik ortaqlığı ilə bir-birlərinə yaxınlıq his edirlər. Ortaq dil Türk soyunda milliyyəti əsas olmaqla inani və politikal sınırlar gözə dəymir. Türkü dili kimliyində göstəricisidir. Bu dildə yaranan əsərlər bir ortaq ədəbi zövq və duyğunun yaranmasına səbəb olur ki bu mövzu öz

yerində milli ədəbiyyatın yaranmasına yönətilir, Türk ulusu, milliyyət duyğusu ilə ədəbi formaları etkiləyir. Epik novella, real dastan, milliyyəti ən yaxşı güclü ulusal zəngin xalq yaradıcılıq motivlərlə tanış olduğu üzrə milli ədəbiyyatı yansılayır. Türk ədəbiyyatında Dədə Qorqud dastanları epik dastanlar olaraq, milliyyətin yeni yaranmasında böyük rolu vardır. Epik rəvayətlər ulusların ulusal kimliyinin yaradıcısıdır. 12 boy Dədə Qorqud dastanları bir milli əsər olaraq Türk xalqının inanc, düşüncələrini, dünya görüşlərini topluma, ailəyə, qadına, qəhrəmanlara, böyüklərə sayğı, hörmət və bütün Oğuz qəbiləsinin gələcəklərini və dilək amaclarını rəvayət edir.

Ədəbi mətn bir xas zamanın deyil, bəlkə o bir hadisə olaraq həmişə diri, zamansızdır, zaman və tarix onun çərçivəsində ola bilər amma ədəbi əsər zaman içərisinə sığmaz, bu açıdan onun yaranmış tarixi zəmini əsərin özü ilə heç nisbəti yoxdur, zamanlı ədəbi əsər tarixi aiddir. Onun zaman keçəndən sonra bir tarix kimi arxivlərdə yalnız bir tarix tədqiqatçının dərdinə dəyər və sənət əsəri kimi daha o əbədi və ölməz həddən xaric olub zaman tozu onu bürüyür. Ədəbi əsərin tarixi zəmini "yəni əsər yarandığı sosial, kültürəl, politikal və tarixi şərait" onun yaranmasında bir zərurət kimi özünü göstərir. Əsər bir müəyyən şərait, zamanda və tarixi kontekstdə yaranır, sonra bu tarixi zəmindən ayrılıb bir müstəqil fenomen kimi tarixdə yola düşür ki, əbədiyyətə qovuşsun. belə bir tarixi əsərlərdən tədqiqatçılar, oxucular əsərin yaranmış tarixi zamanını tanıyıb tanış. olurlar. Özəlliklə realistik əsərlər mühüm, dəyərli bilgilər, olaylardan, tarixi dövrlərdən verirlər.

Tarixlə ədəbiyyatın ilgisi barədə dörd baxış var: 1- ədəbi əsəri zaman üstü və müstəqil tarixi var, bu baxış formalizm məktəbini və yeni tənqidi çox etkiləyib, yeni tənqidçilər mətnə ürək bağlayıblar, onların baxışında mətn bir sənət əsəridir ki, müəyyən zaman və məkan olayları ilə davamlı hərəkətdədir. Mətnin gözəlliyi və anlamı zaman üstü və mütləqdir, eləmək olmaz ki onu bir vahid və müəyyən tarixi zəmi yığmaq olsun, çünki ədəbi əsərin ədəbiyyatı və siyması bu məhdudiyyətin qarşında çox sərt dayanır. Bu baxışın yolçuları çalışırlar ədəbi tənqidə bir dəqiq və çərçivəli proqram yazalar ta onlar ədəbi əsərlərdə "keyfiyyət və zəminəsiz estetik sənəti" axtarmaqla ədəbi əsərlərin ədəbiyyatını tanıyıb onu tarixi zəmində müstəqil təhlil edələr.
2- bu qrup tənqidçilər istəyirdilər ki, ədəbi mətni tarixsəl zəmini tənqid və incələməklə təhlil və tövsif etsinlər, yəni mətni, yazıçının həyatındakı olaylarla ilgili tarixsəl, sosial, dil və kültürəl yaşayışı ilə bağlı təhlil və yorumlayalar.

3- ədəbi mətn doğru və təhrifsiz yaradılış zamanındır, ədəbiyyat tarixi gərçəyin inikasıdır 4- 1980-ci ildən batı düşüncəsində yeni tarixilik adı ilə ortaya çıxır, bunların baxışında ədəbi tarix, kültürəl tarixin geniş ərsəsidir. gərək ədəbi mətnləri və onların anlamlarını sosial, politikal, kültürəl və tarixsəl kontekstlərdə tədqiq olunub incələnə. Bir ulusun ədəbiyyat tarixi o ulusun mükəmməl ruhunun təcəllisidir. Bir ulusun ədəbiyyat tarixini incələməklə onların inanc və gələnəyi, duyğularını, düşünsə, dünya görüşlərini və keçirdiyi tarixi mübarizələrin yaxşı anlamaq olar. Milli ədəbiyyatın ulusun ruhunu oxşayan ədəbiyyatdır. Azərbaycanda sovetlər hakimiyyəti dövründə milli ədəbiyyat həyatını milli şüurla sənət örtüsü altında gizli susmadan sürürdü. Bu şüur Türk xalqı tərəfindən dövlət qarşısında irəli sürülən bütün milli ideyaların əsasın təşkil edirdi, niyə ki dövlətləri olmayan ulusların əksəriyyətinin şüuru belə dövlətin, asılı dövlətin heç olmasa muxtar vilayətin yaranmasına yönəlmiş səylərinin əsasını təşkil edir. Dövləti olmayan ulusun milli şüuru öz ulusunu xalqa çevirməyə yəni onu dövlət formasına salmağa çalışaraq nəzəri cəhətdən adətən başqa uluslarında bu səylərini tanıyır və milli dövlət nəzəriyyəsinə səslənir. Hər bir xalq, yəni mənşə, dil, sivilizasiyası və tarixi keçmişi, ümumiyyətlə, bir-birinə bağlı olan insan toplumu özünün xüsusi-siyasi vahidini yəni xüsusi dövlətini yaratmaq hüququna malikdir. Bu hüququ tanımayan zamanda və bir ulusu hücumçu dövlət tərəfindən basıldığı şəraitdə, ədəbiyyatdır ki, basılmış dövlətsiz ulusu milli şüurla yaranan milli ədəbiyyatla qorusun, onla milli qurur kimliyini qorumağa çalışsın. Üzeyir bəyin "Koroğlu" operası Türk xalqına özəlliklə Azərbaycanda yaşayan Türklər, sovetlər despot hakimiyyəti istilasında yeni mübarizə yollarını işıqlandırır və "Arşın mal alan- o olmasın bu olsun" və s. əsərləri milli dövlətin olmadığı zaman xalqı müstəqil milli dövlət qurmağa səfərbərlik edir. Belə bir milli əsərlər H. Mehdinin "Cavanşir, Nizami, Şamil" əsərlərində milli şüuru və xüsusiyyətləri daşıyır. Azərbaycan dramaturgiyasında ulusun və onun tarixin, müasirliyin sırtında hərəkəti milli dramaturgiyan elə canlandırıb ki, Azərbaycanın politikal, sosial və kültürəl şərait və durumunu və tarixi günlərini onun bütün günlərində görüb his etmək hər bir Azərbaycanlıya və Azərbaycan xalqına tanış olan tədqiqatçıya bəllidir. Bu dramaturgiyada bir mədəni nasionalizm var ki, onun qayəsi özəlliklə Azərbaycan xalqına və Türk dünyasına bağlılığı, vəfadarlığı və sevgisi və ümumiyyətlə yaradılmış bəşəriyyətə nəhayət sayğı və hörmət göstərməsidir. Bu dramaturgiyada etniksəl nasionalizm dən iz tapmaq çox çətindir. Onun Türk xalqına sevgisi, baxışı, humanisti və umum insanidir. Onda sözü gedən ulus heç vaxt faşistə uyub, etniki nasionalizmə və irqçiliyə

çəkilməyir bəlkə bir mədəni nasionalizmlə Azərbaycan xalqında birlik, vətənpərvərlik düşüncəsi və onların münasibətlərini Türk dünyası ilə qardaşlıq hissi oyatmaq uluslararası bir dostluq sevgisi yaratmaq amacı ilə yaranıbdır. Azərbaycan dramaturgiyasında özgürlük və onu qayəsi bütün insanlar hər ulusdan olmağına baxmayaraq, sayqı və kültürəl haqlarını tanımaq və kəndi kültürünü savunmaq və ulusal kimliyini genişləndirməkdir. onun amac və məqsədi ulusal kimlikdən, doğan ulusal hakimiyyətə yetişmək və bu hakimiyyətin himayəsində, milli dramaturgiyanın zənginləşdirməsi və inkişafı kəskin və qətidir və ondadır ki bir nasionalisti sənətin, doğması aşkar görünür. Ulusun kimliyini başqa uluslar üzərində bir haqq kimi görünüb inkişafa yürütməyə, sövq etməyə himayə edir niyə ki, nasionalisti sənət bir ulusun politikal bəqasından güclü təsiri ilə və propaqanda sürəci ilə himayə edə, həm də ulusun tarix və kültürün qorumaqla da onu uluslararası yüksəldə, başı uca yaşada. 1813-ci ildə iki bölünmüş Azərbaycanı elə milli ədəbiyyat və milli kimlik və nasionalist sənətlə qoruyub ki faşisti və şovinisti hakimiyyətlər qarşısında bu sənət, onu bir ulus kimi tarixini, kimliyini, inanc, simvollarını, rəftar və önəmlərini bədii və ədəbi əsərlərlə inikas etməklə, bir ulusu politikal islam hakimiyyətləri olaraq, tarix boyu bir-birindən qardaş sevgisini kəsməyib və Arazın iki tərəfində ziyalıları, yazarları, şairləri xalqı ilə birlikdə bir ulus olduqlarını unutmayıb, yaşayırlar Türk milliyyətini bütün təhlükələr qarşında saxlayıb, itirmirlər.

### I. 3. Ulusal kimlik, tarix və ədəbiyyat dramaturji əsərlər kontekstində

Kimlik, Türk dil qurumunun sözlüyündə "toplumsal bir varlıq olaraq insana özgü və özəl olan bəlirti, keyfiyyət və özəlliklərlə, birini bəlirli bir kimsə olmasını sağlayan şərtlərin bütünü" biçimində tərif edilir. Xülasə etmək gərəkirsə, kimlik, "həyatdaki duruş yerimizi bildirən özəlliklərin"bir toplumudur. İnsanlar toplum həyatında kimlikləri ilə yer alırlar. Toplumsal ilişkilərdə məslək, gəlir, yaş, cinsiyyət, kimi kimliyə ilişkin bəzi ölçülərə bağlı görünür. Bunlarla yanaşı, doğruluq, düzlük, cəsarət, xoşgörü, yardımsevərlik, intelektüel nəzmi kimi daha görəcək dəyərlər də kimliyin bəlirlənməsinə qatqıda görünürlər. Dramaturgiya toplumun içində yaşayan ulusun mənəvi məhsulu olaraq, ulusun kimliyini bütün özəlliklərini daşımalıdır. Ulusal ədəbiyyatın önəmli görəvi, ulusun keçmiş və gələcəyinin arasında yaranan zaman və köhnəlik məsafəsini aradan qaldırmaqla, toplumunun gələnək və inam və ənənələrini yaradıcılıq və sənət yolu ilə gizli gözəlliklərini üzə çıxardıb, ulusal kimliyin əsas və təməlini bərkidir və ulusu

gələcək olaylar, ehtimali basqı və təhlükələrə qarşı səfərbər edərək, toplumun bilimsəl və kültürəl həyatında, çağdaşlığa və yeniliklərə doğru, aydın və güclü yönəltdirir. Sənətkarın, düşüncə, şəxsi zövqündən, şəxsi mülahizələrindən, fikir dairəsi, həyat təcrübəsindən və ulusal şüurundan qaynaqlanan tarixi dramlar, toplumu incələməkdə ən dəyərli və etkili olduğu, yeni əsridə yaşayan ulusun duyğularını, düşüncələrini və yaşayış fəlsəfəsini təsvir etməkdədir. Ulusçu ziyalı bir yazıçı, ulusunun, ulusal kimlik şüur düşüncəsini dərinləşdirmək və bütün təhlükələrə qarşı ulusunu savunma amacıyla, əsasən həyatın özü, yazıçının mənsub olduğu toplumun daxilində gedən toplumsal mübarizəni inkişaf yoluna doğru, uluslararası rəqabət və gərginliklərdə, ulusunun arxasını yalnız buraxmayır və hər zaman yaradıcılığıyla xalqını savunur. Hər bir ulusçu sənətkar öz ulusunu və həyata olan münasibətlərini ifadə edir. Ədəbi əsərdə müəyyən bir ulusun fikirləri, düşüncələri, arzuları, amac və amalları əks etdirilir. Ədəbiyyat ulusdur, bir ulusu təmsil edən partiyadır, müəyyən zümrənin səsi və təfəkkürünün ifadəsidir. Bu ifadə müəyyən ulusun kimlik və varlığının arxasını bərkidən, uluslararası kültürəl və politikal ilişgilərdə onu güclü davrandıran bir ifadədir. Ulusçu yazıçını dar, kobud, mexaniki bir şəkildə anlamaq olmaz. Sənətkarın mütləq politikal bir partiyaya mənsub olması, şərt deyildir. O mütləq bir partiyanın cansız bir borusu da deyildir. O ulusunu təbliğ edən, canlı düşünən, duyan, müəyyən bir fikir və həyati bir təcrübə ehtiyatına malik olan bir sənətkardır. Sənətkarın ulusçuluğu onun yaşayışa fəal yanaşmasında, ulusun görüşlərini, əhval-ruhiyyəsini, ulusuna mənsub toplumsal bir cərəyanın mənafeyini, tələblərini ifadə etməsindədir. Ulusçu sənətkarın görəvi, ulusunun yaşayışını bütün gərçəklərilə inikas etməsidir. Əgər onun fikir dairəsi məhduddursa, əgər yaşayışı dərindən öyrənmək iqtidarında deyildirsə, onun yaratdığı əsərlər də yaşayışdan, gərçəkdən uzaq olacadır. Əksinə əgər sənətkar yaşayışı dərindən bilirsə, bütün ulusun mənafeyini ifadə edən qabaqcıl toplumların görüş və duyğularını əks etdirirsə, yaşayışın gərçəyə daha yaxın olan səhnələrini, həqiqi bir sənətkar dərəcəsinə yüksəldə biləcəkdir. Həqiqi və qabaqcıl sənətkarın yaratdığı əsərlər ümumxalq, ulusal bir əhəmiyyət qazana bilər. Sənətkar bu nailiyyətlə yalnız böyük bir əmək və ustalıq nəticəsində, geniş xalq kütlələrin mənafeyinə uyğun bir şəkildə, həyatın gərçək səhnələrini dürüst inikas etmək sayəsində nail ola bilər. Belə bir ulusçuluq, sənətin və bədiiliyin ən yüksək dərəcəsi deməkdir. Bir toplumda, sənət və yaranan əsərlər ulusun bütün özəlliklərinin güzgüsü olaraq, ulusu kəndilərinə güvənmək və kimliklərinin dərin qatlarında yaşayanları dramla toplumda, geniş

halda təsvir etməklə, ölkəni bütün sahələrdə gəlişməyə səfərbər edər. Belə bir əsərlər qabaqcıl toplumsal hərəkat üçün, böyük tarixi bir əhəmiyyətə malikdir. Həyatı düzgün inikas edən əsərlər qabaqcıl toplumun əlində qüvvətli silah olur, bütün xalqın, bütün bəşəriyyətin qayə və məsləki uğrunda mübarizədə böyük rol oynayır, əsrdən-əsrə keçərək, ümumbəşəri və ümumulusal bir dəyər qazanır. Ədəbiyyatın və o cümlədən dramaturgiyanın iki böyük toplumsal-politikal əhəmiyyəti vardır: 1. ədəbiyyat və onun bir janrı olan dram həyatı dərk və inikas edir, 2. həyata təsir edir. Hər bir sənətkar bir əsər yaratdığı zaman öz qarşısında yalnız həyatı əks etdirmək amacını qoymur, eyni zamanda həyatı dəyişmək, öz görüşləri ilə ona təsir etmək məqsədini də daşıyır. Yalnız istəyir ki, onun əsərlərini oxuyan və görən oxucu və tamaşaçı da onun kimi düşünməyə başlasın, həyatın və ulusun müəyyən cəhət və istək amallarına önəm versin. Yazıçı oxucuda və tamaşaçıda konkret bir fikir, həyəcan, dilək, təəssür oyatmaq istəyir. Bu ədəbiyyatın nə qədər böyük toplumsal-politikal bir əhəmiyyət daşıdığını göstərməkdədir. Yazıçı əsərində verdiyi həyat anlayışı, fikirləri və təsvirləri ilə toplumsal həyatda və mübarizədə iştirak edir. Dramaturgiya həyatı dərindən başa düşməyə, varlığın konkret olayları ilə tanışlıq sayəsində həyat problemlərini çözməyə yardım edir, həyat təcrübəmizi zənginləşdirir. Eyni zamanda dramaturgiya böyük tərbiyəvi bir əhəmiyyətə malikdir. O toplumun düşüncə və duyğularını ifadə etməklə bərabər, bu düşüncə və duyğuların oyanmasına və təşkilində etkiləyir. Örnək H, Cavidin "Topal Teymur" əsəri Türk dünyasında, Türklərin birləşdirmə fikrini və duyğusunu oyadır. Bir ulusun kimliyinin güclənməsindən və onun həyatda apardığı mübarizə və keçirdiyi olaylardakı mübarizə günlərindən, gərçək həyatdan yaranmış ədəbi cərəyanlarndan doğan ulusal dövləti də ulusal ədəbiyyatının uğurlu məhsulu kimi qurulur. Uulusal dövlətin, tarixin və kimliyin, ziyalıların yaratdığı ulusal ədəbiyyat da doğulub başa-boya çatması, ədəbiyyatın toplumların təşəkkülündə, önəmli rolunu və yerini göstərir. Toplumların doğal bir sürədə gəlişim göstərməsi və bəlirli bir kültürəl və siyasal çərçivədə olağan bir durumdur. ancaq bu sürəcə devrimlər və etirazlar kimi toplumu doğrudan etkiləyən müdaxilələr olduğunda toplumun yenidən yaranılmasına yönəlik mühəndislik çalışmalarına ehtiyac olur. Müdaxilələrin gətirdiyi yeni yönetim biçimlərini və yeni insan tipini topluma mənimsətmək və qəbul etdirmək üçün, idarəçilər aydın kəsimin dəstəyinə də baş vururlar. Sənətçilər, bilim adamları və ədəbiyyatçıların öncül bir rol üstlənmələri amaçlanır. gəlişmələrə müxalif olmayan ədəbiyyat adamları, gənəlliklə kəndilərinə düşən görəvi çeşidli biçimlərdə yerinə gətirirlər. Qələmə aldıqları şeir, hekayə,

roman, ssenari və pyes kimi ədəbi novlarla devrim-rejim, devlət-toplum ilişkilərinin düzənlənməsində iştirak edirlər. Azərbaycanın sovetlər dövrün də, yeni toplum yaratmaq üçün yeni ədəbi türün oluşturulması çalışmalarında ədəbiyyat adamları önəmli rolları olur. Toplumsal sorunları və bunların çözüm yollarını eleştirəl realizm sosialist, realizm devrimçi, sosialist realizm kimi dönəmin yeni ədəbi axımlarına uyğun əsərlərlə ortaya qoyaraq, bir baxımdan toplum mühəndisliyi görəvini yerinə gətirməyə çalışırlar. Dramaturgiya və özəlliklə tarixi dramlar ulusal tarixin eytim görəvini və vəzifəsini daşıyır. Ulusal tarix eytiminin kimlik gəlişimində önəmi bəllidir. Ulus-dövlətin inşası bütün dünya tarix eytimindən, geniş ölçüdə yararlanılmışdır. politikaçı və dövlət adamları əyləmlərinə məşruiyyət qazandırmaq üçün keçmişə dayanaraq, sürəkliliklərini vurqulamaya diqqət çəkmişdilər. kürəsəlcilik prossesinin başlamasıyla birlikdə, ulusalcılık, tarix eytiminin sorqulanması, dəyiştirilməsi və tarix eytiminin yenidən vurqulanması tartışılmaya başlanmışdır. Bu tartışmalar çərçivəsində klassik tarix eytiminin ən öndə gələn amaclarından birisi olan kimlik oluşturumasının yerinə kürəsəlci yaklaşma alır və Avropa kimliyi, yerli kimlik, universal kimlik oluşturucu bir eytim öngörülməkdədir. Sosial bilimlərdə tarix kavramı iki olqunu ifadə edir: 1. bir toplumun, bir sosial qrupun, bir ulusun və ya bütün insanlığın yaşadığı içindəki gərçəklik.

2. bir toplumun vəya bütün insanlıq tərəfindən yaşanan bu gərçəklik üzərinə yapılan bilimsəl araşdırma sonucunda ortaya çıxan bilgilərin bütünlüyü. "Yaşar yücəl"

Tarixə belə baxmaxda olar ki: Insanın sosial təcrübəsinin bütünü, yaşanmış, yaşanılan və yaşanılacaq olanların toplamı, keçmiş, hal və gələcəyin bütününə tarix deyərlər. Zaman və məkanla səbt olunan insan həyatının bütünü tarixdir. Demək olar, bu tarixin geniş anlamıdır. Ancaq Aristotelin söylədiyi kimi insan kəndi kəndinə yetən bir varlıq deyildir. Uşaqlıqdan etibarən bir sosiallaşma sürəcinə təbii olması lazımdır. Rankəyə görə "tarixin yeganə qayəsi həqiqətdə keçmişdə nə oldusa onu nəql etməkdir" bu tarixin dar anlamıdır. Tarixin geniş anlamını İbn Xəldun belə verir. "Tarix insanın sosial yaşamının incələnməsi, sosial yaşamının zaman və məkansal sınırları içərisində anlaşılmasıdır". Tarixə bu anlamda baxıldığı zaman politik bilimi, uluslararası ilişkilər, sosyoloji, psixoloji hər şey tarixdir. Bəşəri disiplinlərin təməli tarixdir. Elə bu anlamda tarixi dramların ulusal kimliyin təşəkkülündə və onun toplumda güclənib dərinləşməsində önəm və əhəmiyyəti də bəlli olur. Sənət yolu ilə ulusal tarixin eytimini kütləvi şəkildə vermək, toplumda böyük etki buraxar və toplumda yaşayan insanları birlikdə hər

yönlü gəlişməyə yönəldirlər. Tarix önəmlidir və onu öyrənmək və eytimi daha önəmlidir. bütün politikaçılar, partiyalar, siniflər, dəstələr, əncümənlər, liderlər, sənətçilər, ədiblər, bilim adamları və s. öz görüşlərinin savunmasında məşrutə büründürməsində tarixçilərin dəstəklərinə və tarix biliminə ihtiyacları vardır. Dünyada yayınlar arasında tarixi içərili incələmələr romanlar və filmlər ən çox satılanlar listəsinin başında yer alırlar. Tarixin eytiminə yüklənən bir çox amac vardır. Onlardan bir neçə önəmlisi bunlardır: Bu günün anlaşılması-irəliyə aydın baxış-ulusal kimlik duyğusu verilməsi-xəyal gücünün gəlişməsi-eleştirəl düşüncənin gəlişməsi-əxlaqı amaclar-obyektiv ola bilmə yaxşı aydın vətəndaş yetirmə-ulusal qüruru gücləndirmə-ulusda tarixin şanlı və iftixarlı səhifələrini, mübarizə aparılan olaylarını yenidən duyğusunu yaratma və hərəkətini canlandırma və s. Tarixin eytiminin ən təsirli və etkili yolu sənət yoludur. Sənət əsəri əbədilik həyati ilə ulusal tarixi də əbədiləşdirir. Dağıstan xalqının böyük qəhrəmanı Şey Şamil öndərliyi ilə apardıqları mübarizələri tarix arxivlərindən zaman və məkan hisarından M. Hüseynin sənətkar qələmi ilə dram janrında yenidən yaranır, Türk xalqının tarixi olaraq, onların ulusal şüurlarında əbədi və ölməz həyat tapıb yaşamağa sahib olur. Tarixdən ən çox faydalanan ulusçulardır, niyə ki onlar başqa ideologiyalardan artıq kəndi uluslarnı savunurlar və bu nədənlə tarixə və tarix eytiminə kəndilərini möhtac görürlər. Ulusçu ideologiyaların qurulmasında, tarix bir arac olaraq faydalanması, ulusçu tarixçilik deyilən bir kateqorinin doğmasına səbəb olmuşdur. ulusal tarix yazımı ulus-dövlətlərin ortaya çıxmasıyla paralel və dəngə sağlayır və bir seyir izləmişdir. ulus-dövlət olqusu insanlığın gəlişməsi sürəcində aydınlanma ilə oluşan modernitə projəsi içində ortaya çıxmışdır. 18-ci yüzildən sonra kristalləşmişdir. fəlsəfi qücünü 18-ci yüzil aydınlanma fəlsəfəsindən alan modernitə ağlı və insanı mərkəz alaraq müəyənləşir. toplumsal yaşamı rasiyonalizə edir. dini toplumsal yaşamda arxa plana atır və laikliyi ilkə olaraq qəbul edir. öznənin və ulus fikrinin yayqınlaşıb güclənməsi və bunların bütün politikal və fəlsəfi düşüncənin mərkəzi durumuna gəlməsi ilə anlamını tapır. özet olaraq modernitə düşünsəl olaraq aydınlaşma çağına politik olaraq Fransız devriminə və ekonomik olaraq da sənaye devriminə bağlıdır. Ernest Renan ulusu ortaq bir keçmişi olan birlikdə yaşama arzusu göstərən topluluq olaraq tanımlır. Renanın tanımında ulusun ən önəmli öğesi və üzvü ortaq tarix olaraq görülür. Uluslar gələcəklərini və yönlərini bu ortaq tarix üzərindən bəlirləyəcəklərdir. Bu bağlamda uluslaşma sürəcində ulusal tarix yazıçılığın çox önəmli bir yeri vardır. Uluslar söyləmələrində tarixsəl sürəklilik keçmişdən gələcəyə uzanma iddiasını dilə gətirirlər. Uluslar inşa edilirkən

əlbəttə keyfi yada rasgələ bir tarix anlayışının bənimsədiyini söyləmirik. Ancaq ulus dövlətlərin quruluşunda tarixçilər ulus dövlətin inşasını sadələşdirəcək yada ulus dövlətin inşasına zəminə hazırlayacaq. Ulusal toplumlarda bəzilərinin ulusal kimliyi alt kimliklərin üzərinə keçəcəkdir. Bəzilərin də alt kimliyi axarlı və keçici ikən ulusal kimliyi sürəkli olacaqdır. Belə yeni bir topluluğun oluşması üçün öncəliklə bəzi bağlılıqların önəmini itirməsi ulus bağlamında yenidən qurması yenidən gərəkəcəkdir. Ulus dövlətlər üzərində ki sınırları bəlli torpaqlarda bir kimlik vermək zorundadırlar. O torpaqların vətən halına gəlməsi qutsal bir kimlik verilməsi tarixdən faydalanaraq yaranmışdır. Torpaq üzərində yaşanılan bir tarix varsa, vətən olur. Gərək ulusal dövlətdə yaşayan topluluğa, gərəksə üzərində yaşanılan torpağa kimlik verilməsi sayəsində olacaqdır. Bilindiyi kimi ulusallık qavramı bir termin olaraq 1935 də Fransız akademik sözlüyünə girmişdir. Ancaq qısa bir sürədə böyük bir gəlişmə göstərərək bir uluslar topluluğu olan Osmanlı İmperatorluğunu da etkisi altına almışdır. İmperatorluq içində ki uluslar bir-bir ulus dövlət olaraq ayılırkən, imperatorluğun qurucusu Türklər arasında zəif də olsa bir ulusçuluq prosesi baş göstərmişdır. Bu axım öncə dil və tarix çalışmasıyla kəndini hiss etdirməsi və islam öncəsi Türk araşdırmalarıyla bəlirginləşməsidir. Ancaq ulusçuluq axımının güclənib toplumda yayqınlaşması üçün qurtuluş savaşı ilə ulusal dövlətin qurulmasını gözləmək gərəkmişdir. Bir kültür dövlətinə girişlən cumhuriyyət döməmində ulusal birlikdəlığı tarixi bir tabana oturtmaq uyqarlıqdan yoxsun diyə suçlanan Türk kimliyini ortaya çıxartmaq və yetişdirmək olan qurşaqlara özgüvən aşılamaq amacıyla o illərdə həmən hər ulus dövlətdə dəyərləndirən bir "ulusal tarix" anlayışının hakim olması qaçınılmazdır. Türk cumhuriyyətində Atatürkün göstərişilə ulusçu tarixçilər və ədiblər sanatçılar ulusçu şüur və düşüncələrilə yazıb yaratmaqla, ulusal dövlətin qurulamasında yaxından iştirak edirlər. Bu dönəmdə ulusal tarix və ədəbiyyatın yaranması ulusal Türk kimliyinin köklənməsinə və Türk ulusal şüurunun oyanmasına nədən olur. Atatürkə görə ulusu ulus edən ən önəmli əsaslardan biri tarix birliyidir. Bu nədənlə Atatürk Osmanlı dönəmində önəmsənməyən Türk tarixinin araşdırılmasını Türk ulus kimliyinin oluşması üçün zərurətini söyləyir. Azərbaycan yazıçı ziyalılarına da tarix və ona necə yanaşmaları önəmlidir. Onlar ulusal tarixi çox gözəl ədəbiyyatın bütün janrlarında sınamışdılar. Ulusçu tarixçiləri ulusal tarixi yazarkən, ziyalılarda bu tarixi kəndi başarıları və zekalariyla kütlələrin içində geniş halda yaydırırlar. Niyə ki yeni ulusçu tarix, Türk ulusunu kəndi qaynaqlarına götürən və onun içindəki seyrini anladan işıqlı bir idrakdır. Tarixinin bir-birləri ilə olan qarşılıqlı

və içli dışlı münasibətlərini bir bütünlük hallında verir. Yeni Türk tarixi yazılmadan öncə, Türklərə düşmən olan Avrupalılar və Ruslar Türk tarixini təhrif və yanlış yola çəkərək, kəndi mənafelərinə uyğun yazıb yaydırırdılar. amma yeni Türk tarixi bizə Avropalıların istədikləri və işlərinə gəldiyi kimi deyil, tarixi gərçəklər göstərdiyi kimi anlatır. Azərbaycanda yaranan ulusal dramaturgiyada və ədəbiyyatın başqa janrlarında yeni Türk tarixi ulusçuluq düşüncəsini tərvic etdiyi halda, humanisti düşüncə və duyğu ilə irqçilikdən uzaqlaşıb, yeni Türk tarixini və Türklərin yaşadığı tarixləri sənətçiliklə ədəbiyyatda və sənətdə də yaratmışdılar. Örnək üçün, M. İbrahimov un Güney Azərbaycanın 1945-ci Pişəvəri öndərli ilə yaranan devrimi "Cənub hekayələri" Sıra hekayələrində, S. Əhmədli "Dənizdən gələn səs "hekayəsində, İ. Hüsenov "Məhşər" romanında və "saz" povestində M. Hüseyn "səhər romanında və "Cavanşir", "Şeyx Şamil", "Nizami", dramlarında və Ə. Məmmədxanlı ilə birlikdə yazdığı "Cavadxan" ssenarisində, Ə. Məmmədxanlı "Şərqin Səhəri", "Xürrəmilərin ağ Şahini", "Od içində" əsərləri, S. Vurğunu "Vaqif", "Xosrov və Şirin", H. Cavidin "Topal Teymur", "Xəyyam", M. S. Ordubadini "Dumanlı Təbriz" və "Xatun" romanları və "Dumanlı Təbriz"dram əsəri və s. Azərbaycanın yeni ulusal Türk tarixinin və ulusal kimliyinin təməlini möhkəmlədən bu tarixi yaratma çabalarının ədəbiyyat və sənət sahələrindəki ulusçu yazıçı və ziyalıların apardıqları mübarizələrin inikasıdır. Ulusal kimliyin ədəbiyyat və sənət yolu ilə gəlişməsi bugünkü bütün ziyalı və aydınlara bəllidir. Kimlik kişinin kəndini tanımlama biçimi olaraq, ulusal ədəbiyyatda və o cümlədən yuxarıda adları aparılan Azərbaycan ədəbi əsərlərində ən önəmli yer tutur. Azərbaycanın bütünləşmək sistemin parçası halına gəlməsi için, planlanan çalışmaların içində sənət və ədəbiyyat fəaliyyətlərinin nə şəkildə yürütülməsi gərəkdiyinə dair önəmli ayrıntılar gözə çarpır. Rusiya da 1917 devriminin ardından ortaya çıxan və 1932 ili etibarilə də rəsmi qəbul olan sosialist realizm ədəbi axım çərçivəsində gəlişmə göstərən ədəbiyyat, Azərbaycanda da eyni anlayış doğrultusunda formalaşmaya başlır. Buna görə, toplumsal gəlişməyə iştirakı olmayan ədəbiyyat anlayışının tərk edilərək yeni insanı və yeni toplumu oluşdurmaya yönəlik bir ədəbiyyat anlayışı doğrultusunda əsərlər vermənin gərəkliliyi vurqulanır. 1920 öncəsində feodal yapılanmaya və olumsuz gələnəklərə qarşı gələmə alınan əsərlərdə məcazi anlatımlara yer verilirkən, yeni rejim yeni toplum yapısını oluşdurmaya yönəlik ədəbi fəaliyyətlər çərçivəsində yeni dönəmlə birlikdə yeni rejimi qapsayan əsərlər yazılmaya başlanır. Hümmət, Kommunist, Füqəra Sədasi, Hürriyyət, Azərbaycan Füqərasi, kimi bolşevik qəzetlərin yanında,

Azərbaycandakı idari dəyişimin dalısınca Füqəra Füyuzatı, Maarif və Mədəniyyət, Şərq Qadını, Məarif İşçisi kimi dərgilər, yayına, başlayır. C. M. Quluzadə, E. Haqverdiyev, Ə. Nəzmi, M. S. Ordubadi, S. Sani, Y. V. Çəmənzəminli, C. Cabbarlı, kimi ədəbiyyatçılar ölkədəki dəyişikliyə qatılaraq yeni ideologiyaya uyğun əsərlər yazırlar. Bu ədəbi fəaliyyətlərə koşut olaraq Zəhmətkeş Ədib və Şairlər İttifaqi "1922"örqütünün yanı sıra, Azərbaycan Komünist Partisinin 5-9 may 1924 də düzənlədiyi qurultayda partiya eytimi sistemi və xalqın sosializmlə bütünləşdirilməsi mövzusunda alınan qərarlardan sonra ədəbiyyat adamlarının Ədəbiyyat Cəmiyyəti 1928 kimi örgütlər aracılığıyla homogen bir ideoloji çatı altında fəaliyyətlərdə bulunmaları amaçlanır. Bir başqa ifadə ilə kontrollu bir ədəbiyyat anlayışı oluşturulmaya çalışırlar. Azərbaycan ədəbiyyatının sovetləri dövrü ideoloji zorluğu altında yaşadığı gərginlik bir sıra tarixi əsərlərin yaranmamasına nədən oldu. O yerləri boş olan əsərlər, Türk dünyasının böyük imperatorları, ulusçu şairləri, Türklərə böyük zəfərlər qazanan qəhrəmanların həyatları və mübarizələri və Türklərin yaratdığı şanlı tarixi zəfərlərinin ədəbi və sənət təsvirləridir. Türk ulusal tarixin yaranma və ziyalilər tərəfindən yaradılma iradələrinin və ziyalı ədəbiyyatçılar və sənətkarların ulusal yaradıcılıq amal və istəklərinin qarşısını, sosializm ideoloiyası və şovinist rusçuluq təfəkkürü ilə qarşını almaqla böyük zərbələr Azərbaycan ulusal tarix, ədəbiyyat və ulusal kimliyinə vurur. Bu ideoloji basqısı altında olan Azərbaycan yazıçı sənətkarları Rus dili şovinisti basqısı qarşında, əsərlərin yaranmasında məzmun və möhtəvidə təhdid də olaraq, Azərbaycan dilinin gözəlləşdirməsinə və zənginləşdirməsinə və bir güclü ədəbiyyat dili kimi oluşdururmasına çalışırlar və zəngin bir ədəbiyyat sənət dili yaradırlar. Ədəbiyyatın ulusçuluq və toplumsal görəvi, olduqca ağır bir ideoloji durumda, yaşamasını zəmanət edən, o ulusun dilinə dayanmaq və söz və məktub dilini yaradıcılıq yolu ilə zənginləşdirən böyük ziyalılarıdır ki, ulusunun inkişafı uğrunda ulusal ədəbiyyatla dərin kültür və mədəniyyət yaradıb, ulusunun varlıq kimliyini təsbit edirlər. Bu yol Türklərin çağdaş böyük öndəri olan Atatürkün Türk ulusu və soyunu yenidən canlandıran yoldur . Atatürk yeni Türkiyəni qurmaq və Türk soyunda birlik yaratmaq üçün, Türkün ulusal dil, ədəbiyyat və yeni tarixini yaratmağı amaclayır, böyük yazıçı, sənətkarlar, tarixçilər bilim adamları bu yeni həyatı qurmağa sıx-sıx fikirdaşlıq və əməkdaşlıq edirlər. O böyük öndər yaxşı düşünürdü ki bir ölkənin birlik və bərabərlik içində gəlişəbilməsi üçün ulus bilincinə sahib olması lazımdır. Atatürk ulusçuluğu, yox olmaq üzrə olan bir ulusu yenidən "yeni ulusal tarix, ədəbiyyat və sanət yaratılmasıla" yenidən var etmiş, onun dünya

uluslar ailəsi içində sayğın yerini almasını sağlamışdır. Ancaq bu işləri görən Atatürk, gərçəkləşdirməyəcəyi işlərin dalısınca gedərək ulusunu macəra dalısınca sürükləməmişdir. bu məsələni o bu sözlərilə ifadə edir: "böyük xəyallar peşindən qaçan, yapmayacağımız şeyləri yapar kimi görünən saxtakar insanlardan deyilik. Böyük və xəyali şeyləri yapmadan yapmış kimi görünmək üzündən bütün dünyanın düşmənliyini, kötü niyyətini, kinini bu məmləkətin və ulusun üzərindən çəkdik. Biz panislamizm yapmadıq, bəlkə yapıyoruz, yapacağız dedik. Düşmənlər də yapdırmaq üçün bir an əvvəl öldürəlim dedilər. panturanizm yapmadıq yaparız, yapıyoruz! dedik, yapacağız dedik və yenə öldürəlim dedilər. Bütün dava bundan ibarətdir. Bütün dünyaya, qorxu və təlaş verən qavram bundan ibarətdir. Biz belə yapmadığımız və yapmadığımız qavramlar üzərinə qaçaraq düşmənlərimizin sayını və üzərimizə olan basqısını artırmaqdan isə təbii duruma, məşru duruma dönəlim, həddimizi biləlim. Biz yaşama və bağımsızlıq istəyən ulusuq və yalnız və ancaq bunun üçün həyatımızı əsirgəmədən veririk". Atatürkün bu ulusçuluq anlayışı, Türk ulusunun bağımsız, mutlu, zəngin və çağdaş bir şəkildə yaşamasını amaclayan ancaq bunu yaparkən də ulusal çıxarlarına bir saldırı olmazsa başqa uluslarla uyum içində çalışan, başqa ulusların haqlarına sayğı göstərən bir ulusçuluq anlayışıdır. Atatürkün ulusçuluğu "yurdda barış cahanda barış" ilkəsinə bağlı barışçı və insancıl anlayışa sahibdir. onun tədbirləri ulusundakı aydınları və ziyalıları ulusal tarix, ədəbiyyat, sənət və bilimə yönətdi. Bu düşüncəyə dayanaraq, Türk insanı öncə kəndi ulusunu irəliləməyə və mutluluq üçün çalışmaya sövq edərək, başqa ulusların da iyiliyini də düşünürdülər. Bu düşüncələrin kəskin olması və genişlənməsinə Türk ulusal ədəbiyyatı böyük xidmət etmişdir. Turqut Özakmanın "Şu Çılğın Türklər", "Qurtuluş", "Diriliş", "Atatürk yenidən samsunda" Atilla İlhanın "Qazi Paşa" Atsızın "Bozqurdlar diriliyor, Türk ədəbiyyatı tarixi" Ziya Kökalpın "Altın işıq, Qızıl alma, şerləri, Türkçülüyün əsasları" Ömər seyfətdinin hekayələri və b. Türk tarix, kültür ənənə və gələnəklərindən ulusal ədəbiyyatın yol açıb zənginləşdirməsinə böyük xidmət edirlər. Ədəbiyyatla toplumsal yapı arasında ilişkili ötədən bəri düşünürlərin, toplumbilimcilərin, budunbilimcilərin, insanbilimcilərin üzərində durduqları mövzulardan biri olmuşdur. Çünki bir toplumdakı ilişkilərin, yaşama biçiminin o toplumun ədəbiyyatında yansıdığı tartışma götürməz bir gərçəkdir. Bu gərçəyi idrak edənlər ədəbiyyatı toplum yapısının eşiyində deyil, bu yapının içində düşünürlər. Türkiyə də, Tənzimat yazıçıları əsərlərində siyasal və toplumsal düzənləyimləri reformları savunurdular. Bunun içində də əski yaşama biçimini, əskiyi, sürəkli

olaraq elişdirmişdilər. Xalqı, yapılacaq siyasi və toplumsal düzələyimlərə hazırlama ona çağdaş uyğarlıq dəyərlərini öyrətmə başlıca qayğılarından biri olmuşdur. Bu qayğıyla xalqa qolayca səslənəbiləcək, kamoyu (ictimaiyyət) oluşturacaq bir yoldan, jurnalistlik yolundan ədəbiyyata girmişdilər. Onların ən qabaqcılları olan Nitekim Şinasi, Namiq Kəmal, Ziya Paşa, Əli Suvasi, Əhməd Mithad dan ad aparmaq olar. Bunlar və cumhuriyyət dövründə ki yazarlar Türk ulusal ədəbiyyatın və tarixin, gəlişməsində və Türk kimliyinin, tarixinin kültürəl ensiklopediyasını yaradırlar" (106, s. 138). Xalqın anlaya biləcəyi sadə bir dildə yazma, Tənzimatçıların ana yönəlimlərindən biridir. Bu yönəlimin kökündə geniş yığınlarla ilətişim qurma amacı yatar. Tənzimat dönəminə miras qalan rəsmi dil bu gün Osmanlı dediyimiz dildir. Tənzimatla birlikdə başlayan dili sadələşdirmə, xalqın anlaya biləcəyi bir düzəyə eriştirmə gərçəkdə kültür sorumlarının ən önəmlərindən biri olmuşdur. çağdaşlaşmaya və ulusallaşmaya gedən yol, xalqın dilindən, Türkçənin torpağından keçəcəyi gərçəyi bütün yönlərilə tənzimat dönəmində gərçəkləşdirmişdir. Dil sorunu çözmə savaşı o gündən bu yana başlamışdır. Bir baxışda Türk ədəbiyyatında, düşün dünyasında gözlənən hər növ gəlişin və dəyişimin kökündə dilsəl gəlişmə, yeniləşmə və dilin çağdaşlaşması yatır. Niyazi Berkes, Türkiyədə çağdaşlaşma adlı yazısında Tənzimat öncəsi dilsəl çalışmaları belə tərif edir: Tənzimat öncəsi osmanlı imperatorluğu soylar, uluslar, dinlər, kültürlər toplamı bir imperatorluq olduğundan Türk dili ancaq rəiyyət dili olaraq yaşayırdı. Yönətici dövlət təbəqəsinə girən kişilərin dili ərəbcədən, farscadan, rumcadan, islav dillərindən zəngin, fəqət xalqın anlamadığı bir diliydi. Osmanlıca, hindistandakı monqol imperatorluğunun ordu və saray dili olaraq gəlişdirdiyi ordu dili kimi düzəltmə bir diliydi. Təməli Türkcə olmaqla birlikdə, içinə Türk dilinin kökən və yapı baxımından bağlı olmadığı dil ailələrindən yalnız kəlmələr deyil, kurallarda soxulduğu üçün, danışma dili olaraq deyilsə belə, yazı dili olaraq, "Türk dili danışan xalq kültürlərinin dilindən uçurumla ayrılan bir dil olmuşdur. Danışma dili olaraq deyilsə belə dedik, çünki, heç deyilsə tənzimat dönəmindəki osmanlıcanın danışma dili olaraq istifadə olunan şübhəlidir" (105, s. 138). Bu dili əldə etmiş olmanın əsil isbatı, kəndini yazıda göstərir. Bu dildə yaza bilmək üçün nə deyilən uzun bir eytim görmə gərəkdiyini xatırlasaq, bu deyilən düzmə, yapma bir dil olduğunu rədd edirik. Bu dilin gəlişməsində ehtimal ki, üçü də toplumdan ayrı qalan üç heyət qaynaq xidmətini görmüşdür: Məktəb, saray və ədəbiyyat. Məktəbin rəsmi dili ərəbcə idi. Məktəblərdə Türkcə oxudulmazdı. İslam dini yoluyla, bu dinin hüquq dili olaraq Türkcənin çərçivəsi içinə soxula bilmə və yaylış

dərəcəsi ilə mütənasib olaraq bir çox ərəbcə kəlmələr Osmanlı dilinin təməllərindən birini qurmuşdu. Rəiyyət dili olaraq yaşama gücünü sürdürən xalq Türkcəsi isə, yalnız müsəlman xalq arasında deyil, Tənzimat zamanınadək müsəlman olmayan xalqların müsəlmanlarla birlikdə yaşadığı bölgələrdə rom və ermənilər arasında istifadə olunurdu. Hətta bəzi bölgələrdə bu Xristianlar rəiyyət Türkcəsindən başqa dil bilməzdilər. Məktəb diliylə xalq dili arasında uçurum, xalqın Ortodoks müsəlmanlıqdan uzaq qalmasına necə yol açmışsa, məktəbi də Türk dilinə yabancılaşdırmışdır. Məktəb düşün həyatını təkəlinə alması sonucunda, yalnız xalq dilinə yabançı qalmamış, yeni düşün biçimlərinə də kəndini uyduramamışdır. Müsəlman olan və olmayan xalqlardan yönətici təbəqəyə girənləri xalqdan ayırmaqda olan Osmanlı dili bəsləyənlərindən ikinci qaynaq saray və bürokratiya olmuşdur. Fənər aristokratiyası içində bu dil müsəlman olanlar qədər bilən kişilər yetişdirdi və bunlar ən çox tərcümanlıq işlərində istifadə oldular. Dövlət və saray çevrəsində gəlişən Osmanlıcanın ədəbi ifadəsi Divan ədəbiyyatı deyilən ədəbiyyatda ən zəngin və ən yapma düzəyinə ulaşmışdır, bu ədəbiyyat dili yalnız toplumdan ayrılan bir dil deyil, aynı zamanda təbiətə yabançı bir dildir. Necə məktəbin modeli, ərəbcənin hakim olduğu kəlam və fiqh ədəbiyyat isə, bu Divan ədəbiyyatının modeli də fars ədəbiyyata olmuşdur. Yalnız o modelə zorunlu alaraq uydurulan bir ədəbiyyat olduğu üçün, dil açısından daha da çox yapma olmaq zorunda qalmışdır. Klassik fars şairlərinin, hala bu gün belə İranda, xalq arasında anlaşıldığı və söyləndiyi halda Osmanlı Divan ədəbiyyatı kəndi zamanında belə anlaşılmazdı. Yalnız dil möhtəvisi deyil, ədəbi qaydaları da uzun bir eytim və mərifət istəyən bir sənətdir. Bu qaydaların qəfəsi içinə sıxışmış olan bu ədəbiyyat, Tənzimat dönəminə gəlindiyi zaman tamamilə formalaşmış, qısırlaşmış, ədəbi yaradıcılıq nitəlini yetirmiş bir ədəbiyyat olmuşdur. "Tənzimatçılar belə bir ortamın həm ürünü olmuş həmdə bu ortama qarşı savaş açmışdılar. Savaşlarında bəlkə bütün bir yenilik qazanmamışdılar, amma dilsəl alanda yeniləşmə çığırını açmışdılar. Bunda batılı qavramlarla tanışmalarının, qəzetçi oluşlarının böyük payı vardır. Tənzimatçılar Batının dəyərlərini, uyğarlıq və texnikini almağı, bunları bənimsəməyi amaclamışdılar. Bunun için də "toplum için sənət" anlayışına bağlı qalmışdılar. Əski ədəbiyyata hakim olan "axirət fikri" yerinə bu ədəbiyyat "gərçək dünya"yı yerləşdirmişdir. Bu dünyanı dəyişdirmə düşüncəsini qoymuşdur. Düşünsəl yapısı yeniləşən ədəbiyyatda növlər yönündən də gəlişmə və zənginləşmə olmuşdur. Tənzimatçılar Divan ədəbiyyatında bulunan şeir, tarix, məktub kimi ədəbiyyat növlərini Batı anlayışına yerləşdirmişdilər. bunun yanı sıra Divan

ədəbiyyatında bulunmayan məqalə, teatr, roman, hekayə, tənqid eleştiri kimi yeni ədəbiyyat növlərini Batıdan gətirmişdilər. Ötə yandan düzyazı da söz hünəri göstərmə amacından vaz keçilmiş düşüncələri xalqa yayma amacı güdülmüşdür. Bu amacla seçilər buraxılmış, anlatım gərəksiz, doldurma sözlərdən arındırılmış, uzun bulaşıq, qarmaqarışıq cümlələr yerinə anlatım qıssa cümlələrlə biçimləndirilmişdir. Bunun kimi şerdə də şerin mövzu alanı genişlənmiş, günlük yaşamla, ilgili hər növ, olay, fakt, duyğu və düşüncə şerə mövzu olaraq seçilmişdir. Tənzimat ədəbiyyatını oluşduran və yönləndirən sənətçilər xalq üçün yazmağa, xalqı bilincləndirib xəbərdar etməyə çalışırlar. Belə bir hərəkət də Azərbaycan ədəbiyyatında bütün janrlarda başlanır. Axundovun "Təmsilat"i ilə başlanan yeni ədəbiyyat mövzu və forma baxımından klassik ədəbiyyatdan çox fərqlənir. Türkiyə də həm də Azərbaycanda dramaturgiya tarixi, bir-birilə çox yaxın bir zamanla başlanır. Axundovun komediyaları 1850-ci ildə başlansa da Türkiyədə də, Tənzimatçılardan olan Namik Kamal 1875-ci ildə ilk dram əsəri olan "Vətən"pyesini yazır və ulusal Türk dramaturgiyasına uğurlu bir başlanış damğasını vurur. Bu ulusal yeni ədəbiyyatın yaranmasıyla, Türkiyə də və Azərbaycanda Türk soyunun və kimliyinin böyük dayağı olan geniş və güclü bir sənət aləmi yaranır ki ölüm və axirət dünyasını yox bəlkə Türk ulusal tarixindən qaynaqlanaraq, Türklərin yaşadığı dünya və toplumlarındakı sorunların çözməsini amaclamaqla, onların dünya görüşləni, inam və amallarını, diləklərini və Türk ulusunun dünya ulusları arasında yer və məqamını təsbit və təsvir etməyə çalışır. Bu üzdən də Bir ulusun ədəbiyyatı, o ulusun duyğu, düşüncə, düş, gücü, özləm və tutduğu çevrənin bir xəritəsi olmasınə söyləyirlər. Dastanlar, şerlər, romanlar, hekayələr, dramlar, anılar ə s. bu xəritənin daşları, yaylaları, təpələri və düzlükləridir. Bu xəritəni incələmə, o ulusun düşünsəl və duyğusal coğrafiyasını tanımaqdır. Ədəbiyyatın önəmi XXI əsrdə bir ulusun kültürəl və toplumsal gəlişməsində və kimliyinin qorunmasında olan önəmli rolu tədqiqatçılara və sosioloji alimlərinə bəllidir. Sosioloqlar toplumları tədqiq edərkən, heç zaman ədəbiyyatı gözdən qaçırmayırlar, niyə ki ədəbiyyat onların tədqiqatlarında bilmsəl fərziyyələrinin isbatında və tədqiq və incələnən toplumun düşüncə və psixologiyasını tanıtmasında önəmli və geniş yer alır. Toplumun bütün xüsusiyyətlərinə tanış olan və ulusunun qayğısını çəkən yazıçı da həyat olaylarını öz həyat təcrübəsinin, dünya görüşünün, istedadının xüsusiyyətlərindən asılı olaraq, müəyyən bir üsul ilə öyrənməyə məcburdur. Hər bir yazıçı gördüyü həyat olaylarına, yaxud insan xarakterlərinə müraciət edir. Onun sevdiyi mövzu, mənimsədiyi həyat materiyalı qarşısına

qoyduğu görəv, çözmək istədiyi problem, yalnız ona məxsus bir şey, onun maraqlandığı, seçdiyi, düşündüyü, sevdiyi, mənimsədiyi bir mətləbdir. Bu mətləb aydın və ziyalı yazıçının mənsub olduğu ulusun ən önəmli problemlərindən biri olur ki, kəndi açısından yaradır. Ə. Haqverdiyev və S. Vurğun Türk tarixindən seçdikləri bir olayı iki çeşidli açıdan görüb pyeslərini yazıb yaradırlar. Haqverdiyev tarixin güclü və despot hökmdar surəti, obrazını və Vurğun isə bütün varlığıyla xalqın taleyinə bağlı olan vətənpərvər, ulusçu, həssas və zəki bir şair surətini yaradır. Hərəsi gördüyü, duyduğu, anladıqları kimi təsvir edirlər. Hər bir yazıçının özünə məxsus mövzuları, özünə məxsus qəhrəmanları, özünə məxsus məziyyətləri var olduğundan sənət əsəri adı qazanmağa varır. Yazıçının da orijinallığı başqalarını təkrar etmək də deyil. Həyat olaylarını seçməkdəki qabiliyyətlərində, həyat hadisələri ilə yaşamasında, üsullarını təsbit, təsvir və inikas etməklə, ulusuna buruza vermiş olur. Yazıçılar da bir-birindən məhz bununla seçilirlər. Yazıçılar öz həyat təcrübələri və toplumsal ideallarına görə də bir-birinə yaxın ola bilirlər. Bu yaxınlıq, onların bir ulus, dil, tarix, kimlik, toplum və kültürə mənsub olduqlarından qaynaqlanır. Sənətkarın ulusal düşüncəyə və ulusal kimlik və tarixə sahib olduğu halda sənət yolu ilə sənətkar, ulusunun kimliyini zaman tozundan qoruyub, nəsildən-nəsilə toplumsal, kültürəl və tarixi kimliyini təsbit edir.

XX əsr mədəniyyəti və Avropa ulusları ilə təmasa gələn insanların bir çoxunda ulusal mənlik hissinin sarsıldığını görürük. şübhəsiz yüksək duyğulu olan hər mədəni insan Avropa və Amerikanın yüksək bilimini və incə texnikasını görüncə onlara qarşı təqdirdə, hörmətlə qarşılıq bir heyranlıq duyur. Bir çoxları bu təqdirlərə qalmayaraq, onların dinsəl, politikal, toplumsal və iqtisadi əxlaqlarına və bütün insanlıq isalətlərinə də heyran qalaraq, kəndi ulusunu və kəndi kimliyini unutmağa çalışırlar. Bir sürə Avropada və Amerikada yabançı yaşayıb onları dərindən tanıyaraq kəndi ölkələrinə dönüb ulusunun və ölkəsinin geriliyinə qarşı hərəkətə keçirlər. Azərbaycan da bunlardan çoxu ədəbiyyata və sənətə üz gətirməklə xalqının və yurdunun gəlişməsinə nədən olan əngəllərlə mübarizə edirlər. Bir çox tarixi, iqtisadi və siyasi düşmanlıqlar, fənalıq və idarəsizlik üzündən yoxsul düşmüş və geri qalmış Azərbaycan Türklərinin ziyalılarının ən önəmli görəvləri, xalqılarını bilimsəl, tarixsəl, kültürəl və yaradıcılıq çabalarıla ulusal kimliyinə və ulusal enerjisinə və kök əsalətlərinə inandırmaqdır. Kök və əsalətləri zaman və düşmənçilik tozundan çıxartmaq üçün, ən önəmli və təsirli hərəkətetdirici, ulusu milli kimliyindən güvəndirmək və inandırmaq, onların tarixi şəxsiyyət və qəhrəmanlarının

ədəbiyyat və sənət yolu ilə yeni dünya ya tanış olan və yeni insanı ilgiləndirən, olay və obrazlarını ədəbiyyatın janrlarında və sənət də yaratmaqdır. Bu gərçəyi düşünən və ulusuna, vətəninə, kültür və mədəniyyətinə vurğun olan Azərbaycan ulusçu və vətənpərvər yazıçı ziyalılar da, gecə-gündüz fərqində olmayaraq, yaratdılar və bu yoldu düşmənlər tərəfindən dostağa, sürgünə və həttа ölümə rastladılar. Amma tutduqları yoldan və ulusal düşüncələrindən bir an vaz keçmədilər. Türk ziyalıları ulusal kimliklərinə inanaraq, Türk ulusunun qutsal amallarının böyük xalqlarının, fəzilətlərini, qabiliyyətlərini və əsalətlərini ulusal ədəbiyyatda təsvir etdilər. Azərbaycan ziyalıları yaxşı bilirdilər ki güclü topluluqların bir özəlliyi ulusal kimliyidir. Ulusal kimlik də kəndinə güvəndən doğar. Özünə güvənən topluluq başqalarının nə düşünəcəyini, nə yapacağını umursamadan kəndi davasını yürüdən topluluqdur. Azərbaycan yazıçıları ulusal şüurun doğmasında ən böyük rol oynayırlar. Çünki ulusal kimlik bir ulusun, özünü duyması və bilməsidir. Ulusal ziyalı yazıçılar, əsərlərinin yaradılmasında ulusal duyğu və düşüncəyə dayanaraq, ulusal şüuru gücləndirməyə, ulusal tarixə müraciət edərək, tarixi qəhrəmanlar və olayların içindən, seçdikləri ulusçuluk çizgilərilə birlikdə, Türk dilinin zənginliyindən faydalanaraq, yeni ədəbi bədii əsərlər yaratmağa başlayırlar. Bu ədəbi bədii əsərlərdə Türk dili, ulusal kimliyi və tarixi qəhrəmanların obrazında canlandırırlar. Türk dilinə bu qədər önəm verən yazıçılar, Türk kimliyini və milliyyətini qorumaq mübarizələrində, sovet yazıçıları markası, kommunistlər tərəfindən vurulsalar da, bu gün onların Türkçülük, vətənpərvərlik, ulusçuluqları və ulusal şüur və düşüncələrini, ən azı onların Türk dilində, Türk tarixli qaynaqlı əsərlərindən duyub anlamaq bəllidir. Onlar Türk dilində yazmaqla, Azərbaycan Türklərinin bütün varlıqlarını yaşatdılar, çünki onlarda ulusal şüur varıdı. Onlar inanmışdılar ki:1. ulusal şüuruna sahib olan bir ulus, kəndinə zorla qəbul etdirilən yabançı dilə baxmayaraq gerçək və doğru höviviyyətini bilər və bir gün bu ulusal şüur sayəsində öz dilini yabancı bir dil təhsil edən kimi öyrənərək həqiqi kimliyinə dönər. 2. tərəfdən də, ulusal şüurun uyuşuq və ya oyanıq olması, ulusların yaşama qabiliyyətlərilə məbsutən mütənasibdir. 3. ulusal şüurun oyanıq olduğu yerlərdə yabancı unsurların borusu ötməz. İdarə işlərinin başına mühüm yerlərə yabancı qan daşıyanlar gələnməz. Orada bilim ulusal manefelərin əlindədir. Bilim ulusun böyüklüyü və şəni üçün yapılır.

4. ulusal şüurun oyanıq olduğu yerlərdə, ulus yabançını kəndisindən saymaz.

5. ulusal şüur oyanıq olunca, yalvarmaq, rüşvət və haqsızlıq yox olar. Xidmət edənlərin xidməti inkar olmaz. Tarixi şəxsiyyətlərə həqiqi dəyərləri verərlər. Nə xırda qüsurları olan div

kimi böyük şəxsiyyətlər xırdalar, nə də ki mövhum böyüklükləri dolayısıyla əxlaqsız insanlar devləşdirilər.

6. ulusal şüurun oyanıq olduğu yerlərdə dil qısqancılıqla qorunur.

Azərbaycan Türkçü ziyalı yazıçıları ulusal ədəbiyyatı yaratmaq üçün ulusal tarix və Türk tarixinin zəngin və şanlı səhifələrini azəri Türkcəsində ulusal şüur və duyğuları ilə yaradıb, Azərbaycanda ulusal şüuru, bu ədəbi əsrlərlə diri və etkili halda əbədiləşdir

## II. FƏSİL

## 1920-Cİ İLƏ QƏDƏR Kİ DÖVRDƏ, AZƏRBAYCAN DRAMATURGİYASINDA TARİXİ MÖVZULARA MÜSİR BAXIŞ

### II. 1. N. Nərimanovun "Nadir şah" faciəsində vətənpərvərlik ideyasının tarixilik və müasirlik prizmasından həlli

Tiflis şəhərində bir yoxsul ailədə, bir Azərbaycanlı Türk ailəsində gələcək umudlarla və yaşadacaq uğurlarla 1870-nci ildə dünyaya göz açdı. bu çocuq Azərbaycanın gələcək tarixində ictimai-siyasi xadim, həkim, publisist və dramaturq kimi tanınan Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanovdur. Atası oğlunu bir din adamı yetişməsin, öz dinini mükəmməl öyrənməsini istədiyi üçün 1879-cu ildə onu Tiflis ruhanilər məktəbinə yazdırdı. bu məktəbi 1885-ci bitirən Nərimanov oxuduğu altı il ərzində həm dini biliklərə yiyələndi, həm də ərəb və fars dillərini mükəmməl öyrəndi. Ölkənin hər tərəfində danışılan rus dilini də başa düşür və danışa bilirdi. Amma Nərimanov ruhani olmaq istəmirdi, bu səbəbdən də atasından izin almadan 1886-ci ildə güney Qafqazın Qori müəllimlər seminariyasına daxil oldu. Yüksək zəkası və çalışqanlığı ilə seminariyanın ən yaxşı öyrəncilərindən birinə çevrildi. Elmə hədsiz bağlılığı və öyrənmək havası bu seminariyada başladı. Beləliklə anasının istəyini yerinə yetirdi. Anası atasından fərqli olaraq, onun rus məktəblərində oxumasını və bəşəri elmlərə yiyələnməsini istəyirdi. Bunun səbəbi də var idi, ana oğlunun gələcəyi üçün narahat idi. Görünürdü ki fərqli təhsil onun iş tapmasına mane olsun. Odur ki rus məktəbinə üstünlük ver idi. Rusların basqılı hakimiyyəti və şovinist kültür siyasətləri sonucunda, günü-gündən rus dilində məktəblər artırdı və Türk dilində olan məktəblər bağlanırdı və bundan başqa hakimiyyət tərəfindən dövlət işində çalışmağa rus dilli məktəblərdən işçi götürülürdü. Və bu nədənlə özəlliklə Bakıda rus dilli məktəblərə maraq ailələr tərəfindən çox idi və bu maraq rus kültürəl politikasının və hər yönlü basqısının sonucu idi ki, hər gün rus dilin, kükltürünü bütün programlarında ön plana çəkirdilər, bu politikal və kültürəl durumda

Nərimanov 1890-ci ildə müəllimlər məktəbini bitirdi. İlk iş yeri Tiflisin bir vilayəti olan borçalının qızıl hacılı kəndi oldu. İlk dəfə kəndçiliyi və kənd həyatını burada gördü. İlk yazıçılıq çalışmaları da bu kənddə başladı. İlk əsri olan "Nadanlığ"ı bu kənddə yazdı, kəndlinin çəkdiyi bütün sıxıntıları, işğalçıların, ağa və din adamlarının kəndi üzərində hegemonluğunun nə qədər yüksək olduğunu yaşayaraq anladı, kəndin müəllimi kimi yoxsul insanların insan kimi yaşaması, yaxşı təhsil almaları və haqlarını tələb etmələri üçün özəl çalışmalar yerinə yetirdi. Gördüyü işlər ruhanilər, ağalar və çarın adamları tərəfindən xoş qarşılanmadığından, kənddən getmək məcburiyyətinə gəldi. Həmin il həyatını qurumaq üçün təkbaşına Bakıya gəldi. Bakıda bakı proqimnaziyasında iş tapdı, Azərbaycan və rus, dil və ədəbiyyatının müəllimi oldu. Azərbaycan Türk xalqının, oxumağa olan həvəsini işlədiyi məktəbdə görüb və yaşamışdı. Lakin xalqın nə qəzet, nə də kitab almağa imkanı çatmırdı, bu çatışmazlığı aradan qaldırmaq üçün ilk atdımını atdı və şərq xalqları tarixində ilk olaraq 1894-cü ildə qiraətxanə açdı. Dünyanın qəzet və jurnallar bura gətirilir. Xalqın istifadəsinə verilirdi. Dövrün, elm, ədəbi və siyasi adamları, sənətçilər burada yığışıb söhbətləşir, fikir mülahizəsi edirdilər. Qiraətxanada teatr oyunlarıda şənləşdirilir. 1902-ci ildə Nərimanov ali təhsil almaq üçün Odessa tibb fakültəsinə girdi, burada bir çox dərnəklərdin fəal üzvünə çevrildi, siyasi ideologiyası da burada formalaşdı. fəal olaraq politikal fəaliyyətə qoşuldu, Odessada aldığı devrimi ruh və tərbiyə onun həyatının mənasına çevrildi. 1908-ci ildə fakültəni bitirib Bakıya döndü. Bakıda neft sənayeçilərin tibb mərkəzinin rəhbəri işləməyə başladı. Pulsuz xidmət göstərən tibb mərkəzindən qalan boş vaxtlarında yoxsul xalq üçün pulsuz muayinəxana açdı. siyasi çalışmalarını da davam etdirdi. 1906-1908-ci illər devrimi mücadelənin anlaşılması və yayılması üçün "Kaspı", "İrşad", "Həyat" və "Təkamül" qəzetlərində aramsız yazılar yazdı. 1906-ci ildə rusiya sosial demukrat partiyasının proqramını Azərbaycan Türkcəsinə çevirdi və Rusiya Sosial Demukrat Partiyasına üzv oldu. Iran sosial-demokrat partiyası olan mücahid partiyasının yaradılmasında iştirak etdi. Əlbəttə bu çalışmalar diqqətlə izlənilirdi və çox keçmədən çar polisi tərəfindən təqib olunmağa başlandı. Bu təqibdən qurtulmaq üçün 1909-cu ildə Tiflisə qaçdı, amma polis təqibi dayandırmadı və qısa müddətdən sonra Tiflisdəki evi polis tərəfindən mühasirəyə alındı. Evində tapılan məktublar və bəzi yazılı sənədlər üzündən həbs olundu. Çar məhkəməsi tərəfindən yeddi ay həbs və iki il Həştərxana sürgün cəzası aldı. Bəzi qaynaqlar onun həbs olunmasına səbəb kimi Iranda baş verən Səttarxan devriminə kömək etməsini göstərir. İki ay həbsdən nüfuzlu dostlarının vasitəsilə azad olur və

sürgün cəzasını çəkmək üçün Həştərxana getdi. Dörd il orada qaldı. Rusiya sığorta təşkilatına doktor kimi çalışdı. Ədəbi və siyasi fəaliyyətini davam etdirdi. Devrimi mübarizəsini qəzet və dərgilərdə yazdığı məqalələrdə apardı. 15 iyul 1913-cü ildə siyasi - ədəbi fəaliyyətlərini genişləndirmək amacı ilə yenə Bakıya döndü. 1917-ci ildə redaktoru və başyazarı olduğu "Hummət" qəzetini çıxarmağa başladı. Bu qəzet eyni zamanda "Hümmət" partiyasının da yayım orqanı oldu. 1918-ci ildə Bakıda Müsavatçıların liderliyi ilə Azərbaycan xalq cümhuriyyəti quruldu. Bu ərəfədə Nərimanov xəstələndi və həkimlərin məsləhəti ilə Həştərxan şəhərinə getdi. Bu gedişi iki il sürdü. 1919-cu ildə Lenin tərəfindən Moskavaya çağırıldı. Leninlə bir saata yaxın təkbətək görüşdü. Bu görüşmənin dərhal ardından xarici işlər nazirliyinin yaxın şərq işləri üzrə şöbə müdiri və Stalinin yaxında köməkçisi olaraq çalışdı. Şərq xalqları məsələsində tez-tez mübahisəyə başladığı bu ərəfə Nərimanovun həyatının dönüş nöqtələrindən biridi. Çünki Nərimanov bu çalışmaların sırasında Türk xalqlarının kommunistlər tərəfindən aldadıldığını başa düşdü. Milli hərəkətin kommunist fəlsəfəsini burada düşündü və inkişaf etdirdi. Daha sonralar Azərbaycanın dövlət rəhbərliyi vəzifəsində bu görüşün inkişafına çalışdı. Türküstan və Qafqazdakı xalqları üzərində sürən siyasətin yanlışlığı haqqında Leninə şikayət məktubları yazdı. Müsavat hökumətinin dağılmasından sonra Lenin tərəfindən Bakıya göndərildi, 16 may 1920-ci ildə Bakıya gəldi, Lenin əmri ilə devrim komitəsinin sədri oldu. Bakıda Türk xalqına xidmət etmək amacı ilə Bakının Türk şəhəri olduğunu anlatdı və ölkənin bir çox işlərini təkbaşına əlinə aldı, durumu dəyişdirdi. 1922-ci ildə Lenin tərəfindən Kalinin Petrovski və Çalyekov ilə birlikdə mərkəzi komitə üzvlüyünə gətirildi. Azərbaycan rəhbərliyi vəzifəsindən ayrıldı. 1923-cü ildə Stalin tərəfindən Moskvaya çağrıldı, 1925-ci ilin mart ayının 19-da öldüyü rəsmi olaraq açıqlandı, bu çox ani ölüm bir çox şübhəni də özü ilə bərabər gətirdi. Cinayətə qurban getdiyini iddia edənlər olduğu kimi əcəli ilə öldüyün söyləyənlər də oldu. Amma nə olursa onun ölümü Qafqaz Türkləri ilə bağlı sevgisi və Stalinin, şovinist Rus siyasəti ilə ilgili çoxlu şübhələr dəvam etdirməkdədir. Nərimanov 1894-da ilk pyesini, "Nadanlığ"ı yazir. Onun başqa əsərləri Şamdan Bəy-"1895, "Nadir Şah"1899, "Bahadır və Sona" 1896-1908, Azərbaycan xalqının dilində yeni Türk dilində yaranır. Bu əsərlər Azərbaycan xalqının kültür və yaşamından götürülmüş mövzularla Azərbaycan kültürəl inkişafında Axundov ənənələrilə bağlı Azərbaycan teatrına orijinal əsərlər kimi özəlliklə tarixi dramın ilk başlanışı "Nadir Şah" faciəsi olur. Nərimanovun "Nadir Şah" əsəri 1899-ci ildə Azərbaycan dramaturgiya tarixində ilk tarixi dram

olmaqla Azərbaycanın teatrında gələcək yazıçılara tarixi dram yazmaq özəlliklə Türkçü ziyalılara tarix və vətənləri uğrunda bir sevgi, vətənpərvərlik və Türkçülük təməlini qoyur və tarixi dramı möhkəmləndirir. Əgər Türk dünyasının Yüsif Akçuranın dediyinə görə Qafqaz Türkləri bölgəsində Axunzadə "1811-1878"tam məhəlli Türk şivəsi ilə və Avropa tərzində "təmsilat"ını yaratmaqla, dramda Türkçülüyün əsasını qoyur. Nəriman Nərimanov teatr tarixi "nadir şah" faciəsini yaratmaqla Türkçülüyü dram janrında təkmilləşdirir.

"Nadir Şah"əsəri Türk teatrında tarixi dramın başlanışı olaraq Batı Türkcəsində ilk orijinal teatr yəni mətin olar, Türk dünyasının ilk tarixi dram əsəridir ki Türk dünyasının güclü və sarsılmaz imperatorlarından olan Nadir Şahın həyatının bir guşəsini teatrda tamaşaya qoyur. Türkçülük "Ziya Gökalp"ın fikrincə "Türk ulusunun yüksəltmək deməkdir" bu təriflə Azərbaycan teatrında tarixi dramlarda Türkçülük bu əsərlərdə dil və dramın Setdirməklə yazıçıların Türkçülük duyğularından doğan əsərlərdiər. Axundzadənin "Haci Qara-"sı bir Azərbaycan Türkünün və toplumunun həyatını inikas esir. bu əsrlərin dili Türk dili olmaqla bərabər Türk ulusunun kültürünün və mədəniyyətin yüksəltmək fikri ilə yaranmış əsərlərdir. Bu əsərlər dil, din, əxlaq və sənət baxımından ortaq olan yəni eyni eytimi almış birəylədən oluşan bir toplumun yeni Türk ulusunu təsvir edir. kənd və şəhərlərdə yaşayan Azərbaycanlı bu əsərləri oxuyanda və ya tamaşa edəndə onu "dili dilimə uyan, dini dinimə uyan və obrazları mənimlə qohum-qonşu olan diyə tanıyır.

"Nadir Şah" faciəsini Nərimanov 1899-ci ildə yazır. Bu əsər Türk tarixinin zəngin, parlaq və güclü yaşadığı dövrdə vətəninin taleyi ilə ilgili yaranmışdır. Bir zamandaki Azərbaycan vətəni, iki büyük istilaci ölkə arasında basqınlara məruz qalaraq Türkmənçay və Gülüstan müqavilələri ilə 1813-cü ildə və 1828-ci illərdə iki parça olub istilaçı dövlətlər hakimiyyəti altında yaşamağa məcbur qalmışdılar. Nərimanov bu acı həqiqətləri və gərçəkləri duyarkən, Türk dünyasının əsil torpaqları Qafqazda, Ruslar basqınlarına məruz qalmaqlarını düşünürkən "Nadir Şah" faciəsi ilə Türk dünyasının keçmiş büyük və güclü tarixini xatırlayaraq umumiyyətlə Türkləri və özəlliklə parçalanmış Azərbaycan torpağında yaşayan Türklərin, milli qurur və zəngin tarixini xatirələrdə təkrar etməklə onları birliyə, mübarizəyə, vətəni qorumağa dəvət edir, necə ki Nadir Şah Iranın uğrunda oğlunun gözlərini də çıxardır, Nərimanov vətən evladını bu tarixi təsvir etməklə vətən pərvərliyə özgürlüyə, mübariziyə və vətənin inkişaf və yüksəlişinə, müstəqil Azərbaycan uğrunda çalışmağa yorulmamazdığa dəvət edir. Nadir Şah faciəsi dord

məclis və yeddi pərdədən təşkil tapır. Bu əsər Azərbaycan teatrında ilk tarixi dramdır. məmləkətin geriyə qalmasının ən böyük səbəbi Nərimanovun fikricə, vətəni unudmaq kəndi mənafeyini umumxalq mənafeyinə tərcih etməkdir. Bunun ardından Nərimanov "Nadir Şah" əsərində kəndi amal diləkləri ilə vətən uğrunda elə bir "Nadir" təsvir edir ki, onun bütün düşüncə və çalışmaları yurdunun əxlaqını yüksəltmək, vətəndaşlarında milli qurur və ulusal yaşamın təməlini qoymaqdır. çünki onun düşüncəsində vətən üstündə oturduğumuz torpaq, onun ancaq zərfidir və ona zərf olduğu üçündür ki qutsaldır. O halda vətən, əxlaqi, ulusal ülgülərdə, ulusal görəvlərdən oluşan bir əxlaq deməkdir. Pyesdə Nadir qılıncını Şah Təhmasba verir taki onu öldürsün yada onu vətəni qurtarmaq üçün sərbəst bıraxsın. Nadır Şah quldurluğu atandan sonra yalnız fikri çabası və amacı vətənini quldurluqdan, basılmaqdan və fəlakətdən qurtarmaqdır. Nadirin obrazı elə Nərimanovun kəndi karakterinin aynasıdır. Onun vətənə, xalqına və ulusuna sevgisi Nadirlə canlanır. Nadir necə ki ulusal dayanışmayı gücləndirmək üçün hər şeydən öncə yurd əxlaqını, vətən əxlaqını yüksəltmək üçün bir an dayanmayır, hər yanda vətənə əyri baxanlara qarşı sərt və kəskin cavab verir. Nərimanov da elə vətən sevgisi ilə bir həkim maarifpərvər, dramatuq, ziyalı kimi bütün sahələrdə ulusunun, vətəninin uğrunda çalışır. qiraətxanə qoyur. Teatr qurupunu da orda yola Salır, xəstə olanlara təbabət edir və kültürəl xəstəliklərə də məqalə, dram, roman və çıxışlari ilə hər yerdə yardımcı olur. Hər zaman ulusunu düşünürkən yalnız Azərbaycana yox bəlkə bir Türkçü kimi bütün Qafqaz Türklərinin əhvalatını gözə alaraq, onların sosial və kültürəl yaralarına da mərhəm qoymağa çalışır, mübarizə edir və bu çalışmalar şövenist rusların qəzəbinə səbəb olur, canınıda bu yolda qoyur. Onun bütün həyatı politikal mübarizədən öncə kültürəl mübarizədədir, niyə ki onun görüşündə vətən, ulusal kültür deməkdir. demək ki vətən dinsəl, əxlaqsal, sənətsəl, gözəlliklərin geniş müzəsi və sərgisidir. Bu düşüncənin və görüşün sahibi Nərimanovdur ki vətəninin kültür inkişafı yolunda ulusal ədəbiyyata inanaraq, Azərbaycan dramaturgiya tarixində ilk tarixi dram yazıçısı kimi teatra maraqlanıb "Nadir Şah "faciəsini yazır. Teatrın gücünə inanaraq, Türkçülük və vətənpərvərlik düşüncəsindən doğan və törənən əsərlər yaradır. "Nadir Şah"əsərində xalqını, ulusunu birliyə, vətən uğrunda canfəşanlığa və qüdrətin fəsadından uzaq olmağa dəvət edir. Bu əsərdə Nadir Şahın dövrünü təsvir edir və elə tarixi obrazları yaradıb canlandırır ki, bir tərəfdən Türkləri keçmişləri ilə və böyük şəxsiyyələri ilə tanış edib, onları da ulusal kimlik və qururun oyanmasında vətənlərini birləşdirmək, fəlakətlərdən, istiladan qurtarmaq və politikal xadimləri

politikal xainlərdən ayırmağa yardım edir, onlar da vətən yolunda çalışmağa şur və hərəkət yaradır. Nadir Şah əsərinin çağdaşlığıda elə onun xalqda yaratmış ulusal şüur, aydınlıq və hərəkətdədir ki şanlı tarixindən etkilənərək, aydın və düşüncəli birlikdə Azərbaycan üçün çalışırlar. Şahın vəziri Ədhəm, şahı vətəndən, onun başına gələn basqin və olaylardan xəbərsiz saxlayıb və bir xayın kimi pyesdə təsvir olunur. Onun amalı kəndini qorumaq, vətəni, xalqı çapmaqdır. İstər bu yolda ulusundan bir kişi, qadın, çocuq və ya məmləkəti idarə edən hakim olsun, o aldadar, tuzağa salar, xalqı bir-birinə vurar, birlik yerinə ikicəlik və düşmənlik törədər. Onun qüdrəti və gücü nə qədər artırsada, fəsadı, kötülüyü vətənə qarşı xiyanəti artıracaqdır. Belə fəsad törədən hakimiyyətdə, xalq ayaq altda üzülüb məhv olar. Nadir Şah dramındakı olaylar güc və qüdrət savaşıdır, belə savaş vətən və onda yaşayan insanların həyatını məhv edər. Nadir Şah pyesində Nadir obrazı ilk öncə bir güclü və qorxmaz quldurdur. Onun amacı Şah olmamışdan öncə çapmaq, hırsızlığla uğraşmaq və yol kəsməkdir. O anasının öcünü Özbəklərdən almaq üçün deyir ". hər çənd özbəklərdən bir anamın əvəzində min analar – atalar, min uşaq qanı tökdüm, lakin yenə ürəyim sakit olmayıbdır bu tayfanın qanını içməyə hazıram". ( ) Bu bir quldurun şəxsi düşmənlikdən qaynaqlanan düşüncəsidir. Bir tayfanı məhv etmək istəyir, bir qanlı şəxsi öc. Nadir xalqdan başqa şahın ordusunu məhv etməkdən də çəkilməyir, onun kəndi mənafeyi qarşında hər kim dayanırsa, ona düşməndir və onun qanını tökmək halaldır. Onun məsləyi quldurluqdur. Xalqa hakimiyyətə qarşı dəhşət yaratmaqdır. Bu düşüncə onda ulusal hakimiyyət qurmaq fikrinə yetişənə kimi, onun içində yaşayır. Quldur Nadir ulusal hakimiyyət və dövlət qurmaq fikrinə çatanda daha quldur və xalqa qarşı xayın deyil, artıq o kəndini və şəxsi mənafesini yox bəlkə vətən və ulusunun mənafesini qorumağı ən önəmli amacı olur və bu ulusal şüur və düşüncə ilə elə yerə çatır ki başın Şah Təhmasb qılıncına uzadır ta vətən yolunda hər imkanından kullansın, vətən yolunda ölmək də ona fəxridir. Nadir dayısının danışığından ki onun quldurluq əməllərinə qarşıdır, kəndi yşayışını dolandırmaq üçün Nadırdən heç nə qəbul etməyib, deyir: ". . . mən öz günümə ağlamıram. Bu gün-sabah öləciyəm. . . məni fikrə salan vətənimizin işləridir, of, of, heç bilmirsənmi nə halda bulunuruq? vətənimiz əldən gedir, ulusumuz günbəgün zəlil, məşəqqətdə bulunur. . . Nadir dünyada ad qazanmaq iki yoli ilə olar: Yamanlıqla və birdə yaxşılıqla. . . yaxşılıqda ad çıxarmaq hər şəxsin hunəri deyil. . . "( ) Nadir dayısının bu öyüdündən ayınaraq deyir: "Bundan sonra vətənin fikrində olmalıyam. . "( ) Elə Nərimanov Tiflisdə olduğu zaman da, Azərbaycan və xalqını düşünərək ta ölənə qədər Nadir Şah kimi

vətənini ulusunu düşünürdü və bir ulusçu xadim kimi, xalqını unudmayırdı. Azərbaycanın torpağına, soyuna, dilinə sevgisi tükənməzidi. Bu yolda bir gün Türklər haqqında tədqiqat işləri aparırdı, başqa gün dramlarında xalqının həyatını ulusal tələblərini təsvir etməklə, fanatik, savadsızlıq, xorafəçılıq, gerilik və irticayla mübarizə edirdi. Nərimanovun həyatı bir ulus xadimi kimi xalqının uğrunda apardığı mübarizədir. Onun hürriyyətçiliyi və milliyyəçiliyi Türk hürriyyətçiliyi və milliyyətçiliyi idi. Yurtsevərlik onun görüşündə, Türk ulusunun jeopolotik durumundan doğurdu. Onun düşüncəsində Azərbaycan Qafqaz Türkləri eyni durumda yaşayırdılar. Onların Türk olduqları rus istilası qarşında mübarizələri dinsəl, əxlaqi ekonomik, soy təzadları və ixtilafları, Nərimanovu kəskin düşündürürdü. Nadir Şah pyesi Nərimanovun bu düşüncəsinə bağlı və uyqundur. Nadir şahın dilindən gələn Nərimanovun könlünün amacı, istəyi, vətən və ulusuna olan sevgisindən doğur. Nadir şah bəlkə elə vətəni torpağı parçalanmış Nərimanovdur ki oğluna, xalqın simvolunda dilək və istəklərini sevgi ilə dilə gətirir, deyir:". . . oğlum düşmənlər vətənimizi tar-mar edirlər, müqəddəs yerlərimizi əldən alırlar. . . vətənə kömək edək, belə bir yolda ad çıxartmaq böyük bir səadətdir. . . " (44, s. 158). Vətəni parçalanan Nərimanov, keçmiş tarixi düşünərək xalqının, yurdunun bu günkü kötu durumunu, ölkəsinin basılmasından, kədərlənib xalqına bağırır ki vətəni qurtarmaq üçün, quldurluğu atmaq, vətən uğrunda çalışmaq ən böyük səadətdir. Ad çıxarmaq bu yolda şərəf izzəti, ulusu qutsal inamlara sayqı göstərmək ulusal kimliklə qururla yaşamaqdır. Bu yolun mübarizləri, qutsal ölməz həyat qazanırlar. Nadir şahın obrazı bədii surəti Nərimanovun ulusal aydın şüurundan vətənpərvərlik əsil duyğularından gəlir yaranır. Düşüncəsinin əsil, hakimiyyətdə ulusçu, ulusal dövlət quruçusu Nadirin diyaloqunda Şah Təhmasbın huzurunda ifa etdiyi gözəl alimanə sözlərdə bəyan olunur. ". . . həmişə padşahı ilə ulusun arsında olan pərdə dövlətin viran olmağına və ulusun bədbəxt olmağına ən birinci səbəb olubdur. Bu pərdə vəzirlərdən ibarət bir şeydir, ki həm padşahı və həmdə ulusu qaranlıqda saxlar. . . " (44, s. 138 ). Nərimanovun vətəni olan Azərbaycan da elə desput hakimiyyətlərin siyasəti sonucundan geriyə qalıb, neçə xan və yararsız vəzirlərin arasında bölunub parça-parça olduğu səbəbdən istismarçı və istilaçı impriyalar tərəfindən basılıb varlığı böyük təhlükəyə düşüb. Azərbaycan xalqı ilə dövlətin sıx ilgi olmadığından dolayısıla, hakimiyyətin, ulusdan və ulusun dövlətdən güvənliyi, inamı və xəbəri yoxdur. Ulusal birlik və ulusal dövlətin olmağıdır ki vətəni, xalqı qorumağa güclü qüdrəti olar. Belə dövlət çox çətin və zor durumda qurulur. Nərimanovun ideyasına uyğun, şah, hakim "Nadir Şah "ın yaranmış

obrazıdır. Nadir obrazının qusurları olsa da onun ulusçuluk və yurdsevərliyi qarşında gözə çox dəymir. Onun görüşündə hakim kitab oxuyan, alim, qorxmazdır. ". . . sözü bir, ürəyi saf, şir ürəkli, aslan qüvvətli, vətənini sevən, ulus yolunda can qoyan, sahibsizlərə sahib çıxan, köməksizlərə kömək edən yetimlərə pərvəriş verəndir. . . " (44, s. 138 ) Nərimanov Nadir Şah əsərini yaradarkən, Türk dünyasının, sosial və politikal xəstəliklərini, Nadirin yaşadığı dövrün, sosial, kültürəl və politikal xəstəlikləri ilə qarşı-qarşıya qoyur. Beləliklə vətəninin və ulusunun xəstəliyini dram və səhnə əsərləri yazmaqla, teatrın təsirli gücünə inanaraq, toplumsal yaraları sağaltmağa çabalır. Türk şahının tədbir və düşüncəsi, polotikası, usluçu və dövlət idariçilik şivəsi Nərimanovun vətəni Azərbaycanın bu günkü durumunda, onu sağlam, güclü bir ölkə halına gətirməyə böyük yardım edib, ölkəni istilaçı impriyalar hegmoniyasından da qurtarar. Niyə ki Nadirin dövründə ki politik və dövlətçilik xəstəlikləri, indiki zamanda da, Nərimanovun sevdiyi ana vətəni və ulusunu təhlükəyə salır. Türk dünyasını dağıdan fanatik din, şiə-sünnü ixtilafları, çarpışmaları, müftəxor mollaların, kütləyə hədsiz –hududsuz ixtiyarı və nufuzu, şahların və hakilərin xalqdan uzaq olmaları, fəqir və yoxsulların məmləkətdə artıb əksəriyyət olmaları, gerilik və s. Xəstəlikləri eyni olduğu üzərə, bu dramda tarixilik və çağdaşlığı ən yüksək səviyyə də məzmununda daşıyır. Hakimlər hər zaman xalqlarının qarşında ağır məsuliyyət duyursa, xalqa yaxınlaşar, onlar təklifdən qaçırtsalar iki düşməndən xilas ola bilməzlər. " . . . vətən, ulus qeyrəti çəkməyən, gününü eyş –işrətdə keçirib ulusu daıma zülmə duçar edən padşah, əcəlini ulusdan gözləsin. . . ulusun və dövlətin tərəqqisinə çalışan, bu yolda təzə qanunlar qoyan vətəni zülmdən xilas etmək istəyən padşah, əvvəlinci gülləni öz müqərrib adamlarından gözləsin. . . "( ). Bu sözlər Nərimanov yaradan Nadir şah obrazının bir vətənpərvər ulusçu şahin ideyası düşüncəsidir ki vətən uğrunda 20-ci əsrdə bütün Türkçü ulusçü Azərbaycan ziyalılarının, düşüncəsində, bu ideya olarkən könüllərində diləkləri yaşayır. Ə. Cavad, Ə. Hüseynzadə, C. cabbarlı, Y. V. Çəmənzəminli, H. cavid və b.

Nərimanov bir uluçu vətənpərvər kimi, xalqını aydınlaşdırmaq üçün Nadir Şah faciəsində də, başqa əsərləri və çalışmaları tək, vətənə yaraşan, vətənin yüksək inkişaf ruhunu oxşayan, Türk xalqının tələblərini gözəl və dəyərli sözlərlə ağıla batan fikirlərlə unudulmaz obrazlar və bədii surərtlər yaradıb və sənət mövcizəsi ilə onlara əbədi həyat bağışlayıb. Onlar elə sevimli və tanış obrazlardır ki hər bir Türk vətənpərvər evladını vətəni uğrunda, xalqının insani huquqları üzərində hərəkətə, mübarizəyə və həyəcana gətirir. Nərimanovun Nadirşahı, düşüncə və məzmun

baxımından, ulusal ədəbiyyat möhitindədir. Bu səbəblə də canlı və hərəkət edici bir əsərdir. Bu əsər batı uslubunda yazılan bir əsər olduğunda da, onun əsas fikir xətti ulusal ruhiyyə və əxlaqı təsvir edir. Nadir Şah əsərində bir yurdun, ulusun dili, gələnək, inanc, mif, ənənələri, yaşamı mükəmməl sözlə deyilsə, Türk dünyasını təsvir edir. Tarixdən alınan mövzu, ulusçu ziyalının ideya və yaradıcılıq süzgəcindən keçərək bədii surətlərlə, Türk xalqının tarixini sənət gözü ilə göstərir. Ədəbiyyatla ulusun ilkin ilgiləri ədəbiyyatın şıfahı və ya məktub olmağına baxmayaraq, ulusların toplumsal yaşamlarından modern kültürəl və politikal nasiyonalizmi ilə, 19-cu əsrin əvvəllərindən Avrupadan başlanarkən, Azərbaycan ziyalıları da bu mövzulara ədəbiyyatla ilgili maraqlanıblar. Nasiyonalizm ədəbiyyata dayanaraq, ulusal kimliyin kök və təməlini möhkəmləndirir. Ulusçu düşüncə ədəbiyyat prosesində ədəbiyyatın, süjetlərində əsas xəttdə yer tutaraq, yazıçı ulusal ədəbiyyatı humanisti düşüncəyə yaxınlaşdıraraq, ulusunun, dilini düşüncəsini, tələblərin dünya xalqlarının içində oxunan və sevilən bir ədəbiyyata çevrilər. Azərbaycan dramaturgiyası filosof Axundovla başlarkən, ziyalılar, mübarizələrində, mübarizə yollarında, teatr bir mübarizə yolu olaraq ön plana çekilir. Mübarizlər, ulusçular, politikal və kültürəl çalışmalarını, ideyalarını bu sənətlə gərçəkləşdirirlər. Nərimanov da politikal mübarizələrində, kültür çalışmalarında, dramaturgiyaya yalnız bir sənət kimi yox, bəlkə sənətlə yanaşı vətənini və ulusunu bütün sahələrdə yüksəlişini amac tutaraq, çalışıb yaradırdılar. Nərimanov bilgi və ədəbiyyat kişiliyinin ən azı siyasallığı qədər hətta daha da önəmli olduğu açıqca görülür. Onun Nadir Şah əsərində bilgisəl-siyasal və kültürəl görüşləri özəlliklə Nadir Şahın obrazında çox yaxşı təsvir olunur. Yazdığı dramlar, roman və hikayələri, Türkcə -rusca sözluğu, puplisist məqalələri, onun bilgə və sənətçi yönünün nə qədər üstün olduğunu göstərir. Nərimanovun bilgə və ədəbi kimliyi yeni insanlığın ideolojik devrimini sağlayan, bilgə ürətimi və biri kimi də öncəliklə dramla, romanla, ədəbiyyatla oluşturulmuşdur. Mayasında insan ləyaqətinin ucalığı, mənəvi yüksəkliyi, insanpərvərlik, dərin həyatilik və məhəbbət ulviliyi dayanan Nərimanov yaradıcılığı ümumbəşər mənəvi səviyyəsində elə bir zirvədədir ki coğrafi sərhədlər, etnik çeşitliklər, ulusal psixologiyalar onun umanisti ideyaları ilə birləşir.

## II. 2

## Ə. Haqverdiyevin"Ağa Məhəmməd Şah Qacar" faciəsində özgürlük və Türkçülük düşüncəsi müstəvisində

Çağdaş dramaturq, ədəbiyyatşünas, əməkdar incəsənət xadimi suşa yaxınlığı "ağbulaq" kəndində anadan olmuşdur. 14 yaşında şuşa şəhrində yerli ziyalıların göstərdikləri "xirs quldur basan" komediyası genc Əbdürrəhimin gördüğü ilk səhnə əsəridir, bu əsər Əbdürrəhim bəyi Axundzadənin əsərlərini oxumağa maraqlandırır. Bu oxumağın etkisindən onun "Hacı daş – dəmir"əsəri yaranır. 1891-ci il Peterburqda yol məhəndislər institutunda təhsilə başladığı illərdə də o teatrdan ayrılmadı və o şəhrin tamaşalarını maraqla izlədi. Əbdürrəhim bəyin vətənpərvərlik və ana yurda ayrılmaz və tükənməz sevgisi 1899-ci ildə təhsilin bitirdikdən sonra onu əkib şuşaya gətirir, ilk il şuşada bir rejissor kimi tamaşalar qurub və sonra fəaliyyətini genişləndirmək səbəbilə bakıya köçür. Bondan sonra Əbdürrəhim bəy harda olursa, teatrda onla Birlikdə görünür. Əbdürrəhim bəy 1901-1904-ci ilə qədər Bakıda olub və bu illərdə oynanan teatrlar hamısı onun rejissorluğu ilə getmişdir. "Ata və oğul", "Ayın şahidliyi" iki hekayəsini şuşada çap edir. 1905-ci devrimindən sonra Rusya dövlət dumasına Gəncə quberniyasından nümayəndə seçilib orada dövlət kitabxanasında "Ağa Məhəmməd Şah Qacar" əsərini 1907-ci ildə yazmışdır. 1908-ci ildə "Leyli və məcnun" operasını yaradır, 1911–1915 –ci illəri Ağdamda ədəbi və sənət fəaliyyətı ilə yaşamışdır Böyük ədib, dramaturq, ziyalı 1933-cu il dekabrın 11-də Bakıda ömür həyatının ışığı sönməklə əbədi dünyaya köçür. "Yiyərsən qaz ətini görərsən ləzzətini-1892" _ "Dağılan tefaq"1896 Əbdürrəhim bəyin yollarında ömür qoyduğu dəyərli əsərlərindədir. Bu əsərlərdə Əbdürrəhim bəy zamanı duyub qabaqlayan dramaturq kimi həyat fəlsəfəsini sağlam, toplumsal münasibətlər fonunda şərh edir, o buna inanmışdır ki çağdaş həyat insanın daxili aləminə yeni xüsusiyyətlər gətirir, psixologiyanı hətta davranış formalarını dəyişdirir, maraq dayirəsini genişləndirir, bütün bu cəhətləri xüsusiyyətləri göstərmək, yeni insan təşəkkül prosesini açmaq, ədəbiyyat və incə sənətin ən önəmli vəzifəsidir. Tarixi şəxsiyyətlərin bədii obrazlarını yaratmaq və onları yeni insan həyatına və düşüncəsinə yaxınlaşdırmaq yalnız sənətin çağdaşlıq və tarixilik prosesində yerləşən bir yaradıcılıqdır. Haqverdiyevin əsərləri çağdaş baxışın, dünyəvi düşüncə tərzinin məhsuludur, onun pyesləri geniş bədii ümumiləşdirmə mövqeyinə ardıcı davam edən gərgin daxili və zahiri hərəkətin dramatik vəhdətinə malikdir, Haqverdiyev realist Azərbaycan ədəbiyyatının görkəmli simalarından biridir. Onun pyesləri klasik formasında yazılıb. O Azərbaycanın ilk peşəkar rejissoru sayılır, dili zəngindir, xalq danışığına, folkolor ədəbiyyatına yaxındır. "Ağa Məhəmməd Şah Qacar" faciəsini duma

dağılandan sonra bir müddət Peterburqda yaşadığı zaman materiallarını toplayıb, bu işi Iranın mazandaran şəhrində də davam etdirib. Onun vətənpərvərlik və ulusçuluk duyğusuna cavab verən Türkçü Müsavat hökuməti onu Dağistan a Azərbaycan demokratik respublikasının nümayəndəsi vəzifəsində göndərilir. Əbdürrəhim bəy dramaturgiyası onun zəngin və əlvan yaradıcılığının önəmli qolunu təşkil edir, İlham Rəhimli onun dramaturji fəaliyyətini üç mərhələyə bölür. Birinci mərhə 19-cu əsrin son 15 və 20- ci əsrin ilk ilini əhatələyir, ikinci mərhələyə dramaturqun Molla Nəsrəddinçilər yaradıcıllıq platformasının məşhur maarif pərvəri kimi yazdığı dram və komediyalar daxildir. Bu mərhələ 1905-1911 ci illəri əhatə edir. Sovet dövrü yaradıcılığı "1920-1933" dramaturqun yaradıcılığının üçüncü mərhələsidir, birinci dövr pyesləri sanbalma ideya kəsərinə ikinci dövr faciələri mövzu əlvanlığına, dram və komediyalarının bədii estetik kamilliyinə görə daha bitkindir. Dramaturqun ilk qələm təcrubəsi olan "Haci daş-dəmir" məzhəkəsi əldə yoxdur. Peterburqda "yiyərsən qaz ətini, görərsən ləzzətini" -1892, məzhəkəsini _ "dağılan tefaq"-1896, faciəsini qələmə alıb. Şuşada "baxtsız cavan"-1900 faciəsini və Bakıda "pəri cadu"-1901 dramını tamamlayıb. Teatrla zaman ketdikcə daha yaxından və daha səmərli şəkildə məşğul olan haqverdiyev 1905-ci ildə "ulus dostları" satirik dramını yazıb. Uzərinədə bir neçə il işlədiyi zəngin tarixi faktalr toplayaraq onların əsasında yazdığı "Ağa Məhəmməd Şah Qacar" faciəsini 1907-ci ildə bakıda bitirib. Bu faciədə dramaturq rejissor hüseyn ərəbliniskinin xahişi ilə qadın personajları qələmə almayıb, 1909-ci ildə "kimdiir müqəssir" məzhəkəsini serqey yakovlevin vodevili əsasında yazir. 1911-ci ildə "Ac həriflər" məzhəkəsini yazıb. Mirzə Fətəli Axundzadənın anadan olmasının yüz illiyinə həsr 1911-ci ildə "xəyalət" dramınıda yazır. ədibin dramaturji yaradıcılığının üçüncü mərhələsi 12 il əhatə edir. Bu dövrdə yaranmış əsərləri sovet ideologiyası prinsiblərində yazıldıqları üçün zəifdir. Yalnız bu dövrün əsərlərindən "köhnə duma" və "baba yurdunda"dramaturqun yaradıcılığında yeni mövzu- problematika, yeni idea, yeni konflikt – xarakterlər baxımından əhəmiyyətlidir, dramaturji fəaliyyətinin son dövrundə Əbdürrəhim bəy müxtəlif həcmili "Qırmızı qarı"1921 _"padşahın məhəbbəti"1921 _"Ağac kölgəsində"1921 _"Qoca tarzan"1922 _ "vaveyla"1922 _ "ədalət qapıları"1923 _ "səhnə qurbanı- " 1926 _ "məşhədi qulam qiraət öyrənir"1927 _ "qadınlar bayramı"1928 _ "kamran"1931 _ "sağsağan"1931_ "Yoldaş koroğlu"-1932_"çox gözəl"1932 _"Daşçı"1933 pyeslərini yazıb. Dövrlə, yaşadığı zamanla həmahəng olduğuna görə Əbdürrəhim bəyin də yaradıcılığının böyük bir dövrü mövzu baxımından

mülkədar həyatı ilə bağlıdır. Mülkədarlıq həyat tərzinin nadanlıq üzərində qurulmuş məcrasının doğurduğu faciələr Haqverdiyevin pyeslərində yeni bədii səciyyələrlə təsvir olunub, onun uslubu fərdi keyfiyyətlərlə zəngindir. Faciələri üçün təsirli həyat hadisələri seçə bilib. Təsvir etdiyi obrazların dil – ifadə xüsusiyyətləri ilk növbədə xarakkterlərin tipik xüsusiyyətlərinin açılmasına yönəlib. O faciə, komediya, məzhəkə, məsxərə, dram, remzi dram "pəri cadu" janrlarında əsərlər yazıb. Dram "ədalət qapıları" rəmzi dram janrlarını və biografik səciyyəli pyesləri olan"səhnə qurbanı" və " xəyalət"əsərləri, mill dramaturgiyaya ilk dəfə Əbdürrəhim bəy gətirib. Əbdürrəhim bəy coşğun, daxili ehtiraslı, çılğın xarakterli dramatik obrazlar gətirib. Onun əsərlərində çürüməkdə olan mənəvi- əxlaqi dəyərlər, cəmiyyətin sarsılmış sutunlarının pesixoloji əsərləri,iflassa uğramış cəmiyyət davranışları, dövrün sosiyal ədalətsizlıyı politikal problemləri nadanlıq və yeni estetik prinsiplərlə və daha kamil bədii obrazların dramaturq vasitəsi və sənətin etkili gücü ilə tənqid olunmuşdur.

### II. 3. Ağa Məhəmməd Şah Qacar faciəsi, Türklük və çağdaşlıq açısından.

Milliyyətcə Azərbaycanlı olan, Iranda şahlıqları 130 il davam edən Qacarilər sülaləsinin banisi "Ağa məhmməd xan qacar" obrazını ədəbiyyatımıza ilk dəfə Əbdürrəhim bəy Gətirib. O"Ağa məhəmməd şah qacar" faciəsində təkcə əsərin qəhrəmanın deyil, eyni zamanda tarixi şəxsiyyətlər olmuş Cəfər qulu xanın, Əli qulu xanın, Mürtəza qulu xanın, Müstafa xanın, Rza qulu xanın, Ali xanın, vəzir hacı ibrahim xanın İİ iraklının, Tavd keyxosrov Avelianının zəngin bədii səciyyəli xarakterlərini təsvir etmişdir. Faciənin ən dolğun obrazları Qacar və İraklıdır, dramaturq həmin surətlərin təsvirində faciə janrının psixoloji-fəlsəfi,psixoloji-dramatik xüsusiyyətlərindən yüksək sənətkarlıqla bəhrələnə bilmişdir. Belə bədii təsvirdə Turançılıq ideyaları,vətən və vətənpərvərlik anlayışları, zəka və güc,vicdan və əxlaq təsəvvürlərının dramaturji təqdimi daha bədii möhtəşəmliklə təcəssüm tapib. Faciə qəhrəmanları zaman və cəmiyyət problemlərinin qlobal tərəflərinə baxış prizmasından işlənilib, onun "Ağa məhəmməd şah qacar"_ "köhnə dudman"_ "baba yurdunda" dram əsərləri ictimai _ sosial konfliktin kəsərinə, ehtiraslı xarakterlərinə, romantik _ dramatik ruhuna görə monumental _ romantik teatr məktəbinin tərəqqisində mühüm rol oynayıb. "Ağa məhəmməd xan" Türk tarixində Qacar hakimiyyətində önəmli yer tutur, belə zəkalı vətənpərvər tədbirli hakimin tarixi, Əbdürrəhim bəyin görüşündə bədii həqiqətə çevrilməlidi, axı Əbdürrəhim bəy bir vətənpərvər yazıçıdır və

belə yazıçı kəndi tarixini unudmaz və o səbəbdən bu həqiqətə inanır ki böyük yazıçıların vəzifəsi tarixi həqiqətləri bədii həqiqətlərə çevirmək, real faktlara söykənərək təxəyyüllarının məhsullarını təqdim etməlidirlər,və Haqverdiyev də xalqının önəmli tarixində bir epizod alaraq,dramaturgiya sənəti ilə təqdim edir. Tarixə müraciət etmək, özəlliklə Qacarlara, Haqverdiyev düşüncəsində o qədər də onun yaşadığı tarixdən uzaq, naaşina deyil. 1813 və 1828-ci illər onun vətəni iki istilaçı dövlətlər arasında bölünüb müstəqilliyi tədbirsiz hakimlərin siyasəti nəticəsində pozulub. Haqverdiyevin Qacar tarixinə müraciəti onun vətənpərvərliyi və uluçuluq duyğu və şüurundan irəli gəlir. Əbdürrəhimin "Ağa məhəmməd şah qacar" faciəsi onun kimi bir Türkçünün ulusal şüurunun həsrət ədəbiyyatdı ki "Türkmənçay" əhdnaməsindən sonra doğulub, yaranıb, yaşayır. O həsrət çəkir və həsrətdə yaşayır, "Ağa məhəmməd şah" kimi bir qorxmaz qüdrətli, zəkalı, vətənpərvər siyasətçi istila altında yaşayan, parçalanan, torpağına hakim arzu edir. Haqverdiyev bir ulusal, aydın, ziyalı yazıçı kimi xalqı aydınlaşdırmağa, keçmişini unutmamağa çağırır. tarixinə və bəlkədə sənət əsərlərini yaradarkən öz kölündə belə duyur danışır. Torpaqımı böldülər ama öldürə bilmədilər, ulus hər iki sahildə dillənəcək,dirçələcək, dilini, mədəniyyətini, tarixini vicdanını muhafizə edəcəkdir. Mənliyini saxlayacaq və məndə bu xalqın bir ədib və dramaturq oğlu olaraq, tariximi çağdaş həyatimızla birləşdirib bədiii surətlərlə güclü viqarlı yaşamağı ölkədə əbədiləşdirəcəyəm. Əbdürrəhim bəy böyük maarifçi, Alim və ziyalı ədibdir, onun müsbət qəhrəmanları bunu subut edir, çün müsbət surətlərin yaranması üçün sənətkar yüksək mənəvi səviyyədə durmalı,zəngin hər tərəfli bilik, bilimsəl idraka malik olmalıdır. Gərçəkdəndə Haqverdiyev bəy belədir. ulusal ədəbiyyat yaradıcısıdır. Ulusal ədəbiyyat Türkçü və devrimci ədəbiyyatdir,türkçülük yazıçının böyük həyat məqsədi ilə, həyatı devrimi surətdə yenidən qurmaq ideali ilə şərtləndirməlidir, yaradıcılıqla türkçülyünə çatmalı,yəni sənətkar, xalq, toplumsal, bəşəriyyətə, qarşısındakı vəzifədən ilgisini artırmalıdır. Əbdürrəhim bəyin yaratdığı "Ağa məhəmməd şah qacar"obrazı, alim, kitab oxuyan və bilim adamdır pin bir bölümündə, xalqdan biri dostuna deyir : "xanın kitab oxumağa maraği çox artiq həvəsi var. . . ", kitab onu düşündürürdü. Haqverdiyevin fikricə xalqimizin böyük dərdi Molla Nəsrəddinçilər diyən kimi nadanlıq, bilim dalıca getməməzlikdir. ". . . . bəzən görürdün kitabı oxuyandan sonra, gözün yumub, şəhadət barmağını kitabın arasına qoyub gedib dərin fikirə. . . . " doğrudur mütaliə edən bir ulus kəndi əhvalatına yaxşı düşünər. Tarixi, zamanı şüurla dərk edib anlar. Haqverdiyevin dövrundə bilim, mütaliə, savadlanmaq kimi mövzulara, xalq çox

az maraq göstərirdi, xalqın yarısı qadınlar olaraq çoxu dini fanatik baxışlara görə, bilimdən məhrumudu. "Ağa məhəmməd xan"ın bir başqa xüsusiyyətidə onun vətənpərvərlik, xalq sevərliyidir, elə birinci pərdədə obrazların birində belə eşidir ki ". . . . ulus və məmləkət mənfətini mülahizə edib, o tədbirləri tökürdü. "(44, s. 120) Ağa məhəmməd xan qacarın tədbirləri yalnız ulus və məmləkət üçündür. Haqverdiyevin yaşadığı dövrün politikası və hökümətçiliğin böyük xəstəliyi ulusun mənafeyini unudan, kəndi mənafelərini qoruyan politikaçıların tədbirləri və əməlləridir. On doqquzuncu və yirminci əsrin əvvəllərində belə bir politikal xəstəliyindən Azərbaycan xalqı çoxlu kötü durumlara düşüb dalı qalmışdı. Haqverdiyev vətəni Azərbaycanın parçalanmasından da çox kədərlidir, belə bir şərayiti Azərbaycanın başına gətirən Haqverdiyevin fikricə hakimlərin tədbirsizliyi, qorxaxlığı, Azərbaycanın hakimləri, şahlıq,hakimliq,qüdrətlərini saxlamağı, ulusa, məmləkətə üstün tutmaqlarından bilirdi. ". . . . Bu hökmranların hamısı bir_ birilə müddəyidir, əgər bunların muqabilində bir ağıllı şəxs çıxıb başına qoşun yığa bilsə ki az müddətdə hamısına qalib olub ənan- səltənəti keçər əlinə. . . . . " xalq hakimlərinə belə durumda necə güvənməlidir, nə yolla, tədbirlə vətəninə kömək etməlidir, belə bir məmləkətdə aydınlaşmaq, özgürlük uğrunda mübarizə etmək layiq insanları xalqın içindən seçib məmləkəti onun tədbiri ilə idarə etmək. . . . ". Ağa məhəmməd şah qacar" bir tarixi dram olaraq çağdaşlığıda onun məzmununda yaşayan devrim və düşüncə hərəkətdir. Haqvrdiyev bu əsərdə çox yaxşı və dərin devrimi və xalqa hərəkət verən düşüncəni şahın obrazında yaradır, şahın obrazında onun ağzından çıxan sözlər və verdiyi fərmanlar, savaşları və əməlləri Azərbaycan xalqına devrim yolunu daha ağıllı və aydın göstərir. "Ağa məhəmməd şah qacar" əsəri Haqverdiyevin politikal mövzusu, xalqın komsomol düşüncəsinin dirçəlməsi, öz talelərini ələ almaq amacı, onun konsepsiyasında əsas yer tutur. Ağa məhəmməd şahın dediyi kimi: ". . . . quvvət çoxluqda olmaz, tədbirlə, qeyrət və namusla olar. . . . "(117, s. 87) tədbirilə, qeyrət və namuslu yaşamaq bütün özgür və ziyalı insanların dünyada amalıdır, "az olub şir olmaq, çox olub tülkü olmaqdan məsləhətdir. . . . ". doğrudur az ömrdə eləsən baş uca yaşa. . . bunlar hamısı bir ziyalı və pedaquj maarifçi Haqverdiyevin düşüncəsidir ki şahın obrazında dilə gəlir və xalqa söylənir. "Ağa məhəmməd şah qacar" əsəri demək olar ki Əbdüürəhim bəyin Türkçülük uğrunda yazan möhüm əsəridir. Əsərin hərçənd yazılan dilində yəni Türk dili olmaqla çoxlu ərəb və fars sözləri də qarışıb və tez-tez pyesdə Iran adı çəkilir və Ağa məhəmməd xanin ona əsil sevgisini hər görüşlərində və danışıqlarında dilə gətirir, amma neçə səbəbə görə bu pyesə demək olar ki,

Türkçülük amacı ilə yazılıb: birinci o ki bu pyesin qəhrəmanı bir Türk şahdır və Türk kökənlidir. İkinci odur ki Iranda Türklərin əksəriyyət olduq da,bəs hakimidə bir Türk olmalıdır. Uçüncüsü, bu pyes oktiyabr devrimından "1917, qabaq, yəni 1907-ci ildə yazılıb. O illərdə ki Türk ədəbiyyatı Türkçülük uğruna, yeni insan problemlərini? yeni ulusal ədəbiyyatla çözməyə başlamışdır. Dördüncüsü,"Ağa məhəmməd xan" yaşadığı dövrdə Azərbaycan büyük müstəqil bir ölkə kimi qacarilərin hakimiyyətində, ən möhüm ticarət, bilim, qüdrət , vəliəhdlərin böyüdüyü, yaşadığı önəmli bir əyalətlərdəndir. Beşinci nədən, pyesin özündə "Ağa məhəmməd şah qacar"ın diyaloqlarıındadır : "şükür olsun allahın cəlalına ki farsistana qalib olduq. . . isfəhan torpağına malik olduq. . . mənim fikrim Tehranın qələsini möhkəmləşdirib Tehranı həmişəlik isfəhan əvəzinə, Iran başkəndi etməkdir. Tehranın köçəri Türk tayfalarının yaxınlığında olmağı çox şərtdir. . . . ", şahın Tehranda kı Türklərə güvənməsi və oranı başkənd etməsi də elə Haqverdiyevin türçülük məfkurəsindən irəli gəlir. Altıncı örnək yenədə pyesdə, şahın diyaloqlarından örnək gətirilib ki şah Türk tayfalarına ilk öncə məktub yazır və onların ustlərinə qoşun göndərməkdən vaz keçir. ". . şahənşahı- Iran Ağa məhəmməd şah qacar tərəfindən əfşarın qəyur sərkərdələri ilə qoşunlarına, əfşşar qoşununun qacar üstünə gəlməyini fikir etdikcə mənim ürəyim qana dönür, mənim səltənətimdən, cəlalımdan, şovkətimdən artıq Iranın xoşbəxtliyidir, amma iki Türk tayfasının üzbəüz durub bir – birinin qanını tökməyi iranın tənəzzülünə səbəb olar və onun düşmənini ayaqlandırar, mən heç mane deyiləm ki əfşar tayifəsi öz sərkərdələrinin təht rəyasətində rahat dolanıb, özlərinidən mənfəətbərdar olalar. Ancaq ürəkdən əfşarlarla qacarların birləşib umumi düşmənın dəfinə çalışmaqlarını arzu edirəm. . . . " ya başqa bir diyalogiyada şah qacarilərlə əfşar tayfalarının birləşməsində mutluluğunu dilə gətirir : "şükür olsun allaha ki iki böyük Türk tayifəsı bir – birinə əl verib düşməni sərnigün elədi". Şahın sevgisi Türk taifələrinə Türk olmayan taifələrdən fərqilid. Türk taifələrinə ilk öncə dostluq məktubu göndərir, Türk olmayan taifələrə qoşun göndərir,və bəzən bu qoşunlara sərt və rəhmisiz fərnmanlar verir ki düşmənləri məhv etsinlər. Örnək üçün Kirmand fars taifələrinə Əliquluxanı göndərəndə belə fərman verir : ". . . . əliqulu! güclü qoşun qötürüb gedərsən Kirmana Lütfullah xanın qöşununu tərk edərsən, əgər qaçıb gizlənsə Kirmanda daşı-daş üstə qoymayasan. Qoca kişilərə, övrətlərə, südəmər uşaqlara heç birisinə rəhm etmərsən. Gərək Kirman əhlinə bir divan tutasan ki cəmi İran titrəsin, Lütfullah xanı və onun əqrəbasını ələ gətirib ya qırasan ya gözlərini çıxardarsan. Xatircəm oluram ki tapşırdığıma dürüst əməl edəcəksən"Bu alim,aydın tədbirli

Şahın başqa uluslara münasibətləridir. Əbdürrəhim bəy vətənin qara taleyini parçalanıb,müstəqilliyinin, dağılmasını dərindən hiss edərək Türkçülük əsasında ulusal şüur və düşüncəsi ilə Ağa Məhəmməd şah Qacar əsərini yaratmaqla, xalqının ən düzgün və döğru inkişaf yolunu, tədbirli,bilimsəl Türk soylu, Türkçü, vətənpərvər, alim, güclü hakim və Türk birliyini qoruyan duyğusunu yaradan politikaçı, güclü sınılmazlığını, bədii obrazla göstərir. Gülüstan və Türkmənçay müqavilələri, Azərbaycanlıların həyatında ən acı unudulmayan dağ və ağı kimi həsrət və ayrılıq acısıyla, ruhlarını sıxıb doğrayır. Bu acı ayrılıq həsrəti Quzey Azərbaycan xalqını iki ölkəyə sarı çəkirdi. Birisi parçalanmış Güney bölgəsinə,ikincisi də Osmanlı imperatorluğuna və bunların qarşında, həm soy həmdə din baxımından ruslardan, Azərbaycan və Qafqaz Türk xalqı nifrət edirdilər. Haqvediyev "Ağa Məhəmməd xan" obrazında Azərbaycan xalqının dşüüncəsini çox gözəl yaratmışdır. Ağa məhəmməd şah Türklərə yalnız yuxarıda qeyd olan mövzuda, öfkəli təpki göstərirdi. Pyesin ikinci pərdəsində Azərbaycanın o xanlıqları ki ruslara meyl göstərirdilər, onların xanlarını məhv etməyi kəndinə bir amal və məram kimi nəzərə alırdı. Haqverdiyevin "Ağa məhəmməd şah" obrazı vaqeyi alim və ədalət sevən, xalqı qoruyan bir şahdır, onun gözündə və təfəkküründə . .". rəiyyət məhəbbəti qazanmaq padşahlığın ilk vəzifəsidir, belə düşüncədə olan, dünyasını qurmaq arzularındandır, "Ağa məhəmməd şah qacar" əsəri Türk ulusal bir əsərdir. Onda Türk tarixindən faydalanan və ulusal şüur və düşüncədən qaynaxlanan obrazlar, Türk dünyasının böyük şəxsiyyətləri kimi, bu əsər Türk xalqının həyatında böyük tarixi röl oynayıbdır. Tarix bu əsərdə etkili vasitə kimi Azərbaycan xalqının çağdaş həyatını təsvir edir. Yazıçı hər şeydən öncə bir söz adamıdır. İçində yaşadığı toplumun gələnəksəl dəyərlərini paylaşa bilir və ya onlara qarşı çıxa bilir. Hər iki durumda da yazıçı içində yaşadığı toplumun sözcülüğünü ifa edir. Dram yazıçısı gənəlliklə toplumun, günlə və tarixlə ilgili bilgilərini, inanc və görüşlərini, kəndi düşüncə və görüşünə xitmət edən, seçdiyi doğrularını olayları canlandırıb, adlandırmaq əyləmə dönüşdürən adamdır. Pyes yazıçısı, əsərində olayı içdən duyub, ruhilə danışdıraraq, tamaşaçılar üzərində bir etkili əsər ortaya qoyur və onlardakı görüş və düşüüncələri deyişdirməyə çalışır. Mövzusunu tarixdən alan yazıçı tarixi olayı pyesə dönüşdürərək olayın saxladığı yaradıcı gücə çox yönlü və sürəkli bir etkinlik qazandırma amacını güdür. Haqverdiyev bəy də bu düşünncələrlə Türk tarixindən etkili bir olay olan və özəlliklə Azərbaycan Türklərinin taleyində Qacar silsiləsinin rolunu Türkmənçay və Gülüstan müqavilələrinin gətirdiyi ağır və zor sonuçlar və etkiləri, Azərbaycanlılara bir faciə janrında

formalaşdırması, daha önəmli və dəyərlidir. Tarixdən alınan mövzu yazıçının üzərində görüüşlərilə, dram janrında yaranan olay, tamaşada əsərin kəndisi danışaraq, tamaşaçıları iqna edir. Dramın böyük önəm və dəyərli etkisini duyan yazıçılar, umumiyyətlə qalarcı sənət əsəri yaratmaq üzərə, dönə-dönə tarixə müraciət edirlər. Onların düşüncələrinin və yaradıcılıq, empirik kontekslərində tarixi olaylar və olaylarda böyük yer tutan qəhrəmanların topluma təsir edici potensiyalını duyaraq, ölməz əsərlərini yaradirlar. Niyə ki dram sənəti, insanların tərbiyəsində anlayış və davranışlarının deyişdirilməsində çox etkili bir rol oynayır. Tarix bilimsəl gərçəkliyin oysa estetik gərçəklıyın peşindədir. , ikisidə inandırıcı olmaq zorundadır. Tarix yazıçısı yalnız gərçəkləri yazır, amma dramaturq, tarixi gərçəkləri, təsir edıcı, tərbiyə etmək və deyişdirmək amacilə yorumlayıb, güclü, etkili sənət əsəri yaradır. Tarixi bir olaya və olayın qəhrəmanına sənət yoluyla verilən çağdaşlıq, tamaşaçıların ruhuna təravətlik, hərəkt və dayanılmaz və unudulmaz pafus oyadır, insanları o tarixi olaya aydınlaşdırıb yaşadığı çağın problemləri qarşında pasivirilikdən qurtarır və onlarda patetik həvəs, duyğu hərəkətə səbəb olur. Beləcə zamana, qarşı duruma, toplumun mülkünü, zamanın yağmalamasına qarşı savunma hətta bu mövzuda əyləmə keçmə mümkün olur. Yazıçı bir söz adamıdır. Sözdə əyləmə hökm etməsə belə əyləmin yolunu aşmaqda etkilidir. Teatr sənətilə özəlliklə səhnədə kəndisi danışan olaylarla oluşan teatr əsərində insanları eytimə və əyləmə yönəltmə çox işlənən ən yaxın yoldur. Azərbaycanın politikal və kültürəl gərqinlik gərəlim günlərində tarixi olaylarına yenidən baxmaq və etkili sənət janrı olan teatrla səhnəyə çəkmək amacı Haqverdiyev kimi ziyalı Türkçünü maraqlandırıb ki "Ağa Məhəmməd Şah Qacar" əsərini yaradır. Bu əsər bütün Türk xalqlarını və özəlliklə Azərbaycan xalqını birliyə, müstəqilliyə, özgürlüyə, kimliklərini qorumaq üzərində eytim almağa çağırır. Bu əsər ziyalı, maarifçi,vətənpərvər, Türkçü Əbdürrəhim bəy Haqverdiyev tərəfindən bir çağrıdır ki, vətən uğrunda ulusunu qorumaq və onların kültür və mədəniyyətlərini zənginləşdirmək və bu yolda yorulmaq bilməyən inkişafa doğru gedən əsil köklü Türk xalqını əbədi baş uca yaşamaq üçün mücadelə verməyə dəvət edir.

**III. FƏSİL**

## SOVET DÖVRÜ AZƏRBAYCAN DRAMATURGİYASINDA, TARİXİ ŞƏXSİYYƏTLƏRİN BƏDİİ SƏCİYYƏSİ

### 3. 1. C. Cabbarlının"Od gəlini" əsəri tarixi mübarizənin təsvirində müasir ideyalar

Şair, nasir, dramaturq 20 mart 1899-ci ildə Xızı kəndində anadan olur, 1934-ci ildə Bakıda vəfat edir. "Bahar" adlı ilk şeri 1915-ci ildə "məktəb" jurnalında çap olmuşdur, yeni açılmış BDU tibb fakültəsinə daxil 1922 olmuşdur. "Sevil-1929", "Almas-1930", "1905-ci ildə-1931", "dönüş-1932",onun dəyərli əsərlərindəndir. C. Cabbarlı teatra böyük qiymət verir və onun başlıca rolunu xalqa xidmətdə görürdü. Teatr haqqinda yazdığı qeydlərindən birində oxuyuruq: "Teatr yüksək bədii bir dərəcədədirsə ölkədə ümumən gözəl inkişaf edəcəkdir, mədəniyyət, elm və sənətdən ibarətdir, teatr isə sənətin başqa bölümlərini birləşdirir"( ) C. Cabbarlının "Ədirnə fəthi", "Terablis müharibəsi", "Bakı müharibəsi" Türk tarixindən tarixi dramları Türk dünyasının bir parçası olan Azərbaycan yurdunda cumhuriyyət dövrü bir genc yazıçı olaraq,böyük dramaturqlari ilə yanaşı tamaşaya qoyulduğu əsərləri ilə xalq tərəfindən yüksək səviyyədə qarşılanırdı. "Bakı müharibəsi" pyesi Azərbaycanın XX əsrin əvvəllərində ən ağır ziddiyyətli dövrün bədii çağlarda və dramatik tonda özündə əks etdirən tarixdir. Bu əsər zalım və qatil erməni hərbi bandaların, amansız mübarizə aparan "Nuru paşaya, Mürsəl paşaya, Məhəmməd Tofiq bəyə" minnətdarlıq çələngidir. "Bakı müharibəsi" əzəli və əbədi qardaş Türkiyyə xalqının yaxın keçmişinə istedadlı genc dramaturq Cabbarlının həsr etdiyi tirilogiyanın "Ulduz və Ədirnə fəthi" pyeslərindən sonra üçüncü dəyərli hissəsidir. Dövlət qoruculuğu prosesinə yaxından köməklik göstərən genc Cabbarlı həqiqi vətənpərvər istiqlal ideyalarına sadiq ulusal ruhlu Türkçü idi. Ulusçuluq və vətənsevərlik ruhunda yazılmış, "yaşasın Azərbaycan", "Turan ellərinə salam söyləyin" şerlərini ulusal himin yaradıcılığı istiqamətində irəliyə atılmış uğurla addımlardan hesab etmək olar. Onun hürriyyətçiliyi və ulusçuluğu Türk hürriyyətçiliyi və ulusçiuluy idi. Yurdçuluq onun nəzərində Türk ulusunun geopolitik durumundan doğurdu. "Od gəlini" tarixi dramı böyük ulusal Türk qəhrəmanı Babəkin xalqı ilə birlikdə özgürlük uğrunda

apardıqları qanlı mübarizələrinin inikasıdır. C. Cabbarlının 1920-1923-cu illərdəki ədəbi fəaliyyətinin ən yaxşı nəticəsi "Aydın" və "Oqtay eloğlu" pyesləri oldu, ideya və üslub cəhətindən bir-birinə yaxın bu əsərlərdə cabbarlı pulun hökmdarlıq etdiyi bir cəmiyyəti, bu cəmiyyətdə əzilən zəhmətkeşlərin faciəsini göstərmişdir. "Oqtay eloğlu" əsərini yazmaqda cabbarlının məqsədi Azərbaycan milli teatrını yaradmaq ideyası idi, oqtay pərəstiş etdiyi xalq səhnəsini yüksəltmək, ulusal teatr yaratmaq uğrunda dinclik bilmədən çalışır. O səhnə xadimidir. Səhnəni bütün varlığı ilə sevən oqtay hər şeydən əvvəl yaradıcı bir insandır,yaradıcılığı onun əsas keyfiyyətidir. Cabbarlı yaradıcılığının ilk dövründə yazılmış pyeslərində "Vəfalı səriyyə-1915","Solğun çiçəklər-1915", "Nəsrəddin şah-1916", "Ədirnə fəthi-1917" məharətlə süjet qurmaq, fərdi psixoloji xarakterlər yaratmaq yolunda göstərdiyi səylər artıq qənc C. Cabbarlıya oxucu rəğbəti qazandırmış olsada,onun geniş oxucu tamaşaçı kütlələrinin hiss və duyğuları, fikir və düşüncələri üzərində əsl dramaturq hakimiyyəti özəlliklə tarixi dramda "Bakı müharibəsi"," trablis müharibəsi", "Ulduz", "Ədirnə fəthi", "Od gəlini", əsərləri ilə ulusal dramaturgiyanın binasını möhkəmləndirib və Cabbarlının yerini bir Türkçü dramaturq kimi Türk dünyasında yerləşdirir. Cabbarlının əsl peşəkar ustalığı, bədii texniki, yetkinliyi, həyatı konfliktlər, təbii diyaloqlar qurmaq məharəti, ilk dəfə olaraq bu pyeslərdə tam qüdrəti ilə təzahur edir. Cabbarlı Azərbaycan dramaturgiyasında realizmin banisi sayılır, ulusal dramaturgiyaya təzə mövzular gətirib, yeni dövrun ən çeşitli sosial tələbələrini təmsil edən zəngin xarakterlər silsiləsi yaradıb,bu janra mohtəşəm peşəkarlıq səciyyələri asılayıb, bədii tiplərin dramaturji təsvirinə əvəzsiz olub, teatr və kino sənətində yazıçı və rejissor kimidə çalışıb. Şekspirin "Hamlet" və"Otello" faciələrini, Aleksander Afinoqenovun "Qorxu" dramını- Piyer bomarşenin Fiqurunun toyu" komediyasını Azərbaycan dilinə tərcümə edib. İlk səhnə əsəri "vəfalı səriyyə" yaxud "göz yaşları içində gülüş" pyesidir. Melodram janrında işlənmiş bu əsər 1915-ci ildə tamamlanıb. Qadın özgürlüyünə çağırış, cəhalətin nadanlığın tənqidi, primitiv feodal düşüncəsinin sərt ifşası, Azərbaycanın ulusal dramturgiyasında yeni olmasada Cəfər Cabbarlı mövzuya müstəqil və aydın baxım bucağından yanaşması ilə seçilir. Dramaturqun ikinci dram əsəri "Solğun çiçəklər" pyesidir ki ailə-məişət mövzusunda 1917-ci iıdə tamamlayır. "Nəsrəddin şah" dramını 1916 və 1918-ci illərdə yazıb, pyes tarixi janrdadır,əsər 19-cu əsrin sonlarında iranda baş verən ictimayi-siyasi hadicələrdən bəhs edir. Dramaturji konfliktin mərkəzində 1848-1896-ci illərdə İrana şahlıq etmiş, özü Qacarilər solaləsindən olan Nəsrəddin şahın hakimiyyətindən və terrorçu təşkilatın

üzvü olan mirzə riza kermani tərəfindən qətlə yetirilməsindən bəhs edilir, cabbarlının bu pyesi tarixi dram janrının estetik prinsiplərinə uyğun gəlsədə əsərin dərin qatlarında müəllifin romantizmə və monometallizmə meylini sezmək mümkündür. C. cabbarlı sosialist ideoloji altında şəkillənməkdə olan yeni toplumu cəsarətləndirmək üçün pyeslərində nadanlıq, dinə qarşı fanatiklə mücadelə edir. yazıçı,çağdaş eytimin çox önəmli olduğunu görür və eytimi özgürlüyün və insalığın mutluluğunun harda olursa dalısıca yürüyərək ona arxa olub dəyərləndirir. Cabbarlı realist bir yazıçıdır yalnız realistini sürəkli uzun müddət romantik motivlərlə bəziyir, bu yolda tez-tez eşqdən və bəzən vətən sevgisindən faydalanır. Yazıçı hər zaman "sənət toplum üçündür" əsas və əslinin müdafiə edir. "Sənət sənət üçündür"anlayışın mənimsəyən ədəbiyyat adamlarını məhkum edir. Cabbarlının düşüncəsində hər şey toplumun yüksəlməsinə ayırddır. c. cabbarlı hər şeydən öncə gözləmci bir yazıçıdır, gördüyü və duyduğu olayları toplumun ən gizli yaşadığı hadisələri, pyes janrında yaratmağa çox başarılıydı. Cabbarlının ilk əsərləri Azərbaycanın sovetlər hakimiyyətindən öncə yeni 1920-ci ildən əvvəllərdi. Türkçülük, ulusçuluq qavramını dramaturgiyaya gözəl qəbuledici bədii surətlər və obrazları ilə yeni bir həyat kimi ulusal ədəbiyyatı canlandırır. Azərbaycan dramaturgiyasında bu mövzularla yanaşı, cümhuriyyət dönəmində, feodalizimin mənfi gələnək və güvənəklərin, din və nüfuz istismarının ifşa edilməsinə dəyərli yardımlar edir. Bu əsərlərdə, eşq, sevgi, yoxsul insanların yaşam qayğısı, toplumdakı yayğın rüşvət, zəngin olma tutqusu və ədalətsizlik Türklərin qanlı müharibə və qəhrəmanlıqları kimi təməlləri ön plana gətirir. Sorunların çözümlərində, eytim, humanizm və toplum iradəsinin önəmindən bəhs edir. Yazıçının əsərlərində sürəkli edilgən bir görüntü verən qadın aydınlaşmanın və erkəyin hegemoniyasına baş qaldırının ilk örnəyini Sevillə başlayır. Sosialist toplumun, qadınına kişilik qazandıran eyləmlər zəncirinin ilk halqası eytimdir. Eytim almış qadın sevil, Almas və dönüş pyeslərindəki qadın xarakterləri kimi şüurlu və güclüdür. Hədəfləri və ideyaları vardır. Yazıçının əsərlərindəki obrazların çoxu gərçək həyat da yaşayan şəxslərdir. Almas pyesində yer alan Fatmanisa, yaz aylarında Şorabad kəndində yaşayan kənd abası Şərəbanıdan başqası deyil, hər iki qadın da tipik bənzərlikləri gözə dəyir. Eyni şəkildə hacı əhməd də şurabad da yaşayan hacı əşrəfdir. Pyesin mövzusu da adı çəkilən kəndə yaşanan bir hadisədən alınmışdır. Cabbarlı özəlliklə olqunluq dönəmindəki sevil, Almas, Yaşar, Bakı müharibəsi, Ədirnə fəthi, Trablos müharibəsi, "Od gəlini" kimi pyeslərində sosial-iqtisadi, Türk kimlik və kültür qorumaq gəlişmə arzusunun topluma ədəbiyyat araclığıyla verliməsini

hədəfləyir. Cabbarlının pyeslərindən faydalandığı teatr texniki, mövzu seçimi ilə ilgili olaraq, getdikcə gəlişmə göstərir, pyeslərinin mövzuları kimi temaları da gənəlliklə güncəl və evrənsəldir, olay örgüsündəki ara və ana divarları oluşduran münasibətlər, öncələri qarmaşıq və əzəmətli ikən daha sonra gözlə görülür bir şəkildə sadə amma son dərəcə etkili dialoqlarla möhkəm dramatik bina qurulur, beləcə olay örgüsünə ustaca monte edilən gərçək hadisələr və gərçək şəxslər Cabbarlının dramaturgiyasında texniki ilə də bütünləşərək özəlliklə yazıçının olqunluq dövrünə aid əsərlərində toplumu aydınlatıcı bir rol üstlənirlər. Üzünü topluma və onun sorunlarına çevirmiş bir yazıçı olaraq, cabbarlı realitədən heç bir pyesində ya bir sorunu seçər, yada seçdiyi sorunlara sosialist realizm çərçivəsində çözüm yolları gətirir. Cabbarlının əsərləri Azərbaycanın ulusal ədəbiyyatında mövzu və dil açısından çox önəmli yer tutur. Cabbarlı yaratdığı obrazların mənəviyyatını hiss və duyğularını təbiiliklə çatdırır, onun pyesləri gərgin yaradıcılıq axtarışların geniş dünya görüşünün, ensiklopedik biliyin, ulusal düşüncə və vətənpərvərlik şüurunun yüksək amacı, nəhayət cəsarətin sayəsində meydana çıxır. Pyeslərin mövzu çeşidliyi, onların aktuallığı ilə mənalanır. "Od gəlini" pyesi bədii, estetik dəyəri və müasirlik pafosu baxımından daha qüvvətlidir. Süjet boyu öz həyatlarını istədikləri kimi qura bilməyən qəhrəmanların axtarışları, xəyalları,dünyaları və bu dünyada özgürlük uğrunda amansız mübarizələri və zülmə baş əyməmələri oxucu və tamaşaçını sonadək həyəcanda saxlayır. Pyes dərin məntiqə və dramatizmə malikdir. O tamaşaçıları həyat gərçəkləri və ziddiyyətləri ilə tanış edərkən böyük ölümsüzlük, davamlı, aydın və dəyərli insan haqları qorumaq uğrunda sevgiyə dayanaraq mübarizəyə və baş uca yaşamağa dəvət edir.

"Od gəlini"ni C. cabbarlı 1924-cı ildə yazmağa başlayır. bu tarixi pyesini 1927-ci ildə tamamlayır. " Od gəlini, mövzusunu 9-cu sənədə Azərbaycanı işğal edən ərəb istilaçılara qarşı qəhrəmanca özgürlük mücadiləsi verən əfsanəvi Babək dən alır. Əsərdə ərəblərin islam dinini Azərbaycanlılara qılınc zorla qəbul etdirdiyindən qadın özgürlüyündən və tanrı tanımazlıqdan söz edir. Əsərdə verilən mesajlarla geniş yurd sevgisi, ədalət duyğusunun ucalması, Azərbaycan qadınının özgürlük məsələsi, dinlərin və tanrıların yox edilməsinə əsas yer verilir. Cabbarlı ilk əsəri olan "Vəfalı səriyyə "dən etibarən qələmə aldığı hər əsərində əsas olaraq "Sənət həyat üçündür "və ya "sənət xalq üçündür"nəzəriyyəsindən ayrılmır. Cabbarlının görüşündə, sorunların seçimində toplum uzman və mühəndisi kimi hərəkət edərək gözləmlər yapmaq və analitik çözümlər ürətmək əsasdır. O xalqdan qopuq, xalqa yabançı olan bir sənət anlayışını heç bir

zaman qəbul etmir. Sənətçi hər şeydən öncə topluma işıq tutma və çağdaş mədəniyyətlər səviyyəsinə çatdırmaq vəzifəsini ifadə etməlidir. Bu bağlamda Cabbarlı bir sovet yazıçısı olaraq xalqın həyatında ortaya çıxan böyük sosial olayların mahiyyətini düzgün anlamış və realist boyalarla açıqlamışdır. Cabbarlının fikrincə əsər eyni zamanda,həm tamaşaçının şüuruna həmdə duyğularına deyil yalnız şüuruna etki buraxmaq üçün yazılırsa sənət deyil. İşində yaşadığı toplum, Cabbarlı üçün gerçək bir malzəmə xəzinəsidi. Dolayısıla, toplumsal sorunların ifadə edilməsində bu xəzinəyə müraciət edir. Cabbarlı doğrudan da "sənət toplum üçündü" anlayışına kəsin inanırdı. Bu nədənlə əsərlərinin dili, içində yaşadığı toplumun dilidir. Özəlliklə olqunluq dönəmində yaratdığı əsərlərində, fikirlərinin və vermək istədiyi mesajların süslü, anlaşılmaz sətir arasında itib getməyə yol vermir. Bu amacla əsərlərində ki dil son dərəcə sadədir. Üslub isə fəlsəfi bir kisvəyə bürünən söyləmələri ilə olduqca görkəmli və düşündürücüdür.

"Od gəlini" müəyyən anlamda tarixi qəhrəmanlıq dramı janrında işlənən, mövzunun estetik həllinə görə tamamilə yenidir və pyes Cabbarlının yaradıcılığında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilib. Dramın qəhrəmanı Elxan müəyyən mənada tarixi şəxsiyyət olmuş, ərəb istilaçılarına qarşı rəşadətli mübarizə aparmış 795-838-ci illərdəki sərkərdə Babəkin, prototipidir. Amma dramaturq bundan bir bədii vasitə kimi istifadə edərək romantik-psixoloji, real-dramatik faciə qəhrəmanının xarakterini yaradıb, Elxanın cəsurluğu, igidliyi və rəşadəti islam ideyaların təbliğatçısı Əfşinin mürəkkəb obrazı ilə üzləşmədə daha canlı görünür. Elxanın sevgilisi, məhəbbətində paklıq və qüdsiyyəti ləyaqətlə qoruyan solmaz,istilaçılara qarşı döyüşlərdə məsləklərindən dönməyən Qorxmaz, Dönməz, Toğrul, Gülgün, Altay, Ildırım, sönməz vətənin mübarizəsi uğrunda mübarizəyə qoşulmaqda psixoloji sarsıntılar keçirən yanardağ maraqlı təsir bağışlayan Oddamdı. Qəddar qan içən Əbu Übeyd, puç mənəviyyatlı, miskin Altunbay, riyakar Rəbi obrazlarının bədii təsviri"Od gəlini" faciəsinə möhtəşəm monomentallıq gətirib, pyesdə konfliktin mahiyyəti, dramaturji gərginliyi həm toplumsal münasibətlərdə, həmdə ayrı-ayrı obrazların psixoloji münasibətlərində bədii realizəsini tapıb. Sosial münasibətlərin bu temalar üzərində şəkilləndiyi bir toplumda əskik axsayan yönləri təsbit edilməsi və tənqidi Cabbarlının sənətə baxış açısını ortaya qoymasında ilk önəmli mərhələni oluşturur. Ona görə sənət toplumun sorunlarını ortaya qoymaya və çözüm yollarını göstərməyə araçılıq bir fəaliyyətlər silsiləsindən başqa bir şey deyildir. Sənət doğrudan doğruya topluma yönəlik olmalı, yönəldiyi kütləni etkiləyə bilmək üçün, ağıl, duyğu, texnologiyadan məharətlə yararlanmalıdır. Bu anlayış

çərçivəsində, Cabbarlı ən qatı gərçəkləri və toplumun üz- üzə qaldığı sorunları dilə gətirirkən duyğusallığı unutmur. Ancaq tamaşaçını ağlatmaq və ya çox güldürmək də qəbul etmək olmaz. Ona görə dram yazıçısı tamaşıçını tansiyonunu kontrol altında tuta bilməli, onların duyğularına hökm edə bilməlidir.

"Od gəlini "ulusal Türkçü şüurundan qaynaqlanan bir əsərdir ki onda əsil duyğu ilə yanaşı və başqa sözlə deyilsə Cabbarlının amacını müdafiə edən bir əsərdir. Cabbarlı bu əsərdə Türk tarixini araşdırarkən Azərbaycanın, ulusal kimliyini təhlükəyə salan din adına dilini, dinini, gələnək və ənənələrini pozan ərəblər istilaçısına qarşı durur. Azərbaycan xalqının bütün varlığını, kimliyini,özgürlüyünü müdafiə edir. Dar istismarçı görüşləri ilə insanlığı məhv edən ərəblər, Elxanın Babək kimi bir vətənpərvər olduğuna inanmırlar. Onun da kölə olmağın istəyirlər. Altunbay bir Türk olaraq onların politik kölələri, Elxanı təməsxur edir ha, ha, ha! Hələ dünən hərrac bazarında əl qan, yaxa qan, dörd-beş dirhəmə satın alınmış bir kölə, yazıq bir qul nə qədər gülünc? Elxan məcburi və çarəsiz halda kölədir və bu köləliyə hər zaman fürsət tapanda qarşı durur etiraz edir, xalqının özgürlüyü uğrunda mübarizə aparır, toplumun sorunlarını çözmək, vətəni qurtarmaq onun böyük amalıdır, politik kölələri açısından, onun əl qan yaxa qan adlanması, Elxanın varlığı və mübarizəsinin və özgürlüyə varmaq çabalarının, ona baş ucalıq gətirən ölməz ad bəxş edən dayanılmaz və yüksək amallarının sonucudur. Amma Altunbay köləliyi maraqla qəbul edərək, günü-gündən özgürlüyü, kimliyini, vətənpərvərliyini əldən verib xainlik damğası andında aydın –aşkar köləliyini göstərib isbat edir. köləlikdə o qədər zillətə batır ki, öz ulusunun kötü durumuna, qəhqəhə vurur və onların daha durumunun kötüləşdirməsini söyləyir, axı onun amacı artıq ərəblər hakimiyyətində, kəndi ulusuna zülm etməklə qulluq və köləliyini isbat etməkdir. O xalqdan biri olan Qorxmaz ki başqa vətəndaşları kimi ərəblərin sitəmi altında məhv olmaqda etiraz edib Altunbaya harayını yetirir, bəlkə bu soydaşı qardaşı bir ayınsın xalqa yardım etsin. "Qorxmaz :ağamız!sizə aman gətiririk, bizim son yorğanımızı üstümüzdən, son parça çörəyimizi boğazımızdan aparırlar"Altunbay qəsavətlə deyir": Siz gözləyin. Hələ sizin qızlarınız, gəlinlərizi də aparacaqlar( ). Bu əsərin tarixilik və çağdaşlığı orasındadır ki Cabbarlı sosial baxım və dərin bir sosial alimi kimi Babəkin qiyamın və dövrün olaylarını, yaşadığı dövru və bir ulusun tarixi olaylarını, keçmişini yaşadığı anda təsvir edərək, onları düşündürməyə və kötü durumdan çıxmağa, çözüm bulmağa, fikirləşib hərəkət etməyə sövq edir. Cabbarlı milli hökuməti və onda iştirak etdiyi, Müsavat patrisinin, Türkçülük meyli ilə

ədəbi fəaliyyətə daxil olmuşdu. Türkçülük uğrunda dram, şer yazıb və çıxışlar etmişdi. 1920-ci il sovet imperiyası milli hökuməti dağıdıb, Azərbaycan xalqı yenə də Babək dövrü kimi vətəni, ulusal kimliyi böyük basqıya məruz qalıb, yenə Babəkləri çağırmaq, xalqın bu məruzə və basqıya qarşı mübarizəyə dəvət və kütlələri ulusal oyanışa qatmaq və hərəkət etdirməyə yönəltmək gərəkir. Cabbarlı dörd il müstəqil Azərbaycanın dağılmasından sonra bu əsəri, bəhs olunanan amacla yazmağa başlayır,yaşadığı toplumun sorunlarını araşdırırkən, Azərbaycanın çağdaş durumunun, kötü halının nədənlərini, "Od gəlini" əsərində, Azərbaycan xalqının dini fanatizmə və yanlış qul törədən tanrılara və ideologiyalara bağlanmaqda, keçmişlərini unudub ulusal şüur və aydınlıqdan uzaqlaşıb, ulusal kimliklərinə maraqsızlıqlarında və ulusal qürurlarının batmasında ki sovet kimi imperiyaya qul olub və ulusal hakimiyyət qurmaq fikrini atmaqda, və sonucda ulusun parçalanıb düşmənə qarşı birliklərinin yoxluğunda görür qələmi ilə düşmənə savaş açır. üç il böyük sosioloq, sənətçi, Türkçü və dramaturq ziyalının çabalarının sonucu, ulusal ədəbiyyat çevrəsində üstün bir əsər olan "Od gəlini"faciəsi yaranıb xalqı ilə buluşur. Cabbarlı xalqın üzərində hər zaman, kəndini sorumlu hiss edir və bu sorumun sonucu onun ulusal, çeşidli mövzulu və janrlı ədəbi və sənətidir ki, hamısında toplumunun, ulusunun taleyi ilə bağlı yaradıbdır. . " "Od gəlini"ndə Solmaz obrazı önəmli yer tutur. Solmaz Azərbaycan xalqının kimliyi varlığı və şərəf izzət simvoludur. solmaz bu özəllikləri və kimlik anlamını daşıyaraq, xalqın tərəfindən od gəlini adlanır. Od Azərbaycan xalqının inancları üzrə qutsaldır, bu qutsallıq Azərbaycan xalqının kimlik və varlıq anlamını daşıyan solmazla ilgisi, Azərbaycan xalqının inancı solmazın atəşgaha qurban olması ilə birləşəndə solmazın məqamı yüksək və daha artıq önəmli olur. bu nədənlə də Azərbaycan xalqı və mübarizləri solmazın, xəlifənin hərəmxansına hakimiyyət tərəfindən götürülməsinə qarşı durub onu "od gəlini " atəşqaha qurban verməsini istəyirlər. ərəblər Azərbaycanın qutsal inamlarına da hücum etməkdən də vaz keçmirlər. Gör necə xalq onların əlindən rahatsızdır.

"Oddamdı: aman, sönməz, sən məni yaman qorxuya saldın. demək bütün ocaqları dağıdıb, indi bizim ocağa da əl atmışlar?

Sönməz: onlar solmazı alıb Bağdad xəlifəsinin hərəmxanasına göndərmək istəyirlər. el buna dözməyəcə. qalxacaq. . . . biz solmazı qurban bəhanəsi ilə yox edərik" ( ).

Azərbaycanın çağdaş durumu nə qədər Babək dövrünə bənzəyir, elə bil tarix təkrar olur və bu təkrarın ağır sorumluluğu Cabbarlının boynunda bir ulusçu, ziyalı olduğunda, duyğulu

romantik qələmi ilə vətəninin ağır durumunu xalqına anlatmalı və tarixi ulusal qəhrəmanlarını sənət boyalarla, güclü, canlı, bədii surət və obrazların yaratmasıla, ulusçu, vətənpərvərlik mesajlarını ulusal sitəm altında yaşayan xalqına yetirməlidir. pyesdə xalq ziyalı qəhrəmanlarından çarə, yol gözləyib və kötü durumdan çıxmaq istəyirlər. çox kötü durumdur, Qorxmaz diyən kimi "artıq bıçaq sümüyə dayanmışdır. . . "belə durumda aydın və ziyalı Cabbarlı, qəhrəmanı Elxanın ağır görəv və sorumluluğundan Od gəlini Solmaza, xalqın ulusal kimliyi və qutsal varlığına, aşıq olmaq və onu qorumağı dramda yaratdığı hadisələrdə, obrazlarda və dolaşıq tartışmalarda dramatik duyğu və həyəcan yaradır, ideologiya basqısında, şovenist Rus hakimiyyətində, Cabbarlı örtülü etirazını Elxanın ağzına qoyub səsləndirir ki, ən böyük qanun şəxsin azad diləkləridir. . . mənim tanrım başqalarına zərər verməz azad diləklərimdir. Bu sözləri Od gəlini dramında Elxan 1924-cü ildə ideologiya və partiya basqısı altında olan xalqa söyləyir ki çoxu azad diləleklər olduğu, milli hökumətlərinin, şovinist sovetlər tərəfindən dağılmasını görüb və çoxlu azad düşüncəli, azad dilәkli, vətən övladları sovet hakimiyyəti faşisti Rus qüvvələri tərəfindən öldürülüb ya sürgün olublar və ya qürbətdə yaşamağa məcbur qalıblar. cəsarətli və sənətkar yazıçı Cabbarlı çox gözəl xalqının diləklərini əsərində inikas edibdir. Cabbarlı qorxu və dəhşət mühitində "Od gəlinini" yaratmaqla, Azərbaycanın kötü toplumsal və kültürəl durumunu göstərməklə xalqının odlu, azad diləkli vicdanlarını mübarizəyə və devrimə doğru oyatmağa çağırır ki, yenə də azad həyat və azad diləklər ölkəsini, azad insanlara vətəni Azərbaycanda gərçəkləşdirsinlər. Elxan qardaşı Aqşına baxanda, Cabbarlının yaşadığı dövründəki kimi, minlər vətəndaşları tək, ulusunun düşmənləri ilə xalqını kötü ağır duruma salmaqda əməkdaşlıq edənlər ki, yarın asmağından xəbər gətirib deyir":azad mənəmsiz, məsud bir dünya - budur mənim yolum, budur mənim qanunum, azad istəklər, azad diləklər, azad hərəkətlər – budur mənim qanunum. azad sevgilər, qorxusuz, pak və azad vicdanlar –budur mənim allahım, get, söylə ki, dar ağacını gözləyirəm. "Cabbarlı yaşadığı dövrdən rahatsızdır və bu rahatsızlığını Solmazın dilicə də belə söyləyir":

Solmaz: Yadlar mərhəmətinə sığmaq Od gəlininə yaraşmaz. Od gəlini od bağrında olmalıdır. Türklərin milli dövlətini dağıdan Ruslar, indi ona hakimdir, onların payı, sovqatı Azərbaycana kültür genosidi, Türk xalqına sayğısızlıq və düşüncəli ziyalılarına ölüm ya dustaq və sürgünlükdür. Azərbaycan xalqının tragik durumu, vətənpərvər və humanist yazıçı Cabbarlını, bir an rahat burxmırdı və ona görə də ədəbiyyatın bütün janrlarından artıq kütləyə çox tranzitiv

olan teatr sənəti ilə maraqlanır və xalqının, toplumun sorunlarını və onların çözümlərini tragik və komediya əsərlərlə traktovka edir. Cabbarlının umanisti düşüncəsi də "Od gəlini"ndə solmaz və Elxanın diyaloqlarında vətənpərvərlik düşüncələri ilə birləşib Azərbaycandan da dışarıda azad ölkələrdə də etkili intensiv olub estetik gözəlliyi ilə sənətsevərləri də sosial etkisi ilə yanaşı maraqlandırıb yaşayıb və yaşadıbdır. örnək olaraq ":Elxan . .:. torpaqlardan qan daman əski dünyanı uçurmaq, çiçəklərindən səadət gülümsəyən yeni bir sevgilər dünyası qurmaq" Cabbarlının "Od gəlini" əsərində iki ordu bir-biri ilə üz-üzə durur, biri islam ordusu ya islam mücahidləri ki, Azərbaycan torpaqlarını basan, Türk xalqına sitəm edən ərəblərdir. İkincisi özgürlüklar mübarizləridir ki Azərbaycan xalqı bu ordu da yerləşir. birinci ordunun amal, amac və hədəfi islam dini adi ilə, politikal, ekonomik və kültürəl hegemoniyasını qoruyub genişləndiməkdir. Bu yolda hər antihumanisti işlərə əl atır. Bu ordunun əskərləri ərəblər və tamahkar kəndi mənafelərini güdən bir iddə aldanmış anarxizm sevən Türklərdən təşkil tapır, bunlar dramda antaqonizdirlər. İkinci ordu Azərbaycan azad vicdan, azad dilək, azad düşüncəli və vətənpərvərlərdir ki protaqonizlər dəstəsini təşkil edir. protaqonizlərin obrazları Cabbarlı ulusal və Türkçü şüurundan, adları, düşüncələri, əməlləri v. s. prototiplər yaradıbdır.

### 3. 2. M. Hüseynin "Şeyx Şamil"dramında özgürlük mübarizəsi müstəmləkə rejiminə qarşı

Nasir, dramaturq, tənqidçi, ədəbi yaradıcılığa seminariyanın 11-ci kursunda ikən "Genifer", "Tiflis gəceyində" çap etdirdiyi kiçik həcmli məqalələrlə başlamışdır. İlk hekayəsi "qoyun qırxımı"1927-ci ildə oçerk, hekayə, ədəbi tənqidi məqalələri Bakıya köçəndən sonra 1926-cı ildən Bakl mətbuatda yayılmağa başlayır. 1926-1931-ci illərdə A. D. U –də pedaqoji fakültəsinin tarix şöbəsində təhsil almışdır. Moskovada dövlət kinematoqrafiya institutunda akademiya tipli kinossenariçilər kursunu 1938-ci ildə bitirmişdir. 20-30-cu illərdən, dövrün toplumsal-politikal problemlərini, tarixi-devrimsəl keçmişi əks etdirən hekayə, povest və romanlar qələmə almışdır. Dram yaradıcılığına isə 1939-cu ildə "Şöhrət" adlı pyeslə başlamışdır. "Şamil"(1940-1941), "Nizami" (1942), "Cavanşir"(1957) tarixi dramlarını, "Alov"(1961), "İntizar"(1944), "Qardaşlar"(1948) dramlarını da toplumsal mövzularda qələmə almışdır. Kinossenari əsərlərindən Şair 1939, Fətəli xan 1947 (bu əsəri Ənvər Məmmədxanlıyla birlikdə yazmışdır), "Səhər" 1958, "Qardaşlar" 1958-ci illərdə ad aparmaq olar. Onun başqa əsərlərindən-

dəki "Abşeron", "Qaradaşlar", "Daşqın", "Tərlan" XX əsr Azərbaycan nəsrini parladan və inkişafa yönəldən əsərlərdəndir. Onun nəsrindən söz açarkən, ilk növbədə, bu nəsrin ulusal səciyyəsi üzərində dayanmaq lazımdır. Dünya ədəbiyyatının incilərinə bələd olan M. Hüseyn hər hansı ədəbiyyatın bir başqa ədəbiyyat üzərində yüksəlməsini arzuolunmaz hal hesab edirdi. Onun fikrincə həqiqi ədəbiyyat unifikasiya yolu ilə deyil, özünə məxsus ulusal obrazlar sistemini, ulusal şəkil zənginliyini və üslub orijinallığının yolu ilə irəliləyir. Gerçəkdən də bədii əsərdə müəyyən bir xalqın ənənələri, təfəkkür tərzi, hiss və duyğuları və dil xüsusiyyətləri əks olunur. M. hüseyn Qafqazdan Türkçülüyün doğuş yeri(Y. akçura, İ. qaspıralı)olan və rus imperiyası qarışında tarix boyu Türk kimlik və varlığı uğrunda qanlı müharibələr də igidlik və qəhrəmanlıq göstərənlərdən biri olan Şeyx Şamil mübarizə və şanlı tarixini güclü və etkili sənət ocağı olan dram janrında yaradır. İkinci dünya savaşı qarmaqarışığında və bu savaşa məşğul olan Rus – Sovet sosialisti ideologiya basqısı altında ulusçu, vətənpərvər ulusal Azərbaycan ədəbiyyatının qayğıkeşi kimi M. hüseyn "Şeyx Şamil" antirus əsərini yaradır. Bu əsərin antrus keyfiyyəti və Ruslara qarşı devrimsəl düşüncəsi onun sovet dövründə tamaşaya qoyulmamasına səbəb oldu. M. hüseyn Şeyx Şamildən humanitar ulusal qəhrəman yaradır və Dağıstan yurdunu özgürlük mübarizəsinə, tarixin hafizəsindən yeni qabaqcıl düşüncələr və hərakətverici bir tərz üzərə qoyur. Onların mədəni, kültürəl, politikal haqlarını və ulusal mücadilələrini demokratiya bəşəri özgürlük mübarizəsi kimi təsvir edir. M. hüseyn Şamil obrazını ulusal qəhrəman kimi yaradır. Çünki o qəhrəmanlar haqda çox dərin fikri varıydı. Qəhrəmanlar tarixin hər çağında sayğı görmüşlər. Hər zaman hər yerdə qəhrəmanlar yetişmişdir. Qəhrəmanlıq insan ərdəmlərinin ən yüksəyidir. Ulusların da qəhrəmanları sayəsində etibar və dayanaqlı olduğu bilinən gərçəklərdəndir. Sadə "qəhrəman" olmaqla "ulusal qəhrəman" olmaq arasında fərq var. "Ulusal qəhrəman "etkisini daha böyük çapta göstərən, gələcək yüzillərə də komanda edən unudulmaz izlər buraxan şəxsdir. "Ulusal qəhrəmanlar" ulusların həyatına yön verir. Ulusal qəhrəman olmaq üçün yüksək məqamda və rütbədə olmaq önəmli deyil. Şamil təmsil etdiyi qəhrəmanlıq ruhu ilə Qafqaz Türklərinə şərəf və qurur vermiş sadə bir ruhani və Dağıstanlı mübariz Türküdür. O ulusuna hız verən enreji qaynağıdır. Onun kimi qəhrəmanlar olmadan böyük bilgin, dahi şair və ya filozof yetişdirmənin dəyəri və mənası qalmaz. Ulusal qəhrəmanları unutmaq necə bir fəlakətsə, saxta ulusal qəhrəmanları uydurmaqda o qədər dəhşətli bir fəlakət və rəzalətdir. kəndi əski tariximizdən örnək vermək gərəkirsə miladdan öncəki üçüncü yüzildə, atını və ev eşini verdiyi

halda vətən parçasını düşmənə verməyən və Türk ulusunu yaradan Tanrıkut Mətə ulusal qəhrəman tipidir. M. hüseyn yüksək bir mənəviyyat və ulusal şüurla Dağistan Türklərinin ulusal qəhrəmanı olan Şeyx Şamildən dram sənəti ilə ölməz bir əsər yaradır.

Mehdi Hüseyn Azərbaycan tarixi nəsrinin də inkişafında mühüm rol oynamışdır. Onun "Komissar" povesti, "Səhər" romanı tarixi mövzudadır. Bu əsərlərdə də o, devrimi, hadisələri, bu hadisələrdə ayrı-ayrı şəxsiyyətlərin rolunu diqqət mərkəzinə çəkmişdir. onun əsərlərində müxtəlif siniflərin nümayəndələri üz-üzə gəlsələr də, Bolşeviklərə rəğbət, kapitalistə nifrət təbliğ olunsa da, yazıçı canlı, yaddaqalan, unudulmayan insan xarakterləri yaratmışdır. M. Hüseyn təkcə tarixi nəsr nümunələri yaratmaqla kifayətlənməmiş, tarixi nəsrin səciyyəvi xüsusiyyətlərini əks etdirən məqalələr də yazmışdır. Məsələn, onun "Yazıçı və tarix" məqaləsi bu gün də öz aktuallığını saxlayır. Həmin məqalədə M. Hüseyn yazırdı: "Əgər tarixçi ayrı-ayrı faktlar əsasında müəyyən elmi nəticələr çıxarmaq yolu ilə gedirsə, yazıçının çıxardığı nəticələr bədii surətdə əks etdirilən hadisələrin ümumi məntiqindən, fərdiləşdirilmiş insan surətlərinin bir-birinə qarşı münasibətindən doğur. Tarixçi dövrün ümumi ictimai münasibətlərini əks etdirirsə, yazıçı ən çox dövrün psixologiyasını təşrih edir. Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır. Bunsuz tarix elmi yaransa da, tarixi-bədii əsər yarana bilməz". Bu mülahizələrə M. Hüseyn tarixi mövzuda yazdığı nəsr əsərlərində, həmçinin pyeslərində də riayət etməyə çalışırdı. Bu məqamda biz onun "Nizami", "Cavanşir" və "Şeyx Şamil" tarixi pyesləri haqqında qısaca söz açmaq istəyirik. Mehdi Hüseyn dramaturgiyaya Böyük Vətən müharibəsindən əvvəl tamaşaya qoyduğu "Şöhrət" pyesi ilə gəlmişdi. Sonra İlyas Əfəndiyevlə birgə "İntizar" dramını yazmışdı. Daha sonra Ə. Məmmədxanlı ilə müştərək "Fətəli xan" kino-dramını qələmə almışdı. Deməli, bu janrda müəyyən təcrübə qazanmışdı. Tarixi mövzuda dram əsərləri yazmağa onu hansı mənəvi qüvvə təhrik edirdi? İlk növbədə, onun tarixə, tarixi şəxsiyyətlərə və hadisələrə müasirlik mövqeyi aydın duyulurdu. Mehdi Hüseynin "Yazıçı və tarix" məqaləsinə bir daha qayıtsaq, Həmin məqalədə M. Hüseyn sanki bir neçə ildən sonra yazacağı "Nizami" pyesinə işarə edib yazmışdı: "Nizami dövrünün ədəbi dili Azərbaycan dili də ola bilərdi, çünki Nizamiyə qədər xalqımız "Dədə Qorqud" dastanını yaratmışdı. Heç də təsadüfi deyildir ki, şirvanşahlar hər zaman Kəyan nəslindən olduqlarını iddia edirdilər. Şirvanşahların mənşəyi haqqında rəylər onların Azərbaycanlı olduqlarını təsdiq edir. Lakin yazıçı onların siyasətinə tamamilə haqq verməyə məcbur deyildir, çünki Şirvanşah sarayının, Nizamiyə münasibətindən bəhs edən yazıçı, Nizaminin dövlət haqqında görüşləri ilə

rəsmi dövlət xadimlərinin görüşündəki fərqi və onların arasındakı ixtilafı pərdələyə bilməz. Bunsuz roman və ya dram əsəri yarana bilməz". "Nizami" pyesində M. Hüseyn dahi şairin yalnız gənclik illərini təsvir etmişdir. Amma onu böyük vətənpərvər və böyük insan kimi canlandırmağa elə bu qısa zaman kəsiyi də kifayət edir. Pyesdə Nizami bir şəxsiyyət kimi dövrünün şahlarından, hökmdarlarından böyükdür. Müəllif onun şəxsində xalq müdrikliyini təcəssüm etdirmişdir. Həmin dövrdə bir çox müəlliflər "Mirzə İbrahimov, Məmməd Arif, Əkbər Ağayev" haqlı olaraq qeyd edirdilər ki, bu əsərlə S. Vurğunun "Vaqif" pyesi arasında üzvi bir yaxınlıq var, hətta "Nizami"ni də tarixi-qəhrəmanlıq dramı kimi təqdim edirdilər və əlbəttə, bu məsələdə haqlıyidilər. Çünki "Vaqif"də olduğu kimi, "Nizami" pyesində də xarici işğalçılara qarşı mübarizə motivi aparıcı xətti təşkil edirdi. Vaqif kimi Nizami də bu mübarizədə xalqa mənəvi dəstək olur. "Nizami"-dən sonra M. Hüseyn "Cavanşir" pyesini qələmə alır və bu əsərdə də "Nizami"dəki ideyanı davam etdirir. Ancaq fərq orasındadır ki, "Cavanşir"də o, ağıllı bir şah və sərkərdə obrazını yaradır. "Şeyx Şamil" pyesinə qəldikdə isə M. Hüseyn xalqın özgürlük mübarizəsini canlandırır, Şeyx Şamilin simasında Rus istilasını qəbul etməyən mətin bir sərkərdə və din rəhbəri obrazını dramaturgiyaya gətirməklə əvvəlki iki pyesdəki tarixi qəhrəmanlıq ruhuna sadiq qalır. . . Təəssüf ki, bu pyes məlum səbəblərə görə tamaşaya qoyulmur. Mehdi Hüseynə böyük şöhrət qazandıran, onu təkcə Azərbaycanda deyil, o zaman bütün SSRİ miqyasında tanıdan əsər isə "Abşeron" romanı oldu. Bu romanın məziyyəti nədə idi? Birincisi, romanın yazılmasında dövrün, zamanın müəyyən diktəsini duysaq da "unutmayaq ki, Mehdi Hüseyn sovet ədəbiyyatının görkəmli mübəlliğlərindən biri idi, o, bu ədəbiyyatın ideyalılığı uğrunda daim mübarizə aparırdı və öz bədii əsərlərində buna riayət etməyə çalışırdı" əsər real həyatı sənətkarlıqla əks etdirmək baxımından parlaq bir nümunə idi. Doğrudur, istehsalat xətti, neftçilərin peşə fəaliyyətinin, onların gördükləri işin bəzən yerli-yataqlı təsvir edilməsi romana bir texnisizm gətirirdi, amma canlı insan xarakterlərinin təsviri bütün bunları unutdururdu. İkincisi, "Abşeron" romanı Azərbaycanı və Bakını, onun maddi sərvəti olan nefti dünyaya tanıtmaq mənasında çox böyük əhəmiyyətə malik idi. Belə əsərlərin sayı isə o zaman çox az idi. Üçüncüsü, Böyük Vətən müharibəsindən sonra kəndli cavanların şəhərə - Bakıya axını başlanmışdı və M. Hüseyn üçün bu proses çox maraqlı mövzu idi. M. Hüseyn bu cavanların daxili-mənəvi təkamülünü izləyib onların yeni mühitə necə uyğunlaşdığını izləmək üçün tez-tez neft mədənlərində olurdu. O, Tahir obrazını da məhz bu daxili-mənəvi təkamül prosesindən keçirə-keçirə qəhrəman səviyyəsinə yüksəldir. Mərhum yazıçımız İsmayıl

Şıxlı "Mehdi Hüseyn" adlı məqaləsində yazırdı: "Mehdi Hüseyn Bakı neftçilərinin həyat və mübarizəsini əks etdirə biləcək iri həcmli kamil bir əsər yazmaq qərarına gəlir. Bunun üçün də uzun müddət neft mədənlərində fəhlələrin həyatını, əhval-ruhiyyəsini öyrənir. geoloq Ağaqurban Əliyev bunları xatırlayaraq yazır: "Mehdi ilin hər fəslində, hər cür havada dəniz buruqlarına qələrdi. O, təcrübəli qocaman neftçilərlə söhbət edər, cavan fəhlələrin işinə saatlarla tamaşa edərdi". O dövrdə yazılmış bir çox əsərlərdən fərqli olaraq M. Hüseyn təqdim etdiyi obrazı çətinliklərdən, burulğanlardan keçə-keçə təsvir edirdi. Əsər haqqında o zaman Z. Kedrina, K. Zelinski, Q. Korabelnikov, L. Klimoviç, P. Skosıryev, N. Çertova kimi tanınmış rus müəllifləri, həmçinin S. Vurğun, M. Arif, M. İbrahimov müsbət fikirlər söylədilər, onu təkcə Azərbaycan ədəbiyyatının deyil, bütün sovet ədəbiyyatının nailiyyəti kimi qiymətləndirdilər. Ancaq bu əsərin neçə nəslin mənəvi inkişafında böyük rol oynadığını xatırlatmaq yeni nəslə lazımdır. Əllinci illərdə Stalinin şəxsiyyətə pərəstiş kultu aradan qaldırıldı və ölkədə az-çox demokratik əhval-ruhiyyə yarandı. "Abşeron"un davamı olan "Qara daşlar"da, daha sonra "Alov" pyesində M. Hüseyn bu əhval-ruhiyyəni əks etdirən ilk yazıçılardan oldu, "Yeraltı çaylar dənizə axır" romanında isə stalinizmin Azərbaycana vurduğu maddi və mənəvi zərbələri yenə də ilkin olaraq bədii ədəbiyyata gətirdi.

Şeyx Şamil Dağıstan mübarizlərinin önderi və qəhrəmanı Ruslarla vətəninin azadlığı uğrunda mübarizə edir. Özgürlük, humanitar yaşamaq, sədaqət, insana və onun armanlarına saqı göstərmək, sevgi və məhəbbətlə ürəklərə hakim olmaq, insanın gücünə və başarıqlarına dərin inamı olmaq, onun özəlliklərinin ən baş Sırada dayandıqlarıdır. Çar ordusu onu məhv etmək və Dağıstan mübarizlərinin özgürlük və vətən uğrunda devrimsəl hərəkatını yatırtmaq üçün Dğıstana hücum edir.

"Şeyx Şamil" pyesi sovet ədəbiyyatı çərçivəsində bir sovet yazıçısı adlanan M. Hüseynin, tarixi qaynağa və bəlgələrə söykənərək məzmun, xarakter, olayların üz verdiyi məkan, əsərin qəhrəmanı, əsərin gözəl təntənəli zəngin Türk dili və əsas sujet xətti, Türk ulusal ədəbiyyatının dram janrında güclü struktura və strotip mükəmməl estetikaya malik olduqda önəmli nümunədir. M. Hüseyn bu dramda ağlı, sevgini, dini, irqi, vətənpərvərliyi, igidliyi, özgürlük sevdası və vurğunluğunu, ulus qayğıkeşliyini, qeyrəti və ziyalılığı ulusal karizma qəhrəman Şamil obrazında canlandırır. Bu obraz elə canlı və etkili obraz və surətdir ki, pyesdə onun müridləri Dağıstalılarda başqa düşmənləri olan ruslarda onun karizma və güclü obrazı qarşında diz çökür, Tamarin kimi şair sevdalı çılğın aşiq, onun karizma, ziyalı dəliqanlı şəxsiyyəti etkisi altında

Şamilin ordusunda müharibə meydanına atılır və soydaşlarına düşmən kimi qılınc vurmağa da əl atıb son nəfəsə kimi vuruşur, dağlıların soydaşlarına qarşı qələbə müjdəsi verərək muradı, Şamilin qucağında can verir. M. Hüseyn pyesin başlanışında ruslarla dağlıların amac sınırların ayırır. Mrariya dağıstan cəbhəsində generalın mənzilində generala şikayət edərək deyir: "oh, yenə hər tərəfdə ölüm. . . hər tərəfdə qan. . . Və general belə cavab verir: əlahəzrət imperatorun iradəsi belədir. . . " (44, s. 345 )

Pyesdə Türkçülük və vətənpərvərlik insani və humanitar düşüncələrlə sonuçlanır. Qafqaz Türklərin əsil torpaqları və yurdları olaraq protaqonizlərin dilindən yox antaqonizm obrazların ağzından və düşüncələrindən duyulur. general pyesdə Şamilin və o cümlədən Dağıstan Türklərinin əsil düşməni olaraq :Qafqaz böyük və sarsılmaz bir qaladır. . . sözün deyir. Doğrudan da Qafqaz hər zaman Ruslara ölüm və dəhşət məkanı olub. M. Hüseyn Qafqazın tarixin çox geniş və aydın tanıyır və bu açıdanda bu tarixi dramını və onun sarsılmaz əbədi qəhrəmanı, Türk özgürlük və mübariz vətənpərvərlik simvolu Şeyx Şamili, sənət yaradıcılığında bu tarixi pyesində seçir. Qafqaz Türkləri tarix boyu Rus imperiyasına qarşı qanlı müharibələr keçirmiş və ulusal müstəqilik mücadiləsi vermişdir və hələ də verir. Qafqaz həmən Qafqazdır ki, Türkçülük anlamı və ideologiyası orada və Türk ziyalılarından dünyaya yayılıb. İ. Qaspıralı, Y. Akçura, Ə. cavad, Ə. Hüseynzadə, H. Cavid, və b. bu yurdun qabaqcıl Türkçü, Turançıların yurdudur və indi də M. Hüseyn o nəslin varislərindən ulusal Türk ədəbiyyatının yolçularından biridir. O tarixi yazmır bəlkə bir Türk olaraq, Türkün ulusal vicdanı onu düşündürərək tarixin konkret olaylarını ulusal şüuru ilə dinləyib, duyub yaradıcılıq və sənətkarlıq açısından dünyaya baxaraq, xalqının taleyini düşünərək, yaşadığı dövrün sorunlarını çözmək, xalqının, soyunun ulusal agahlıq və milli şüurunu oyatmaq amacı ilə yazır yaradır və bu çabaların nəticəsində "Şeyx Şamil", "Nizami", "Cavanşir", "Cavad xan" kimi ölməz əsərlər yaradır. Rusların basdığı Qafqaz Türklərin yurdudur. ə gözəl Tamarin bu yurdu bütün özəlliklərilə tosif edir:. . gecədir, aylı ulduzlu bahar gecəsi. . . bəzən bu qərib boşluqlara baqdıqca ürəyim bir anlıqca təsəlli tapır. təbiət, insanlar, könüllər,. . . bax bu mərmilər özgürlüyə atılır. . . " (44, s. 352 )

Bu yurd M. Hüseyn yaratdığı pyesdə ki kimi döğrudanda əsil sitəmə baş əyməyən, özgürlük uğrunda daim mücadilə edən sarsılmaz Türk yurdudur. Rusların tarixi düşmənləri olan Türk imperator və hakimləri illər boyu Türklərin qəsr və saraylarında qul kimi həqarətlə yaşadıqlarının kinəsini, Türk imperatorlarının parçalandığı zamanda M. Hüseynə onun yaşadığı

dövrdə Rus istilasını görmək və onların Türklərə kin və nifrətlərini duymaq bir aydın və yüksək düşüncəli ziyalı kimi, ideologiya basqısı altında olaraq, təkcə yol Türkün şanlı və iftixarlı tarixinə müraciət etmək və bu tarixin olaylarını çağdaş gözlüyü ilə baxmaq və sənət yolu ilə canlandırb xalqını aydınlaşdırmaq və ulusal kimliyini gücləndirməkdən başqa heç yol qalmır. Rusların politikası Türklərə qarşı soyqırım və Türk kimlik varlıqlarını məhv edilməsidir. Bu politik çox gözəl sənət arayişi ilə M. hüseynin möcizəkar qələmindən doğulub yaranır. Örnək üçün ikinci pərdə də Rus imperatorun tapşırığını general xatırlayaraq, rus ordusuna dönə -dönə dağlıların məhv olmasına təkid edir.

"General: İnanmayın hər bucaqda bir bandit, hər evdə yırtıcı bir heyvan gizlənmişdir. . . əmr edirəm. . . bütün ağula od vurulsun!. . əlahəzrət imperatorun iradəsi belədir. . qoy Neronun da ruhu şad olsun! Yandırın!" (44, s. 385 )

Rusların Türklərə qarşı politikası yalnız Qafqazda yox, bəlkə Türkiyədə, İranda, doğu Avrupada da və Afğanistanda da Türkləri məhv etmək dil, kimliklərini yanlış tarix və yanlış uydurma adlarla, tarix və özəlliklə ədəbiyyat və sənət örtüyü altında şüur istismarı ilə məhv etməkdir və bu açıdan da Azərbaycan Türkçü və Turançı ziyalı yazıçıları, ədəbiyyatda və sənətdə, tarixi olayları, Türk ulusal tarixini, sənət gözü ilə baxıb, seçib sənət əsərləri yaradaraq ulusal kimliklərini qoruyurlar. Onlar ulusal kimliklərinin başında dolaşan təhlükəli fırtınalara qarşı, sənətlə çalışmalarını yalnız sənət yox, mübarizə kimi, oda güclü və etkili və geniş təsir edici mübarizə olaraq, bu yolda qədəm atırlar. M. hüseyn də bu yolun davamçısı olaraq, ulusal Türk ədəbiyyatı uğrunda mübarizə aparır. PyesdəTamarin obrazı M. hüseynin özüdür, o bütün insanları və onların özgürlüyünü mədəni, politikal və kültürəl haqlarını qoruyaraq yeri gələndə də silah götürüb bu armanların yolunda, savaşdan da geri çəkilməyirlər. həyat yaşamaq üçün, şərəfli yaşamaq üçün mücadelədir, M. hüsüeyn bu mücadiləni ədəbiyyatla verir. necə Tamarin generala qarşı deyən kimi"Tamarin:bu yanğınların müdhiş alovları da şerə çox bənzəyir. . . mənim şerdən aldığım ləzzəti, sizdə yəqin bu yanğından alırsınız, eləmi?" (44, s. 325 )

Türklərin tarix boyu verdiyi özgürlük mücadiləsi, M. hüseyni də bir Türk olaraq, düşündürür. sözlərini Tamarinin və Şamilin və bəzən düşmənlərinin ağzından səsləndirir. onun əsil obrazını daşıyan Tamarin generala xitab Dağlıları kiçik diyaloqlarla tosif edir, örnək üçün bu diyaloq"Tamariin: Bu xalq ölər əyilməz. . . " (44, s. 348 )

Və general ona qrşı deyir:"Hamısı güllələnsin !" (44, s. 344 )

Rusların Türklərə qarşı etnosid və genosid politikası da generalın Tezardan nəql etdiyi Dağlılara münasibəti, onun ölüm fərmanarında inikas edilir. Pyesin gözəl insanı baxışı, dərin romantikası və həyatın əsl anlamı olan özgürlük uğrunda insanların əbədi mübarizələri M. hüseynin baxışından Tamarinlə Şamilin obrazlarında canlanır. örnək üçün pyesdə olan bu variantlar söylənən mövzuda diqqət keçicidir.

"Tamarin: Mən bütün insanların dostuyam. . . Sizin padşahda insandır. (44, s. 312 )

Yəni Şamilin düşüncəsində insan adına məqamına, yaşamağın anlamını düşünən və onun bütün haqlarına saygı göstərən insanlar sevməyə layiqdir nə hamısı, və bu nədənlə də Tamarin Şamillə tanışandan sonra bütün insanlara yox dəyərli özgürlük uğrunda din, dil, soyun fərqində olmayaraq bəzi yalnış insan adını daşıyanlara qarşı, qılınc çəkir. Şamildən kin nifrətini götürüb insan haqlarını pozan soydaşlarına qılınc çəkir. bəlkə də Şamilin bu sözü onu öncəki yolundan döndərir.

"Şamil:mən düşmənəm. . . mənimlə bərabər qılınc çalmaq istəsən, din ayrılığı, ulus ayrılığı bizim dostluğumuza mane ola bilməz. (35, s. 385 )

Şamilin Türkçülük ya vətənpərvərliyi humanisti düşüncəsi ilə qarşı-qarşıya gəlmir, bəlkə onunla yanaşı insanların içində ortaq birlik sevgisini yaradır. onun bu düşüncəsinin əsasını qoyan özgürlüyü, hamı insanlara arzu etməyi və bu yolda çalışmağı, düzluq, sədaqət, baş əyməməklikdə olduğu halda bütün bəşəriyyəti barışa çağırmaq, yaşamaq mücadeləsində, savaşdan öncə barışı düşünmək və bütün insanı sevib-sevindirən alanlarda birinci olmağındadır. onun özü və ailəsi vətənpərvərlik simvolu olmalıdır, öğlu Qazı məhəmməd cəbəhə xətinin ilk səfində olmalı və dostlara məhəbbəti, düşmanlara nifrəti, xainlərə kəskin ölüm hökmü hətta əgər bu xain onun qaynı Soltan olsa da deyişməməzliyi, bir öndər kimi onun dərin yüksək tədbir və düşüncəsi, igidliyi, yerində əfvi, sərt sinlimiz qərarları, ondan mükəmməl qəhrəman təsvir edir, ona ulusal qəhrəman demək olar, Şamil kəndindən artıq xalqının qayğısını düşünür. onun düşüncəsi, ruhu, diləyi, umudu vətəndir. bu dialoquna baxın, gör necə vətən uğrunda bütün varlığıyla mübarizə də yaşıyır. Pyesin yeddinci şəklindən bir örnək

"Əminət:. Qazı məhəmməd orda ölümlə pəncələşir mənim yeganə oğlumdur, o birisi. hanı Cəmaləddin? Sən onu Rusya padşahlığına əmanət yollamadınmı?sən dünyanın bütün nemətlərindən əziz olan doğma balamı qurban vermədinmi?

Şamil: Sakit ol, Əminət, bu vətəndir, biz hamımız onun üçün yaşayırıq, sən körpə aslanımın anasısan, sən göz yaşı axıtmağa haqlı deyilsən" (98, s. 358) Şeyx Şamil"pyesi Türk ulusal ədəbiyyata daxil bir düşünən və yaradan sənətkar yazıçının içindən gələn ulusal duyğu və ağlın məhsuludur. Bu ədəbiyyatdır. Düşünsəl etkinliklərin, yaradıcılarının soylusu da gərçəkdən ədəbiyyatdır, amma güclü ədəbiyyat. yaşamı anlamlı etmək, qafalarda ürəklərdə bir tarixi olaydan qaynaqlanan "Şeyx Şamil"pyesi zaman çərçivəsini çağdaşlıq düşüncəsi və yaradıcılıqla sındıraraq, və keçmiş sorunu, çağdaş toplumun sorunlarına bağlayaraq, yeni çözüm bulmaq, sevgini, gözəlliyi çiçəkləndirərək dünyanı deyişdirmək və inkişaf amacı olan humanist ziyalı yazıçının sənət məhsuludur. Şeyx Şamil pyesindəki olaylar və sorunlar M. hüseynin yaşadığı dövrün sorunları və olaylarıla ilgilidir. o zaman Tezar imperyası"Rus istilası", indi də komonizm, İstalin imperyası"yenədə rus istilası"ozaman Dağıstan yalnız rusların ordu basqısına məruz qalır və indi bütün Qafqaz Türkləri politikal, kültürəl və militarizm basqıda, yoğun durumda, ideologiya sıxıntısında, kötü günlər keçirir, ziyalı Şairləri, yazıçıları, ictimai xadimləri öldürülüb, sürgün və ya həbs olunurlar, bu ziyalı ulusçular pyesdə Tamarin obrazı kimi vətəndən, sevgidən və rahat yaşamaqdan məhrum olurlar. M. Ə. Rəsulzadə, H. cavid, Ə. cavad, A. ıldırım və. b

Olaylar, obrazlar, sorunlar, diləklər, ideyalar, düşüncəyə, pyesin qəhrəmanına və tarixi olayın məkanına baxmayaraq Qafqazda yaşayan Türklərin eyni durumlarını anlatır. doğrudur ki M. hüseynin yaşadığı dövrdə Qafqaza rusların basqısı şəkil baxımından Şeyx Şamil xzamanına yaxın deyil, amma əsasda eynidir və təhlükə və basqı o zamana nisbət artıq geniş və şiddətlidir. Qafqazda hər yerdə Rus əskəri "Qızıl ordu" sırasında, ünivrstetlər, məktəblər ali təhsil məkanları, televeziyalar, eytim, ekonomik, politikal və kültürəl güclər, Rusların əlindədir. bu hakim ideologiya üzərindən sovet ədəbiyyatı da ulusal Türk ədəbiyyatına zərbə və darbə vurmaq amacı ilə Ruslar tərəfindən himayə olunur. müstəqil ulusçu Türk yazıçı, şair və ziyalıları böyük sıxıntı və hər gün ölüm dəhşəti ilə mübarizədə yaşayırlar. İdeologiya basqısı altında yaranan hər ədəbiyyat və sənət əsərində Ruslardan gərək bir böyük qardaş və humanizm sarsılmaz və sınmayan qəhrəman olmalıdır. "Şeyx Şamil"belə dövrun və zamanın və Türk yazıçılarının ağır durumda olduqlarının məhsuludur. bu basqı üzərindən pyesdə M. hüseyn drama yapışmayan bir varyant da rus dilində mahnını Dağlıların içində, Tamarinin qulaqlarına yetişdirir ta şovinist Rusların, qəzəb və ölüm mələkləri onun qapısını çalmasın və ya ən azı onun yaradıcılığının qabağını kəsməsinlər. Hakim sovet ideologiyası və kommunist rejimi insanları fiziki baxımdan

boyunduruqda saxlasa da, artıq qafalarında cücərmiş özgürlük fəlsəfəsini, özünə qayıdış hissini boğa bilməmişdir. Ulusu qan yaddaşı oyanmasını məhv edə bilməmişdi. Xalq gedikcə genetik kodlarla, keçmişə olan bağlılıq, kişilik, qeyrət və özünü ulusal Türk ədəbiyyatının etkisindən təsdiq edə biləcəyi bir səviyəyə çatmağa çalışırdı. bu dönəmlərdə ədəbiyyat o cümlədən dramaturgiya ölən tarixə yeni nəfəs, yeni ruhu, Türk tarixi dram əsərləri səhnələrdən Türk xalqını tarixi ilə ilgiləndirib əyağa qalxızdırırdı. bu ruh və oyanış nəğməsini, ulusal Türk ziyalıları sənət və ədəbiyyat yolu ilə gətirirdilər. tarixi keçmişi özündə əks etdirən yeni fikirlər, çağdaşlıqla keçmişin harmoniyası, ulusal ideologiyanın varlığını yaradan ədəbiyyatla isbat edirdilər. tarixi dramların rolu, ulusal ədəbiyyatın formalaşmasında, ulusal şüur oyanışında inkarsızdır. Bu düşüncə ilə M. hüseyn Azərbaycan dramaturgiyasına tarixi dramlarla Azərbaycan Türklərinin ulusal oyanışında unutulmaz etki bıraxmışdır. Onun tarixi dram əsərlərini oxuyanlar və tamaşa edənlər kəndilərində qurur duyaraq, ulusal kimlikləri haqda düşünüb və soylarına keçmiş və şimdiki halda güvənirlər. Onun yaratdığı surətlər, bədii obrazlar, dram janrında yaraddığı əsərlərin oyatdığı fikirləri, qurduğu Azərbaycan kültür və mədəniyyəti inkişafının yoluna salınan etkili işıqlardandır. Azərbaycan toplumunun sovet ideologiyası üzərindən zədələnmiş ulusal kimliyinin sağlanmasında və kəndilərinə dönüş prosesində M. hüsenin tarixi dramları ulusal ruh verici əsərlərdir. Bu əsərlərin zəngin və parlaq dili və sənətkarlıqla işlənmiş quruluş və tosifləri, çeşitli mövzuları, çağdaş əsrin sorunlarına tənqidi baxışları və çözümləri maraqlı və mükəmməldir, "Şeyx Şamil"pyesi Azərbaycan ulusal tarixi dramlar sırasında iydə və fikir baxımından da dini fanatikə, faşizmə, şovinizmə, despot düşüncələr və hakimiyyətlərə, xarici istila və istismarlığa, genosid, etnosidə və bütün geriliyə qarşıdır. M. hüseyn bu əsəri yaratmaqla, Türklərin tarixindən ulusal bir mübariz qəhrəman seçərək, onu dram sənətilə əbədiləşdirməklə Azərbaycanın ulusal yazıçılar sırasında, Türk dünyasının ədəbiyyatında özünə özəl yer salır.

### III. 3. S. Vurğunun "Vaqif"dramında şair və hökmdar probleminə çağdaş baxış

Səməd Yusif oğlu Vəkilov (Səməd Vurğun) 1906-cı il martın 21-də Qazaxın Yuxarı Salahlı kəndində Vəkilovlar ailəsində doğulmuşdur. Anası Məhbubə xanımı 6 yaşında itirən Səmədin tərbiyəsi ilə, nənəsi Ayişə xanım məşğul olmuşdur. Balaca Səmədin uşaqlığı çox acınacaqlı olmuşdur. 6 yaşı olanda anası Məhbub xanım 28 yaşında vəfat edir. Səməd atası Yusif ağanın və

ana nənəsi Ayişə xanımın himayəsində yaşayır. Ayişə xanımın əri-şairin babası Mehdixan ağa öz dövründə elində, obasında Kuhənsal ləqəbi ilə tanınan şair idi. görkəmli Azərbaycan şairi, Qarabağ xanı İbrahim xanın vəziri Molla Pənah Vaqif (1719-1797) də bu nəslə mənsub olmuşdur. Səməd ilk təhsilini öz kəndində 1874-cü ildə açılmış rus-tatar məktəbində almışdır. 1918-ci ildə F. Köçərlinin Qazaxda açdığı Qori Müəllimlər Seminariyasına daxil olur. O, Seminariyada skripka qrupunda məşğul olmuş, Məcnun rolunda çıxış etmişdir. M. V. Vidadini, M. P. Vaqifi, Q. Zakiri çox sevmiş, M. Ə. Sabiri, Tofiq Fikrəti, Namiq Kəmal, Rza Tofiqi həvəslə mütailə etmiş, rus dilini bildiyindən A. S. Puşkini, M. Lermontovu orijinaldan oxuyurdu. Şair 1920-ci ildə komsomola daxil olur, Qaraqoyunluda kənd sayağı komsomol hərəkatına qoşulur. Bu dövr həyatını «Komsomol» poemasında təsvir etmişdir. Səməd Vurğun Qazax məktəbində işləyən zaman müəllimlərin rayon konfransında Raykom katibini və RİK sədrini kəskin tənqid etdiyindən baş götürüb gedir. Şair 1926—1927-ci illərdə Qubada, 1928-1929-cu illərdə isə Gəncədə müəllim işləyir. M. Cəlal, S. Şamilov, H. Araslı və Ə. Cəmillə tanış olur, «Qızıl Gəncə» jurnalında şeirlərini çap etdirir. 20-ci illərin sonlarında artıq şeirləri Bakı mətbuatında da çap olunmağa başlayır. 1929-cu ildə Moskva Üniversitetinin ədəbiyyat fakültəsinə daxil olur. 1931-ci ildə Bakıya qayıdan şair, Elmi Tədqiqat İnstitutunun aspiranturasına daxil olur. 1930-cu ildə «Şairin andı», 1932-ci ildə «Fanar», 1934-cü ildə «Könül dəftəri» kimi şeirlər kitabları ona şöhrət qazandırır. O, 1934-cü ildə Azərbaycan Sovet Yazıçılar İttifaqının məsul katibi, 1935-ci ildə ZSFSR İcraiyyə Komitəsinin üzvü seçilir. 1936-cı ildə Sovet hakimiyyətinin 15-ci ildönümü münasibəti ilə Stalinin qəbulunda olub, ona həsr etdiyi «Rəhbərə salam» şeirini oxuyur. 1937-ci ilin ikinci yarısında Səməd Vurğun özünün ölməz dram əsərini «Vaqif»i yazır. «Vaqif» dramını 3-4 həftə ərzində, heyrətləndirici bir sürətlə tamamlayan şair əsərdə Molla Pənah Vaqifin faciəli həyatını, şair böyüklüyünü, insanlıq kamilliyini ustalıqla, məhəbbətlə əks etmişdir. «Vaqif» dramına görə Səməd Vurğun 1941-ci ildə «Stalin mükafatı laureatı» adına layiq görülmüşdü. 1941-ci ildə Səməd Vurğun Nizaminin «Xosrov və Şirin» poemasının motivləri əsasında «Fərhad və Şirin» mənzum dramını yazır. Muharibə dövrundə yazılmış bu dramda böyük vətənpərvərlik duyğularının tərənnümü xüsusi məna kəsb edirdi. Səməd Vurğun 1942-ci ildə bu əsərə görə ikinci dəfə «Stalin mükafatı layuratı» adına layiq görülür. Şairin yaradıcılığında Böyük Vətən müharibəsi dövrü xüsusi yer tütür. Müharibənin başlandığı gün Səməd Vurğunun yazdığı:" Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm

mən də bu gündən. " (98, s. 189 ). misraları şairin Xalq və Vətən qarşısında andıy idi. Bu misralar təkcə şairin deyil, bütün Azərbaycan poeziyasının müharibə dövründəki yaradıcılıq proqramına, yaradıcılıq devizinə çevrilmişdi. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının ilk akademiklərindən olur. 1948-ci ildə Səməd Vurğun Polşanın Vrotslav şəhərində keçirilən Mədəniyyət Xadimlərinin Ümumdünya Konqresinin iştirakçısı olmuş, konqresdən qayıtdıqdan sonra şair «Zəncinin arzuları» poemasını yazmışdır. Həmin il poema Polşada çap edilmişdir. Xarici səfərlərlə bağlı yazdığı şeirlərini Səməd Vurğun məşhur «Avropa xatirələri» adı ilə çap etdirmişdir. 1951-ci ildə şair «Bolqar-sovet dostluğu cəmiyyəti»nin xəttilə Bolqarıstanda olmuşdur. 1955-ci ildə Pekində sağalmaz xəstəliyə düşür. 50 illik yubileyi münasibəti ilə Azərbaycanda ilk dəfə ona «Xalq şairi» adı verilir. Ona Lenin ordeni verilməsi barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı oxunsa da, şair buna yataqda radioda qulaq asdı. 1956-ci il mayın 27-də vəfat etmiş şair Fəxri xiyabanda dəfn olunmuşdur. Səməd vurğunun Vaqif əsəri azərbaycanın ən dəyərli tarxi dramlarındandır. bu əsərdə yazıçı hökmdar və şair arasında olayları incələyir və onların gözlərindən dünyaya baxır.

S. vurğunun 1937-ci ildə qələmə aldığı "Vaqif"dramı, onun ilk səhnə əsəridir. Şair əsərin ilk tamaşası münasibətilə dərc etdirdiyi məqləsində, yazıçıların vəzifəsindən birini də qaranlıq keçmişin işıqlı cəhətlərini-böyük insanlarını, yaxından öyrənmək və yaxından tanıtdırmaqdan ibarət olduğunu söyləyir. vurğunun bu sözləri, yazıçının tarxilik və çağdaşlıq düşüncəsindən və xalqının və yaşadığı toplumun qarşındakı problemləri çözmək və tanıtdırmaq amacından doğan və yarananan " Vaqif" əsəri ulusal Azərbaycan ədəbiyyatının zirvlərində önəmli yer alır. 1930-ci illərdə SSRİ-də yaşayan ayrı-ayrı xalqların öz tarixi keçmişinə marağı çox artmışdır. SSRİ nın məktəblərində vətən tarixinin tədrisinin haqqında qərar qəbul etmişlər. bu qərarda tarixin öyrənməsində və tədrisində yol verilmiş noqsanlar göstərilmiş, tarixi hadisələrin və tarixi şəxsiyyətlərin düzgün səciyyələndirilməsi qarşıya qoyulmuşdur. S. vurğun tarixi mövzu olaraq, 18-ci əsrdə yaşamış Azərbaycan şairi M. P. Vaqifin, dövrünü, həyatını və fəaliyyətini qələmə almaqda, amacı Azərbaycan tarix, poeziya, və Vaqifin böyük təsirli şəxsiyyətini tanıtdırmaq, Azərbaycan xalqının tarixində sənətkar mübariz şairlərin məqamını göstərmək, yeni nəsli çağdaş toplumda kı problemlərlə ilgiləndirmək, şairlərin Azərbaycanda fəlsəfi, sosial və estetik düşüncələrinin yayılmasıyıla, toplumu etkiləndirən və hərəkətə gətirən və onların liderliklərini göstərməkdir. S. vurğun Vaqifi mütəfəkkir bir şair, dərn fikirlərin sadə aydın bir dildə ifadə

etməyi bacaran incə lirik, öz dövründə estetik düşüncənin zirvəsinə çıxan, ziyalı kimi qiymətləndirir. Vaqif yalnız bir yaradıcı şair deyil, onun həyatı, düşüncəsi, yaradıcılığı, vətəninin, dilinin, kimliyinin, Türklüyünü bir mübariz kimi mücadelə edib qorumaqla, işğalçıların qarşında Türklüyünü savunmasılə yanaşı, farsçılığa, rusçuluğa və ərəbçiliyə qarşı Türk dili və mədəniyyəti uğrunda, öz yaradıcılığıyla kəskin mübarizə aparır. S. Vurğun Vaqifi "saray şairi"hesab edənlərə qarşı kəkin mövqədə durur və yazır "Vaqif sarayda vəzir vəzifəsində çalışmışdır. lakin onun qəlbi daim öz xalqının qəlbiylə çarpmışdır. onun İran şahı Məhəmməd Şah Qacara qarşı apardığı böyük mübarizə açıq göstərir ki, şair heç kəsə stılmadan öz vətəninin azadlığı və istiqlaliyyəti uğrunda zindanlara düşmüş, gözüilə ölümlər görmüşüdür". S. Vurğun Vaqif dövrünü dolğun əks etdirən və çağdaş zamanla səsləşən bir əsər yaradıbdır. Vaqif tarixi mövzuda yazılsada, çağdaşlıq baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycan xalqının tarixi keçmişini maraqlı bir dövrünü canlandıran Azərbaycan torpağı Qarabağın müdafiəsinə həsr olunmuş pyes, Azərbaycan xalqının, kültür, mədəniyyətini, varlığını geniş surətdə savunan ulusal əsərdir. bu əsərin yaranmasının nədəni 1797-ci ildə Vaqiflə Qacarların qarşı-qarşıya durması, yalnız şair-hökmdar problemi deyil, bəlkə bu problem S. Vurğunun dövrü 1937 –ci illərədə çəkilir. Azərbaycan yazar və ziyalılarının bu illərdə rus istilasına qarşı olduqları, əski problemi yenə çağdaş məsələlərilə ilgiləndirir. Vaqif tutduğu yoldan, insanın gələcəkdə çalışdığı və apardığı mücadelə və mübarizə üzündən, özgür dünya qurmaq və yaranmasını istəyir.

"Vaqif: İnsan uçuracaq daş zindanları
Zəncirsiz, zindansız, günlər gələcək
Bizə təsəllidir böyük gələcək"(99, s. 114)

Azərbaycanın Vaqif dövründə kötü durumu demokratiya sistemindən uzaq olduğundan və hakimiyyətlə xalq arasında, düşdüyü fasilədən yaranır. Vurğun bu durumu İbrahim xanının obrazında formalaşdırır. İbrahım xanının kəndlilərə və xalqın simvolu olan Eldar obrazına kötü münasibtəi, onun hakimiyyətinin noqsanlarından və şikəst səbəblərindən sayır. Təlxək obrazı da ibrahim xanın dövrünü lap yaxşı dilə gətirir. pyesin ikinci pərdəsinin üçüncü şəklində kötü durumlar aydınca göstərilir.

"Təlxək: Əzizim İbrahim xan
bit yerisin yaxandan
ayağını bərk uzat

xorul-xorul yaxşı yat!
Ordu çəkibdir Qacar
Şeypur çalır qoşunlar
Sən yuxuna şəkər qat
Yaxşı uzan, yaxşı yat
Qoy axsın ulus qanı
Çək başına yorğanı
Şahlar bizi boğsa da
Sən yuxuna şəkər qat
Yaxşı uzan yaxşı yat. . . !
İbrahim xan: O yandan Türkiyə, bu yandan İran
Burdan da Rusiya göndərir fərman
Pozmaq istəyirlər cah-cəlalimi
Qalmamış düşünən mənim halimi
Könlüm ayrılmayır tacü təxtimdən
Kəndlər də çaxnaşır mənim bəxtimdən. . .
Həddindən aşmışdır yenə qaçaqlar
Dağlarda yurt salır bütün qoçaqlar,
Neyləyim?
İbrahim xan: Qarışır zaman,
Ruhuma dar gəlir bütün xaniman.
Vaqif:çox dedim, sözümə baxmadınız siz.
Dedim ki zülmlər qalmaz əvəzsiz.
bu dünya boşdeyil öz qanunu var,
Elin qüdrətinə lovğa bazanlar
əlbəttə basılar. . .
Vaqif:elə can qoymadı ağır vergilər
Siz bu qanunlarla qalsanız əgər
Doğma balanız da yad olacaqdır
Külünüz göylərə sovrulacaqdır.

Vaqif:daxili vəziyyət belədir, düzü

Xalq razi qalmasa bir hökmdardan

Hakimi qurd kimi didəcək zaman"(101, s. 152)

Hökmdarın ölkədə demokratiyanın basqı altında saxlamasından və yeritdiyi kötü desput politikanın sonucundan, vətənin hər yöndən düşmənlər tərəfindən basılması və parçalanmasını gözləmək təbiidir. hakimiyyət öz xalqından uzaqlaşmaqla vətəni böyük təhlükəyə salır. və bu təhlükə xalqın varlığını, kimliyini və ulusal şüurunu zəyiflətməyə yönəltdir. S. Vurğun "Vaqif"pyesinde kəndini ideologiya basqısı altında olduğu üzdən, başqa Azərbaycan yazıçı ziyalıları kimi məcburiyyət halında rus ulusunu və mədəniyyətini ateist və sənət sevgisi adıyla böylə tosif edir :

"Vaqif: Din ayrı, dil ayrı olsada onlar

Yenə beşiyidir mədəniyyətin

Qədrini çox bilir şerin, sənətin"(101, s. 168)

Vurğun fanatik düşüncələr və bu fikri yaydıran müftəxor avam, xalqın qanını soran və onları geridə saxlayan, mollaları da, kəskin tənqidə alır. Vaqifın karakteri və mübariz obrazı, S. Vurğunun kəndi karakterini daşıyır. Vurğun sosialism proltariya desputu və ideologiyasının basqısı altında, kəndini, amallarını və bütün istəklərini yansıtan, Vaqif obrazında formalaşdırır. Azərbaycan ziyalılarının, sovet hakimiyyəti sıxıntısında zor durumda yaşadıqlarını və ulusal ziyalıların çətın və ağır görəv də olduqlarını bu əsərlə göstərir. ziyalıların xalqıla, hakimiyyət və hakimlərlə münasibətlərini və vətən, kültür mədəniyyət və tarix qarşında məsuliyyət və təşəbbüslərini inikas etdirir. toplumu və onda yaşadığı hər hankı problemi, din, sosial, kültür, dil, ədəbiyyat və sənət sahələrini incələyib tənqid edir. örnək üçünün Vurğunun dinə münasibətini ikinci pərdə də Vaqifin diyaloqunda gözəl surətdə sənətkarlıqla böylə yaradır.

"Vaqif: Durun!mən deyiləm vətən xaini

Saydım nəbilərin sonsuz sayını

Min ildir baş əydik yalnız qurana

Baxdı gözlərimiz kor kimi ona

Bizə yasaq oldu başqa kitablar

Bitabsız bir ömrün nə mənası var?

didildi daima ixtiyarımız

barı bir gün görsün övladlarımız. "(99, s. 145)

Vaqifin Türkçülük, vətənpərvərlik, Türk tarix mədəniyyət və kimliyini savunma düşüncələri, onun umanisti düşüncələrilə yanaşı, sevgi dənizində cumub saf pak ürəklə bir xətdə, pyesin dramatik qollarını gücləndirir. Vaqifin arvadının xiyanəti qarşında davranışı və oğlunun anasının öldürəməyinə təşəbbüsü, umanist şair vaqif tərəfindən böylə qarşılanır. Vaqif qadınına xitab söyləyir. "Vaqif: İtil gözlərimdən, bivəfa yarım!

get, atıl murdarın qan qucağına

Zülm yuvasına qan ocağına

Xuraman başını aşağı salıb çıxır. bir az sükut

Canan üz döndərdi. . dövran bivəfa

Pozuldu gördüyüm hər zövqü səfa

Saraldı ömrümün çiçəkli yazı

Qırıldı qəlbimin səfalı sazı. . .

əlibəy acıqlı halda gəlir.

Ata qoy öldürüm o mürvətsizi

Vaqif:əlibəy alçadar cinayət bizi

Bir bax əllərinə, yaraşırmı qan?

Oğlum, yaratmağa yaranmış insan. "(99, s. 280)

Vurğunun savaşa münasibəti, yenə də insanlıq və sevgiyə dayanır. savşı kötü və insana yaraşmayn bir yalnışlıq sayır, qantökməyi pisləyir.

"Vaqif: Cana yanğın salır əsirin səsi

Bu ana fəryadı qadın naləsi

Anasız ağlaşır körpə balalar

Bir ad alacaqmış Məhəmməd Qacar. . .

Yoxmuş bu zalımda vicdandan əsər

Iranda qalmadı sağlam nəsillər

Dondu cəbhələrdə laxta-laxta qan

Bu yenə doymadı içdiyi qandan. "(98, s. 324)

"Vaqif "pyesində, Qacar obrazının yaranması, Vurğunun umanist və Türkçülük və Azərbaycançılıq düşüncəcəsinə arxalanaraq, Qacarın gərçək hətından alınmış özəlliklərindən o

cümlədən onun şahlar tərəfindən bir insan olaraq axta olduğu, tökdüyü qanlar, törətdiyi savaşlar və insanların yaşamlarına önəm verməməsinə bir ölüm mələyi olduğuna səbəb olur. onun sonsuz olduğundan və ümidsizliyindən və dünyanı bir qaranlıq savaş içində gördüyü istibdadi düşüncələrindən, Vurğun elə güclü bir dram əsəri yaradır ki, yirminci əsrdə iki böyük dünya savaşı görən insanları etkiləyir. və bu savaşların alovlarını çoxaldan və qızışdıran hakimlərin yenədə bu əsər, acı xatirələrini antiumanist politikalarını ibrət üçün təkrar edir. bu hakimlər sevgi, barış və insanlıq hətta Qacar şahı kimi Azərbaycaçılığını da, kəndi mənafei və otoritəsi üçün unudar.

"Qacar: Bizə yaraşmaz
Qılınc meydanında kəklik ovlamaq!
Bir bax!qılıncımda qanlara bir bax!
Min mələk uçsada gülümsəyərək,
Qərək yumşalmasın cəbhədə ürək!
Vəzir:buyruq sizindir, adil hökmdar!
Sizdə fəzilət də, ədalət də var.
Qacar:xeyir, fəzilətdən dəm vurma vəzir
Dayan bir qul kimi əmrə müntəzir
Bil ki balıq qədər qanım soyuqdur,
Min vəz eləsən də mənası yoxdur!. .
Bir boynu olsaydı bəşəriyyətin,
Onu bir qılıncla vurardım yəqin!. .
Qacar:məni uşaq vaqtı axtaladılar
Üzüldüm dünyanın hər nemətindən
Qisas almalıyam bu dünyadan mən!. .
Vəzir:şahim olmasa da vəliəhdiniz
Iran toprağına hakimsiniz siz
Şikayət etməyin taleyinizdən
Oğlunuz, qızınız deyilmi vətən?
Qacar:vətən!çoxmu sevir məni o vətən?
Mənə həcv yazır hər yoldan keçən

Çoxda tərifləmə mənə vətəni

Bu qılınc olmasa yeyərlər məni!

Qacar:dünya tanımamış hələ adımı. .

gərək qan altında qalsın bu dağlar

Bağlansın qapılar, sönsün ocaqlar

Könüllər ayrılsın sırdaşlarından

Çaylar yaradılsın qöz yaşlarından!"(101, s. 247)

Qacar şahının axta olduğu səbəbdən, onun insanlara kin və nifrəti sonsuzdur. ona vətən, torpaq, ulus, dil və kültür, yurd, sevgi, qardaşlıq və ailə anlamı və önəmi yoxdurl. Ağa Məhəmməd şah bunu öz diliylə vəzirinə də söyləyir.

"Vaəzir: Şahım, siz özünüz. . . Azərbaycanlı. . .

Qacar:nə?. . mən?. . mən?

Çoxdandır atmışam onu üstümdən"(101, S. 245)

Vurğun bu xislətdə olan şahı, kəndinə də nifrətini bəlkədə Qacarın Azərbaycanlı olaraq, vətəninə və kültür, dilinə qərib olduğunu da özündən intiqam almaq sanır ki Vaqifin Türk dilində yazdığı şerə də qarşı durub söyləyir ki,

Qacar:gərək fars dilində yazsın sənətkar.

Qacara kültür, mədəniyyət və kimlik önəmli deyil, o yalnız şahlığını əldə saxlamğa çalışır. kültür, tarix, xalq və vətəninə xain olan şahların üzündən elə Azərbaycan parçalanır və dili, kimliyi basqı və yasaqlığa məruz qalır. özəlliklə İran da şahlar Azərbaycanlı olaraq ana dili və kültürünü arxaya ataraq, ərəb və fars dilini önə çəkmişdirlər. S. Vurğun "Vaqif"əsərilə də, Vaqifin obrazını yaratmada, bu nüktəni də unutmamışdır.

Qacarın bu nifrət və insanlara qarşı rəhmsiz ədalətsiz əməlləri və dəhşətli intiqam hissini şuşadan gələn məktub daha çoxaldır. onu acı və zəhərli gərçəyini və qaranlıq yaşamını məktubda yazılmaqla, intiqam atəşi şöləl290nir. məktubda kı gərçəklər:

"Vəzir: Bu dünya qalmamış ulu şahlara,

Zülmdə, zalimdə, var ola bilməz!"

Qacar:var ola bilməz!

Vəzir:"göydən başımıza odlar da yağsa,

Bu ellər baş əyib xar ola bilməz.

Mayan turş ayrandır, zatın qırıqdır
Söyüd ağacında bar ola bilməz.
Basma ayağını bizim torpağa,
ilandan əqrəbdən yar ola bilməz.
Qacar:əsir gürcilər!
Sabah bu dağlara gün doğan zaman
Asılacaqsınız dar ağacından
Soyunun, vuruşun, şərti var yalnız:
Soysun dərininzi dırnaqlarınız,
görünsün gözümə qıp-qırmızı ət. .
Qoy alsın ürəyim bir yeni qüvvət!
Sabah hücum vardır. .
Tez olun döyüşdə sağ olan nəfər
Azad olacaqdır! "(100, S. 321)

Insanların rəftarları, xislətləri, toplumda və toplumun onlara verdiyi etkilərdən əmələ gəlir. Qacar dövru toplumunun "tanrı bir, şah bir yəni göy tanrının yer şahın "düşüncəsi istibdad və tutaliter bir sistemi topluma hakim edir. insanların yaşamı və taleyləri kəndi əllərinə yox, bəlkə zalim və qüdrət düşkünlü şahların mənafesi üzərə dayanır. İranın və Azərbaycanın 19-cı və 20-ci əsrdə toplumunun savadsızlıq və avamlığı, mədəni haqların tanınmaması və bu haqları qoruyan yasaların olmaması, fanatik düşüncələrə və xorafata bağlanmaları, Qacar kimi desput bir hakimiyyətin yaranmasına nədən olur. və belə bir hökmdar zülm etməkdən və qan tökməkdən zövq alıb nəşələnib, kəndi törətdiyi cinayət və dəhşətlərilə sərxoş olur.

"Qacar: yan, yan, tərlanların yaşıl yuvası!
Ruhuma can verir ölüm havası. . .
Çıxsın asimana odlar, alovlar
Qöylərdən od töksün yerə ruzigar!
Yan, yan, kömür olsun, hər qaya, hər dağ
Baş əysin hökmümə bütün Qarabağ!
Üzsün qan içində gəlinlər, qızlar,
Yerdə göyərçinlər, göydə ulduzlar.

Ana qarnındakı o qandanam mən. .

Bütün kayinata qan olsun kəfən!

Mənim vicdanım da, qəlbim də qandır,

Dünya qan üstündə bir xanimandır. . .

"Vaqif"pyesində şifahi xalq ədəbiyyatı da özəl yer tutur. Vurğun atalar sözünə dayanaraq, güclü dramatik diyaloqlar və səhnələr yaradır. pyesin altıncı şəklindən bir neçə örnək:

Kürd musa:gədə lap diyvanədir

Bir gözümə doğru bax!

Bilisənmi, ay axmaq,

Könlü balıq istəyən

gərək girsin dənizə.

Kürd musa:qorxutmasın səni xan

Yapışıb boğazından

Boğarıq sərçə kimi

Bir də, ilyas məsəl var:

El yığılsa bir yerə,

vallah, kərən sındırar. . .

Eldar:keçinin əcəli yetişən zaman

Çoban çomağına sürtüşər heyvan

Şanda bal tutan, barmağın yalar"(99, s. 187)

Bu pyes "xosrov və şirin"pyesilə birlikdə Vurğunun dram əsərlərinin Türkçülük və Azərbaycançılıq düşüncəsinin zirvəsində dayanır. "xosrov və şirin" pyesində, fərhad və şirin, "Vaqif"də də Eldar və Vaqif obrazlarında, bu düşüncələr, yüksək səviyyədə sənətçiliklə dramatik şəkildə formalaşmışdır. vurğun Türkçülük və Azərbaycançılıq düşüncəsinə qarşı olan Türk şahlarının, xiyanətini Qacar şahı obrazında və avam xalqı düz yolundan əyri yola salan, din xadimlərinin xiyanətini də unutmur. bu xiyanəti Şeyx obrazında təsvirə çəkir. onun alçaqcasına vətənini, xalqını satmağı və bu çirkin əməliylə, şah sarayında kəndinə yer açma çabalarını göstərir.

Şeyx:ey şahim!ey fəxri -vətən!

Sizin yolunuzu gözləyirik biz,

sizə duaçıdır nəsillərimiz. .

Buyurun qapımız açıqdır sizə,

yurdu tapşırırıq əllərinizə

şeyxin xiyanəti yalnız vətənini basan şaha quyruq bulamasında qurtarmır. o vətəninin danışan, savunan kəskin dili olan Vaqifin məhv etməsinə də çalışır.

Şeyx :şahım!təhlükədir vaqif doğrudan,

Onu gözünüzdən qoymayın bir an. .

Deyir qanunlarda yoxdur həqiqət,

deyir ki pərdədir bütün şəriət.

Nədənsə el-oba çox sevir onu,

bilməyir bu qədər tərs olduğunu.

Birdə, bərk dostudur, o qaçaq eldar-

Sizin düşməniniz, bəli o murdar!

Vaqif yaşadıqca qorxudur bizə,

Şair görünməsin gözlərinizə!

necə ki İlyas əfəndiyevin "Xiyabani"pyesində qoca mücahid Səttar xanın silahını qururla, onun mübarizə yolununun davamçısı Xiyabaniyə verib və onu bu şərəfə və məqama layiq görür. bu pyesdə də bir qoca mübariz və sarsılmaz mücahid, Mübarizə, yaşamaq, kültür, tarix və mədəniyyətinə sahib çıxmaq və hər zman vətən uğrunda çabalayıb mücadelə etmək xalqın içində daşınan mübarizə simvolu olan Koroğlu və onun məşhur Misri qılıncını" Eldara verir və beləliklə Azərbaycan xalqının vətən və özgürlük uğrunda mübarizəsinin dəvamını simvolik təsvir edir. bu təsvir pyesin son şəklində Eldar Misri qılıncla Qacarı vurub əlindən qılıncını salmaqla daha güclənir.

Eldar:dayan!. . misri qılınc gəlir üstünə. .

Vurğun "Vaqif"pyesini yaratmaqla Türk və Azərbaycana böyük deyin və vəzifəsini əda edir. bu pyesdə Vaqif obrazını yaradarkən Azərbaycanın basqı altında qalan kültür və mədəniyyətini, kimliyini savunub, xalqında ulusal şüuru oyatmağa çalışır. tarixi gərçəkdən alınan bu pyesin mövzusu, güclü sənət yolu ilə zaman məsafəsini həzf edərək, 21-ci əsrdə yaşayan rus kültür şovenisti basqısı altında yaşayan Azərbaycanlını, kimliyini, ulusunu qorumağa hərəkətə gətirir. Vurğunun yaratdığı bu obrazlar dostluğun qədrini bilən və önəmini

başa düşən adamlardır. oxucu və tamaşaçı bu adamları ürəkdən sevir, onların simasında qəhrəmanlığını, vətənpərvərliyini və nəcibliyini görür. Vaqif eyni zamanda, rus xalqının, özgürlük uğrunda apardığı mübarizəni alqışlayır, özgürlük düşmənlərinə nifrət edir. bu baxımdan onun rus çarı haqqında M. S. Ordubdinin "Dumanlı Təbriz" pyesində ki kimi bir baxışı olduğu halda, Vaqif də dediyi sözlər səciyyəvidir:

Yalnız nifrətim var, inanın ona
Onuda boğacaq gedən üsyanlar
Özgürlük uğrunda tökülən qanlar

S. Vurğun əsəri yazarkən, tarixi olay və faktlara həssaslıqla yanaşmış, bunlardan məharətlə faydalanmışdır. Qarabağ xanlığının Rusiya ilə əlaqə yaratmaq təşəbbüsü, qonşu Gürcü xalqıylə birgə hərəkət etməsi və bu işdə Vaqifin böyük rol oynaması, onun Qacara sərt cavab məktub yazması və qacarın bundan qəzəblənməsi, Vaqifin Şuşanın işğal vaxtı şəhərdə qalması və s. tarixi faktlardır.

## IV. FƏSİL

## TRİXİLİK VƏ MÜASİRLİK CƏNUBİ AZƏRBAYCAN MÖVZUSUNDA YAZILMIŞ DRAMATURJİ ƏSƏRLIRİN İDEYA BƏDİİ CƏHƏTİ KİMİ

### 4. 1. E. Məmmədxanlının "Od içində" pyesində özgürlük hərəkatının tərənnümü

Məmməmədxanlı Ənvər Qafar oğlu - nasir, kinodramaturq, tərcüməçi, 1938-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar İncəsənət xadimi 1963, Azərbaycan Xalq yazıçısı 1987, Ənvər Məmmədxanlı 1913-cü il fevralın 29-da Göyçay şəhərində doğulmuşdur. Burada ibtidai məktəbi bitirdikdən sonra Bakıda N. Nərimanov adına sənaye texnikumunda təhsil almışdır 1926-1931. Sonra Bakıda mexaniki zavodda, energetika və elektrikləşdirmə idarəsində texnik, Azərbaycan Neft İnstitutu nəzdində olan elmi-tədqiqat institutunda texnik-elektrik işləmişdir 1931-1934 Eyni zamanda Azərbaycan Neft İnstitutunda iki il qiyabi təhsil almışdır. Azərnəşrin bədii şöbəsində redaktor və tərcüməçi 1934-1936, Moskvada Ali Kinematoqrafiya İnstitutunda müdavim 1936-1938 «Azərbaycanfilm» kinostudiyasında ssenari şöbəsinin rəisi 1941-1942, İkinci Dünya müharibəsi dövründə cənub-qərb cəbhəsində "Qızıl Ordu" cəbhə qəzetinin Azərbaycan redaksiyasının xüsusi müxbiri olmuşdur. Sonra redaksiya ilə birlikdə Stalinqrada göndərilmişdir. 1942-ci ilin axırlarında bir qrup Azərbaycan yazıçısı ilə Şimali Qafqaz cəbhəsində, 416-cı diviziyada olmuşdur. Bakıda Azərbaycan Radio Verilişləri Komitəsində redaktor kimi çalışmışdır "1943-1944 "Yenidən Zaqafqaziya cəbhəsinə, oradan İrana hərbi xidmətə göndərilmişdir. Təbrizdə nəşr olunan "Vətən yolunda" ordu qəzeti redaksiyasıda xüsusi müxbir kimi çalışmışdır 1944-1946. Ordudan tərxis ediləndən sonra «Azərbaycanfilm» kinostudiyasının ssenari redaksiya heyətinin baş redaktoru olmuşdur 1946-1964. Ədəbi fəaliyyətə 1930-cu illərdən başlamışdır. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. "Şərqin səhəri" 1947, "Od içində" 1951 pyesləri və "Şirvan gözəli" 1957 lirik komediyası tamaşaya qoyulmuşdur. "Şirvan gözəli" Zaqafqaziya teatr baharında birinci dərəcəli diploma layiq görülmüşdür. 1957-ci ildə onun Akademik Dram Teatrında tamaşaya qoyulan "Şərqin səhəri" əsəri SSRİ Dövlət mükafatına layiq görülüb. Amma mükafat alanların siyahısında müəllifin adı olmayıb. Ə. Məmmədxanlı Avropa və rus klassik yazıçılarından tərcümələr etmişdir. Kuba 1967, Türkiyə 1968, İspaniyada 1980 Sovet nümayəndə heyəti tərkibində səfərdə olmuşdur. İki dəfə "Şərəf nişanı" 1946-1949 "Qırmızı Əmək bayrağı" 1980-1983 və "İkinci Dünya müharibəsi" ikinci dərəcəli ordenləri, döyüş

medalları ilə təltif olunmışdır. 1990-ci il dekabrın 19-da Bakıda vəfat etmişdir. Fəxri xiyabanda dəfn olunmuşdur. .

"Od içində"pyesi Güney Azərbaycanda 1945-ci ulusal hökumətin tarixindən alınmış bir dram əsəridir. Yazıçının özü bu devrimdə iştirak etdiyi üçün və onu yaxından görmək üzündən pyesi bir illik özgürlük, vətənpərvərlik və ziyalı düşüncəyə sahib olan bu devrimin yalnız, qurucularının həyatından yox bəlkə özəlliklə Güney Azərbaycanda, devrimin kütləvi şəklini, Türklərin kəndiləri sevdiyi bir antierticai və qabaqcıl hərəkəti, şikəstən sonrasını real halda təsvir edir. 21 Azər" 12 dekabr 1945" hərəkati adlanan Güney Azərbaycanın ilik kültür və ulusal kimlik ya Türkçülük əsasında xalqın illər boyu hiqarətlərə, haqsızlıqlara, despot otoritəyə, sitəmlərə, yasaqlıqlara və kültür basqısına qarşı bağırtı və haykırtı olaraq könüllərin əsil istəklərindən dirçələn və yaranan devrimdir ki onun bütün dövlət adamları ziyalı maarif və mədəinyyət xadimləri, bilimsəl və aydın insanlardan təşkil tapır, İranın şovinist mərkəzi hakimiyyətinə net və açıqca etiraz və Güney Azərbaycan xalqının politikal, kültürəl, ekonomikal və sosial haqlarını bir ulusal hakimiyyət təşkilatının çərçivəsində inkişaf etmək üçün programlarında əsas yer tutan kültürəl və devrimsəl dövlətdir. bu dövlətin başçısı və öndəri yazıçı, sosiylioq humanitar mübariz, illər boyu despot Rza Şahın illərcə dustaqlarında qalıb və sürgünlərdə olmuşdur. Ənvər Məmmədxanlı Azərbaycanın başqa dəyərli sosial xadim və devrimçi yazıçıları kimi M. C. Pişəvərinin qabaqcıl hərəkatına ilk gündən Güney Azərbaycan ulusal hakimiyyət qurmaq çalışmalarından ona önlü qələm və fikirləri ilə hər yönlü dəstək verirdi. bu devrim Rus, İngiltərə, Amerikan imperiyaları və İran irticası tərəfindən boğulması və Azərbaycan ulusal hökumətin bir il böyük uğurlar qazanmağına "ana dilində məktəblərin açılması, qəzetlər və kitabların Türki dilində çox sayda basılıb və geniş yayılması, Təbriz, universitetdinin açılması, xalq oyun və rəqslərinin və Azərbaycan filarmoniyasının və dövlət teatrının təşkil olması, şəhərlərin və kəndlərinin abadlaşması, yolların genişlənib yeni böyük tranzit yollarınn düzəlməsi, və s. "son verərək, Azərbaycan xalqının sinəsinə yeni bir dağ yenə çəkdilər. Ə. MəmmədXanlı Azərbaycanın keçən şanlı tarixində özəlliklə güney Azərbaycan ulusal hökumətində iştirak etdiyi günləri, həsrətlə xatırlayaraq Türk ulusal ədəbiyyatında "Od içində"pyesi ilə 21 Azər devriminin amaclarını və xalqın o devrimə bağlı olduğunu və onun şikəstində imperiyaların rolunu çox gözəl bədii dramatik formada təsvir edir. pyesin ilk başlanışında vəzir dərbarın İran Şahının gücsüzlüyünü, onun danışığından anlamaq mümkündür. örnək :

"Vəziri- dərbar . .:. qəbriniz çatlasın, ey İrani-bastanın şahinşahları! budur sizin taxtınızda oturan xəlifəniz. . . " (35, s. 184 )

Ənvər Məmmədxanlı Azərbaycanın dünyaya və İrana önəmli olduğunu da əsərdə çoxlu yerdə göstərir. örnək elə vəziri_dərbarın dilindən . .:. Elə ki, Azərbaycan məsələsi ortaya gəldi, doktor Şort da, doktor Xartda, Əlahəzrətin yorğanının üstündən dartarlar ki, tez ayağa qalxsın!

İran Şahlığının politikasında, Qacarlar silsiləsindən bu tərəfə, yer tutan ingilis və Rus imperiyaları pəhləvilər Şahlığının politikində də, bu sürəc gizlı və Aşkar dəvam edirdi, Məhəmməd Rza pəhləvinin iç və dış politikasında, Amerikanın İrana nüfuz etdiyindən sonra yavaş-yavaş bu sürəc deyişməyə başlayır, İran üç imperiya arasında riqabətlər üzərindən, İngilis və Rusiya imperiyaları, opozesiyonlar təşəkküllərində İrana basqı gətirmək və imtiyaz almaqda çalışırlar. Ənvər Məmmədxanlı da İranın durumun pyesində bu açıdan araşdırıb "Od içində"adlanan Tarixi pyesini, Türkçülük ulusal şüuruyla duyğularını dram janrında qələmə alır. İranın İngilisə başqa dövlətlərdən artıq bağlantısı və bağlılığı pyesdə vəziri-dərbarın ağzından və İngilis doktorları "casusları " dilindən söylənilir. örnək:pyesin proloqunda vəziri-dərbardan doktor Şorta xitab belə deyilir.

"Vəziri-dərbar:nə sözdür, qurban, məgər mən ingilislərin İranın ən köhnə və səmimi dostları olduqları haqqında cavan Şaha bir saat çənə dövmürəmmi? Məgər mənim cənnət- məkan atam vaxtilə İran dövlətinin London səfiri deyildimi?. . .

İmperiyalar oyuncağı olan İran Şahlığı, xalqı yox yalnız kəndilərin və kəndi mənfelərini qorumağa çalışırlar və bu antıxalq politikaları üzündən, hər zaman dövlət və xalq arasında zəif ilgi olur, və belə politikin sonucu ulusal hakimiyyətin qurulmaması, santralizm, yoxsulla zənginləri bütün sahələrdə geniş fasilə açmaları və hər gün yoxsulların durumu kötüləşməyə meyl etməkdə və zənginlər zənginləşməyə getməkdə, asayiş dövlətinin təşkil olunmaması, etniki və şovinisti baxışların çeşidli etniklərin üstünə ağır kölgə salması, məmləkətin etnik və ekonomikal və kültürəl bölümlərə, qruplara parçalanması və bu etniklərin ziyalılarının düşüncələrində bu kötü durumdan çıxmağa, müstəqillik, antisantiralizm, kəndilərinə müstəqil bayraq, torpaq, ulusal dövlət yaratmaq çarəsi gəlir. Güney Azərbaycanda ziyalılar bu kötü politikaların çıxış yolunu aramaq üzərindən, Azərbaycanda müstəqil ulusal hakimiyyət qurmaq düşüncəsi qafalarında yaranır. Azərbaycan problemi İran Şahına çox önəmlidir ki onu çözməyi ön planına gətirir və Amerikan səfərindən Təbrizə getmək üçün vaz keçir. bu məsələyə vəziri-

dərbar böylə işarə edir:Allahın lənəti gəlsin Azərbaycanlılar . .!. əla həzrətin Amerikan səfərinə mane olmaq üçün, cavan Şahımıza Təbrizə səfər etməyi məsləhət görürəm ki, İranın başından Azərbaycan təhlükəsini birdəfəlik dəf eləsin!

İran Şahının, atası Rza Şahı İngilislər götürəndən sonra, İngilislərdən zahirdə az yaxın olsada əmələn uzaqlaşdı. bu politiki sürmək üçün o "Ağ devrim"adında proqramını İranın Amerikan kimi modernləş məsində, geniş surətdə çalışırdı. pyesdə Şah . .:. biz modern Amerikan sayağı təşrifat ilə "Ağ Devrim"ı başlamışıq. . sərhəng Ehtişamiyə söyləyir. Amerikan etkisi altında olan İran şahı və İranın Quzey neft quyularında, tamahları olan meymun xislətli Rusların xəyanəti sonucunda, Azərbaycanın ulusal hakimiyyəti imperiyalar və onların irticaçı amili olan İran şovinist hakimiyyəti təvəssüti ilə bir il sürən öğzgürlük və qutsal devrimi hökumətdən sonra yıxılır. Azərbaycanın bütün aydınlar, ziyalıları və qabaqcıl mədəni insanları ki, ulusal devrimin tərəfdarlarıdır, sərhəng Ehtişami Şahın Təbriz səfərinin astanasında, Şahı sevənləri avam xalq və ya fanatikə uydurmalara dalmış insanlardan sayır. Bu səbəbə görə də Məhəmməd Rza Şah dini fanatik düşüncələrlə, avam xalqı aldadırdı və İmam Rzanı yuxuda gördüyünü də söyləyirdi və kəndini zəllullah "tanrının yerdə kölgəsi "sanırdı, eyni atası Rza Şahın yolunu gedirdi. "Rza Şah hakimiyyətinin ilk günlərində avam xalqa qarışıb Məhərrəm ayında əza dəstələrində başına çamır vurub onlarla yas saxlayıb ağlayırdı, dolaşırdı" indi də oğlu o tarixi görüb anarkən, ziyalılar içində yeri olmadan, avam xalq içində yer salmağa çabalırdı, və bu üzdən də Təbrizdə ona qabaq çıxanlar da yalnız avam xalq olmalıydı, Ehtişami də pyesdə ona işarəti var:həqiqi və Şahpərəst Azərbaycan hər axşam məscidlərə dolur, səhərə kimi sizin iqbalınıza dua eləyir. məscidi olmayan kəndlər isə indidən sürülərini Təbrizə doğru qovurlar. . . (35, s 325 ).

sərhəngin bu xəbərinə qarşı doktor Xartın bu cavabı: "sərhəng! qoyun sürülərinin istiqbala çıxması vacib deyil " ( ) komik də olsa bir gərçəkin üstün açır ki bir demokrat məmləkətin, ulusal hakimiyyətin, dövlətin əsil dayağı güvənlik qrupu o xalqın ziyalılarından olmalıdır nə avam xalq və fanatik mövhumlara batanlar. pyesin ana xəttində əsas yer tutan ana fikir bir xalq istiyən və sevən kültürəl dövlətin, despot və şovinist, quldur, irticaçı dövlət və istismarçı imperiyalar tərəfində dağılması və xalqın başına imperiyaların gətirdiyi bəlalar və müsibətlər və Azərbaycan xalqının tarix boyu keçdiyi qara taleyi və onların bütün bu müsibətlərə gələcəkdə qalıb gəlmələri təşkil edir. Şah irticaçı rejimi də elə Azərbaycan kültürəl dövlətinin şikəst verməkdə birinci

amacı Azərbaycan xalqının kültür və tarixin məhv etməkdir. bu sözə qüvvət Ehtişami :Azərbaycanda kı anarşıya son qoyulmuşdu, ya əlahəzrət, ulusal ruznamə, məktəblər, və Təbriz universiteti bağlanmışdı. Amma azəri dilindəki kitablar yox.

### IV. 2. İ. Əfəndiyevin"Şeyx Məhəmməd Xiyaban" əsəri: tarixi hadisələrin bədii səciyyəsində, Türkçülük düşüncəsi

İ. Əfəndiyev 1914-cü il may ayının 28-də Qaryaqində (indiki Füzuli şəhəri) tanınmış və hörmətli tacir ailəsində anadan olmuşdur. Nəsilliklə oxumuş ruhani və varlı tacir ailəsindən çıxmış Məhəmməd kişi 1884-cü ildə anadan olmuşdur. Onun ata-babası bütün Qarabağda tanınan, kasıba, yoxsula əl tutan, xeyirxah və alicənab adamlar idilər. Bu ailənin bir qolu tacir nəslinə mənsub olub alqı-satqı işləri ilə məşğul olmuşdur. Digər qolu isə ruhani təhsili almış, savadlı Axund və üləmalardan ibarət idi. Yazıçının atası Məhəmməd Əfəndiyev həmin ailənin ticarətlə məşğul olan qoluna mənsub olmuşdur. O, 7-8 yaşında olarkən atası vəfat etmiş, anası ərə getməyərək bütün ömrünü dörd kiçik oğlu ilə bir qızını boya-başa çatdırmağa sərf etmişdir. Məhəmməd Əfəndiyev kənddə beş illik rus-tatar məktəbini əla qiymətlərlə bitirmiş, rus dilini mükəmməl öyrənmişdir. Məktəbi bitirdikdən sonra Qaryaqinə köçərək yeznəsinin yanında kənd təsərrüfatı alətləri satan mağazada işləmişdir. Bir müddət sonra həmin ticarətlə müstəqil məşğul olmuşdur. O, Rusiyanın müxtəlif şəhərlərilə, Təbrizlə, İstanbulla ticarət əlaqələrinə girmiş, bir neçə həmkarı ilə birlikdə mal gətirib satmaqla var-dövlət sahibi olmuş və böyük hörmət qazanmışdır. 1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal olunduqdan sonra Məhəmməd kişi müxtəlif təsərrüfat idarələrində çalışmışdı. Onun babası Hacı Axund Tehranda ali ruhani təhsili almış, geniş dünyagörüşlü və savadlı bir adam olub böyük hörmət sahibi idi. Evində çox zəngin kitabxanası varmış. İlyas Əfəndiyev qeyd edir ki, Hacı Axund başqa mollalar kimi acgöz deyildi, kasıblardan pul almaz, camaatı öz halal zəhməti ilə dolanmağa, əyri iş dalınca getməməyə, fəqir-füqəraya əl tutmağa çağırardı. Kasıblar həmişə onun yanına məsləhətə gələrdilər. Yazıçının babası Bayram bəy Şuşada rus dilində gimnaziyanı bitirib dövlət idarələrində məmur işləmiş, Müsavat hökuməti vaxtında Şuşada qəza rəisi vəzifəsində çalışmışdır. Əfəndiyevlər ailəsi Sovet hakimiyyəti dövründə, 30-cu illərdə ciddi təqiblərə məruz qalmış, onların ata-baba mülkü əllərindən alınmış, ailənin bəzi üzvləri «xalq düşməni» kimi güllələnmiş, bəziləri həbs edilərək vətəndən uzaqlara sürgün olunmuşdur. Yazıçının atası

Məhəmməd Əfəndiyevə «kulak» damğası vurularaq evi, böyük mülkü, bağı zəbt edilmiş, «səs hüququndan» məhrum olunmuşdur. Ağır sıxıntı və ehtiyac içərisində yaşayan Məhəmməd Əfəndiyevin ailəsi mağazadan ərzaq malları, pal-paltar almaq hüququndan belə məhrum edilmişdir. Lakin yazıçının nənə və babaları bolşeviklərin ağalığından əvvəlki illərdə yüzlərlə yoxsul ailələrə əl tutan, kasıblara kömək edən xeyirxah və səxavətli adamlar kimi yadda qaldıqlarından, qohum-qonşu dar ayaqda bu ailəyə gizlin də olsa, kömək edirdilər. Yazıçı bu illərin hadisələrini xatırlayaraq qeyd etmişdir: «Bizim ailəmiz çox ağır vəziyyətdə idi. Atam səs hüququndan məhrum edildiyi üçün uzun illər işsiz qaldı. Yeddi uşağın böyüyü mən idim. Atamın vaxtı ilə tikdirdiyi böyük evimiz əlimizdən alınmışdı. Bizim doqquz adamdan ibarət ailəmizə hökumət tərəfindən zəbt edilmiş evimizin ikinci mərtəbəsində iki balaca otaq vermişdilər. Balaca qardaşlarım yemək stolunun altında, üstündə yatırdılar». Çoxuşaqlı həmin ailədə ciddi nizam-intizam var idi. Anaya məhəbbət, ataya hörmət ailədə ciddi əməl olunan qaydalardan idi. Ailədə böyük-kiçik seçilirdi, hərənin öz vəzifəsi var idi. Uşaqlar kiçik yaşlarından zəhmətə, əməyə alışmışdılar. Ata çox ciddi və zəhmli olsa da, ana mülayim və rəhmdil idi. Ailə üzvləri arasında qarşılıqlı hörmət hökm sürürdü: təbiətə məhəbbət, mütaliəyə, kitaba maraq ananın təsirindən irəli gəlmişdi. Bütün müsəlman ailələrində olduğu kimi Əfəndiyevlər ailəsində də ata əsas şəxsiyyət idi və bütün problemləri o həll edirdi. Qarabağın aran rayonlarında yaşayan yüzlərlə başqa ailə kimi Məhəmməd kişi də ailəsi ilə bərabər yay aylarında yaylağa – Şuşaya köçərmiş. İlyasın uşaqlıq illərinin müəyyən hissəsi Şuşada keçdiyindəndir ki, yazıçının yaradıcılığında Şuşa və Qarabağ mövzusu mühüm yer tutur. Bu ailənin xoş günləri, İlyasın uşaqlıq illərinin sevincli anları 1920-ci ilin aprel-may aylarında sona yetmişdir. «Kulak» damğası vurulmuş bu ailənin üzvləri hərə bir tərəfə dağılmış, təhlükəsizlik orqanlarının qorxusu, həbs olunmaq təhlükəsi qohumları bir-birindən aralı salmışdı. Yazıçının atası 30-cu illərin ədalətsizliklərinə, təqib və təhqirlərə dözmür, uzun illər işsiz qalır, ailəsini dolandıra bilmir. Ağır xəstələnərək «səksən yaşlı qocaya dönmüş» Məhəmməd kişi 1934-cü ildə 50 yaşında vəfat edir. İ. Əfəndiyevin nənələri Fatma xanım və Bəyaz nənə, anası Bilqeyis xanım geniş dünyagörüşünə malik, savadlı, şifahi xalq ədəbiyyatının onlarla nümunələrini, əfsanə, nağıl və dastanları sinələrində gəzdirən el ağbirçəkləri olmuşlar. İlyasın bir gənc kimi formalaşmasında, kitaba, ədəbiyyata, ümumiyyətlə mütaliəyə maraq oyanmasında anası Bilqeyis xanımın əvəzsiz xidmətləri olmuşdur. O, İlyasa yalnız analıq yox, Məhəmməd kişi vəfat etdikdən sonra, müəllimlik, yoldaşlıq, həm də atalıq

etmişdir. Atası ilə o qədər də «dil tapa» bilməyən, onunla dostlaşmağı bacarmayan İlyas bütün sirlərini, dərdlərini anası ilə bölüşərdi. İ. Əfəndiyev anası haqqında yazmışdır: «Anam keçmiş müsəlman qızları kimi, evdə mülukanə adamlardan dərs almışdı. Ərəb və rus əlifbalarında yazıb oxuyurdu. Mütaliəni çox sevirdi. Azərbaycan dilində çıxan kitabların, demək olar ki, hamısını oxumuşdu. Mənə ərəb və latın əlifbalarında yazıb oxumağı da o öyrətmişdi. Uşaq vaxtı anam bizə oxuduğu kitablardan hədsiz-hesabsız əhvalatlar danışardı. Onun oxuyub bizə nağıl elədiyi «Ərmənusə», «İngilis xanımı», «Hind racəsi», «Rüstəm və Zöhrab», «Əlif Leyla» və sairə kitablar indi də yadımdadır. Füzulinin «Leyli və Məcnun» əsərini də mən ilk dəfə anamdan eşitmişdim. Ümumiyyətlə, anamız çox incə zövqə malik bir qadın idi. Dövrün ictimai hadisələrindən də baş çıxarırdı. Allahsız olmasa da, mollalardan zəhləsi gedərdi. Məndə güclü mütaliə həvəsi məhz anamın təsirilə oyanmışdır». Danışılan bu əhvalatlar, nağıl və əfsanələr İlyasın incə qəlbinə təsir etmiş, onun sonralar bir yazıçı kimi formalaşmasında mühüm rol oynamışdır. İ. Əfəndiyev bu haqda yazmışdır: «. . . bunları bizə danışanda mənim xəyalımda heyrətli bir aləm yaranırdı və bu aləmin qəhrəmanları, onların igidlikləri uzun zaman gözümün qabağından qetmirdi. Mən onların iztirabları ilə həyəcanlanıb pərişan olur, qələbələrinə sevinirdim və getdikcə xəyalımda yaranan bu aləm mənə real həyatdan, təsadüf etdiyim insanlardan "yalnız anamdan başqa" daha artıq xoş qəlirdi. . . O aləm daha şirin, daha cazibədar görünürdü». İ. Əfəndiyevə «Xoş gələn» bu sirli aləm sonralar onu öz qoynuna alır, nənəsi və anasının danışdıqları və cib dəftərlərinə qeyd olunan «maraqlı əhvalatlar» bir sıra bədii əsərlərin fabulasına çevrilir. Məsələn, Fatma nənənin danışdığı: «Quşların dilini bilən Süleyman padşah bütün quşlara əmr edir ki, hər biriniz mənə dünyanın ən gözəl quş balasını tapıb gətirin! Qarğa çox axtarır, onlarla quş balasına baxır, axırda özünün eybəcər balasını dimdiyinə alıb aparır və Süleyman padşaha deyir: Qibleyi-aləm! Dünyada bundan gözəl quş balası tapmadım» – əhvalatı «Sağsağan» hekayəsində qələmə alınmışdır - yaxud, məzmunu «Kitabı-Dədə Qorqud»dan gələn, xalqımızın yadelli işğalçılara qarşı mübarizəsindən söhbət açan digər bir əfsanə «Qarı dağı» hekayəsi üçün əsas olmuşdur. Yazıçının 1991-ci ildə qələmə aldığı «Vəzir Allahverdi xan və Bəhlul Danəndə» hekayəsindəki əhvalat da anasının danışdığı rəvayətlərdən götürülmüşdür. İ. Əfəndiyevin uşaqlıq və gənclik illəri bir tərəfdən belə əfsanəli və rəvayətli mühitdə keçmişdisə, digər tərəfdən bolşevik qara qrupunun və kommunist ideologiyasının ən qatı dövrünə təsadüf etmişdir. Bütün varlılar kimi Əfəndiyevlər ailəsi də dövrün ədalətsizlikləri ilə qarşılaşmışdır.

Bunlar isə İlyasın qəlbində dərin iz salmışdır. Yəqin ki, onun ədəbi qəhrəmanlarındakı, elə yazıçının öz xarakterində ki kommunist və sovet rejiminə qarşı narazılıq, zamanın tələbləri ilə barışmamaq meyli elə buradan əmələ gəlmişdir. Yazıçı hələ uşaq yaşlarından zəhmətə alışmış, mütaliəyə böyük maraq göstərmiş, məktəbə getməzdən əvvəl yazıb-oxumağı öyrənmiş, çoxlu kitablar mütaliə etmişdir. 1921-ci ildə birinci sinfə gedən İlyas 1930-cu ildə pedaqoji təmayüllü iki dərəcəli orta məktəbi əla qiymətlərlə bitirmişdir. Məktəbin direktoru Cəmil bəy Vəzirov, müəllimləri Mehdi Mehdizadə, Cümşüd Zülfüqarlı, Bəylər Ağayev və b. orta məktəbdə oxuyarkən müəllimlərin tapşırıqları ilə kifayətlənməyən İ. Əfəndiyev dərsdən əlavə, müstəqil mütaliə yolu ilə çoxlu bədii kitablar, o cümlədən rus ədəbiyyatı klassiklərindən A. S. Puşkin, M. Y. Lermontov, A. P. Çexov, İ. Turgenev, M. Qorki kimi sənətkarların dilimizə tərcümə olunmuş əsərlərini mütaliə etmiş, eyni zamanda riyaziyyat və fizika elmlərinə böyük maraq göstərmiş, coğrafiyanı həvəslə öyrənmiş, böyük səyyahların, o cümlədən R. Amundsen, Nansen, X. Kolumb, A. Vespuçÿi kimi adamların həyatını diqqətlə izləmişdir. Əlbəttə, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq onu daha çox maraqlandırırdı. İ. Əfəndiyev yazır: «Klassik romanlar, pyeslər, poemalarla bərabər, o zaman haqqında çox danışılan professor Friçe, professor Kogan, professor Köprülüzadə, İsmayıl Hikmət kimi məşhur ədəbiyyat alimlərinin əsərlərini də yorulmadan, həvəslə oxuyub balaca dəftərçələrdə özüm üçün konspektlər çıxarırdım. Mən gələcəkdə Köprülüzadə kimi, professor Friçe kimi böyük ədəbiyyat alimi olmaq xəyalı ilə hey həvəslənir, hey oxuyurdum». Dünya ədəbiyyatı və mədəniyyət sahəsində yüksək zirvəyə qalxmış onlarla sənətkarların həyatı və yaradıcılıq təcrübəsi bir daha sübut edir ki, böyük ədiblərin, rəssam və bəstəkarların formalaşıb yetişməsində, öz xalqının qabaqcıl elm və mədəniyyət xadimi səviyyəsinə yüksəlməsində bir sıra mühüm həyati amillər həlledici rol oynamışdır. «Sənətkarı əhatə edən ictimai ədəbi mühitin bütün mürəkkəblik və çoxcəhətliliyini öyrənmədən, onun müasirləri ilə əlaqələrinin yerini və mövqeyini dəqiq müəyyən etmədən yazıçının formalaşma və inkişaf prosesini doğru-düzgün mənalandırmaq çətindir, bəlkə də mümkün deyildir». Əlbəttə, İ. Əfəndiyevin bir gənc kimi yetişməsində, mütaliəyə, ədəbiyyata, elmə böyük maraq göstərməsində, hər şeydən əvvəl, ailə tərbiyəsinin, ata-ana ocağının çox mühüm təsiri olmuşdur. Lakin bu, həlledici səbəb olsa da yeganə amil deyildi. Yazıçının formalaşıb yetkinləşməsində, bir sənətkar kimi püxtələşməsində başqa amillər də olmuşdur ki, bunlardan oxuduğu və dərs dediyi məktəbin kollektivi, boya-başa çatdığı bölgənin ictimai-mədəni mühiti, gənclik illərində böyük

həvəslə izlədiyi və maraqla mütaliə etdiyi «Qızıl Araz» adlı rayon qəzeti, Füzulidə fəaliyyət göstərən xalq teatrı, ali təhsil aldığı institut həyatı, işlədiyi «Yeni yol», «Kommunist» və «Ədəbiyyat qəzeti» redaksiyaları və ən nəhayət Bakı ədəbi mühiti, Yazıçılar İttifaqı. . . çox böyük təsir göstərmişdir. Düzdür, bu amillərin yazıçıya biri az, biri çox təsir etmişdir, lakin onların heç biri təsirsiz qalmamışdır. İ. Əfəndiyevi sənət aləminə aparan yolun başlanğıcı ailədən və orta məktəbdən keçmişdir. Bu insan həyatının elə bir anıdır ki, yeniyetmə gənc konkret və müstəqil biliyə yiyələnməyə, ətrafda baş verən hadisələri dərk etməyə, mütaliəyə maraq göstərməyə, əqli və zehni qabiliyyətini inkişaf etdirməyə başlayır. Bu yolun uğurlu başlanğıcından çox şey asılıdır. Ailədəki tərbiyə üsulları, oradakı ab-hava, qarşılıqlı münasibətlər çox şeydən xəbər verir. İnsan həyat yollarında ilk sınaqlarla burada rastlaşır. İlyasın boya-başa çatdığı ailənin üzvləri də halal zəhmətlə yaşamış, minnətsiz çörək yeyərək övladlarını da bu ruhda tərbiyə etmişlər. Orta məktəbi bitirdikdən sonra bir müddət Böyük Bəhmənli kəndində dil və ədəbiyyatdan dərs deyən İ. Əfəndiyev 1935-1938-ci illərdə Qaryaqin şəhər orta məktəbində coğrafiya müəllimi işləmiş, eyni zamanda gənclərin təlim-tərbiyəsində, savadsızlığın aradan qaldırılmasında, məktəbyaşlı uşaqların təhsilə cəlb olunmasında fəallıq göstərmişdir. Yazıçının formalaşmasında Qaryaqinin ictimai və mədəni həyatı da az rol oynamamışdır. Düzdür, 30-cu illərdə rayondakı mühit haqqında əlimizdə geniş məlumat yoxdur. Lakin yazıçının öz xatirələri, məktəb və müəllim kollektivi, rayon ziyalıları haqqında əldə etdiyimiz məlumatlar, rayon qəzeti səhifələrində dərc edilmiş müxtəlif məqalələr, gənclərin həyatında və tərbiyəsində o illər çox mühüm rol oynamış, dram kollektivinin fəaliyyəti barədə ki yazılar rayonun 30-cu illərdəki ictimai-mədəni həyatı haqqında müəyyən fikir söyləməyə imkan verir. Bu illərdə Garyaqində «Qızıl Araz» adlı qəzet dərc edilirdi. Müxtəlif illərdə Heydər Heydərov, Bala Bağırov, Səməd Əliyev və başqalarının redaktor olduqları qəzet, öz səhifələrində günün ictimai-siyasi hadisələri, təsərrüfatın aktual məsələləri haqqında materiallar dərc etməklə bərabər, ədəbiyyat və mədəniyyətin ayrı-ayrı sahələrini də geniş işıqlandırırdı. İlyas Əfəndiyevin həvəslə mütaliə etdiyi qəzetin səhifələrində ədəbiyyat müəllimləri Nemət Hüseynov, N. Kazımovun maraqlı yazıları, gənc şair Nəcəf Quliyevin şeirləri, rayonun qabaqcıl ziyalılarından Məmməd Sadıqovun, Savalan Zülfüqarovun, A. Manaflının və başqalarının məqalələri dərc olunurdu ki, həmin yazıların heç biri nəinki İlyasın nəzərindən yayınmır və təsirsiz qalmırdı, hətta gənc müəllimin dünyagörüşünün formalaşmasına öz təsirini göstərirdi. Səhifələrində tez-tez maraqlı yazılar dərc

edən «Qızıl Araz» qəzeti M. F. Axundov, M. Y. Lermontov, A. S. Puşkin, T. G. Şevçenko və başqa klassik yazıçıların yubileylərilə əlaqədar xüsusi səhifələr, ayrı-ayrı nömrələr buraxırdı. Uşaqların təlim və tərbiyəsi, gənclərin məktəbdən yayınması, azyaşlı qızların zorla ərə verilməsi və qaçırılması, məktəblərin və uşaq bağçalarının vəziyyəti, orada təşkil edilmiş dərnəklərin fəaliyyəti və s. məsələlər qəzetin səhifələrindən düşmürdü. «Gənc şairimiz» adlı məqalədə mətbuat günü münasibətilə redaksiya tərəfindən pulla mükafatlandırılmış gənc şair Nəcəf Quliyevin yaradıcılığından bəhs olunur, «Dövlət teatrında» adlı məqalədə ordenli xalq artisti Hüseynqulu Sarabskinin seçicilərlə görüşündən söhbət açılır, məktəb həyatını işıqlandıran başqa bir məqalədə göstərilir ki, rayonun məktəblərində təşkil edilmiş coğrafiya, təbiət, fizika, riyaziyyat və s. dərnəklər yüksək səviyyədə keçirilir, elmi məşğələlər aparılır və bütün bunlar şagirdlərə əlavə bilik və məlumat verir. Qeyd edək ki, orta məktəbdə oxuyarkən həmin dərnəklərdə fəal iştirak etmiş İlyas Əfəndiyev, müəllim olduqdan sonra da onlardan uzaqlaşmamış, dərnəklərin birinə rəhbərlik etmişdir. Fəaliyyəti «Qızıl Araz»ın səhifələrində geniş işıqlandırılan müəssisə və təşkilatlardan biri də rayonun kolxoz-sovxoz teatrı idi. Sonralar Qaryaqin Dövlət Teatrı kimi fəaliyyət göstərmiş bu işgüzar kollektiv həmin illərdə rayonun kəndlərində və qonşu rayonlarda «Laçın yuvası», «Həyat», «Almaz», «Vətən namusu», «Dağılan tifaq», «Məşədi İbad» və s. pyesləri böyük uğurla tamaşaya qoymuşdur. Teatrın direktoru Savalan Zülfüqarov yazılarının birində qeyd edir ki, «teatrımız yaxın günlərdə S. Rəhmanın «Toy» komediyasını oynayacaqdır». Əsəri qəbul etmək üçün rayonumuza Respublikanın xalq artisti Mirzağa Əliyev gəlmişdir. A. Manaflının «Həyat» haqqında mənim fikrim» məqaləsində isə müəllif, teatrın direktoru S. Zülfüqarovun, bədii hissə müdiri Əsəd Cəfərovun, aktyorlardan Ağababa Abdullayevin, Mürşüd Haşımovun, Cəmil Vəzirovun, Rza Əliyevin, Şölə Yolçuyevanın və başqalarının fəaliyyətindən bəhs edir. gələcəkdə görkəmli dramaturq olacaq İ. Əfəndiyev «teatr» adlı sehrli bir aləmlə ilk dəfə məhz Qaryaqində tanış olmuşdur. O, qeyd edir ki, «mən də ora tez-tez gedib və böyük maraqla aktyorların oyunlarına tamaşa edirdim». Sənət yollarında ilk axtarışlar aparan və yazıçı kimi ilk addımlarını atan gənc müəllim İ. Əfəndiyevin inkişafında istər rayon qəzeti «Qızıl Araz»ın, istərsə də rayon teatrının təsiri şübhəsizdir. Əfəndiyev orta məktəbi bitirdikdən sonra, ailə vəziyyətilə əlaqədar olaraq, təhsilində bir neçə il fasilə verməyə məcbur olur. Lakin ali təhsil almaq və Bakıya getmək arzusu onu tərk etmirdi. O Qaryaqin rayonunun Böyük Bəhmənli kəndində müəllim işədikdən sonra Xalq Maarif

Komissarlığı tərəfindən Nuxa şəhərindəki nümunəvi orta məktəbə tədris hissəsi müdiri vəzifəsinə tə‘yin olunur. Bir il burada işlədikdən sonra ali təhsil almaq üçün Bakıya - Azərbaycan Dövlət Pedaqoji institutuna göndərilir. 1934 -cü ildə APİ-nin ədəbiyyat şö‘bəsinə daxil olsa da, onun ali məktəbdə təhsil alması çox uzun sürmür; elə həmin il institutu tərk edib rayona qayıtmağa məcbur olur. İ. Əfəndiyev «kulak» balası olduğu üçün institutdan uzaqlaşdırılmışdır. Lakin yazıçı 1950-ci ildə qələmə aldığı «Tərcümeyi-hal» adlı yazısında bu faktı atasının xəstəliyi ilə əlaqələndirmişdir. Bunun səbəbi ondan ibarətdir ki, İ. Əfəndiyev 30-cu illərdəki tə‘qib və təhqirləri yaddan çıxarmamış, şəxsiyyətə pərəstişin qızğın bir dövründə, Stalin ideologiyasının oğlan çağında əsl həqiqəti ictimaiyyətdən gizlətməyə məcbur olmuşdur. Həqiqət isə belədir: Müvəffəqiyyətlə imtahan verib filologiya fakültəsinin əyani şö‘bəsinə daxil olmuş. yazıçı bir neçə ay orada oxuduqdan sonra xəbər tuturlar ki, İ. Əfəndiyevin atası devrimdən əvvəl ticarətlə məşğul olduğu üçün səs hüququndan məhrum edilmişdir. O zaman səs hüququndan məhrum edilmək isə ölümə məhkum olunmaq kimi bir hal idi. Yazıçı sonralar qələmə aldığı başqa bir yazısında institutdan qovulmasını tamamilə başqa cür izah etmişdi: Bir qədər sonra İnstitutun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Məmməd Orucov xəlvəti mənə dedi ki, göstəriş var, ata-anası səs hüququndan məhrum edilmiş tələbələr ideoloji fakültələrdən çıxarılsın. Məsləhətdir, nə qədər gec deyil, ərizə verib bir il məzuniyyət götür. «Atan qolçomaqdır» deyə səni İnstitutdan çıxartsalar, sonralar iş tapmağın çətin olar. Mən də o cür hərəkət etdim. Atası vəfat etdikdən "1934" sonra, çoxuşaqlı ailənin bütün ağırlığı evin ən böyük övladı olan, İ. Əfəndiyevin öhdəsinə düşmüşdü. Xoşbəxtlikdən İ. Əfəndiyevin adı həmin illərdə repressiya olunanların siyahılarında olmayıb. O 1938-ci ildə APİ-nin coğrafiya fakültəsinin qiyabi şö‘bəsini qurtarıb sağ-salamat rayona qayıdaraq müəllimliyini davam etdirmişdir. Respublikanın ən böyük ali məktəblərindən biri hesab edilən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil aldığı illər, İ. Əfəndiyevin həyat və yaradıcılığında mühüm bir mərhələ təşkil edir. Ən tanınmış alimlərin və müəllimlərin dərs dediyi həmin ali məktəbdə İ. Əfəndiyev Bəkir Çobanzadə, Əli Sultanlı və s. bu kimi müəllimlərdən dərs almışdır. Yazıçının qeydlərində oxuyuruq: «Lap ilk günlərdən istər tələbə yoldaşlarımın, istərsə də müəllimlərin yaxın, səmimi münasibətlərinə nail olmuşdum. Professor Çobanzadə, Əli Sultanlı kimi məşhur müəllimlərimiz mənimlə xüsusi dost olmuşlar. Professor Çobanzadə bir sıra xarici dillərlə birlikdə bütün Türk-tatar dillərini bilirdi. Həmişə son dəblə tikilmiş bahalı kostyumlar geyərdi. Demək olar ki, canlı bir ensiklopediya idi. Xaricdə də

böyük hörməti vardı. . . Aramla iki saat söylədiyi mühazirələrdən heç birimiz yorulmazdıq. . . o, yüksək mədəniyyətə, yüksək intellektə malik nadir bir adam idi». İ. Əfəndiyevin institutda dostlaşdığı və həmişə xətrini əziz tutduğu müəllimlərdən biri də Əli Sultanlı idi. Əli Sultanlının antik dövr ədəbiyyatı haqqındakı mühazirələri o qədər canlı, o qədər şairanə olurdu ki, biz hər dəfə sanki gözəl bir poemaya qulaq asırdıq. Heydər Əliyev İlyas Əfəndiyevi Azərbaycanın Xalq Yazıçısı fəxri adı alması münasibətilə təbrik edir. Məhz 30-cu illərin sonlarında İ. Əfəndiyev ədəbiyyata gəlmiş və bir-birinin ardınca hekayələr yazmağa başlamışdır. İlyas Əfəndiyev». 1939-cu il dekabr ayının 28-də Yazıçılar İttifaqı İdarə heyətinin 10 yanvar 1940-cı il tarixli iclasında müzakirə edilmiş və İ. Əfəndiyev İttifaqa üzv qəbul olunmuşdur. Gənc yazıçı bundan sonra Yazıçılar İttifaqının işlərində yaxından iştirak etməyə başlayır. Böyük Vətən müharibəsinin başlanması bütün başqa sənətkarlar kimi İ. Əfəndiyevi də səfərbər etdi, o da «müsəlləh əsgərə» çevrilib, qələmini silahla əvəz etdi. Yazıçı oxucularda düşmənə qarşı dərin nifrət, vətənə məhəbbət hissləri aşılamaq vəzifəsini öhdəsinə götürdü. Tarixi keçmişimizə, el qəhrəmanlarına, folklor nümunələrinə müraciət edərək bir sıra hekayələr yazdı, əsgərlərlə görüşlər, söhbətlər keçirmək üçün yazıçı briqadaları ilə bərabər Azərbaycan diviziyalarında oldu, digər tərəfdən, əsasən bir nasir kimi tanınmış ədib, ədəbiyyatın başqa bir sahəsində - dramaturgiya da qələmini sınadı. 1943-cü ildə o yazıçı M. Hüseynlə birlikdə, mövzusu Böyük Vətən müharibəsindən götürülmüş «İntizar» pyesini qələmə aldı. Əsər 1944-cü ildə M. Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının səhnəsində göstərilmiş və dramaturq İ. Əfəndiyevin Azərbaycan Milli Teatrı ilə 50 ildən çox bir müddətdə davam etmiş sıx yaradıcılıq əməkdaşlığının əsası belə qoyulmuşdu. Bundan sonra yazıçı Milli Teatr üçün «İşıqlı yollar»1946 və «Bahar suları» 1947 pyeslərini qələmə aldı. İ. Əfəndiyev dramaturgiyaya gəldiyi illəri belə xatırlayır: «. . . Tanınmış yazıçı Mehdi Hüseyn mənə yaxınlaşıb. . . «istəyirsən birlikdə bir pyes yazaq» - dedi. Mehdi kimi məşhur bir yazıçının bu təklifi gənc yazıçı üçün çox xoş idi və mən razılıq verdim. Beləliklə də biz birlikdə «İntizar» pyesini yazdıq. Pyes Akademik Milli Teatrda müvəffəqiyyətlə tamaşaya qoyuldu. Bundan bir müddət sonra teatrın direktoru və baş rejissoru Adil İsgəndərov məni milli teatra də‘vət etdi. Nəsr yaradıcılığımdan xoşaldığını bildirdi və təklif etdi ki, neft həyatından teatr üçün bir pyes yazmaq barədə düşünüm. . . Neftçilərin həyatını öyrənməyə başladım və neft həyatından «İşıqlı yollar» adlı dram əsərimi yazdım. Əsər Akademik teatrda tamaşaya qoyulduq dan sonra Adil İsgəndərov müasir kənd həyatından da bir

pyes yazmağı təklif etdi. Hətta qonorarın yarısını da qabaqcadan verdi. «Bahar suları» adlı pyesim də belə meydana gəldi. Pyesi Adil İsgəndərov özü tamaşaya qoydu, musiqisini Səid Rüstəmov yazdı. Beləliklə, mən nəsr yazmaqla bərabər dramaturgiyaya daxil oldum». 40-cı illərin axırlarında İ. Əfəndiyev artıq özünü bir nasir və dramaturq kimi təsdiq etmişdir. Onun yaradıcılıq uğurları təkcə oxucuları deyil, eyni zamanda ədəbiyyatşünas alimləri də sevindirirdi. Yazıçının yaradıcılığı, çap etdirdiyi hər bir yeni əsəri tənqidçilərin diqqətindən yayınmırdı. Məhz bu illərdə dövri mətbuat səhifələrində onun yaradıcılığı haqqında ilk məqalələr dərc olunmağa başladı. Əkbər Ağayevin «Kənddən məktublar», Hüseyn Şərifovun «Ümid verən yazıçı», Mehdi Hüseynin «Bir nasir haqqında», H. Orucəlinin «Həyata doğru», O. Sarıvəllinin «İntizar», M. Arifin «İntizar», M. Cəfərin «İntizar» tamaşası haqqında» və s. məqalələr İ. Əfəndiyevin geniş oxucu kütləsinə tanıtmaqda mühüm rol oynamışdır. Bundan əlavə, Azərbaycan Yazıçılar İttifaqının xüsusi iclasların dan birində yazıçı İ. Əfəndiyevin yaradıcılıq hesabatının dinlənilməsi və burada S. Vurğunun, M. Hüseynin, Ə. Məmmədxanlının, Ə. Ağayevin, H. Orucəlinin və başqa sənətkarların çıxış edib xoş sözlər söyləmələri İ. Əfəndiyevin yaradıcılığına olan maraqdan irəli gəlirdi. gənc yazıçı İ. Əfəndiyev Bakıya gəldiyi ilk gündən Əbülhəsən, Ə. Vəliyev, S. Rəhman, M. Cəfər, M. Hüseyn, S. Vurğun, S. Rəhimov, M. Arif, Ə. Ağayev, A. İsgəndərov, Adil Əfəndiyev və onlarla bu kimi sənətkarların əhatəsində olmuş, hər gün onların təsirini hiss etmiş, nəzər- diqqətindən kənarda qalmamış və yetkinləşmişdir. Yazıçı həmin xeyirxah insanları xatırlayaraq sonralar qeyd etmişdir ki, «mən ədəbiyyatımızda onların yerini boş görürəm. Yazıçılardan S. Vurğun da, Əli Vəliyev də, Mehdi Hüseyn də, Süleyman Rəhimov da o şəxslərdir ki, o zaman ədəbi gənclik onlara güvənirdik, onları özümüzə kömək, arxa hesab edirdik. Bir çətinliyimiz olanda müraciət edirdik, onlardan həmişə kişilik, kömək görürdük». Yaradıcılıq yollarında inamla addımlayan gənc yazıçı 1941-45-ci illərdə Azərbaycan Radio komitəsində ədəbi verilişlər şöbəsinin müdiri, 1945-ci ildən Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi,daha sonra isə Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışarkən ədəbi ictimaiyyətlə bilavasitə təmasda və əlaqədə işləmiş, həyatı dərindən öyrənmiş, dünyagörüşünü daima artırmışdır. 1945-ci ildə İ. Əfəndiyevin «Aydınlıq gecələr» adlı ikinci kitabı nəşr olunur ki, burada əsasən müharibə illərində yazılmış əsərlər toplanmışdır. Əsərlərin mövzuları müharibədən götürülmüşsə də, əsas məsələ bu idi ki, Həmin hekayələrdə döyüş və sınaq illərində müasirlərimizin mənəvi sifətləri və dəyanətləri qələmə alınmışdır. Həmin

əsərlərdə də yazıçı canlı insan surətlərinə, onların daxili aləmlərinin təsvirinə üstünlük vermişdir. «Aydınlıq gecələr» kitabı İ. Əfəndiyevi oxuculara öz səsi, öz yazı üslubu olan orijinal bir yazıçı kimi təsdiq etdi. 1954-cü ildə tamaşaya qoyulmuş «Atayevlər ailəsi» dramaturq İ. Əfəndiyevin yaradıcılığında irəli atılmış uğurlu bir addım idi. Müəllif ictimai həyatda rastlaşdığı qüsurları realist mövqedən, yüksək sənətkarlıqla qələmə aldığından, əsər tamaşaçı və oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Pyesi tamaşaya Tofiq Kazımov hazırlamışdı. Sanki İ. Əfəndiyev ilə T. Kazımov bir-birini kəşf etmişdi, onlar biri digərini çox gözəl başa düşürdülər. Müasirlik duyğusu çox güclü olan bu iki sənətkarda oxşar cəhətlər, intellektual səviyyə, birgə yaradıcılıq axtarışları Azərbaycan teatrı tarixinə parlaq səhifələr yazmışdır. Yaradıcılıq intuisiyası çox geniş olan Tofiq Kazımovla, insan qəlbinin dərinliklərinə nüfuz etməyi bacaran İ. Əfəndiyev arasındakı yaradıcılıq əlaqələri uzun illər davam etmişdir. Bu vaxta qədər bir dramaturq və xırda hekayələr müəllifi kimi tanınmış İ. Əfəndiyev 1958-ci ildə ilk dəfə iri həcmli «Söyüdlü arx» romanını oxuculara təqdim edir. Əsər yazıçıya böyük uğur qazandırdı. 1953-1958-ci illərdə İ. Əfəndiyev Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi vəzifəsində çalışarkən ədəbiyyata gələn istedadlı gənclərin inkişafını qayğı ilə izləmiş, bacardığı qədər onların yeni əsərlərinin çapına, kitablarının buraxılmasına kömək göstərmişdi. Bu illərdə onun yaradıcılığında janr rəngarəngliyi özünü göstərir, bir-birinin ardınca iri nəsr əsərləri, ciddi ictimai-siyasi problemlər qaldıran, gözəl mənəvi keyfiyyətlər aşılayan, eyni zamanda müasir Azərbaycan nəsrinin yüksək bədii-estetik səviyyəli nümunələri kimi şöhrət qazanmış «Körpüsalanlar» 1960, «Dağlar arxasında üç dost»1963, «Sarıköynəklə Valehin nağılı»1976-78, «Geriyə baxma, qoca» 1980, «Üçatılan» 1981 kimi povest və romanlarını dərc etdirir, eyni zamanda maraqlı dram əsərlərini qələmə alır, publisist və ədəbiyyatşünas kimi məhsuldar yaradıcılıq yolu keçir. Bu illərin məhsulu olan «Sən həmişə mənimləsən»1964 pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloji dramanın əsasını qoyur. Bu yolu uğurla davam etdirən dramaturq «Mənim günahım»1967, «Unuda bilmirəm»1968, «Məhv olmuş gündəliklər»1969, «Qəribə oğlan»1973, «Bağlardan gələn səs» /1976/ və s. pyeslərini yazır. Ölməz sənət nümunələri kimi Azərbaycan dramaturgiyası xəzinəsini zənginləşdirən, yüksək vətəndaşlıq pafosu, incə lirizm və dərin psixoloji tapıntılarla aşılanan bu pyeslər teatr sənətimizdə yeni bir mərhələ açdı, «İlyas Əfəndiyev teatrı» yaratdı. «İlyas Əfəndiyev teatrı»nın uğurlarından söhbət açarkən, təkcə onu göstərmək kifayətdir ki, ilk tamaşası 1968-ci ildə olmuş «Unuda bilmirəm» pyesi 1981-ci ilə

qədər, yalnız Azərbaycan Milli Teatrı səhnəsində 350 dəfə oynanılmışdır. İlyas Əfəndiyev 1971-ci ildə Qırmızı əmək Bayrağı ordeni ilə təltif edilmişdir. +Əlinə qələm aldığı ilk gündən müasir mövzulara daha çox müraciət edən dramaturq, 1971-ci ildə mövzusu tarixi keçmişimizdən götürülmüş «Mahnı dağlarda qaldı» pyesini yazır. Yeni yaradıcılıq uğuru kimi qarşılanmış bu pyesə görə İ. Əfəndiyev 1972-ci ildə Respublika Dövlət mükafatına layiq görülür. 1974-cü ildə Respublikamızın ədəbi ictimaiyyəti yazıçının anadan olmasının 60 illiyini təntənə ilə qeyd edir. Yubileylə əlaqədar olaraq ədib Oktyabr İnqilabı ordeni ilə təltif olunur. Azərnəşr onun dörd cildlik «Seçilmiş əsərləri»ni nəşr edir. Görkəmli ədəbiyyat xadimi, geniş şöhrət qazanmış İ. Əfəndiyev Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin 30 iyul 1979-cu il tarixli fərmanı ilə Xalq yazıçısı fəxri adına layiq görülmüşdür. Ədəbiyyat sahəsindəki xidmətləri nəzərə alınan ədib 1985-ci il Lenin ordeni ilə mükafatlandırılmışdır. 1990-cı ildə Azərbaycanın Milli Teatrı öz tarixində ilk dəfə olaraq xarici ölkəyə - Türkiyə qastrol səfərinə çıxmışdır. Bu səfər zamanı Teatr İstanbul və Ankara şəhərlərində teatr həvəskarlarına, İ. Əfəndiyevin «Bizim qəribə taleyimiz» və «Sevgililərin cəhənnəmdə vüsalı» əsərlərinin tamaşasını göstərmişdir. 60 ildən çox yaradıcılıq yolu keçmiş İ. Əfəndiyev, 90-cı illərdə də məhsuldar bir yazıçı kimi yazıb yaradır, hər il yeni-yeni əsərlər nəşr etdirir, təzə pyeslərini tamaşaya qoyurdu. Sovet rejimi illərində, partiya qadağaları dövründə deyə və yaza bilmədiyi bir sıra mövzuları cəsarətlə ədəbiyyata gətirir, onları yeni zamanın kontekstində oxuculara təqdim edirdi. O. «Hacı Axundun cənnət bağı necə oldu» hekayəsini, «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» povestini dərc etdirir, «Şeyx Xiyabani» 1986, «Bizim qəribə taleyimiz» 1988, «Sevgililərin cəhənnəmdə vüsalı» 1989, «Tənha iydə ağacı»1991, «Dəlilər və ağıllılar» 1992 «Hökmdar və qızı» 1994 və s. pyeslərini tamaşaya qoydurmuş, bir sıra yeni kitablarını nəşr etdirmişdi. Azərbaycanın ədəbi ictimaiyyəti 1994-cü ilin may-iyun aylarında Xalq yazıçısı İ. Əfəndiyevin anadan olmasının 80 illiyini təntənəli surətdə qeyd etdi. Zəngin yaradıcılıq yolu keçmiş, həyatın acılı-şirinli günlərini yaşamış sənətkar, İlyas Əfəndiyev 1996-cı il oktyabr ayının 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur. Onun «Ağ çiçəklər», «Dağ yolu», «Cənub mehi», «Prokuror», «Münaqişə», «Qara qapılar» kitablarında toplanmış hekayə, povest və romanları oxucular tərəfindən həvəslə oxunur. böyük yazıçının dəyərli çalışmalarından xiyabani pyesidir. Bu əsər Güney Azərbaycan da kı 1920-ci ildə yaranmış devrimin, özgürlük hərəkatının ulusal qəhrəmanı olan Şeyx Məhəmməd Xiyabaninin devrimçi humanitar düşüncəylə, müstəqil ulusal

Azərbaycan hökuməti qurmaq üzərində çabalarını və mübarizələrini inikas edir. pyes Azərbaycan xalqının taleyində böyük rolu olan və tarixi olaylarla həsrət və ayrılıq simvoluna çönən Araz sahilində Şeyx Xiyabani ilə bir qocanın belə danışıqla başlanır:

"Xiyabani: Savalan dağının zirvəsinə yığılan buludları görürsənmi qoca?

Qoca: görürəm oğul. . .

Xiyabani: Araz sahilindən gələn həsrət səsini eşidirsənmi?

Uzaqdan xanəndənin səsi eşidilir.

Keçmə Araz dərindir
Içmə suyu sərindir
Həsrət qalan bu ellər
Sənin də ellərindir

Qoca: o tayla bu tayın ayrılığına baxıram, hey baxıram.

Nə batmısan qara sən?
Nə geymisən qara sən?
Nə tükənməz dərd oldun
Nə sağalmaz yara sən?

Xiyabani: Babalardan yadigar qalan o Xudafərin körpüsü, vaxt gələcək yenə də insanların xoş məramına xidmət edəcək". (30, s. 112 )

Bu başlanışla əsər yazıçının bütün amalını yığcam dramatik şəkildə verir. ulusal ədəbiyyatın əsas vəzifəsini tarixi olayı sənəd şəklində arxivlərdə saxlamağa yox, bəlkə canlı surətlərlə sənət geyimi ilə əbədiləşdirməklə yazıçı ulusal görəvini ulusu və vətəni uğrunda ödəməlidir. Əfəndiyev bu əsərlə vətəni Azərbaycan və onda yaşayan Türk soydaşlarının illər boyu ayrılıq həsrətini haykırır və mustəqil ulusal hökumətdən və Arazın o tay bu tayından söz açaraq Türk evladlarının birləşmələrindən söz edir. Əfəndiyev diləklərini xalqın və qəhrəmanlarının ağzından da çox etkili söylədir. örnək üçün birinci şəkildə. . . .

"Xalq:yaşasın milli Azərbaycan hökuməti,

Xiyabaninin səsi:Ey qüdrətli Azərbaycan xalqı! ey özgürlük vuruşlarının cəsur mücahidi! bu alqış, verdiyin qurbanların səsidir! bu alqışlar sənin igid cavanlarının, mərd qocalarının, incidilmiş, təhqir olunmuş anaların səsidir! qoy bu qüdrətli səslər sənin ürəyində ildırımlar saçan daha güclü bir tufan qoparsın! mənim əzablar, sitəmlər çəkmiş böyük xalqım! and olsun sənin

şərəfinə! heç bir hədə - qorxu, heç bir xain zərbə bu qiyamın əsasını sarsıda bilməyəcək! biz şəhid olacayıq, lakin bu yoldan dönməyəcəyik!

Səslər:yaşasın Şeyx Xiyabani!yaşasın özgürlük!" (44, s. 89 )

Xiyabani qiyamı özgürlük və müstəqil Azərbaycan və milli hökumət qurmaq və Azərbaycan xalqının ayrılıq həsrətinə son qoymaq amacıyla hərəkətə keçmiş bir qiyamdır. Əfəndiyev də bir Azərbaycanlı yazıçı olaraq xalqının arzularını, həsrətini və ulusal amallarını düşünərkən duyğulanıb, bu tarixi olayın qarşında keçmişi xalqının tarixi yaddaşlarından silkəliyib dram sənəti ilə bədii surətlər və obrazlarla canlandırıb, Azərbaycan xalqının çağdaş problemlərini çözməyə çalışır.

1920-ci devrimi Xiyabani liderliyində, Azərbaycan xalqının kültürəl və mədəni özgürlük tələblərindən doğulan devrim və qabaqcıl hərəkətdir. bu hərəkətin başçıları və devrimin görüşlərinin yaradanları, Güney Azərbaycanda yaşayan Türk xalqının içində olan yazarlar və bütün fars şovinistini dərindən duyan və bu antihumanitar və hiqarətlərə qarşı duran, ziyalıların və aydınların içlərindən doğan ulusal şüurlarından dirçələnən düşüncənin sonucu ulusal hökumətdir. Örnək üçün ikinci pərdədə, Xiyabani İran şahlığının üsul-idarəsini, tutduğu kötü və yalnış, despot, şovinisti politikası dolayı suçlayır.

"Xiyabani:bu şah üsul-idarəsinin qatı ulusçuluğunun təzahürüdür. hacı, onlar bu cür müstəmləkəçilik üsulları ilə bütün milli xüsusiyyətlərimizdən bizi məhrum etmək istəyirlər.

Bu pyesin çağdaşlığı onun ana xətti düşüncəsində yerləşən, Türklərin kültürəl və politikal haqlarını qoruyub müdafiə edən, müstəqil Azərbaycan hökuməti qurmaq düşüncəsidir. Bu düşüncəyə dayanaraq, Əfəndiyev bütün gücünü bu əsəri yaratmaqla müstəqil milli hökumət qurmaq düşüncəsini, xalqının ulusal şüurlarında canlandırıb və oyatmağa çalışır. illər boyu milli sitəm altında yaşayan və müstəmləkəçi imperiyaların basqılarına məruz qalan xalqın, kültür və tarixi bu hücum edən imperiyaların ideologiyaları örtükləri altında. Basılan böyük Azərbaycanın qeyrətli balası olan Əfəndiyev xalqının, vətəninin acı taleyinə qarşı bu əsəri mübariz ruhundan doğan odlu qələmi ilə yaradır. Yazıçı xalqının bütün yönlərini və xüsusiyyətlərini tanıyaraq, ondakı sosial xəstəlikləri qaldırmağa pyesdə özəl dramatik variantlar salır. Bu variantlardan biri də dini fanatik xəstəliyidir ki pyesin üçüncü şəklində gözəl sənətçiliklə yaradır, burada yazıçı dinin və şəriətin insana xidmət olduğu üzdən yaranmasını Xiyabani dilə gətirməsədə, insanların özgürlüyünü və haqlarını bir azad insan kimi savunub, düşüncəli mənəvi igidliyə çağırması,

dramın çağdaşlığını və çağdaş Azərbaycan Türkünün inkişafa doğru yolunda getməyə və fanatik düşüncələri qaldırmaq zorunda olmasını təkid edir. Örnək üçün Xiyabani ilə Müctəhidin görüşmələrini burda gətirmək maraqlıdır.

"Xiyabani: Bu, mümkün deyil, cənab, müctəhid, biz din xadimlərinin dövlət işlərinə qarışmalarını istəmirik.

Müctəhid: Nə üçün?

Xiyabani: Ona görə ki şəriətin yazıldığı vaxtdan on beş əsr keçir. İndi texnikanı bu qədər inkişaf etdiyi bir zamanda biz cəmiyyəti şəriətin köhnəlmiş qanunlarına tabe edə bilmərik.

Müctəhid: Cənab şeyx! siz müsəlmansınız, bilirsiniz ki şəriət qanunları heç bir zaman köhnəlmiş hesab etmək olmaz.

Xiyabani: Cənab Müctəhid! əgər peyğəmbər indi sağ olsaydı, yəqin ki, o qanunları köhnəlmiş hesab edərdi. Biz bu əqidədəyik ki, elmin, mədəniyyətin tərəqqi və təkamülü üçün, bəşəriyyətin xoşbəxtliyi üçün insan təxəyyülü hər cürə cəbrdən, əhkamdan, qorxudan azad olmalıdır! insan vicdanı, insan ruhu zorlamamalıdır! qorxu xalqların qul olmasının başlıca səbəblərindəndir. Din xadimləri isə insanları daim mövhum bir vahimə içində saxlayaraq, insan idrakının qol-qanad açmasına imkan vermirlər!

Müctəhid: Allah xofu olmasa, insanlar heyvan kimi bir- birini didib parçalar!

Xiyabani: Heç bir qorxu, heç bir diktatora cinayətlərin, haqsızlıqların qarşısını, ala bilməmişdir. Qorxu, insanı mərdlik şərəfindən, alicənablıqdan məhrum edərək, onu miskinləşdirir, zalimlara, əclaflara boyun əyməyə məcbur edir. Biz insanları mənəvi igidliyə çağırırıq, cənab Müctəhid! insan səadətinin fəlsəfəsi müsbət ehtirasların azadlığında, cəsarət və qələbəsindədir! biz qurduğumuz hökuməti mollaların, ruhanilərin əlinə vermiyəcəyik!" ( 30, s. 216)

Pyesin əsas ana fikrində olan Azərbaycan sevgisi, vətənpərvərlik duyğusu, ulusçuluq və Türkçülük, yazıçını bütün kötülüyə və xəstəliklərə qarşı, toplumun geriliyinə qarşı olan düşüncələri, sosial və politikal xəstəliklər də onun gözündən qaçmır və bu xəstəliklərdən olan yalançı din xadimlərinin xiyanəti və yanlış düşüncələrinin üzündən vətənin dalı qalmasına səbəb olan ruhani adında xalqı soyan kəndilərinə gəlir və maaş dükanları açanlar da onun kəskin tənqidindən aman tapmayır. Xiyabaninin bir əlində döyüş silahı olsa da bir əlində bilim silahıdir və bu silahları işlədib yönəldən, qafada ağıl və vətənpərvərlik özgürlük, Türkçülük şüuru və eşqi,

duyğusu birlikdə yaşayır. Onu vətən uğrunda mübarizəyə sövq edən, duyğu və düşüncəsi, yazarın, vətənpərvər və Türkçü devrimçi, xarakterini də formalaşdırır. Xiyabaninin düşüncəsində ruhanilər islam dinindən sui-istifadə edərək, dinin əslini təhrif ediblər, xalqı başı uca və gücləndirmək yerinə məzlumluq, köləlik yoluna çəkirlər. Bu təhrifə və yanlış islama qarşı pyesdə Xiyabani ruhaniləri dövlət işindən uzaqladır. çünki mollalar xalqı bilimdən, mədəniyyətdən geri qoyurlar, onlar allahın özünə qarşı da iki üzlülük, riyakarlıq eləyirlər. Əfəndiyev bir aydın ziyalı olaraq Türk tarixini yaxşı və hər yönlü tanıyır. O Səfəvilər hakimiyyətini ki fanatik dinə, saxta firqəyə uymuş üzündən iki Türk qardaş arasında unudulmaz acı yaratmaqla, hər bir Türkçü ziyalının ürəyinə dağ salan Çaldıran savaşını"Şah ismail ilə Osmanlı ordusu ya şiə və sünni davasını "duyaraq anlayaraq dövlət işini ruhanilərə buraxmayır və yaratdığı Xiyabani obrazında ruhanilərə Xiyabaninin net cavabında onlara nifrət edir. Şeyx Xiyabani pyesində Türk dilinə çox önəmli yer verən Əfəndiyev İranın Türk Şahları olan Qacarları və Nadir Şah Əfşarı dövlət işində Türk dili yerinə fars dilini kullandıqlarını tənqid edib və onların bu əməllərini xiyanət sayır və xalq içində satqın adlandırır. Örnək səkkizinci pərdədə böylə gəlir.

" Mübarək Səltənə: Əgər Azərbaycanlıların özündən bizim tərəfdarlarımız olmasaydı, neçə yüz ildən bəri bu xalqı hökmranlı altında saxlamaq mümkün olmazdı.

Şahzadə Xanım: Onlar bizim tərəfdarimiz olan Azərbaycanlıları satqın adlandırırlar, lənətləyirlər!

Mübarək Səltənə: Olsun, bunun bizə dəxli yoxdur. bizə fars ulusunun, fars dilinin, fars ruhunun hakimiyyət lazımdır. İran dövlətinin Nadir Şah Əfşar, Ağa Məhəmməd Şah Qacar güclü şahları Azərbaycanlı olmuşlar! Lakin Azərbaycanlı olduqları heç yadlarına da düşməmişdir. Onlar dövlət işlərini farsca aparmış, farsca danışmışlar.

Ağayi Möhtəşəm: Cənab vali düz buyurur. Bütün bunlar fars ruhunun sehrkar təsiridir.

Mübarək Səltənə: Əgər Azərbaycanlılar iki yerə parçalanmayıb, Arazın o tay bu tayında bütöv bir xalq olaraq qalsaydılar, onların qabağında durmaq olmazdı. " ( )

Yazıçı duyğusuz heç bir şeyi təbliğ etmək istəmir, o xalqının oyaq ayrılıqdan yaralanan vicadni olaraq xalqının toplumsal tragik ruhunu bu dramda oxşayır. Bir ulusun zəngin tarixini, tarixi hafizəsini ulusçu düşüncəsi ilə silkələyib yaradıcılıq yolu ilə canlandırır. Özü bu əsəri yaradarkən coşub ulusal düşüncəsilə qaynaşarkən xalqını da coşdurub, ulusal düşüncədə qaynaşdırmaq istəyir ta iki yerə parçalanan xalqı bir də bir-birinə qovuşdura. Bu yalnız

Əfəndiyevin düşüncəsi deyil bəlkə böyük Türk dünyasının və o cümlədən onun önəmli və zəngin parçası olan Quzey və Güney Azərbaycan Türkünün amallarının ən önəmlisidir. Azərbaycan yeni ədəbiyyatının və o cümlədən dram janrının 1850-ci ildən etibarən doğuşu, oluşan tarixi, politikal və kültürəl hərəkətliliyin etkisilə 1905-ci illərdən sonra özəlliklə aydınların qızğın çalışma yerləri olan Bakı və Tiflisdə roman, hekayə, teatr və məqalə kimi Avropa mənşəli janrlar artıq Azərbaycan ədəbiyyatında Azərbaycanın inkişafın amac tutaraq, bir kəskin mübarizə yolu kimi önəmli yerini kütlələr içində tutub, Azərbaycanın gələcəyinə doğru, böyük rol oynayır. Divan gələnəyinin qarşısına, xalq ədəbiyyatı və kültürünün çıxarılmasıyla, oluşmaya başlamış və bütün bunlarla birlikdə təməl ilhamını ulusçuluk, vətənpərvərlik, xalqsevərlik, xalq anlayışına və düşüncəsinə uyğun Batı və rus ədəbiyyatçılarından və filosoflarından almış bir ədəbiyyat vucuda gəlir. Azərbaycan ziyalı yazar və dramaturjları toplumun sorunlarını sənət yolu ilə çözmək və kütləvi şəkildə etkili bir əsər yaratmaq üçün tarixə dönmək və gərçəklərdən əsərlərini qaynaqlandırmaq və ulusal təməllərə və kütlənin tarixsəl yaddaşlarına müraciət edib, Türk tarixinə dayanırlar. Bu açıdan ədəbiyyatın ən önəmli yan dallarından birisi olan tarix ilə topluma dönük ələştiri yöntəmlərdən və metodlardan birisi olan tarixi ələştirinin yolları qırılmaqdadır. Tarix, çox qıssa və yalın bir ifadəi ilə, olayların bəlli bir zəminə və zamana oturması və meydana gələn hadisələrin subjektiv görüşlərdən sıyrılaraq qeyd olub, bəlli bir zaman aralığından dəyərləndirilməsi olub, tarixsəl ələştiri və tənqid də bir ədəbi əsərin içində doğduğu tarixi göz önündə taparaq incələmək deməkdir. Dolayısıyla üzərindən bəlli bir zaman keçmiş hər hankı bir ədəbi əsəri doğru və objektiv olaraq incələyib anlayabilmək üçün, yalnız əsərin yazıldığı zamanı, dönəmin tarixi olay və şəxsiyyətlərilə fikri həyatını gərəkir. tarix arxivlərdə yalnız tətqiqatçıların fikrini məşğul edirsə, tarix qaynaqlı ədəbiyyat, toplumun aydınlar və ulusal düşüncəli ziyalı vətənpərvərləri, çağdaş həyata tarix açısından baxıb və tarixi təcrübələrdən faydanlanaraq, keçmiş səhvlərdən və çözülmüş sorunlardan ibrət alıb yeni həyatı inkişafa yönəltirlər. İ. Əfəndiyev bir böyük vətənpəvər ziyalı olaraq, ulusal düşüncəsində formalaşdırdığı Türkçülük–Azərbaycançılıq ideologiyanı tarix və xalqının keçmiş və çağdaş həyatı arasında inkişafa doğru bir canlı və kəskin mübarizə alanı yaratmaq amacınla, Azərbaycan xalqının özgürlük yolunda yaratdıqları devrimlərdən biri olan Şeyx Məhəmməd Xiyabani hərəkatına müraciət edir. Bu müraciətdə xalqını keçmiş şanlı tarixi ilə tanış etməklə yanaşı onlarda ulusal düşüncə və kütləvi oyanış, kimliklərinə donuş, özgürlük fədaisi olmaq, bağımsız dövlət və ulusal hakimiyyət

qurmaq təfəkkürünü yaratmağa çalışıb savunur. Əfəndiyev bu əsərdə Azərbaycanın şanlı keçmiş tarixini çağdaş həyatına bağlayaraq, bu gün də Azərbaycanı və onun xalqını bəşəriyyətin özgürlüyü uğrunda ağır tarixi məsuliyyət altında görüb, igid xalqı hər zaman kimi çalışmaqda və mübarizədə olduğunu, Xiyabaninin xalqa doğru söylədiyində çox duyğulu və qan coşdurucu sözlərlə yerləşdirir. Örnək pyesin doqquzuncu şəklindən bu məsələni çox yaxşı aydınlaşdırır.

"Xiyabani: Ey Azəri xalqı! Ey Azərbaycanın demokratik qüvvələri! İran xalqının əzablı həyat və təkamül yollarında sən həmişə irəlidə getmisən! sən həmişə İranın siyirmə qilincı, qalxanı olmusan! O həmişə sənə arxalanmışdır! sən həmişə ölkənin iti görən gözü, dünya mədəniyyətinin carçısı olmusan!sənin nəcib şərəfli keçmişin bu gün də eyni dərəcədə özgürlük ideyalarına, xalqa sədaqətli olmanı tələb edir. özgürlük uğrunda şəhid ata-babalarımızın, sərdar-milli Səttar xanın xəyalları ərk qalasından bizə baxır!" (39, s. 280 )

Xiyabani xalqı vətəninin özgürlüyü uğrunda tarixi bir vəzifə daşıyır və ona görədə məşrutə mücahidlərindən biri Səttarxanın silahını Xiyabaniyə verir, çün ki Xiyabani özgürlük fədayisidir və böyük Səttar xanın yolunun davamçısıdır. Bu əsərdə Araz çayı Azərbaycan xalqının 1828 –ci acı olaylarından sonra ayrılıq simvolu kimi şifahi və məktub ədəbiyyatına dərin və böyük yer tutan etkili olduğu və yer aldığı kimi, burada da özəl yerini alır, əsərdə dərin anlam daşıyan Səhər və Araz obrazlarının arasında yaranan gizli sevgi bu simvolların mənasını lap artıq dərinləşdirir. Niyə gərək bu sevgi gizli olmasın, axı bu sevgi 1828-ci ildən sonra hər zaman parçalanan Azərbaycan simvolu olmuş və bu sevgiyə hər zaman kimi iki dövlət yəni İran və rus hakimiyyətləri qarşı durmuşlar və bu nədənlə Azərbaycanın özgürlük devrimləri bu iki dövlətin andlaşması və ortaq mənafeləri üzündən boğulmuşdur. Səttarxan, Xiyabani, M. . Ə. Rəsulzadə, Cavad xan, Pişəvəri, Xəlqi-müsəlman partiyası və Elçibəy hərəkatları bu iki dövlətin çirkin və xainanə oyunundan boğulmuşlar. Bu əsərdə səhərlə Arazın sevgidə bir birlərinə qovuşmaları Azərbaycanın birləşmə simvoludur. Səhərin sevgisi saf-duru məhəbbəti ana torpağına sonsuz eşqindən gərək də Əfəndiyev yaratdığı dialoq kimi bir səs gəlsin, bu səs Azərbaycan xalqının özünə dönüş və ulusal hakimiyyət qurmaq tələblərinin bağırtı və diləkləridir. Örnək**:** pyesin 12-ci şəkilindən yuxarıdakı qeyd olunan fikirləri isbat edir.

"Səhər: Bu dünyada vətənin azadlığından gözəl heç bir şey yoxdur. Öz milli hökumətimiz qurulduğu bir neçə ayda, özümü azad bir quş kimi hiss edirəm. mənə elə gəlir ki istədiyim bir yerə uça bilərəm, istədiyim şerləri yaza bilərəm, Araz.

Həsən Soltan: Mənim əsl adımı bir də təkrar edin Səhər!

Səhər: tək mənim təkrar etməyimdən nə çıxar! Qoy bütün Azərbaycan xalqı sizi Araz diyə çağırsın!" (40, s. 301 )

Toplumları, ulusları, quruluşları etkiliyən hərəkətlərdən doğan olayları zaman və yer göstərərək anlatan, bu olaylar arasında ki ilişkil əri, daha öncəki və sonrakı olaylarla bağlantılarını, qarşılıqlı etkilənmələri, hər ulusun qurduğu mədəniyyətləri, kəndi iç sorunlarını incələyən bir bilim olan tarix, sosial bilimlər içində ədəbiyyatla ən çox iç olanıdır. Sözlü ədəbiyyat dönəmlərindən başlamaq üzrə bütün ədəbi mətnlər ədəbiyyatın ilgi alanına girdiyi kimi tarixində ilgi alanına girir. Aradakı ən önəmli fərq hər iki disiplinin əsərlərə kəndi baxış açılarıyla yaxınlaşlamalarıdır. Tarixçilərin mövzuları əski və keçmiş zamandır. Bu zamanlardan yalnız bir say yıxılmış binalar və imarələr qalmışdır. Bu imarələr və yıxıntılar sayəsində, o keçmiş haqqında yeni fikir inşa edilir. Ədəbiyyatın mövzusu da keçmiş və əski olmaqla yanaşı, ortadan getmiş bir keçmiş deyildir. Ədəbiyyat eyni zamanda həm keçmiş (mazi) həmdə haldır(yaşadığımız çağ). Tarixçi gənəl olaylara önəm verir və fərdlərlə, əsas etibarilə, çox az məşğul olur, fərdlər ancaq bir dəstə qürubları təmsil və ya bir dəstə hərəkətləri tədil elədikləri nisbətdə tarixçini əlaqədar edir və maraqlandırır. Halbuki ədəbiyyatçılar ilk öncə fərdləri duyurlar, çünki duyğu, ehtiras, zövq, gözəllik fərdi və şəxsi şeylərdir. Tarixçilərin gənəl olaylar arasında aradıqları təzadlar, ixtilafları, ədəbiyyatçılar şəxslər arasında ararlar. Yəni ədəbiyyatçılar orijinalıtələri, münfərid, əmsalsız, və ölçüsüz olayları tərif etmək istərlər. Bütün bunlarla birlikdə ədəbi mətni tarix vəsiqələrindən ayıran fərq, ədəbiyyatda bədii və hissi bir dəstə reaksiyalar, əməllər vücuda gətirmək həssaslığına malik olmasıdır. Tarix ilə ədəbiyyatın ilgi alanlarını çox gənəl baxışla ifadə etmək lazım gəlirsə, tarix sadəcə keçmişlə, ədəbiyyat həm keçmiş və həm də indiki zamanla ilgilənir. Tarix gənəldir və ya bütün xalqı ilgiləndirən mövzular, ədəbiyyat daha çox özəllər və şəxsi alanlarla ilgilənir. Son olaraq tarixçi üçün sadəcə sənəd olaraq mövzuyi bir anlam daşıyan mətn, ədəbiyyatçı üçün, içində bədii və hissi reaksiyaların bulunduğu bir ürün və məhsuldur. Olaylar, şəxslər, məkan, zaman, anlatım texnikləri, üslub və dil bu günə nə qədər uzaq, nə qədər fərqli olursa olsun, ədəbi əsər, mətn olaraq önümüzdədir. Bu durum, ədəbiyyat araşdırmacılarının, tarix araşdırmaçıları ilə qarşılaşdırıldığında çox önəmli bir avantajdır. Tarixçinin yalnız olaylara sənəd baxdığı üzdən və sənətçi yazıçının tarixə müraciətində və tarix olaylarını sənət yolu ilə canlandırıb zaman məsafəsini

sənətlə aradan götürməsi və bu tərzilə kütləni etkiləndirməyi önəmli olduğu üzdən Azərbaycan dramaturglarıda tarixə çox müraciət edib və tarixi dramlar yaradıblar. Əfəndiyev İran şahlarının Türk olduqları halda, xalq düşməni və Türk kültür və mədəniyyətinə soyuq və maraqsız olduqlarını da pyesin çeşidli bölümlərində kəskin tənqidə alır. İran min illik Türk tarixinin yaşandığı coğrafi bir bölgənin adı olaraq Türklər bu torpaqlarda maddətən hakim olmalarına rağmən, mənəvi yöndən etkili olmamışdır, hətta ihmal da etmişdilər. özəlliklə, Türk dili xususunda qusurları olmuş, öz dillərinə qarşılıq, yabançı dillərini ön plana çəkərək Türk dövlətlərinin rəsmi dili təin etmişdilər, qurduqları dövlətlərin Türk olduğunu ağıllarına da gətirməmişdilər. Fars dili, məktəblərdə dairələrdə, sənətdə, şeirdə, ədəbiyyatda ön plana çıxarılmış, qurulan dövlət yabancılaşmışdır. Türk ulusal şüurundan məhrum qalan iran dövlətlətlərinə, farsın, ərəbin, gələnəkləkləri hakim olmuşdur. bu yalnış politika, bugünkü İranı, tarix səhnəsində, varlığını sürdürən fars dövləti halına gətirmişdir, yəni fars ı və kültürünü bu günlərə daşıyan Türk ünsürü olmuşdur. Türklərin yaratdığı bu imkan, göstərdikləri xoş üz, fars dilinin və kültürünün, Türklər arasında da yayılmasına və gəlişməsinə nədən olmuş, İranın əbədiləşən sənətkarlarının, onların əsərlərinin günümüzə qədər yaşamasına da imkan hazırla-mışdır. keçmişdəki ərəb basqısının və istilasının əzikliyini üzərlərindən atmayan farslar, ərəbin ailə savaşlarını Türklər arasına soxaraq, birliklərini pozmağı başarmışlar. Bu anlayış, Türk Səfəvi dövlətinə, dini bir örtük geydirmiş, gərçək islamiyyətlə heç bir ilgisi olmayan çox görüşlər, fanatik diniliyi bu günə qədər daşımışlar və bu yanlış görüşlər üzündən iki qardaş arasında Səfəvi və Osmanlı Türkləri arasında böyük Çaldıran savaşı faciəsi yaranır, bu nədənlə də, İranda farsların ən sevdiyi ulusal hakimiyyət Səfəvilər hakimiyyəti olur. Əfəndiyev İranda politikal prosesini çox gözəl anlayır və Türklərin parçalanıb zəyifləməsinin səbəblərini də dönə-dönə pyesdə qələmə alır, elə bu anlayışa sahib olan ziyalı yazıçı yaratdığı Xiyabani obrazını ruhanilər və İranın Türk mənşəli şahına və onun sürdürdüyü fars kültürəl politikasına qarşı qoyur. Örnək üçün pyesin ondördüncü şəklindən, Xiyabaninin Mübarək Səltənə ilə görüşlərində çox gözəl bəyan olunur.

"Xiyabani:. yenə də bütün dövlət işləri fars dilində gedir. Məclislər fars dilində aparılır. . . siz Azərbaycanlılara ana dilində məktəblər açmağa icazə vermirsiniz. Ölkənin bu vəziyyətində, hansı məşrutədən, hansı demokratiyadan danışırsınız, cənab vali?siz əlinizdə qoşun, silah olmasından istifadə edib, Azərbaycanı heç bir hüququ olmayan müstəmləkəyə çevirmisiniz.

. . .

Mübarək Səltənə: siz Azərbaycanı müstəmləkə hesab edirsiniz. məgər Tehran hökumətinin tərkibində Azərbaycanlı vəzirlər yoxdurmu? Məgər şahənşahın özünün də əsli Azərbaycanlı deyilmi?

Şeyx Xiyabani: Cənab vali! Tehran hakimiyyəti necə Azərbaycanlını öz tərkibinə daxil etdiyini bilir. Qaldı şahın Azərbaycanlı olmağı. siz onu da gözəl bilirsiniz ki, şahların taxtı-tacı həmişə onlar üçün öz doğma xalqından, vətənindən, hətta atasında, qardaşından əziz olmuşdur. . . siz vali olaraq Azərbaycanı tərk edin. Heç bir vəzifə sahibini yuxarıdan, Tehrandan təyin eləməyin. Azərbaycanın öz müqəddəratını özünə tapşırın. Azərbaycan xalqının dövlət, mədəniyyət, mətbuat işlərini öz doğma dilində aparmasına imkan verin! Qoy milli məclisin özü yaratsın! kimi depotat seçməyi, hansı xarici ölkəsilə münasibət yaratmağı özü təyin etsin!. . . .

Şeyx Xiyabani: Yox, cənab vali! Arazın o tay-bu tayında qədim və şöhrətli bir tarixə malik, Azərbaycanda var, igid Azərbaycan xalqı da, əsrlərdən bəri siz Azərbaycan xalqını öz içinizdə əridib farslaşdırmaq istəyirsiniz. Lakin görürsünüz ki, Azərbaycan xalqı da, Azərbaycan dili də, yaşayır! Ulusu xalqı məhv etmək olmaz!" (44, s. 278 )

Ulusal düşüncəli və Türkçü vətənpərvər Əfəndiyev xalqının qara taleyindən ümidsiz olmayaraq, bu yaratdığı başqa əsərləri kimi bu əsərilə də xalqını öz keçmişi və ulusal kimlik və tarixi olaylariyla tanış etməyə çalışır, ta onlarda ulusal oyanış və şüur yaransın ki, öz talelərini ələ almalarına səfərbər və müstəqil Azərbaycan hökuməti qurmağa kəskin mübarizə aparsınlar. Bir ulusun keçmiş tarixi olaylarını sənət yolu ilə, o ulusun yaşadığı yeni çağda kı, sorunlarna bağlamaq ən böyük sənət və ulusal sənətkarın ən böyük görəvlərindəndir ki Əfəndiyev "Şeyx Xiyabani"əsərində bu müvəffəqiyyəti başarılıqla ələ gətirir. Əfəndiyev başqa Türkçü Azərbaycançı məsləkdaşları kimi iki Azərbaycanın birləşib müstəqil olmaq ümid və diləyilə yazıb yaradırdı. Onun Xiyabani əsəri bu amalın uğrunda onun əsil duyğu və ulusal şüurundan yaranıbdır. Örnək pyesin 21-ci şəklindən.

"Xiyabani: biz Türkmənçay müahidəsini ən ədalətsiz iş hesab edirik. Qəddar istilaçı Ağa Məhəmməd Şah Qacarı Şuşa qalasında öz qoşununun içində öldürən igid Azərbaycanlı, babalar heç vaxt zalım, nadan İran şahlarına qul olmağa razı olmazdılar. Biz bu ümidlə yaşayırıq. Biz şimali Azərbaycanla cənubi Azərbaycanın, bir gün birləşib, xoşbəxt həyata çatacağına inanırıq. Biz bu həyat üçün həmişə vuruşmuşuq. Son nəfəsimizə qədər də vuruşacağıq" ( ).

Bədii əsərlərdə tarix qaynaq olaraq, qullanılmasının çeşidli səbəbləri vardır. keçmişin öyrənilməsi, unutdurulmaması, keçmişdən dərs alınması və gələcəyin daha gözəl və doğru şəkilləndiriləbilməsi üçün tarixə hər zaman niyaz görünmüşdür. Tarixin başarılı-başarısız səhifələri ibarət almaq üçün açıldığı kimi tarixdə başarılı olmuş yaxud başarısılığa uğramış kişilərin də çevrələrilə birlikdə ədəbi əsərlərə daşınlıqları məlumdur. Azərbaycan yazıçıları başqa janrlarda olduğu kimi dramaturgiyada da real və romantik ədəbi cərəyanlarla tarixə yaxınlaşıb tarixi əsərlər yaratmışdılar. Bu əsərlərin yaranmasında Batı dramının və ədəbi cərəyanların etkisi çox bəllidir. H. cavidin və C. Cabbarlının romantikasından tutaraq B. vahabzadə və İ. Əfəndiyevin realistinə qədər bu etki özəlliklə Batı ədəbiyyatının formu ilə yanaşı, məzmun açısından, nasionalizm düşüncəsindən artıq faydalanıbdır. Bu etki üzündən də dramaturqlar ədəbiyyatın başqa janrları kımı ulusal Azərbaycan tarixinə dönə-dönə ulusal duyğu, şüur və düşüncə ilə müraciət ediblər və bu düşüncənin sonucu olaraq Azərbaycan ulusal ədəbiyyatı ulusçu, ziyalı yazıçıların vasitəsi ilə yaranıbdır. Bu dramaturgiyanın çağdaşlığı da onun hər zaman Azərbaycan xalqının keçmiş və hal və gələcəyini təmsil edən dramların məzmun və mühtəvalarıdır.

Şeyx Xiyabani"ölməz bir ulusal tarixi dramdır. Onun məzmunundıkı armanlar, diləklər ümidlər, mübarizələr, Azərbaycan xalqının dilək və özgürlük uğrunda apardıqları şanlı Türk tarixinin zəngin mübarizlərindən iftixarlı səhifəsi olaraq insan haqlarının savunmasının ən doğru yollarından biri silinməz tablodur.

### IV. 3. M. S. Ordubadinin "Dumanlı Təbriz" pyesində milli özgürlük mücadiləsi

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı- daramturq, tarixi roman ustası, jurnalist və tərcüməçi Məmməd Səid Ordubadi 1 may 1872-ci ildə Ordubad şəhərində anadan olan Məmməd Səid, 20-ci əsrin əvvəlində ermənilər tərəfindən xalqımıza qarşı törədilən vəhşiliyi qələmə alan ilk ədəbiyyatçılarımızdandır. O, qədim Şərq ənənələri ilə yaşayan Ordubad şəhərində anadan oldu. Ancaq istedadı Məmməd Səidi Naxçıvan, İrəvan, Bakı və Tiflisə qədər apardı. Həmişə təbliğ etdiyi maarifçilik ideyalarının məqsədi ulusunun gələcəyini işıqlı görmək idi. O bunun üçün ədəbiyyatı seçdi. İlk tarixi roman ustası oldu. "Qılınc və qələm- "in gücü ilə "Gizili Bakı", "Dumanlı Təbriz", "Döyüşən şəhər" kimi oxuculara təqdim etdi. Ordubadi 1911-ci ildə hələ çar senzurasının güclü dövründə erməni daşnaklarının Naxçıvan və Zəngəzurda

törətdiyi vəhşiliyi qələmə alaraq "Qanlı sənələr" adlı kitabı çap etdi. Faktlar və hadisə şahidlərinin məktubları əsasında yazılan bu kitab təəssüf ki geniş təbliğ olunmadı. Əksinə, bu cəsarətinə görə 1915-ci ildə Culfada həbs olunan Ordubadi indiki Volqoqrad şəhərinə sürgün edildi. İndiyədək onun fəaliyyəti ilə bağlı yazılanlar isə azdır. "Koroğlu" ,"Nərgiz" ,"Nizami" kimi nəhəng operaların liberettosu da Məmməd Səid Ordubadi qələmindən çıxıb. O, Azərbaycan ədəbiyyatının ağsaqqalı olmaqla bərabər ali Sovetin iki çağrış deputatı da seçildi. Bundan başqa, ədibin fəaliyyəti şərəf nişanı və lenin ordenləri ilə qiymətləndirilib. M. S. ordubadi Şair Fəqir Ordubadinin oğludur. Fəqirin ailəsi həmişə çətinliklə dolanmışdır. Sonralar gözləri tutulmuş şairin ömrünün son günləri xüsusilə ağır ehtiyac içərisində keçmişdir. Atasının ölümündən sonra 7 yaşlı Məmmədi və bacısını bir müddət əmiləri saxlamış, lakin onun da imkanı olmadığından azacıq sonra Ordubadi iş axtarmalı olmuşdur. O özünün ilk əmək fəaliyyəti haqqında belə yazır:

«Mən Karapet Babayevin fabrikinə girdiyim vaxt on dörd yaşım var idi. Bir il ipək mövsümünü ayda manat yarım maaşla işlədim. Mən bu mövsümün altı ayını çalışıb, altı ayını oxudum». Ordubadi ilk təhsilini molla yanında, sonra isə Mirzə Baxşı adlı bir müəllimin məktəbində almışdır. Şeir və ədəbiyyat maraqlısı olan Mirzə Baxşı Ordubadinin istedadını və oxumağa böyük həvəsi olduğunu görərək, ona daha artıq diqqət verir, hətta ondan təhsil haqqı da almır. Lakin əsil təhsilini Ordubadi dövrünün qabaqcıl maarifpərvərlərindən olan şair Məmməd Tağı Sidqinin açmış olduğu yeni tipli məktəbdə - üsuli-cədid məktəbində alır. Öz dövrünə görə geniş məlumat və dərin bilik sahibi olan Sidqi Ordubadinin müasir dünyəvi elmlərin əsaslarına yiyələnməsində, beynəlxalq ədəbi hadisələr, elm və mədəniyyət yenilikləri ilə tanış olmasında, onun demokratizm və maarifçilik ruhunda tərbiyə almasında mühüm rol oynamışdır. Məktəbdən kənar vaxtlarını Ordubadi mədrəsəyə gedərək ərəb və fars dillərini, sərf-nəhv və məntiqi öyrənməyə sərf edirdi. Dörd sinifli şəhər məktəbini bitirdikdən sonra daha oxumağa imkanı olmayan Ordubadi biliyini şəxsi mütaliə yolu ilə artırmaqda davam etmiş, eyni zamanda fabrika və zavodlarda çalışaraq ailəsini dolandırmışdır. Əvvəllər siyasi şüuru aydın olmadığından o istismarı və onun səbəblərini hələ dərk etmirsə də, getdikcə istismarçı quruluşun bütün ağırlıqlarını öz üzərində hiss edərək etiraz səsini qaldırmağa başlayır. Bu barədə xatirələrində yazır: «. . . Sağlam bədənim var idi, yorğunluq nə olduğunu bilmirdim. Hər kəsdən əvvəl işə gəlib, hər kəsdən də sonra gedirdim. Zavod sahibi Karapet Babayev də «sağ ol» deyə hey fəaliyyətimi tərifləyirdi. Mən də bundan xoşlanırdım, çünki istismarın və istismarçının nə

olduğunu bilmirdim. . . Mən 1901-ci ildən Rzayevin zavodunda çalışırdım. . . Rzayev çox böyük istismarçı idi. İşi illik olduğundan bütün əziyyətlərə dözməyə məcbur olurduq. . . Bu barədə mən bir şeir də yazmışdım: Qorxuruq küləkdən, qorxuruq yeldən, Ruzumuz asılmış incə bir teldən. İşə çağırırlar ulduz batmamış, İşdən buraxmazlar şəhər yatmamış". Sahibkarların zülm və haqsızlıqlarını fəhlələrə başa salıb etiraz çıxışları təşkil etdiyindən Ordubadi tez-tez işdən qovulur və yeni iş yeri axtarmağa məcbur olurdu. Bu vəziyyət 1907-ci ildə Culfaya köçdüyü zamana qədər davam edir. Culfaya köçməsinə isə onun ədəbi fəaliyyəti səbəb olur. Ordubadi ədəbi yaradıcılığa 14-15 yaşlarından başlamışdır. Müəllimləri Mirzə Baxşı və Sidqi onda şerə, yaradıcılığa olan meyl və həvəsi daha da gücləndirmişdi. Bu barədə o öz xatirələrində deyir:«Mən şeir demək və yazıçı olmağa heç də həvəslənmirdim. Atamın yazdığı şeirlərin palçıq içərisinə atılması heç də yadımdan çıxmırdı. Bir çox zamanlar anam da buna mane olurdu. Çünki atamın şeir sənətindən nə kimi fəlakətlər çəkdiyi onun gözünün qabağında idi. Lakin məktəb və şeirləşmə işi özüm də hiss etmədiyim bir surətdə məni şeir yazmağa öyrətdi». Ordubadinin yazdığına görə atasının və müəllimi Sidqinin də iştirak etdiyi şairlər məclisinin yığıncaqlarında oturub şairlərə qulaq asması da onda şerə maraq oyandırmışdı. Aşiqanə parçalardan ibarət olan ilk şeirlərini Ordubadi Azərbaycan dillində yazmışdır. Bu ilk şeirlərə nümunə kimi aşağıdakı parçanı göstərmək olar:

Əzizim, hicri-qəmin aşiqə müsibət olur, O sərv qamətini görməsəm qiyamət olur. Səfay-i-gülşənə çıxma, xəzanə görsənmə, O gül camalı qızıl gül görüb xəcalət olur. 1903-çü ildə «Şərqi-Rus» qəzetində Ordubadinin qəzetin nəşrə başlanmasını alqışlayan şeri çap olunur. Bu, şairin mətbuatda çıxan ilk əsəri idi. Şerinin dərc olunması onu ardıcıl olaraq dövri mətbuatda çıxış etməyə həvəsləndirir. Xüsusilə 1905-ci il inqalabından sonra mətbuat səhifələrində onun imzasına tez-tez rast gəlmək olur. İnqilabdan ruhlanan şairin, yaradıcılığında yeni dövr başlayır. O, azadlığa, mütləqiyyət üsuli-idarəsi ilə mübarizəyə çağıran əsərlər yazır. Cəhalət və nadanlıq əleyhinə yazdığı "Ədəbiyyat" adlı ilk mətbu şeri Tiflisdə çıxan "Şərqi-Rus" qəzetinin 13 İyul 1903-cü il tarixli 31-ci sayında dərc olunmuşdur. 1906-cı ildə Tbilisidə "Qəflət", 1907-ci ildə isə "Vətən və hürriyyət" adlı şer kitabları çap edilmişdir. 1906-cı ilin aprelindən nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı gələcək ədibin yaradıcılıq inkişafına böyük təsir göstərmişdir. Ordubadinin "Politika aləmindən" adlı felyetonu jurnalın 2 İyun 1906-cı il tarixli 9-cu sayında çap edilmiş, beləliklə, o, jurnalın əsas əməkdaşlarından biri olmuşdur. O,

Bakıda çıxan "İrşad", "Səda", "Sədayi-həqq", "Tərəqqi", "Tazə həyat" və s. qəzetlərdə, "Tuti", "Babayi-Əmir" jurnallarında da yaxından iştirak edirdi. 1906-cı ildə şairin «Qəflət», 1907-ci ildə isə «Vətən və hürriyyət» adlı şeir kitabçaları çapdan çıxır. Hər iki kitabda müəllifin maarifçi fikirləri öz əksini tapmışdır. Ordubadinin istər ədəbi yaradıcılığında, istərsə də mühərriklik fəaliyyətində «Molla Nəsrəddin» jurnalının böyük müsbət rolu olmuşdur. 25 il öz yazıları ilə jurnalda əməkdaşlıq etmiş yazıçının ilk yaradıçılığının realizm və demokratizm istiqamətində inkişaf etməsində, dünyagörüşündə ki bəzi ziddiyyətlərdən azad olmasında, jurnalın köməyi çox böyük idi. 1905-ci il devrimından sonra Ordubadinin həyatında ədəbi yaradıcılığı mühüm rol oynamağa başlayır. «Əsərlərim artdıqca, xüsusən «Molla Nəsrəddin» məcmuəsindəki iştirakını sıxlaşdıqca düşmənlərim də artırdı» - deyə Ordubadi Culfaya köçməsinin səbəbini belə izah edir. Vəziyyət doğrudan da, belə idi. Dini, mövhumatı, ayrı-ayrı molla, seyid və başqa cəhalətpərəstləri tənqid etdiyindən qatı mövhumat yuvası olan o zamankı Ordubadda yaşamaq şair üçün çox çətinləşmişdi. Buna görə də o, Culfaya köçməyə məcbur olmuşdu.

Culfa mühiti Ordubadının həyatına bir sıra yeniliklər gətirir. O, Güney Azərbaycan devriminə kömək edən təşkilatın üzvləri ilə tanış olur və devrimdə iştirak edir, sosial-demokrat təşkilatı «Hümmət»in Culfa təşkilatına daxil olur. Onun "Dumanlı Təbriz" romanı və pyesi bu dövrün etkilərindən yanranmış əsərlərdir. Güney Azərbaycan devrimində iştirakı ədibə bir çox əsərlər yazmaq üçün mövzu verir. Xatirələrində ədib yazır: «Biz İran devriminə çox önəm verirdik. Mən devrimin gedişi ilə çox yaxşı tanış idim. Bu devrimdən başqa, bir sonuc gözləmirdim. Mən devrimdən ancaq torpaq məsələsinin həll olunması, maarifin irəli getməsi, bir də qadınların açıq gəzməsini gözləyirdim. Bu təsir altında olaraq iki əsər yazdım: birisi «Nisvani islam», digəri isə «Bədbəxt milyonçu, yaxud Rzaqulu firəngiməab». Ədəbi və devrimsəl fəaliyyəti genişləndikcə hökumət dairələrinin Ordubadiyə qarşı şübhələri də artırdı. Nəhayət 1914-cü ilin yanvarında ədib həbsə alınaraq Saritsin şəhərinə sürgün edilir. Sürgün illəri ədib üçün olduqca ağır keçmişdir. Qışın ən şiddətli soyuqlarında yatabla uzaq yol getməsi, həbsxanadan-həbsxanaya aparılması, aclıq, dözülməz sürgün həyatı, onun səhhətini pozmuşdu. Buna baxmayaraq, imkan tapan kimi Ordubadi vətəndəki dostları ilə əlaqə yaradaraq yazdığı yeni əsərlərini çap etdirməyə müvəffəq olurdu.

1914-cü ildə Bakıda ədibin «Bədbəxt milyonçu» və «Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi» əsərləri çapdan çıxır. Sürgündən Ordubadi 1917-ci il fevral devrimi

nəticəsində azad olur. Tezliklə bolşevik təşkilatları ilə əlaqəyə girərək o, devrimi fəaliyyətini davam etdirir. 1918-ci ildə Kommunist partiyası sıralarına daxil olan yazıçı Həştərxanda çalışan Azərbaycan bolşeviklərinin dəvəti ilə Həştərxana gələrək orada «Hümmət» qəzetində əməkdaşlıq edir. «Hümmət» səhifələrində Ordubadinin şeir və məqalələri, «Bolşevizm və aləmi-islam» adlı iri publisistik əsəri dərc olunur. 1920-ci ildə Ordubadi XI ordunun sırasında Dağıstana gəlir, orada mətbəələrin milliləşdirilməsində, poliqrafiya bazasının yaradılmasında fəal iştirak edir, «Qırmızı Dağıstan» qəzetini nəşr etdirir, sonra isə Azərbaycana gəlir. 1920-ci ilin mayında Bakıya gələn ədib böyük bir sevinc və «enerji ilə ədəbi-ictimai işə qoşularaq maarif və mədəniyyətin müxtəlif sahələrində çalışır. Xüsusən mətbuat sahəsində onun böyuk fəaliyyət göstərdiyini qeyd etmək lazımdır. «Əxbar», «Kommunist», «Maarif işçisi», «Yeni yol», «Molla Nəsrəddin», «Şərq qadını» kimi qəzet və jurnalların nəşrində Ordubadinin əməyi çox idi. O zamanlar yenicə təşkil olunmuş «Tənqid-Təbliğ» teatrında da Ordubadi fəal çalışırdı. O, teatr üçün günün mühüm məsələlərinə dair kupletlər, kiçik təbliği pyeslər yazırdı. onun ən möhüm dram əsərlərindən "Dinçilər", "Sevgilər" "Maral", "Bu da bir möcüzə", "Dumanlı Təbriz", "Böyük quruluşda", Sabotajniklər", "Oktiyabr devrimi" kimi əsərlərdən ad aparmaq olar. Ümumiyyətlə 20-ci illər Ordubadi fəaliyyətinin ən qaynar, dolğun illəridir. Bu illərdə o, dini, mövhumatı tənqid edən onlarla əsər - şeir, felyeton, məqalə və kitab yazır. «Məhərrəmlik və rövzəxanlıq» (1924), «Qurban bayramı bidəti» (1925), «Kərbəla hadisələrinin mənşəi» (1925), «Məhərrəmlik və mədəni devrim» (1929) kimi ateistik mövzuda yazdığı bir sıra əsərləri mövhumatla mübarizədə mühüm rol oynayır. 20-ci illərdə Ordubadinin lirik və satirik şeirlərdən, tərcümə və poemalardan ibarət bir neçə şeir kitabı da nəşr edilmişdir, «Şe'rlər», «Leninə», «Analıq», «Köhnə adamlar» «Mənim şeirlərim» və başqa kitablarının nəşri Ordubadinin şeir və bədii tərcümə sahəsində də ardıcıl çalışdığını göstərir. Bu dövrdə ədəbiyyatın demək olar ki, bütün janrlarında yazıb yaradan sənətkar, mövzusu müasir həyatdan alınmış bir neçə dram əsəri də qələmə alır. Onun müvəffəqiyyətlə tamaşaya qoyulan «Sabotajniklər», «Dinçilər», «Oktyabr devrimı» və b. pyesləri bu dövrün məhsuludur. «Gənc çekistlər», «Kiçik şəhər», «Serjant İvanov adına körpələr evi» kimi roman və hekayələr, «Maral», «İntizar çəkənlər» pyesləri müharibə illərində yazılmışdır. "XII əsr Azərbaycan ədəbiyyatı və onun klassik Şərq ədəbiyyatına təsiri" əsəri ciddi tədqiqatın məhsuludur. Ordubadlı Məhəmməd Səid 1950-ci ildə may ayının 1-də Bakıda vəfat etmiş və Fəxri xiyabanında torpağa tapşırılmışdır.

"Dumanlı Təbriz" Pyesi 1905-ci Güney Azərbaycanda adlanan "Məşrutə devrimi"ni mövzu seçib, Türkçülük düşüncəsinə arxalanaraq faciə janrında yaranıbdır. Azərbaycanın ulusçu görkəmli ziyalı yazıçısı bu tarixi olayı dram janrına çevirməkdə, olayın tarixi gərçək şəxsiyyətlərilə yanaşı xəyalından və ulusal Türkçü şüurundan doğulmuş güclü xarakterlər və surətlərdə yaradıbdır. Təbrizdə Pyesin başlanışı bir devrimdən xəbər verir. Toplum iki dəstəyə ayrılıb. zənginlər –yoxsullar, ya hakimlər məhkumlar və ya mülkədar, xanlar, feodallar fəhlələr, yersizlər, devrimçilər və şahçılar, Səttarxan, arxasıca duran kütlə və desput Qacar şahlığı və

Qacar hakimiyyətinin xalqla davranma tərz düşüncəsi və politikasının simvolu olan Mülkədar öz fikrini danışdığında söyləyir: mən təbiətcə devrimçıyəm. qan tökülməsinə də razi olmaram. lakin təbiət siz kəndliləri alçaq yaradıb. Bu düşüncə despot və kütlə düşməni və insan mədəni haqlarına önəm verməyən hakimiyyətin düşüncəsidir. özgürlük dalınca olan xalq belə bir hakimiyyətdə hər növ təərüz və basqıya təhqirə, ölümə, sürgünə və zindanlara basılmağa məhkum olurlar. Səttarxan vətənpərvər bir mübariz olaraq, birinci yolu seçir. Kütləyə qoşulub silah götürüb, hakimiyyətə qarşı və onun küləpərvər sisteminə qarşı mübarizə edir. Hacı Mehdi və Hacı Salman despot sistimdə pərvəriş tapmış kölədirlər ki hər zaman müstəqil və bir insan və şəxsiyyətdən məhrum və uzaqdırlar, dövlətin siyasətin külək və dalğalarına bağlıdırlar. hər gün toplumda və politika aləmində əsən küləklərə və qalxan dalğalara baxaraq bir rənk və dona bürünürlər. devrimçi vəya əksdevrimçi də ola bilirlər. çaylarda və dənizlər də yaranan köpüklər kimi kəndilərin də ixtiyar olmada, yalnız şəxsi mənafelərini qorumağa çalışırlar. Örnək üçün bir neçə dialoq, pyesin birinci pərdəsindən gətirmək, bu iki tacirin şəxsiyyət və durumlarını çox yaxşı anladar.

"Hacı Mehdi: Əlbəttə ki, qol rəiyyətin, kəndir ağanın, bağlar da özü bilər, açar da özü bilər.

Hacı Salman: Hə də biz belə-belə işlərə qarışmaqdan ötrü qan tökməmişux ki?

Hacı Mehdi: Yer üzü padşahı.

Hacı Salman: torpaq mülkədarın!

Hacı Mehdi: Ticarət də bizim.

Hacı Mehdi: Qəndimi, çayımı, istiotumu, darçın-zəncəfilimi satacağam, devrimımı da

Bu despot hakimiyyətin insan haqlarına, özgürlüyünə və bəşəriyyətin qutsal armanlarına qarşı olan əksdevrimçıların düşüncəsi və həyatdan qandıqları və davranış anlamlarıdır. Amma bunlara qarşı devrimçilərin və həyata dərin və düşüncəli baxanların, həyatın çirkin üzlərini

deyişdirə və bəşəriyyətin gözəl, qutsal armanlarını və özgürlüyünü çiçəkləndirənlərin baxışı daha çox fərqlidir. Onlar bütün ömürlərini bəşəriyyətin arman və özgürlüyü uğrunda bir yorulmaz qəhrəman mübariz kimi fəxrilə qoyub canlarını da Səttarxan kimi bu yolda fəda edirlər. Səttarxan və onun məsləkdaşları, igid mücahidləri, vətənləri Azərbaycana fəxr edərək, onun yolunda və xalqını özgürlüyə uğraşmasında gecə-gündüz bilmədən ac-susuz mübarizə edirlər. Öz mənafelərini umum xalqları mənafeləri üzrə unudub bir an mübarizədən əl götürmürlər. Türkçülük hərəkəti, kültür və politikal tariximizin ən önəmli səhifələrini tutur. Bu hərəkət Türk dilini yabançı dillərə qarşı, o cümlədən ərəb, fars rus dilinə bir təpki olaraq, yazıçı ziyalılarımız tərəfindən yazılıb savunulur. Azərbaycanlılar ulusal kimliklərini önə sürərək, tarixi ulusal hərəkətlərini, kəndi kimliklərinə dönüş Türkçülüyə 1905-ci ildən sürətli addımlar atırlar. Türk tarix və kültür şüurunun oyanması, İran-rus kültürü basqısı altında olan Azərbaycan xalqına, ziyalılar təkcə qurtuluş yolunu ulusal ədəbiyyat və kütlənin ruhunu və sıxıntısını təsvir və həyəcanlı təcəssüm edən tarixlə ilgili yaranan əsərlər yaratmaqda görürlər. Bu hərəkətin amacı olan müstəqillik və Türk dünyasının birliyini və dostluq-qardaşlıq amalı dərinləşmək və Türklərin psixologiyalarını qarışdıran ideologiyalardan arıtmaq, yalnız güclü tarixi sənət əsərləri yaratmaq yolu ilə gərçəkləşir. Azərbaycan yazıçılar və ziyalıları Türkiyə də yeni Türkçü-cumhuriyyətçı ziyalıları ilə fikirdaş olaraq, əsərlərinin mövzularını kəndi vətənlərindən Qafqaz və Orta Asiya Türk yurdlarından və olarda yaşayan Türk xalqlarının həyatlarından seçərək pyes yazmağa başlayırlar. Cəlal Esat Ərsevənin 1913-cü ildə oynanan "böyük yarın"və "Bay Turqan" adlı pyesləri, Orta Asya Türk həyatından, Məhəmməd Nafinin "Kamer Sultan"ı M. S. Ordubadinin "Dumanlı Təbriz"i Güney Azərbaycan dan, M. Hüsenin "Şeyx Şamil"ı, C. Cabbarlının üç əsəri Türkiyə devrimlərindən və iki əsəri Güney Azərbaycandan, H. Cavidin" Topal Teymur" "Xəyyam" və s. bir Türkçü ziyalı yazıçı olaraq Türk dünyası tarix və həyatlarından qaynaqlanır. Bu əsərlər Türklərin tarix və kültürlərindən alınıb, vətən sevgisi, Türk birliyini önə çıxardaraq, Türk dünyasının ideallarını yansıtırlar. Bu əsərlərin yaranmasına Ziya Gökalpın "Türk mədəniyyəti tarixi "Türkçülük düşüncələri və Hüseyn Nihal Atsızın "Bozqurtlar" adlı romanı ilə yanaşı başqa əsərləri Türkiyədən Türkçülük axımının güclü bilimsəl və sənətsəl yol göstərici qaynaq və örnəklərdilər. Türkiyyədə güclü bir Türkçülük axımında, Azərbaycan Türklərini hərəkətə keçirən əsərlərdən bir örnək kimi gözə çarpan, A. faikin, mövzusunu Kırım Türklərinin həyatından aldığı"Şahingiray" pyesidir. Faiqdən sonra Məhəmməd

Xeyrəddin də Kırım Türklərinin tarixindən "Fəthi giray"adlı bir tarixi dram yazır. Türkiyədə Turançı anlayışıla qələmə alınan Ağa gündüzün, ruslara qarşı savaş gücünü artırmaq və yurd sevgisi aşılamaq" təlqin" amacı güdən"Muhtərəm qatil" adlı əsərilə Hamidin "İlhan və Turhan" pyesindən sonra Güngör Dilmanın Elxanlılar tarixinə uzanan və iqtidar meyli ilə Elxanlılara zülm saçan "Bəğdad Xatun"nu da ad aparmaq olar. Dumanlı Təbriz pyesi Məşrutə devrimini inikas edərkən, yazıçının bu devrimdən aldığı sonuçlar da, azərbaycançılıq, uluçuluq, Türkçülük sevdasında olan Türklər, çağdaşçılıq və humanitar düşüncələr üzə çıxır. Bu düşüncələrə dayanaraq, Azərbaycan xalqının, həsrətləri, dilәkləri, armanları, Quzey və Güney Azərbaycanın bir vətən olduqları və xalqının ayrılıq həsrətləri, Bakı və Təbrizin iki devrim mərkəzləri olduqları, özgürlük uğrunda hər zaman mübarizə də olmaqları ön plana çəkilir. Pyesin birinci pərdəsində qüdrət təbrizli bir mübariz olaraq, Bakı devrimçilərdən ayrılıb və Güney Azərbaycana dönüb Səttarsan devriminə yoldaşları ilə birlikdə qoşulması, İrana ilk girişindən, Azərbaycanın xalqının durumunu çox gözəl şəkildə ifa edir.

Qüdrət: On illər əvvəl gördüyüm yerlərdir. Qocaman dağlar, bərəkətli düzlər, çiçəkli, səfalı çöllər. . . eh, ilan kimi qıvrıla-qıvrıla axan qanlı çayı bir ürəyi iki yerə parçalayan Araz çayı, sən nələr görmədin! Qanlı hadisələrin şahidi olmadın?

. . .

Qüdrət: Azərbaycan xalqının göz yaşları olmasaydı, Araz çayı çoxdan qurumuşdu!

Qüdrətin Bakı sovqatı Təbrizə qulluq və kүləlikdən qurtarması, antihumanitar və despot hakimiyyətlərə qarşı devrim və mübarizədir. o istibdada qarşı kəskin sözləri ilə, xalqa xitab edir ki: torpaqdan, sudan və azad həyatdan məhrum olan kəndilər, top gürültüləri sizi mübarizəyə çağırır.

Qüdrət bir başqa despot hakimiyyət ayaqları altında əzilən anaya böylə söyləyir: Ana qalxın, biz ayaq öpdürənlərlə mübarizə aparırıq. . .

Bu ayaq öpdürənlərdən toplumda çoxdur, onlardan biri də fabrikaçı mülkədardır ki kəndi mənafeyini qorumağa toplumunun çoxunu kölə kəndi rəiyyəti sanır. Bu baxışla da onlara qarşı geri insanı əməllərə heyvani odlu şəhvətini söndürmək üçün xalqının, yurdunun və ulusunun amallarını yıxaraq, öz şəxsi amalı üzrə, əl atır. Pyesin ikinci pərdəsində o öz istəyini belə dilə gətirir.

"Mülkədar: Artıq olsa, yaxşıdır. Belə ki, bunlar başlayıb, kəndirə keçirilməli yüzlərlə baş tapacaqsınız. Beş nəfəri asdırmasam, beş yüz nəfərinə ibrət olmaz. Gədə apar elanı da yapışdır qapıya. Bu gündən etibarən fabriki də bağlayıram.

Mülkədar xalqa qanqusduran hakimin bir qolu olaraq, əlindən gələni əsirəmir. Belə bir hakimiyyətdə yaşayanların günləri sitəm bayrağı altında günü-gündən zor keçir. Bu kötü durumu pyesin ikinci pərdəsində kütlədən birisi olan çəkməsilənin ağzından belə eşidirik:

Rəhim xan gəlir Təbrizə
Evin yıxılsın Məmədəli
Təbrizdə qan çıxır dizə
Evin yıxılsın Məmədəli

Desput hakimlərin baxışı kəndi uluslarına da hegmoni üzündən və kəndi şəxsi mənafelərinə uyğun olmaq üzrə qaynaqlanır. Özlərini, xalqlarının can və mallarına hakim görürlər və bu nədənlə onlara bir insan kimi yox bəlkə, bir heyvan və ya kölə kimi baxırlar. Mülkədar hər kimsə ki, kölələikdən çıxmağa etiraz edir, onu susdurmaq və məhv etməyinə çalışıb əməl edir. Bu təşəbbüslə də mülkədar mübariz Zeynəb haqda fikrini belə söyləyir: "Qaçaq Zeynəb asılmalıdır. O mənim rəiyyətimdir, onun kimi haramzadalar bir il bundan qabaq asılsaydı, bu gün yüzlərlə qızlar tüfəng götürüb mücahid olmazdı".

Pyesdə Ordubadi kültür və mədəniyyətə özəl bir yer verir, maddi və mənəvi dəstəklərlə onların inkişafına çalışır. Devrimçi qəzetlərdən himayə edərək, əksdevrimçi qəzetlərin bağlanmasına da kəskin qərar verir. Qəzetlərin yalnız məzmunu yox bəlkə ən önəmlisi onun Türk dilində olmağını da savunur. O xainlərdən və əksdevrimçilərdən para qopardıb Türk dilində yayılan qəzetə kömək edir. Səttarxan xain tacir Hacı salmanın əksdevrimçi qəzetəyə kömək etməsini tənqid edərək, ondan ana dilində nəşr olunan qəzetə də para alır və belə bir qəzeti dəstəkləyir. Səttarxanın fikri Azərbaycanı özgürlüyə çatdırmaqdır. Bu yoldu bütün xalqın çeşidli siniflərinin iştirakı gərəklidir. O silahdaşı Bağır xana bu fikirlərini pyesin üçüncü pərdəsində belə söyləyir:

"Əzizim gözümün işığı, məsələ bir Təbriz məsələsi deyildir. Biz burda Azərbaycan məsələsini həll edirik. Bir də belə bir zamanda, təkbaşına Təbriz məsələsini həll etmək olmaz. Devrimdə kəndli də, fəhlə də, iştirak edir. Onlar bizə özbaşına sülh etmək ixtiyarını verməmişdir.

Səttarxa: özgürlük üçün, qələbə üçün mübarizə edirik.

Səttarxan: bax mübarizəmiz bunun üstündə gedir. apardığımız mübarizə bizim varlığımızı dünya xəritəsindən silənlərə qarşıdır. bizimdə sudan, günəşdən, torpaqdan istifadə etməyə haqqımız olmalıdır. bizə öz ana dilimizdə məktəb, kitab, qəzetə lazımdır. yox qardaşım sülh olmayacaq!bu qədər bərəkətli bir məmləkətdə milyonlarla dilənçi var. . . " (76, s. 112 ).

M. S. Ordubadı "Dumanlı Təbriz" əsəri ilə bütün insanları və özəlliklə Azərbaycan və Türk ziyalılarını Azərbaycan xalqının kültürəl, politikal və mədəni haqlarını almağına dəstəklərini istəyir və bu yolda xalqın cəbhəsini aydınlarla birlikdə mübarizə aparmaq üzrə doldurmaq istəyir. Aydınların xalqıyla bir cəbhədə mücadelə etmələri, hər bir devrimin qalibiyyət və uğur qazanmasının gərçək dirilməsinin nədənidir. Səttarxan cəsur və qorxmaz bir qəhrəman olaraq böyük və yüksək bir düşüncəyə sahib ziyalı aydındır. Onun danışdığı sözlər və düşüncələri və yönətdiyi devrim bir aydın və ziyalı devrimçidən bəklənən hərəkətlərdir. Ordubadinin Türkçülük və vətənpərvərlik düşüncəsilə ilk başda olaraq, onda Məşrutə devriminin şikəst təcrübəsini, ziyalıların bu devrimi yola saldıqlarını və yaxından sıx onu yönəltmələrini, devrimin güc nöqtəsi tutsaqda, məmləkətin gərgin günlərində devrimdən ayrılmaları və içlərinə ikicəlik düşmələrini və bu əməllə devrimin şikəstinə nədən olmalarını tənqid edərək "Dumalı Təbriz" pyesini yaradır və onun qəhrəmanı Səttarxan dan bir ziyalı vətənpərvər Türkçü, sarsılmaz, çılğın mübariz təsvir edir. Azərbaycanın devrim və özgürlük mərkəzi olduğundan zor anlar və ağıla sığmaz bəlaları çəkmək məcburiyyətində qalır. Devrimin və Azərbaycan xalqının düşməni olan böyük xan və general, kəndi aralarında devrimi basdırıb boğmaq yollarını düşünərkən, bəzi gərçəkləri də dilə gətirməyə məcbur qalırlar. Pyesin dördüncü pərdəsində onların arasında danışılan sözlər və qərarlar, Azərbaycan xalqını və onların uluslararsı, yüksək yer tutduqlarını aydınlaşdırır. "Böyükxan: Cənab general, Təbriz daim üsyan yuvası olubdur. devrim yanğınları həmişə buradan başlayıbdır. General: görünür ki, sərkərdənin gözü qorxub. Böyükxan: Azərbaycan xalqı qibleyi-aləmin qurduğu üsuli-idarəni istəmir. Səttarxan torpaq və milli özgürlük məsələsini qoyur.

"General: bu fikir hamının deyil, tək-tək adamların fikridir.

Böyükxan: icazə verin poçtdan tutulan məktublardan bir neçəsini sizə oxuyum. Üsyan ruhu ölkənin şairlərinə də, ədiblərinə də sirayət edibdir.

General: Ola bilməz.

Böyükxan: Təbriz şairlərindən biri suyun o tərəfində yaşayan əmisi oğluna belə bir məktub göndərmişdir.

Salamlar olsun sənə, əziz əmioğlum əşrəf
Istəyirsən biləsən necədir bizim tərəf
Yazdığım kiçik şerə çox diqqətlə fikir ver
Bundan biləcəksən ki, nə haldadır bizim yer
Ölkəmizin cənubu geniş bir xəzinədir
Lakin bu xəzinənin bizə faydası nədir
Ölkəmizdə tapılmaz sənin üçün başqa iş
Ancaq dilənmək üçün sənə huquq verilmiş
Kəndlərdə vurhavurdur, şəhərlərdə çal-çapdır
Kimin başinda papaq görsələr qaphaqapdir.
Hər tərəfdə veribdir yüz qurd burun-buruna
Sürükləyir ulusu fəlakət çuxuruna. . . " (76,s. 98 ).

Ordubadi Azərbaycının gərçək tarixində qaynaqlanan, bu pyesinin sonunda Zeynəb obrazının Şəhid olması sənəsini yaradarkən, Azərbaycan qadınlarının, bu pyesdə Dilruba və Cavahir qəhrəman və mübarizləri kimi, özgürlük və vətənpərvərlik uğrunda erkəklərlə omuz-omuza döyüş səhnələrində və cəbhələrdə ön səfdə olduqlarını, bir güclü dramatik şəkildə formalaşdırır. Səttarxan Zeynəbin cənazəsi qarşında sonsuz sayğısını, Azərbaycan qadınlarına sunur. bu sözü isbat etmək üçün örnəyi pyesin sonunda Səttarxanın şəhid olan Zeynəbin qarşında diz çöküb, ordusuna xitab duyğulu ifadəsidir.

"Səttarxan: Sizdə şərəflə başınızı əyin. Azərbaycan qadınının qəhrəman ovladı ilə vidalaşın. Aslan ürəkli, polad iradəli Zeynəblə son dəfə görüşün!

Bağırxan: Zeynəb, Zeynəb! Şahların taxtını tərsinə çevirsəm də, ürəyimdə yanan intiqam odu sönməyəcəkdir!

Səttarxan: Azərbaycanlılar! Verdiyiniz qurbanlar iradənizi çoxaldır. Mübarizə davam edir səngərdən qalxın, qoy Təbriz üfüqlərində şığıyan ildırımlar şahın gözlərini bir daha qamaşdırsın, qurbanlar eşqinə irəli! İstiqlal və özgürlük uğrunda irəli. . . " (58, s. 356 ).

Bu pyesin mövzusu gərçək tarixə dayanıb arxalanaraq, çağdaşlığı və tarixiliyi, onun güclü dramatik səhnələrini Türk xalqının gözləri önündə unudulmaz bir qəhrəmanlıq və tarix səhnəsini

canlandırır. Bu canlı qəhrəmanlıq, parlaq tarix səhifəsi, Türklərin özgürlüklə fəxr edən və onun yolunda minlərcə Zeynəblər və Səttarxanlar, qurban verən mübariz Türk igidlərinin, dünyanı etkiləyən və deyişdirən şanlı tarixə sahib olduqlarını göstərir. Pyesdə Bakı və Təbriz mübarizlərinin ilgiləri, Azərbaycanın devrim mərkəzi olduğunu göstərir. Bu əsərdə də bütün sovet dövründə ideologiya basqısı altında yaranan əsərlər kimi, obrazlardan biri rus və rus xalqından sayğı və devrimçi bir xalq olduqlarından söz olmalıdır ki, bu əsərdə də mübarizlərdən Nina obrazı rusdur, və Səttarxan obrazı da rus xalqından böyük sayğı ilə yad edir. Ordubadi bir vətənpərvər və ulusunun qayğısını çəkən başqa Azərbaycan yazıçıları kimi, əsərlərinin nəşr və yayılmasına, izni almaq üçün Nina obrazını yaratmağa və ya bəzi səhnələrdə rus xalqını təriflməyə savunmaya məcbur qalır.

## Nəticə

Azərbaycan ulusal dramaturgiyasının çağdaşlığı və tarixiliyi onun özəlliyində, Türk tarix, inanc, ənənə və gələnəklərindən qaynaqlanmasında, Azərbaycvanın yeni problemlərinə və çağdaş insan sorun və tələblərinə cavab verməyində yararlanan dramaturgiyadır. Bu dramaturgi-

ya daha təmiz daha gəlişmiş və zənginləşmiş bir Azərbaycan Türkcəsini işlətmişdir. Bu dramaturgiya yeni ədəbiyyatın başlanışı ilə başlayaraq, Azərbaycan xalqının bütün ulusal kimlik, adət, ənənə, gələnək, ulusal psixolojisinin açıqlama və bədii təsvir etməsində başarılı olmuşdur. Belə bir ulusal dramaturgiya janr və forma baxımından da çeşidli və zəngin olmaqla inkişafa yol açmışdır. Onda komediya janrında F. Axundov, C. M. Quluzadə, Ü. Hacıbəyov, S. Rəhman, N. Vəzirov, Ə. Həqverdiyev S. S. Axundov, E, Əfəndiyev, və s. faciə janrında H. Cavid, Ə. Məmmədxanlı, M. Hüseyn, C. Cabbarlı, İ. Əfəndiyev, N. Nərimanov, M. İbrahimov, A. Rezayev, S. Vurğun, A. Şaiq, və s. operada və operetdə Ü. Hacıbəyov və Ş. Qurbanov, və s. ulusal əsərlər yaradılıb və dünya dramaturgiyası ilə sıx bir ilişgisi olmuşdır. Azərbaycanın zəngin dramaturgiyasında maarifçilik, tarixi və dini məsələlərin bədii təsviri çəkilərək, teatr səhnələrində, ziyalı yazıçı və sənətkarların sənəti ilə toplumu gəlişməyə və inkişafa sövq edirdi və bütün əngəllərə qarşı vətənini və xalqın özgürlüyü uğrunda kəskin mübarizə aparırdı. bu janrın geriliyə və assimilyasiyaya qarşı təşəbbüsü, ulusal tarixə və Türk soyunun gələnəklərinə, pyes yaratmaq və onları səhnələrdə canlandırmaq idi. dramaturgiyanın yaşayışla əlaqəsinin dərinliyi, toplumsal-politikal və kültürəl məsələlərə analitik bədii nüfuzu ulusal və ümumbəşəri dəyərlərin tərənümü, şəxsiyyət və mühit, cəmiyyət həyatında, dövlətin, dinin, körkəmli şəxsiyyətlərin rolu istiqlal və Türkçülük, vətənpərvərlik ideyaları, söz və vicdan özgürlüyü, çağdaş bədii dramaturgiyanın mövzu və problematikası çərçivəsində önə çəkdiyi məsələlərdir. Ulusal dramaturgiya Azərbaycan xalqının soy, tarix, inanc və gələnəklərindən qaynaqlanaraq, sənətin əsas və ayrılmaz özəlliyi olan ölməzliyini, çağdaşlıq və tarixiliklə bağlantı quraraq, ulusal duyğu və düşüncəilə, ulusal kimliyin quruluşunda, Azərbaycan Türkcəsilə mükəmmələşdirmişdir. Azərbaycan ulusal dramaturgiyası və devrimçi bir dramaturgiyadır kı 1850-ci ildən başlanaraq, fanatik düşüncə və geriliyə, Türk kültür və mədəniyyəti, tarixi qorumaq və xalqın özgürlüyü uğrunda mübarizədədir. bu dramaturgiyanı yaradan ziyalı yazıçıların ruhlarından doğan zəngin və ölməz əsərlər, onların ruhlarının tərənümüdür. Niyə ki, özgürlük yazıçının böyük həyat məqsədilə, həyati devrimi surətdə yenidən qurmaq ideyalı ilə şərtlənmişdir. Ttoplum, bəşəriyyət qarşısında kı, görəvlərdən ilgisini artırmaqdır. Dramaturgiyadan danışmaq yəni dramaturgiyanı yüksək insansevərlik və özgürlüyə son dərəcə saygı duymaq və insan özgürlüyü üçün kəskin və dayanmadan mübarizə aparmaqdır. Bu özgürlüyün içərisində özəl yer alan ulusal özgürlükdür ki, müstəmləkəçiliyə, istibdada,

şovinizmə, insanlar arasında düşmənçiliyə qarşı humanizm ideallarını savunur. bu dramaturgiya, dostluq, barış, dinc və əməkdaşlıq münasibətlərini möhkəmləndirən bir dramaturgiyadır. Azərbaycan dramaturgiyasının məna və məzmunu, qaynar həyat, canlı insan, onun fikri ehtirasları, ulusal özgürlük, ulusal kimlik, kültür və ulusal tarixi deyimini əda etmək yolunda ki, mübarizə təşkil edir. Azərbaycan dramaturgiyası Azərbaycanın tarixi ilə ilgili olaraq, onu yaradan xalqın tarixi kimi zəngindir. Azərbaycan Türklərinin tarix boyu apardıqları mücadilələrlə dolu, həyat boyu yaşadıqları sevincli və kədərli dönəmləri, əldə etdikləri bilgi və təcrübələri, inandıqları mənəvi və əxlaqı qənaatlar bütün yönlərilə bu ədəbiyyatda və dramaturgiyada inikas edilmişdir. Ulusal dramaturgiya gəlişməsində yeni dövrün, tələbləri və bütün dünyada 19-cu əsrin devrimlər dövrü olduğu kimi Azərbaycanda da, ulusal özgürlüyə ulaşmaq amacı, devrimçilik və ziyalılarının ulusçuluq, vətənpərvərlik düşüncələri böyük rol oynamışdır. Axundov Azərbaycan dramaturgiyasının ilk yaradıcısı olan ədəbiyyatın qarşısına ciddi tələblər qoyan, onun xalqın ən önəmli sorunlarını gündəmə gətirməsini istəyən bir sənətkar kimi dramaturgiya yaratması və ədəbiyyatda çalışmaları da, sənətkarın ulusçu və vətənpərvər devrimçiliyindən sonuçlanır. onun fikricə çağdaş həyatın dışında, toplumun, xalqın mənafei ilə ilgisi olmayan ədəbiyyatın heç bir dəyəri yoxdur. onun komediləri Azərbaycanın ulusal dramaturgiyasının təməlini oluşdurdu. Azərbaycan dramaturgiyası bu sağlam təməl üzərində yüksəldi. yalnız ulusal səhnə ədəbiyyatının deyil eyni zamanda ədəbi tənqidin banisi dövrünün önlü filozofu, şərqiyyatçı alimdir. "Aldanmış Kəvakib"romanı 1857-ci ildə Azərbaycan ədəbi tarixində ilk Avropa ölçülərinə uyğun örnəyidi. bu əsərin mövzusu ikinci Şah Abbasın tarixçisi İskəndər münşinin "Aləmaray-ıAbaasi"kitabından alınan bu əsərində bu gündə çağdaş həytda və politik dünyasında önəmini itirməyən bir problemi hökmdar və xalq ilişkilərini hökmdarın xalq qarşında sorumluluğu məsələsini gündəmə gətirmişdir. Komediyalarında ki tənqidi ruh, mizah və gərgin ünsurları bu əsərdə də böyük yer almışdır. Quzey Azərbaycan ədəbiyyatının tarixində 19-cu əsrin ikinci yarısı bütün səhnə ədəbiyyatı olmuşdur. Bu səhnə ədəbiyyatı ya dramaturgiya sənəti maarifçilik içərisində gəlişib inkişaf edirdi. Bu ədəbiyyat təmsilçiləri də artıq əvvəl ki dönəmlərdə olduğu kimi molla məktəblərindən eytim almırdılar. bu yeni yetişmiş mükəmməl eytim görmüş nəsl yalnız doğu dillərini və ədəbiyyatını deyil, eyni zamanda rus və Batı dil və ədəbiyyat, tarixini, toplumsal və politikal gəlişmələrindən etkilənərək, yeni bir tip yazıçılar nəsli yaratmağa çalışırlar. onların böyük bir qismi "H. Zərdabi, N. Vəzirov, Əsgərağa Qorani, R,

Əfəndiyüv, S. Qənizadə, Ə. Haqverdiyev, N. Nərimanov və s. " rus okullarından və üniverstitlərində məzun olsalarda ulusçuluq duyğularını ulusal ənənə və gələnəklərinə bağlılıqlarını unutmamışdılar. ulusal mənsubiyyətlərini, kimliklərini qorumaq üçün bu ənəənə, orf, adət və gələnəklərə daha sıx bağlanmışdılar. onların ulusçuluqlarına nədən olan öz çıxar və qabiliyyət və ziyalılıqlarından başqa ulusal mətbutın da rolu önəmlidir, Türk dilində çıxan qəzetələr və jornallar onların ana dilində çıxan əsərlərinin xalqa ilk yayınma yolu olurdu. Türklərə qarşı Qafqaziyada Çar Rusiya mətbuatın dilini rus dili seçmişdi ki ta Türk ulusçuluğunun qarşısın alsın. bu yolda və amacda olan Ruslar həm İrandan həmdə Qafqaziyada Fars dilini də təbliğ etdirdib və onun gəlişməsinə ədəbiyyat və sənət də yardım edirdilər. 1845-ci ildə bir erməni baş yazar olmaqla "Qafqaziyanin bu tərəfinin xəbərləri"adda qəzetə neçə say çıxıb bağlanmışdır. 1875-ci ildə maarifçi H. Zərdabinin "Əkinçi" qəzeti onun baş yazarlığıyla yayına başlır. bu qəzetə 1877-1878-ci ildə Rus- Türk savaşında bağlanır. 1920-ci ilə qədər Azərbaycan ədəbiyyatın da Türkçülük və ulusal şüur və ulusal kimlik qoruyub savunma duyğu və düşüncəsi açıqcasına ədəbiyyatın ağır görəvi olmuşdur. 1920-ci ildə Azərbaycanın milli hakimiyyəti rus şovinizmi sovetlər birliyi adıyla dağıdan dan sonra Türkçülərin çoxu yeni ideoloji basqınlığına dayanmayaraq Azərbaycandan uzaqlaşır və yazıçıların bir qismi də vətən də qalaraq Azərbaycan Türkcəsinin zənginləşdirməsində və güclü bir ədəbi dil yetişdirməsində, Türk tarixi olayları Azərbaycan tarixi adıyla bədii əsərlərində təsvir edərək Azərbaycan xalqının toplumsal sorunlarını da yeni ədəbiyyat da inikas etməkdə kəndilərini ağır təklifli və sorumlu görüb çalışırlar. bir qisim Azərbaycanlı yazıçıları üçün ədəbi həyat, ədəbi varlıq 1920-ci ildə tükəndi. Bu tarixdən sonra onların bir qismi kəndi ilkələrinə sadiq qalaraq aktiv ədəbi həyatdan çəkildilər köç etdilər. Amma bir qismi yeni rejimlə işbirliyi yolunu tutdular. Azərbaycan xalqının tarix və mədəniyyət və kültüründə sovet ədəbiyyatı adıyla çalışdılar. 20-ci əsrin ilk iki on ili Azərbaycanın ədəbi mədəni və sosial-politikal həyatında hadisə və şəxsiyyətlərlə zəngin olan önəmli bir dövrandır. Bu dövran demək olar ulusal, Türkçü və vətənpərvərlik duyğularla dolu olan çağdaşlıq və tarixiliyi ədəbiyyata gətirən və yeni ədəbiyyatın gəlişməsinə atılan ilk addımlarla, yeni janrların formalaşdırırlmasında önəmli bir dövr kimi tarixdə təsbit olunur. 1905-ci ildə "Həyat" qəzeti Ə. Hüseynzadə və Əhməd Ağaoğlunun yayına başlaması və Z. Tağıyevin ona dəstəyi, Türkçülük, ulusal birlik düşüncəsinin kökləşməsində, Azərbaycan ulusal şüurunun və ulusçuluq duyğusunun doğulmasında böyük rol oynamlşdır. Onun daimi yazıçıları arasında

olan H. Zərdabi və Ə. Hüseynzadənin Türk birliyi düşüncələri və bir jurnalist ədib olaraq ulusal ədəbiyyatın təmsilçiləri olurlar. 1905-ci ildən sonra "Molla Nəsrəddin və Füyuzat" dərgiləri və "İrşad", "Tərəqqi" və "Açıq söz" qəzetləri də ulusal dramaturgiyanın gəlişməsində çox önəmli bir proses kimi kəndilərini toplumda ifadə edirlər. 1905 dən sonra Azərbaycanda gəlişməkdə olan ulusal oyanış ədəbi və kültürəl və demokratiya sistemi qurmaq üzrə çabalar göstərən ziyalı yazıçılar Rus Çarizminin gözündən qaçmamışdır. Bu ulusal yüksəlişin önlənməsi üçün politikal oyunlara ixtilaflara əl atmış və yardımcıları erməni ilə orqanizə edilmiş bir şəklə Azərbaycan Türklərinin üzərinə saldırılmışdır. 1906 da qazetəçi, yazıçı Əhməd Ataoğlu "Difai" partiyası erməni saldırıların qarışdı. Ermənilərin qara planlarının Azərbaycan və Türkiyəyə qarşı çıxmağında Azərbaycan ulusal ədəbiyyatın yazıçıları da C. M. Quluzadə, Ə. Ağaoğlu, H. Vəzirov, Ü. Hacıbəyov, M. S. Ordubadi, N. Nərimanov, böyük etki göstərmişdilər. Nicat və Nəşr –Maarif kimi ulusal cəmiyyətlərin geniş fəaliyyətləri bu vaqiədə təsirlidi. Bu dövrdə Azərbaycanda kökləri və gələnəkləri ilə xalq yaradıcılığına dayanan bir "uşaq" ədəbiyyatı meydana çıxmışdır. Türkçülük və ulusçuluq düşüncəsini dərinləşdirə ilk dərgilərdən olan ədib və şair Ə. Hüseynzadə və onunun bir illik Füyuzat "1906-1907"dərqisidir. bu 32 sayda Hüseynzadə "Türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq" düşüncəsini və sonralar Türk dil birliyi üzərində çalışmalarıyla soy, ulus, dil, tarix və kültürunə deymini təkmilləşdirdi. Bu dərgidə qələm vuran Türkçü, maarifçi, yazıçılardan Qırım Türkü Həsən Səbri Eyvazov, Xalid Xürrəm Səbrizadə, H. Zərdabi, H. Cavid, A. Şayiq, A. Sur, M. Ə. Sabir, A. Sehhət və s. ad aparmaq olar. Füyuzat və onun çevrəsində toplanan ədəbiyyatçılar Azərbaycan ədəbiyyatına Türkçülük və ulusal oyanış düşüncəsi ilə yanaşı bir uslub yeniliyi gətirdilər. onun çağdaş dünya ədəbiyyatının təcrübəsilə tanışmasına imkan sağladılar. XX əsr Azərbaycan ulusal ədəbiyyatı üç əsas cizgi üzərində gəlişmişdi:

**1. gərçəkçi demokratik ədəbiyyat:** Bu sırada yerləşənlərdən önlüləri ki Azərbaycan ədəbi prosesində özəl yer tuturlar bunlardır: C. M. Quluzadə, M. Ə. Sabir, R. Sabit, N. Nərimanov, M. S. Ordubadi, Qəmgusar, Ə. Haqverdiyev, Ə. Nəzmi, Möcüz.

**2. Romantik ədəbiyyatı:** Ə. Hüseynzadə, H. Cavid, M. Hadi, A. Sehhət, Abdullah Divanbəyoğlu, A. Şayiq, C. Cabbarlı, M. Müşfiq və s.

**3. Gərçəkçi maarifçi ədəbiyyat:** S. S. Axundov, Y. V. Çəmənzəminli, Talıbov, Ü. Hacıbəyov, S. M. Qənizadə, R. Əfəndiyev, Musabəyli.

Yeni ədəbiyyatın gəlişməsi xalqı ulusal hökumətin qurulmasına və demkratik sistem yaratmağa yönləndirdi. 1918-ci il mart ayında Azərbaycan ulusal hökuməti Tiflisdə 33 Azərbaycanlı tərəfindən istiqlal bəyannaməsini qəbul edərək imzaladılar. Bakı Rusların əlində olduğuna görə Qəncə başkənd oldu. 1918-ci ilin iyulunda Osmanlı Qafqaz ordularının yardımı ilə Bakı azad oldu. Türk cumhuriyyəti 23 ay davam etdi. Azərbaycan bağımsızlığı çox qıssa sürədə ulusun tarixində onun ədəbiyyat və mədəniyyətinin tarixində silinməz izlər buraxdı. Birincisi bütün dünya Azərbaycan Türklərinin bir ulus olaraq varlığından və onların kəndi tarixi torpaqlarında bağımsız dövlətlərini qurmaq arzusundan xəbərdar oldu. ikincisi milli dövlətin təşəkkülü Türkçülük və ulusçuluq duyğularının rəsmi bir ideoloji durumuna gətirdi və sənələr bu amacın həyata keçməsi uğrunda mücadilə verən ədəbiyyat böyük çapta etkilədi. Azərbaycan ziyali, aydın və maarifçi yazıçıları ulusal dövlətin qurulmasını böyük sevinclə qarşıladılar. Cumhuriyyətin simgəsində onlar kəndi fikirlərinin zəfərini görürdülər. Əlimərdan bəy Topçubaşı "Kaspi" qəzetinin baş yazarı Azərbaycan parlamentosunun başqanıy idi və Üzeyir Hacıbəyov cumhuriyyətin rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın baş yazarı olaraq fəaliyyət göstərirdi. M. Hadi, Ə. Haqverdiyev, Y. V. Çəmənzəminli, C. Cabbarlı, Seyyed Hüseyn, Ümmü Külsüm və s. fəxrilə ulusal hökumətlərində bir ədib, yazıçı, maarifçi Türkçü olaraq çalışırdılar. Ulusal hökumətin xalqına sevinci ilə etdiyi xdtmətlərindən, Bakı Universiteti, Dövlət Teatrı, Yaşıl Qələmlər Cəmiyyəti, Azərbaycan gənclərini təhsil etmək üçün Batı Universitetlərinə göndərmək təşəbbüsü, Azərbaycan Türkcəsini dövlət dili təyin etmək, əlifba islahatı hazırlamaq, qadınlara hüquq eşitliyi vermək, və b.

Azərbaycanda sovet rejiminin ilk illərində bir sıra təbliği –ideoloji ədəbi mətnlər yazıldı. Bu əsərlərin bir çox qismi bədii açıdan yaxşı bir dəyərə malik olmadı. Onlar sadəcə propaqanda xarakterləri olmaları ilə seçilirdi. Başqa yöndən 1920-ci ildən sonra Azərbaycanda ki yazıçıların ən tanınmış ədəbi həyata 19-cu əsrin sonunda və 20-ci əsrin başlanışında və adını geniş çapda duyuran insanlarıdı. Düzgün və ulusçu yazıçılar heç zaman tutduğu doğru inandığı yoldan geri dönməyib sənətlərilə Bolşeviklər ilə müamiləyə girmirdilər. 1920-ci ildən öncə Türkçü və Turançı şair və dramaturq tanınan H. Cavid Türkçülüyün mücadiləçilərindən biri kimi Bolşeviklərin etkisilə ədəbi zövqlərin, ədəbi görüşlərin dəyişdirməsinə böyük sərt təpki göstərmişdi. H. Cavid kimi sənətkarlar isə bütün basqılara və sıxıntılara baxmayaraq tutduğu yoldan heç zaman dönmədi və bu əsasda kəndi fikrincə Türkçülük düşüncəsinə dayanaraq"

Peyğəmbər, Topal Teymur, Xəyyam, Çənqizxan, Mətəxan" dramlarını yazdı. 1920-ci ildən sonra Y. V. Çəmənzəminli əvvəlcə Türkiyəyə və sonra Fransaya köçmək məcburiyyətində qaldı. Türk və Fransız dilində bilimsəl araşdırmalar və tarixi romanlar yazdı. Onun "Studentlər, Qan içində, Qızlar Bulağı" əsərləri sovet dönəmindəki Azərbaycan nəsrinin quşqsuz öndə gələn başqaları sırasında daxil olur. Əhməd Cavad, Səməd Mənsur, Seyid Hüseyn, Qandəmir, Hacıbaba Nəzərli, Böyükağa Talibi, Tağı Şəhbazi, kimi yazıçılar da əsərlərini sovet Azərbaycanından öncə yazmışdılar. 1925-ci ildə ilk partiya qərarı əski yazıçılardan olan, yazıçıların haqq və hüquqlarını kısıtlayan idi və bu müstəqil yazıçıları 1934 də Moskvada düzənlənən sovet birliyinə qəbul olmadı. Sovet yazıçılarından olan S. Rustəm, H. Mehdi, S. Vurğun, R. Rza, N. Rəfibəyli, M. Paşayev, O. Sarıvəli, M. Rahim, S. Rəhimov, M. İbrahimov kimi sənətkarlar sovet ideoloji içəri və üslubunda Azərbaycan Türkcəsini bir ədəbiyyat dili olaraq arındırmaq və zənginləşdirmək yolunda çaba göstərirdilər. Bu dəstəyə girməyənlər də varıydılar ki, sənətin politikadan uzaq durmasına inanaraq çalışırdılar. Onlardan dəyərli lirik şeirləri ilə məşhur olan M. Müşfiqdən ad aparmaq olar. M. Müşfiq politikadan uzaq qalmağı tərcih edərək gözəl və duyğulu lirik şerlərlə öz mənliyinə, gələnək və simgələrinə əsərlər yaratmağa çalışırdı. Onun "Oxu Tar" şeiri doğrudan da Tarın yüksək yerini Azərbaycan kültüründə göstərərək Azərbaycan kültür və kimliyini savunma və kəndinə dönmə bir əsər kimi sovet birliyinə qarşı təmsil olunur. Sovet partiyaçılarını Müşfiqin əks cəbhəsinə çevirir və sonralar bu şer və başqa əsərləri və görüşləri üzündən canını da bu yolda fəda edir. 1937-ci ildən İstalin və yoldaşlarının böyük terrorlar yanlız siyasətdə deyil, bəlkə kültür həyatında hər növ demokratik çeşidli düşüncə, özgürlüyün və düşüncə sərbəstliyinin önünü kəsərək amacını daşıyırdı. Bu dönəmdə Azərbaycan yazıçılarının birliyi içində bulunan yazıçıların yüzdə otuzu yox edildi. M. Müşfiq, Ə. Cavad, Ə. Nazim, Hacı Kərim Şamlı, Seyid Hüseyn, Hacıbaba Xəzərli, S. Mənsur, Böyükağa Talibi, Qandəmir, Əmin Abid, Mustafa Quliyev, Atababa Musaxanlı, kimi şair yazıçılar və tənqidçilər, ədəbiyyat araşdırmaçıları heç bir suç işlətmədikləri halda qurşuna düzdülər. Uzun sürəli zindan da cəzasına çatdırılan Y. V. Çəmənzəmili, H. Cavid, kimi hənuz həyatda ikən ulusal klassiklər arasına qirən məşhur şəxsiyyətlər sürgündə öldürülürlər. Türkiyə də yaşayan və Türkiyə və Batı Universitetlərində eytim alanlar suçlanıb tutulub öldürülüb ya sürgün olurdular. Bu terrorlara rağmən Azərbaycan ədəbiyyatında gərçək ədəbiyyat susmadı. S. Vurğun Komsomol poeması və Vaqif dramı və tarixi mövzularda çeşidli mövzularda çeşidli poemalar və şer və dramlar, S.

Rəhman "Toy" komedisində, M. Cəlal "bir gəncin manifesti" romanında, S. Rəhimov "Saçlı" romanında R. Rza şerlərində bu dövrün ürünləridir. 1959-ci ildə sovetlər birliyi yapılan sovetlər birliyi, kommunist partiyasının 20-ci qurultayında Stalin dönəminin vəhşət və rəzalətlərinin dövlətin uzun sənələr boyu kəndi vətəndaşına yürüdən terrorun qorxunc mənzərələrin açıqlanması hər kəsdən daha artıq ədəbiyyat adamlarının diqqətini çəkdi. Öncədən cızılmış bəsit cansız ədəbi tasarımlar üzərinə bir-birinin dalsınca sıralandırılmış bəsit olaylardan qurulan romanların yerini insanın ehtiraslı özündəki psixoloji tutumu və gərçək axtarışlarının önə çıxardığı gərçək inandırıcı bədii əsərlər oldu. Nəsrin yalnız mövzular qəhrəmanları deyil. Dili, üslubu, təsvirləri, yazı mexanizmi yavaş-yavaş deyişməyə yeniləşməyə başladı. Bir tərəfdən klassik və çağdaş dünya ədəbiyyatının təcrübəsinə və bir tərəfdən də zəngin Azərbaycan xalq ədəbiyyatının C. M. Quluzadə, H. Cavid, kimi tanınmış yazıçıların və şairlərin ədəbi biri kimi gələnəklərinə dayanan gərçək bir ədəbi və bədiilik tutmaya başladı. 1960 dan sonra ki yeni ədəbiyyatda insan, ulusal olmaqla birlikdə bəşəri yönlərilə diqqəti çəkir. O bəlli bir topluma keçərli olan düşüncələrin dışında bəlli bir ulusa xas olan özəlliklərin yanı-sıra bir bəşər övladı bir çağdaşımız kimi də təsvir olunur. O yazıçıladan E. Əfəndiyev, A. Rzayev, S. Əhmədli, Afaq Məqsud, Ə. Cəfərzadə, R. İbrahımbəyli, R. Rövşən, M. Oruç və s. Ad aparmaq mümkündür. Azərbaycan ədəbiyyatını etkiliyən bir tarixi olay da var. Bu tarixi olay Güney Azərbaycandakı 1045-ci ildə üz vermiş böyük ziyalılar tərəfindən Seyid Cəfər Pişəvəri öndərliyiyilə yaradılmış devrimdir. Bu devrimin bir illik ömrü, və xalq bütün sahələrdə verdiyi xidmət və ölkəyə gətirdiyi gəlişmə, xalqın tələblərinə və amallarına uyğun, ulusal duyğu və şüurdan sonuclanan bu devrim, birdən Rus və İngiltərə kimi Türklərin əski tarixi düşmənləri tərəfindən boğulması, ədəbiyyatda da xalqın amal, ayrılıq, həsrət, bu devrimin düşmən və xainlərin nifrət və kin bəsləmə, devrimçi Azərbaycan ziyalılarının və Türk xalqının, ulusal hökumətə və kültürlərinə və kimlıiklərinə olan sevgi və diləklərinin təmsilçisi ulusal ədəbiyyat da bu mövzuda geniş alana sahib olur. 1946-ci ildə Pişəvəri devrimi yeniləndən sonra Güney Azərbaycan ziyalı yazıçı və şairləri də Bakıya köçməyə məcbur olaraq bir güney mövzuda da ədəbiyyat yaranır. O yazıçı və şairlərdən Əli Tudə, Balaş Azəroğlu, Mədinə Gülgün, Söhrab Tahir və s. bu mövzuda Mirzə İbrahimov kənarında şer, hekayə, dram, roman və ədəbiyyatın başqa janrlarında əsərlərilə bir çox Quzey Azərbaycan yazıçılarını da güney Pişəvəri devrimi haqda yazmağa maraqlandırmışdılar. Bu qıssa tarix Azərbaycan ədəbiyyatının özəl bölümlərini və yazıçı ziyalıların durumunu və onların

topluma olduğu etkilərini anladır. Azərbaycan ulusal dramaturgiyanın tarixi yeni ədəbiyyatla başlayaraq tarixi olaylarla ilgisi əski ədəbiyyatdan daha artıq və genişdir. Bu ədəbiyyatda Azərbaycan tarixilə ilgilənərək 1918, 1920, 1945, 1990-ci illərdə presidentləri olanlar M. Ə. Rəsulzadə, Şeyx Məhəmməd Xiyabani, N. Nərimanov, M. C. Pişəvəri və Ə. Elçibəy kəndiləri alim, ədib, jurnalist və bir yazar kimi tanınan şəxslərdirlərdirlər. onların şəxsiyyətləri, vətən və xalqlarının özgürlükləri uğrunda qutsal tutduqları yol, bu yolu qutlayan və sevə dövrlərinə yığışan yazıçı və sənətkar ziyalılar, ulusçu, Türkçü vətənpərvərlər, qurtuluş arayan insanlar, əbədi sevgi və ulusal devrim qəhrəmanı olduqları üzdən o dövrdə və onlardan sonrakı illərdə yaranan ədəbiyyat kimlik və ulusal şüurun oyandırma amacıyla yaranır. Ulusal şüurun içində bütün ədəbi düşüncə və proseslər ulusallaşmağa və ulusal kimlik damğası ilə həyat tapır. Bədii ədəbiyyat da ulusal şüur və düşüncəsinin yerləşməsi, sovet ideologiyası qarşında yeni ədəbi cərəyan və formaları ilə, ulusal tələblərə və ulusal qəhrəman və tarix çərçivəsində tarixi roman və dramlarda yaratmağa sövq tapır. Bu roman və dramlar Azərbaycan xalqının ulusal tələb və diləklərinin aynası kimi bu gün qiymətlənir. H. Cavidin və C. Cabbarlının romantikasında yaranan pyeslər, onların ulusal şüur və kimlik qovğaları və haykırıları və uluslarının ulusal tələblərini dram şəklində təsvir etməsidir. Doğrusu da bədii ədəbiyyat da romantika hər şeydən öncə gözəl və könül açan fərəhli həyat, fərəhli ömür və tələblər haqqında arzu və diləkdir. Ulusal sənətdə romantika mücərrəd, zamansız və məkansız anlayış deyildir. Söz sənətin bütün başqa keyfiyyətləri kimi, onun romantik keyfiyyətləri də tarixidir. Bir ulusun yaşadığı dövr və ulusal tarixində zəfər və inilmələri bir gərçək olaraq, sənətçinin o olaylara romantik münasibəti də bir aydın ziyalı kimi davranması təbiidir. Hər bir konkret tarixi şərait, dövr, zamanın, yazıçıdan asılı olaraq, özünün əlamətdar romantik idealını yaradır. toplumsal gəlişmənin böyük qanunlarına uyğun olaraq bir toplum quruluşu başqa bir toplum quruluşunu əvəz etdikcə bəşərin mənəvi ehtiyacları da artır, diləkləri də çoxalır və gözəl həyat haqqında romantikası da yeni və toplumla ilgili daha yüksək məzmun kəsb edir. bir əsərin hər epoxanın özünün daha gözəl, azad həyat idealı öz romantikası olur. H. Cavidin idealı, toplum haqqındakı utopiyası Türklərin keçmiş birliyi, imperatorluqları və dəyərli qorxmaz Türk hakimlərinin böyük torpaqlarına yenə də güclü kültürəl-politikal sahib çıxmaları, əski kültür və mədəniyyətlərinə dayanaraq çağdaş dövrlə Türklərə layiq olan yer tutmaları, Türklərin parçalanma nostalgiyası, savaşsız və sevgi ilə dolu dünya yaratmaq və s. arzuları onun romantik idi. C. M. Quluzadənin özgürlük, istiqlaliyyət, xalq

hakimiyyəti və demokratiya haqqındakı fikirləri, Azərbaycan Türkcəsini təmiz ədəbi bir dil kimi yetişdirmək arzuları onun romantikasını təşkil edir. Biri var məhkum insanın romantikası, əsarətdə yaşayan xalqın romantikası, bir də var, insanın romantikası. C. Cabbarlının "Aydın, Oxtay və Elxan " kimi qəhrəmanlarının romantikası məhkum insan iki qat zülmə məruz qalan vətəndaşın romantikasıdır.

Ideyalı sənətkarın əsərlərində romantika həyati əhəmiyyəti olan konkret məsələlər ətrafında dolaşır. Məsələn vətəndaşlıq duyğusunun romantikası, yeniliyə, çağdaşlığa çağırışı romantikası, gələcəyin romantikası və ya başlanan böyük bir işin, hərəkətin romantikası və s.

"Sevil, Yaşar, Dönüş, Almaz" əsərlərində Cabbarlının və onun çağdaş qəhrəmanlarının romantikası artıq arzu edilən səadətin romantikası deyil, başlanan görülən işin romantikası yəni həyat qurucularının romantikasıdı, məfkurəsizliyi, toplumsal idealdan məhrum olmağın, vətəndaşlıq vəzifəsini unutmağı Cabbarlı maşşanlığının ən səciyyəvi xüsusiyyəti hesab edirdi. Cabbarlının romantikası onun mənsub olduğu xalqın səciyyəvi psixoloji keyfiyyətindən, mənəvi tərəqqisindən, özgürlüyə, demokratiyaya, çağdaşlaşmaya, Türkçülüyə, olan qüvvətli meylindən və xalqın yeni ulusal oyanışı uğrunda mübarizə əzmindən doğan bir romantika olmuşdur. xalq bütün mənəvi və maddi sərvətlərin yaradıcısıdır. dahilərdə yaradan xaqdandır. sənətkar toplumun içində yaşarkən, toplumun sorun, dilək, tarixi gərçəklərini sənət yolu ilə canlandırıb əbədiləşdirir. Teatrın səhnədə xalqı maraqlandırmasının əsas nədəni də əsərin ulusal olmasında yəni xalqın ruhuna yaxın, zamanın fikir və cərəyanlarını təmsil etməsində, toplumun mif, əfsanə və tarixi səhnələrini canlandıran, ulusal duyğularına və toplumsal ağlına və biliminə bağlanması və gələnəklərindədir. H. Cavidin romantizmi də soy və dilinə bağlı realist ünsürlərə malikolaraq, döyüşkən mücadiləçi bir romantizm olmuşdır. Onun romantizmi çağdaşlığa, Türkçü-turançılıq ideolojisini daşıyaraq, Türk xalqının torpaq və politikal sınırlarını açıb onları ulusçu düşüncəylə birləşdirərək Türk ulusunun geniş romantizmini yaratmışdır. Kəskin ideoloji mühitində toplumsal həyatın siyasilədirildiyi bir şəraitdə, sovet dövrü ədəbiyyatın metodoloji əsasi üçün, başlıca meyar partiyalıq, sinifçilik hesab olunurdu. partiya və dövlət sənədləri ədəbi hadisələrə istiqamət verən konsepsiya kimi qələmə verilirdi. Prinsiplər klassik irsə, gələnəyə münasibətdə mənfi meyllər yaradırdı. H. Cavid kimi Türkçü və insan yaşamına aşiq olan bir yazıçının ətrafında çevərə nə qədər qatlaşdırılıb dumanlandırılırsa da, ədib romantik yaradıcılıq prinsiplərinə və ulusal düşüncəyə sadiq qalmışdır. romantik qayəsini tarixi keçmişdə möhkəm

əlaqələndirən H. Cavid mövzu və qəhrəmanlarını Türk xalqının mənəvi dəyərlərinin təsdiqinə yönəltdi, ulusal ruhu yüksək sənət eşqilə oxşadı. mühitin fövqünə ucalmağın, ideala qovuşmağın yol və vasitələrini meydana çıxartdı. Ulusçuluqla bəşəriliyi, tarixiliklə çağdaşlığı vəhdətdə vəsf etdi. ideoloqiya, zamanın tələbləri əsasında deyil, məhz ruhi-mənəvi tələbə, ümuminsan istək əsasında ədəbiyyat yaratdı. H. cavidin dramaturgiyası ideya-bədii və əxlaqi-mənəvi dəyərlərə görə önəmli və mühüm ulusal düşüncə və şüurla qaynaşan əsərlər Türk dünyasını və ədəbiyyat aləminə təqdim etdi. Azərbaycan ədəbiyyatında mənzum dramaturgiyanın inkişaf və yeni formasının gəlişməsinə dəyərli mənzum dramla yaratmaqla o cümlədən "Xəyyam, İblis, Peyğəmbər, Şeyx Sənan, Kenyaz" və b. əsərlərlə yardım etdi. H. Cavidi bir dramaturq kimi səciyyələndirən onun yaradıcılığa romantik vüsət verən pyesi təbii ki 1914-ci ildə tamamladığı mənzum "Şeyx Sənan" pyesidir. Bu faciə janrında yazılan əsər cavid dramaturgiyası üçün aktuallıq və qüdrət gətirən əsərdir. Cavidin əsərləri yüksək yaradıcılq zirvəsində yer alaraq, sevgi və humanisti düşüncəylə birlikdə, onun Türkçülük-turançılıq ideolojisinin mərkəbi olur. 1925-ci ildə yazılan və 1926-ci ildə çap olunan "Topal Teymur"dramında tarixi qəhrəmanlıq motivləri H. Cavidin ulusal və bəşəri fikirləri kontekst təşkil edir. Cavid bu dramda Türk əqvamının birliyi, Türk imperatorluqlarının xalqa ədalətlə davranış və Türk hakimlərinin yüksək ağıl və zövq zəkaya və hökmdarlıq yetənəklərinə sahib olmaq məsələlərini kifayət qədər önəmli ideya olaraq irəli sürmüşdür. *1920-ci illər H. Cavidin yaradıcılığının gərgin dövrü idi. Onun arzularının və ulusçuluq diləklərini yetərli qədər ulusal hökumət M. Ə. Rəsulzadənin liderliyi ilə Qafqaz Türk dünyasını birləşdirməsini amaclayan "Müsavat " partiyaı 1918-1920-ci ildə bolşeviklər tərəfindən basılmış və getdikcə Türk torpaqlarını tutmağa çalışırdı, Qafqazdakı Türklər məcburi halda Rus şovinisti sürdüyü poltikanın çərçivəsində yerləşdirilirdi. Onların kültür, tarix və varlıqları Rus şovinisti özəlliklə Rus dili basqısı altında qalaraq ulusal kimlik varlıqları məhv olmağa yönəlirdi. belə bir durumda ulusal hökumətin çevrəsində toplanan Türkçü-turançı yazıçı ziyalılar, yeni qəsbkar hökumətin çərçivəsində ruhi-mənəvi bunalıma düçar olması təbiidir. H. Cavid yeni dövrdə kəndini gərginliyə qarşı şer və dramaturgiya və yaradıcılıqla məşğul edərək, ulusçu düşüncəsini kəndisinə xas olan romantikasında sürəkli sürdürdü. Onun yaradıcılığında tarixi mövzular daha çox Azərbaycanın dərin genetik tellərlə bağlı olduğu ümumşərq həyatından gəlirdi və kimlərin danmasından asılı olmayaraq bu əsərlərin hər birində güclü çağdaşlıq vardır. Ancaq ədəbi prosesin daxili dinamizminə, içərisində çırpınan qaynar ritmlərə görə deyil, yalnız

zahiri formal bəlitilərinə görə qiymətləndirənlər. Bu nöqtədə Cavidi əks cəbhə adlandırır, anlamırdılar. Onun güclü romantik yaradıcılığı və gərgin dövrlərdə yaranan ulusal dramları partiyaçıları və siyasət süfrəsindən yeyib baş saxlayan yalançı saxtakar sənətkarları ona qarşı durmağa təhrik edirdi. Onlar bu güclü sənətkarı sənət dünyasından çıxartmaq üçün pantürkizm adı verməklə düşmənçilikləri və qısqanclıqları tükənməyir və ona dinsiz mövhumatçı fanatik düşüncəli olan yazıçı adını da verirlər. Bu böhtanları vuranlara qarşı insaflı bir neçə yazıçı və ziyalı H. Cavidin düşüncə və qabaqcıl məfkurəsini də savunurlar. Hənəfi Zeynallı Cavidin yaradıcılığın belə anlatır: Cavid bir " Şeyx Sənan" yazar, bir "Uçurum" açar, bir "Afət " doğurar, bir "İblis" rəsm etdirər, bir "Peyğəmbər" yaratmağa qeyrət edər, bəlkə də indi bir "Çenqiz", yarın bir "İskəndər" ertəsi gündə bir "Lenin" diriltməyə can atacaqdır.

Əkbər Ağayev tənqidçi: "Şeyx Sənan" əsərinin ən çox diqqətə layiq xüsusiyyəti bundadır ki, yazıçı yüksək eşqilə din və çürük təriqətlər arasında başlanan gərgin dramatik mübarizəni axıra qədər ustalıqla inkişaf etdirərək, həqiqət naminə, yüksək eşq naminə can nisar edən Sənanı və Xumarı bu mübarizədən qalib çıxardır və onların faciəsinə böyük məna verir. Vəli Osmanlı: H. Cavidin münasibəti dinə ateist deyildir"(34, s. 301 ).

H. Cavid "Peyğəmbər" əsərini 1922-ci ildə yazır və bu dövrdə istər Azərbaycanda istərsə də ondan kənarda kəskin sosial-politikal proseslər gedirdi, Azərbaycan ulusunun taleyi H. Cavid dumanlı geri müəyyən görünürdü və o əbədi döyüşlər adi ilə politikal vuruşların ideoloji alanın qızışdırıldığını fəhmlə duyub dərk edirdi. yəqin edirdi ki xüsusi amansızlıqla Azərbaycan cəmiyyətinə tətbiq edilən bu devrim son nəticədə iqtisadi və siyasi sahələrdə uğursuzluğa aparacaq, qurbanlara vətəndaş qarşı durmasına sövq edəcək. bu mənada yeqanə çıxış yolunu H. Cavid tanrı eşqinə sıxınmaqda, qutsallara tapınmaqda, peyğəmbərlərimizin buyurduğu yola getməkdə, dinimizə məhəbətimizə qayıtmaqda, ulusal ideologiyamızı məz bu əsasda qurmaqda görürdü. ona görədə tarixin gərginli və təlatümlü çağında, inamının, taleyinin ardınca həmdə zamana qarşı gedərək naturasında ülvi və bəşəri olan Peyğəmbəri özünə ideal seçdi. Romantik qayəsinin gücünü qəhrəmanlarının əməllərinin pafosundan aldı. Peyğəmbərin yaşadığı dövrün sorun problemləri ilə H. Cavidin zamanın problemləri eynidir. Dünya o dövrdə də, bu dövrdə də "zülmü vəhşətlə qovrulub yanıyor" çünki insan öz tanrısından üz çevirmişdir, ona görədə küfr, haqq, cəhl mərifət sanılır. qurtuluş yalnız düşünməkdə arif olub haqqı tapmaqdadır. H. Cavid qəhrəmanlari ilə 20-ci əsrdə birgə yaşayırdı. bəşəri dəyər kəsb edən motiv H. Cavid və onun

qəhrəmanları saf vicdanla ülvi bir duyğu ilə sona qədər yaşadılar və daşıdılar. Ə. Haqverdiyev bu dövrün yazıçılarından olaraq çağdaş mövzularda bir sıra dəyərli əsərlər yaratmışdı. O Azərbaycan səhnə ədəbiyyatı tarixində simvolik dram əsərini yazmışdı, zəngin tarixi qaynaqlara dayanan "Ağa Məhəmməd Şah Qacar " dramını və çox xırda sayda komediyaların yazarı olmuşdur. Tarix yaddaş və çağdaş zamana doğru həyatının təkamül yolu olmaqla ulusal varlığı və həmdə ulusal varlığın sabitliyini müəyyən edir. Ədəbiyyat isə insan həyatını bədii düşüncə müstəvisində əks etdirir. Bu cəhətdən o bədii varlıq formalarında biri kimi musirliyi ehtiva edir. Çağdaşliq kateqoriyasının fəlsəfi estetik mahiyyəti, tarixlə, yaddaşla bağlıdır. Çağdaşlıq elə bir estetik kateqoriyadır ki, illər keçdikcə öz əhəmiyyətini itirmir. tarixi məzmuna malik tələblər dünən olduğu kimi, bu gündə hisslərimizə toxunur şüurumuzu etkiləyir. Çağdaşlıq ədəbi gələnək və ənənələrimizin mühüm xarakter cəhətidir. O tarix boyu Azərbaycan ədəbiyyatı üçün doğma olan sənət tariximizin tərkibi olan göstəricisidir. Tarixin çağdaşlığı elə məhz çağdaşlığın bağlanğıcıdır. Bu baxımdan Azərbaycan klassiklərinin də dönə-dönə və hər dəfə tarixə qayıtmağı, ona söykənməyi tövsiyə etmələri təsadüfi deyil çünki onda ibrət dərsi vermək imkanı var həmdə mənəvi əxlaqı tərbiyə qaynağıdır. ədəbiyyatda tarixlə çağdaşlığın eyni bir estetik axarda təzahürü tarixin çağdaşlığıdır. tarix sübut edir ki çağdaşlığın tələblərinə cavab verən əsər öz dövrünün hüdudlarını aşaraq ulusal mənəvi irsin əsasın təşkil edir. Çağdaşlıq isə bugünkü fəlsəfi əxlaqi yüksəklikdə dayanmaq deməkdir. O ədəbi dəyərlərlə bağlı olub konkret təzahür keyfiyyətləri ilə seçilir. Romantik dramaturgiyada da tarixilik də çağdaşlıq də sənətkarın estetik münasibətinin formalardır. Çağdaşlıq sənətkarın yaşadığı dövrün özünü tarix kimi təsvir və təcəssüm imkanıdır. Tarixilik əsərin yalnız tarixi mövzuda yazılmasından olmadığı kimi çağdaşlıq da yalnız dövrün olay və hadisələrini nə səviyyədə təcəssümü ilə ölçülmür. Böyük sənətləri yaradanlar həmişə tarixi ilə təbiətlə və birdə tarixlə həmmüəllif olurlar. M. F. Axundov ulusal ədəbiyyatın sabahını keçmişindən ayırmadan çağdaş dünyada kontekstinə çıxmaqda görür və ulusal olana bəşərinin vəhdətini tarixin şərtləndirdiyi çağdaşlıq keyfiyyəti hesab edirdi. Ona görə də ona görə də ədəbi prosesə tarixi kontekstdə yanaşı M. F. Axundov tipoloji təkcə ədəbi hadisələrin eyniliyi, oxşarlığı kimi deyil həmdə təkrarsızlığı ədəbi prosesin tarixin gəlişməsi ilə uyğunluğu hesab edirdi. Tarix indinin keçmiş, keçmişin indi anlamında izahıdır. Keçmiş indinin şərhinə xidmət edir. Yəni konkret tarixi fakt barədə toplanmış sənədlər indinin həqiqətini ehtiva edir. Daha doğrusu, keçmişdə baş verənlər bu günlə müəyyən olunur. Həqiqət idrakla predmet

arasındadır. idrakın isə həqiqətə müdaxilə etmək imkanı var. Ona görə də "tarixi nöqteyi-nəzəri" mütləqləşdirib şüurumuzun tələblərinə məhəl qoymamaq doqmatizmdir, zahiri şəraitin ruhun həqiqətini üstələməsidir. Yəni tarix şüur predmeti kimi ideal olsa da, təsvirin bizə bəlli olan predmetə uyğunluğu sənəti formal olaraq təqlidə gətirib çıxara bilər. buradan belə görünür ki tarixin sənət də əbədiləşən çöhrəsi tarixin özündə əbədiləşən simasından aydın görünür. ədəbiyyat tarixdən geniş imkanlara malik olmasını vaxtı ilə Aristotel də məşhur "Poetika" əsərində xüsusi qeyd etmişdir və onun bu barədə söylədikləri demək olar ki dəyişməz qalmışdır. "şair özü də ixtiraçı olmalıdır və rəvayətlərdə lazım olduğu şəkildə istifadə etməlidir, çünki hərəkət qədim dövr adamlarının təsəvvür etdikləri şəkildə baş verə bilər. ancaq burada iştirakçılar şüurlu hərəkət edirlər"(101,s. 244). "Buradan göründüyü kimi, Aristotel ədəbiyyatın nəinki estetikasını, həmdə onun fəlsəfəsini ortaya qoyur. tarixi olaylara yanaşmanın konturlarını, metodoloji məqamlarını diqqətə çəkir. başqa sözlə, sənətkarın ixtiraçı olması, olaylara sərbəst yanaşmaq hüququ göstərir ki, tarix, ondan istifadə prinsipləri çağdaşlıq baxımından həmişə önəm və dəyər kəsb edib. Aristotel deyir ki: tarixçini şairdən fərqləndirən budur ki, birinci həqiqətən olub keçənlərdən, ikincisi isə mümkün ola bilən olaylarda dan bəhs edir. Buna görə poeziya tarixdən daha fəlsəfi və daha ciddidir. tarixilik tarixin materiallarından əlavə həmdə sənətkarın çağdaşı olduğu tarixi gərçəklərin bədii üsullarla nə dərəcədə dəqiq təsvir və təcəssüm etdirilməsidir.

Yazıçının tarixçidən üstünlüyü, onun həyat fəlsəfəi-emosional yanaşmasındadır. Gerçəkliyə mütəfəkkir baxışındadır. Əslində tarixçinin məlumatı yazıçının bədii göstərdiyi hadisələrdən fərqlənir. Tarixçi dövrün gənəl toplumsal münasibətlərini əks etdirirsə, yazıçı dövrün psixologiyasını, insanın qəlb həyatını vəsf edir. Bədii ədəbiyyat "toplumun psixolojisi həyatın tarixi" dir. insan amili və psixoloji baxımından ədəbiyyatın imkanlarının daha geniş olduğunu anlanırlar. M. Hüseynin dediyinə görə bədii yaradıcılığ prinsipləri ilə tarixin elmi prinsiplərinin fərqini anlayanlar Nizaminin İskəndərilə Makedoniyalı İskəndərin fərqinə görə Nizamini töhmətləndirməzlər. M. Hüseynin fikrincə "tarixə dövrümüzün nöqteyi-nəzərindən yanaşmaq"(34,s. 87) əsasdır. Ədəbiyyatla tarix arasında ki, bu fərqləri anlayaraq ədəbiyyatın tarixdən topluma etkili və əsərli olduğu hamıya bəllidir. bu düşüncələrə dayanaraq Azərbaycan dramaturgiyasının əsas hissəsini tarixi dramlar və toplumun çağdaş sorunlarını çözmək əsasında güclü əsərlər yaranıb. Örnək üçün Vaqif pyesi. S. Vurğunun "Vaqif" dramı hər şeydən öncə

tarixi olayların bədii inikasıdır. Bu o deməkdir ki Vaqif dövrü bədii əsərdə doğru verilmişdir. S. Vurğunun 1935-ci ildə yazdığı "Şairin ölümü" poeması Vaqif dramının bir növ fabulası hesab edilə bilər. Poemada Vaqifin ömür yolu məlum tarixi hadisələr müstəvisində poetik düşüncə predmetlərinə çevrilir. B. Vahabzadənin fikrincə "Vaqif" əsl xalq dramıdır və qəhrəmanı xalqın özüdür. Vahabzadənin qənaətinə görə Vaqifin süjetinə yardımçı olan Eldar özü də xalqın qüvvət, yenilməzlik rəmzidir. Eldar ifadəsinin etimoloji mənası da bunu deməyə haqq verir. Əsərdə əsas konflikt təkcə Şuşa uğrunda döyüşlər aparan Qacarla İbrahim xan arasında deyil həmdə bilavasitə onlarla xalq arasında gedir. Bu xalqın nümayəndəsi Eldarın səhnəyə gəlməsi ilə daha kəskin xarakter almağa başlayır. "Vaqif obrazının tarixi Vaqif ilə daxili tellərlə bağlılığının mahiyyət etibarilə düzgün ifadəsi təsadüfi deyil. Vurğunun dahiyanə mənzum tarixi dramı "Vaqif"i yaradırkən sələflərinin bu sahədəki yaradıcılıq axtarışlarının uğurlarından qədərincə faydalanmışdır"(98,s. 214). Vaqif qəhrəmanlıq ruhuna və pafosuna görə "Od Qəlini "və "Səyavuş"la tipoloji sıra təşkil edir. Vaqif dramında tarixiliyin bədii reallaşması göstərir ki, pyesdə zamanın pafosu toplumsal münasibətlərin xarakteri haqqında düzgün təsəvvür yaradılmış Vaqifin şəxsiyyəti ilə tarixin həqiqəti arasındakı daxili əlaqə açıqlanmışdır. Bədii təxəyyül sahibindən tarixi faktlara natural dəqiqliyi ilə yanaşmaq tələbimizdə özümüzü tam haqlı hesab edə bilmərik. xüsusilə S. Vurğunun kimi tarixə ulusal təəssübkeşliklə yanaşan vətəndaş şairdən tarixi dəqiqlik tələb edərkən onun sənət qayğılarını janrın poetikasından irəli gələn tələbləri unutmaq olmaz. Bu baxımdan Səməd. Vurğunun İbrahim Xanın obrazında tarixiliklə çağdaşlığı vəhdətə gətirmək istəyi başa düşüləndir. Vaqifin konflikti konkret tarixi şəraitdə baş verən olayların həqiqətinin insan taleləri vasitəsilə açıqlanması istəyindən qaynaqlanır. pyesin konflikti ona görə ehtiraslıdır ki o tarixin və insanın mənəvi aləminin dərinliklərindən baş qaldırır. pyesdə tarixin ötən olayları canlandırılır. Xarakterlər və ideyalar zərurət kontekstində yaşarlılıq keyfiyyətini ortaya qoyurlar. Tarixi dramlarda tragik konflikt tarixən zəruri olan tələbin həyata keçirilməsinin geri-mümkünlüyündə tarixən zəruri olan tələbi həyata keçirməyə səy edən Vaqifin də tragik taleyə məruz qalması idealla gərçəklik arasında ki ziddiyyətin qurbanına çevrilməsi təbiidir. S. Vurğun Vaqifin ideallarının tarixi zərurətdən şairin şəxsiyyətinin mənəvi kamilliyindən irəli gəldiyini göstərməklə bərabər konflikti tarixi inkişafa müvafiq həll etmişdir. " Tarixi dram üçün ehtirasların toqquşması fikir və ideyaların mübarizəsi kimi vacib şərtlərdə əsərdə kifayət qədər gözlənilmişdir. (44,s 145) Vaqif də xalqın mənəvi varlığı və vətəndaşların

taleyi ön plana çəkilmişdir. Burada xalq qəhrəmanlıq pafosu daxildən ümumbəşəri kədərlə tragik məzmunla əhatə olunmuşdur. Vaqif ağıl və zəkası ilə mənəvi qəhrəman məqamına yüksəlir. S. Vurğunun dramaturji əsərlərini qoşan Azərbaycan ulusal dramaturgiyası bir daha Azərbaycan xalqının tarixinə, taleyinə ulusal insanın ruhi-mənəvi varlığına üz tutmaq imkanını əldə etdi. faciə janrı yeni bir yaradıcılıq mərhələsinə qovuşdu. Yeni tipli dramaturji örnəyi olan "Vaqif"in romantik qəhrəmanlıq pafosu mənzum tarixi faciə janrının poetikasında S. Vurğun üslubi başlanğıcını qərarlaşdırdı.

İ. Əfəndiyev dramaturgiyaya 1943-cü ildə M. Hüseynlə birlikdə yazdığı "intizar" dramı ilə başlayaraq əsərlərində çağdaş və tarixi mövzularda tarixiliklə çağdaşlıq bir estetik kateqoriya kimi biri digərini tamamlayır. Çünki tarixiliklə çağdaşlıq onun bədii təfəkkürünün özündədir. O çağda. Mövzunun tarixi baxımdan idrak etdiyi kimi tarixi mövzuda da çağdaş həyati qaynaqlarda, kök və bünövrəsi ilə görə bilir. Bu bədii təfəkkürün dialektikasıdır və o Əfəndiyevin düşüncə tərzində özünə məxsus şəkildə meydana çıxır. Əfəndiyev mütəfəkkir sənətkardır. Özünün bədii konsepsiyasında insan amilinə geniş yer verir. və onun fəlsəfəsini dramaturji müstəvidə bütün incəliyi ilə aça bilir. Onun əsərlərində geniş özünüdərk daxilə nüfuz imkanı var. Insan taleləri yüksək zövq və həssaslıqla ulusal və bəşəri dəyərlərə sevgi əsasında açıqlanır. Personajda tamaşaçı arasında canlı poetik ünsiyyət yaranır. Bütün bunlarda yazıçı səmimiyyətinə, onun böyük dramaturji mədəniyyətinə, poetik ustalığının özünə məxsusluğuna söykənir. yəni realizm və təbiilik, romantika və ideal bu dramaturgiyada daxili bir vəhdət təşkil edir. Əfəndiyevin tarixiliyi onun çağdaşlığında meyaridi. onun hər bir çağdaş qəhrəmanı çözüldükcə qaynağına, mənbəyinə prototipinə gedib söykəndi kimi tarixi qəhrəmanları da əməl və qayələrilə çağdaşlığa qovuşur. İ. Əfəndiyev Azərbaycan ulusçu yazıçı və ziyalıları içərisində ulusal ədəbiyyatın yaranmasın kəndi özəlliklərilə önəmli yer tutur.

Dövrün istəyinə görə sənət konkret tələblər əsasında ideologiyaya, şəriətə uyğun şəkildə yazılmalıdır. Bu kimi təsəvvürlərdə ideologiya və ulusçuluq yalnız məhdud anlamdaydı. Ona görə də H. Cavid bir çox istiqamətlərdə hüdudları genişləndirirkən devrimi platformaya dəvət edirdi. Hüseyn, Cavid Azərbaycan xalqının ulusal şüurunun oyanmasına, ulusal özünü dərketmə və kimliklərini qorumasında yazıçılar içində ön də gedənlərdən birisidir. Cavidin böyük Türk imperatoru Teymura mehriban bir əlaqə bəsləmiş və onu bir ədalət simvolu kimi "Topal Teymur" əsərində qələmə almışdır. Onun Teymura münasibəti və qələmə aldığı əsəri onun

turançı və ulusçu şüurundan yaranır. Onun dramaturgiyası sənət, esteti, forma və dil baxımından zəngin və əsərləri ulusal Azərbaycan dramaturgiyasının əsas hissəsini təşkil edir. Cavidin əsərləri bütünlüklə Türk ulusunu ulsal yaddaşının oyanışına hesablanmış qutsal bir əsərlərdir. Ədəbi janrların, bəslənmə qaynaqlarını doğal olaraq içindən çıxdıqları toplumdan alırlar. Bu qaynağı bu qaynaqlardan istifadə olunan sürəcə də məhəlli və ulusal deyilər. Bu janrların məhəlli və ulusal dəyərlərin ötəsinə keçib evrənsəl cəhətə ulaşması ancaq insanlığın ortaq məsələlərini tutmaqda olur. Bu baxımdan, toplumların bir-birlərini tanıyaraq yaxınlaşmaları özəlliklə sənət yolu ilə doğru ilətişim qurulmasına keçər. gərək ədəbi janrlar, gərəksə sənət əsərləri, toplumlar arasında bu ortaq iletişimi quran və gücləndirən ünsürlərdir. Ulusal dramaturqların əsərlərinin qaynaq və mövzularını yaşadığı yaşadıqları toplumda olan sorunlar və məsələlərdir. Bu teatr xalqa və onun tarixi ilə bağlıdır. Görülən araşdırmaların sonucuna görə əski Türklərin həyatında inanclarının doğrultusunda gerçəkləştirdikləri teatral törənlər olduğu görünür. Şölən "Qurban ziyafəti" "Sığır Toplucu" "Ova çıxma" və "yuğ Matəm" adını alan bu törənlər birlikdə yapılmaqda və təmsili bir xarakter daşıyır. Ulsal tarix, kültürəl və inanca dayanan Azərbaycan dramaturgiyası toplumu doğru bir yola çıxartmaqda ən önəmli rol oynayırlar. Onların sürəci və sənətsəl metodları toplumun sorunları ilə sıx-sıx ilişkidə ulusal dramaturgiyanın gəlişməsini sağlayır. Türk tarixi qaynaqlarına dayanan Azərbaycan dramaturgiyası əsərlərdə tarixilik və çağdaşlığa önəm və dəyər verərək, böyük sənət əsərlərinin yaradmasına ulusçu Türkçü şair və yazıçıların ulusal şüuru o cümlədən S. Vurğunun təmsil etdiyi ulusal Türk mübariz şairi "Vaqif" Ə. Haqverdiyevin dəyərli ulusçu xalq və torpağına sevgi inanan aydın hökmdar "Ağa Məhəmməd Şah Qacar", N. Nərimanovun ulusal dövlət quran və yanlış fanatik düşüncələrin düşməni olan və xalqı vətəni uğrunda savaşa mübariz Türk Şahı "Nadir Şah Əfşar", M. S. Ordubadının Türk tarixinin zəngin səhifələrindən biri olan olay, Güney Azərbaycanda Türk xalqının yaratdığı özgürlük devrimini təsvir edən "Dumanlı Təbriz" Ə. Məmmədxanlının Güney Azərbaycan ulusal hökumətin 1946-cı ildə imperiyalar tərəfindən dağılması və xalqın bu ulusal devrimə olduğu sevgi və həsrətlərini təmsil edən "Od İçində" əsəri M. Hüsenin Dağıstan Türklərinin unudulmaz vətənpərvər və xalqsevər ulu qəhrəman və öndərləri olan və onların düşmənə qarşı kəndi özgürlükləri və vətənpərvəriliklərini təsvir edən "Şeyx Şamil" əsəri, Türkçü və Turançı H. Cavidin ulusal düşüncəsindən yaranan və Türk imparatorlarının parlaq ulduzu olan Teymurun tarixi döyüşlərindən birini təsvir edən "Topal Teymur" əsəri, Azərbaycan Türklərinin inanc və vətənpərvərlik-

lərini inikas edən C. Cabbarlının "Od Qəlini" faciəsi, İ. Əfəndiyevin Güney Azərbaycanın ziyalı demokrat vətənpərvər mübariz və ulusçu mücahidi Xiyabani və Azərbaycan xalqının 1918-1920-ci illərdə apardıqları ulusal mücadilələrin tarixi olayların tablolarını "Şeyx Məhəmməd Xiyabani" əsərində və b. Azərbaycan ziyalı ulusçu dramaturqların yaratdığı əsərlərin üzündən Türk tarix və kültür gələnəklərinə dayanan yaradılan sənətlərə görə bu gün yaranan bu əsərlərə güvənərək Azərbaycan ulusal dramaturgiyasından fəxri ilə danışmaq doğrudur.

## ƏDƏBİYYAT SİYAHISI


1. Aristotel. Poetika, B. , 1974, 456 səh.
2. Azərbaycan sovet ədəbiyyatı. B. , 1988,814 səh
3. Anar. Seçilmiş əsərləri. İki cilddə, I cild, B. , 1988,473 səh
4. Anar. «Şəhərin yay günləri». Bax: «Macal», 1978,481 səh
5. Anar. «Macal», B. , 1978,320 səh

6. Anar. «Adamın adamı». B. , 1977,479 səh
7. Azərbaycan uşaq ədəbiyyatı kitabxanası. kitab diziləri. Bakı. Gəncilik. 50-60-90-64 kitablari. 1975,895 səh
8. AtaTürk devri fikir həyatı. iki cild. Türk kültür bakanlığı. Ankara. 1992, 910 səh
9. Atatürk devri Türk edebiyyatı. 2 cild. Türk kültür bakanlığı. Ankara’ 2000,789 səh
10. Azərbaycan ədəbiyyat inciləri. Bakı. 19 səh 86,955
11. Akçura Yusif. Türkçülüyün tarixi. Bakı. Yom dərqisinin kitab dizisindən. 2006, 387 səh
12. Azərbaycan sovet ədəbiyyatı tarixi. AEAN. Bakı. 1967,905 səh
13. Azərbaycan ədəbiyyat məsələləri. AEAN. 1964, 501 səh
14. Azərbaycan xalq dastanları. Gənclik. Bakı. 1988, 902 səh
15. Bağırzadə. Ə. Azərbaycan ziyalıları böyük vətən müharibəsi illərində. Azərbaycan dövlət nəşriyyatı. Bakı. 1970, 786 səh
16. Bəstəkarın xatirəsi. Azərbayca Dövlət Nəşriyyatı. Bakı 1976, 311 səh
17. Belinskiy V. Q. Poln. sobr. soç. Tom 7, M-L, 1955, 451 səh
18. Belinski V. Q. Seçilmiş məqalələri. B. 1948, 514 səh
19. Cavid. H. Dram əsərləri. B. 1975,441 səh
20. Cavid. H. Əsərləri. Dörd cilddə, III cild, B. , 1984.
21. Cavid. H. Əsərləri, IV cild, B. 1984, 348 səh
22. Cavid H. Əsərləri. Beş cilddə, III cild, B. , 2005,459 səh
23. Cavid. H. Əsərləri. Beş cilddə, II cild, B. , 2005,621 səh
24. Cəfərov C. Azərbaycan teatrı. B. , 1974, 396 səh
25. Cəfərov C. Əsərləri. I cild, B. , 1968, 411 səh
26. Cəfərov. C. H Azərbaycan teatri 1878-1973. ADN. Bakı. 1974,455 səh
27. Cənubi Azərbaycanədəbiyyatı ədəbiyyatı antologiyası. 4 cild də. AEAN. Bakı 1974, 600 səh
28. Şəmszadə NizaməddinAzərbaycançılıq. Bakı. 2004, 400 səh
29. Dayanç Müharrem. yeni Türk edebiyatı kaynağı olarak tarih ve tarihi eleştiri. Ankara. 2009, 704 səh
30. Elçin. Ədəbiyyatda tarixilik və müasirlik. Elmi məruzə, B. , 1997, məqalə
31. Elçin. Ədəbi düşüncələr. «Azərbaycan» jurnalı, 2000,məqalə

32. Eliot Barles. Avrupadakı Türkler. Gencilik Ankara 2005, 312 səh
33. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı. Maarif nəşriyyatı. Bakı. 1981,588 səh
34. Ədəbiyyat qəzeti, 31 may, 1946-cı il.
35. Ədəbiyyat qəzeti, 15 mart, 1944-cü il.
36. Əliyeva N. Anar-şəxsiyyət və sənətkar. B. , 1999, 414 səh
37. Əfəndiyev İ. «Sən həmişə mənimləsən». B. , 1984, 561 səh
38. Əfəndiyev İ. «Unuda bilmirəm». Bax: «Azərbaycan ədəbiyyatı inciləri» (dramlar). B. 1986, 630 səh
39. Əfəndiyev İ. Seçilmiş əsərləri, VI cilddə, II cild, B. , 1984, 487 səh
40. Əfəndiyev T. Romantik dramaturgiyada tarixilik və bədiilik. Elmi məruzə, B. 1999, məqalə
41. Ədəbi proses-79. B. , 1983. məqalə
42. Əlioğlu M. Ədəbi fraqmentlər, B. , 1974.
43. Əkbərov Z. H. Cavidin «Şeyx Sənan» faciəsi. B. , 1977, 386 səh
44. Əfəndiyev Ə. İ. Əfəndiyev. Monoqrafiya-albom. B. , 1996, 301 səh
45. Frans Anatol. edebiyyat heyatı. İstanbul. 1990, 417 səh
46. Hüseynov M. Ölməz sənətkar. B. , 1944, 510 səh
47. Xəlilov Pənah. CSSRİ xalqları ədəbiyyatı. Maarif. Bakı. 1968, 654 səh
48. Zeynallı. H. Seçilmiş əsərləri, B. , 1983, 423 səh
49. Həsənova Sədaqət. Əlibəy Hüseynzadənin dilçilik görüşləri. Bakı. 2006, 211 səh
50. Xəlilov S. Cavid və Cabbarlı. «Ədəbiyyat» qəzeti, 11 may, 2001-ci il.
51. Hüseynov İlqar. milli adət və ənənələrinin bədiiestetik mahiyyəti. Bakı. 2002İnç Müstafa. 521 səh
52. Doğu halklar kurultayı. 1920. Bakı. Bir harf yayınları. İstanbul. 2007,471 səh
53. İran Türklerinin edebiyyat antolojisi. 4 cild de. Ankara. 2002,veb 1890 səh
54. İsmayılov Y. Mir Cəlalın yaradıcılığı. B. , 1975, 355 səh
55. İsmayılov Y. İlyas Əfəndiyevin yaradıcılıq yolu, B. , 1991, 236 səh
56. İbrahimov M. Xəlqilik və realizm cəbhəsində. B. , 1961, 415 səh
57. Qoşalı Əkbər, sabir rəsmiyə. Türkün səsi. Vektor yayını. Bakı 2008, 241 səh
58. Türk doğan Orahan. Türk toplumunun kültürel dinamikleri. İstanbul. 2007, 857 səh
59. Gökalp Ziya. Bütün eserleri. Ankara. 2005, 874 səh

60. Tanrıverdi Əzizxan. DədəQorqud kitabında dil möcüzəsi. Bakı. AMEA. 2008, 422 səh
61. Kazım Məməd. hünər. Bakı. Azərnəşr. 1990, 460 səh
62. Rəfili. M. ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı. Azərbaucan dövlət pedaqoji. 2005, 457 səh
63. Rəsulzadə Məmməd Əminİran Türkleri. Türk dünyası araşdırmalar vakfı. 1993, 774 səh
64. Ordubadi Məmməd Səid. Qanlı sənələr 1905-1906. Bakı. 1991
65. Qarayev Y. Meyar şəxsiyyətdir. B. , 1988, 431 səh
66. Qarayev Y. Müsahibə: infarkt. «Ədəbiyyat qəzeti», 19 oktyabr, 1999-cu il.
67. Qarayev Y. Müasirliyin sabitliyi. İlyas Əfəndiyev. Seçilmiş əsərləri. Altı cilddə, I cild, B. , 1984.
68. Qorğkiy M. Sobranie soçineniy v 30-ti tomax, t. XXIV, MIXL, 1953.
69. Qarayev Y. Səhnəmiz və müasirlərimiz. B. , 1972, 329 səh
70. Qarayev Y. Dədə Qorquddan Atatürkə-Atatürkə qədər… «Respublika» qəzeti, 8 yanvar, 1999, 540 səh
71. Qasımzadə Feyzulla. xıx Azərbaycan ədəbiyyatı tarixi. Azərnəşr. Bakı. 1974, 602 səh
72. Qül Sema. Türklerin etnik kökenleri. nokta kiabyayını. Ankara. 2010, 501 səh
73. Qarayev Y. Ağ limandan başlanan yol; Bax: Anar. Seçilmiş əsərləri. Iki cilddə, I cild, B. , 1988, 410 səh
74. Məmməd Arif. Seçilmiş əsərləri. Üç cilddə, I cild, B. , 1967, 563 səh
75. Məmməd Arif. «Bahar suları»: Bax. Seçilmiş əsərləri. Üç cilddə, Icild, B. , 1967,570 səh
76. Məmməd Arif. Seçilmiş əsərləri. Üç cilddə, II cild, B. , 1968, 541 səh.
77. Məmməd Arif. «S. Vurğun dramaturgiyası». Xalq şairi S. Vurğun. Müqəddimə. B. , 1959, 340 səh
78. Mir cəlal, C. Hüseynov"xx əsr Azərbaycan ədəbiyyatı. Maarif nəşriyyatı. Bakı. 1974, 564 səh
79. Məmmədov Mehdi. teatr düşüncələri. Bakı. Qənclik. 1977, 387 səh
80. Mirzə fətəli Axundov əsərləri. AEAN. Bakı. 1962, 528 səh
81. Məhəmməd Füzuli. Əsərləri. Beş cilddə, II cild, B. , 1960, 426 səh
82. Məhəmməd Füzuli. Heyrət ey büt… B. , 1989, 815 səh
83. Məhəmməd Füzuli. Əsərləri, I cild, B. , 1960, 578 səh

84. Metin Örem Mehmet. İran Türklerinin Hüriyyet hereketleri. Ankara. Mars matbası. 2004 ,852 səh səh
85. Malkoç özTürkmen Nəriman. Mehmet Akif Ersoy ve dünyası. Ankara Türk kültür bakanlığı. 2000, 574 səh
86. Mirzəcanzadə A. Balareğa görə İnsanı qiymətləndirmək mümkündür. Gəncilik. Baki. 1990,326 səh
87. «Elm» qəzeti, 14 oktyabr, 2000-ci il.
88. Məmmədli Q. Xiyabani. «İnqilab və mədəniyyət», 1947, №2.
89. Nəsimi. Fars divanı, B. , 1972, 540 səh
90. Orucəli H. Səməd Vurğun. B. , 1956, 463 səh
91. Osmanlı V. Azərbaycan romantikləri. B. , 1985, 419 səh
92. Paşayeva N. İnsan bədii tədqiq obyekti kimi. B. , 2003,354 səh
93. Seyidov Y. İlyas Əfəndiyev. B. , 1975, 487 səh
94. Seyyedov Mirəli. Azərbaycan soy kökünü düşünərkən. ’’ADN’’Bakı. 2003, 951 səh
95. Tyatro araşdırmaları. dərgisi. say 15. Ankara. 2003,
96. Uğur Aydınkültür, kültürel kimlik ve kültürel haqları. ankara. 2004, 320 səh
97. Veziroğlu Fuat. Denktaş. bir millet oyanıyor. Bilgi yayın. İstanbul. 2007, 920 səh
98. Vahabzadə B. Səməd Vurğun. B. , 1984. , 498 səh
99. Vurğun S. Seçilmiş dram əsərləri və poemaları, B. , 1974, 640 səh
100. Vurğun S. Seçilmiş əsərləri. Beş cilddə, IV cild, B. , 2005, 387 səh
101. Vurğun S. Əsərləri. Altı cilddə, III cild, B. , 1972, 380 səh
102. Yusifli V. Roman haqqında mülahizələr. «Azərbaycan» jurnalı, 1982, № 5.

*ایراندا فارس دیلینده استیفاده اولونان قایناقلار:
103- /. طاهایی عاطفه-1385-نظریه ادبیات-نشر اختران S. 756
104-حسینی غفار--1380 تاریخ ترکهای آسیای میانه-انتشارات توس تهران 300 s.
105-احمدی محمد رحیم-1380-نقد ادبی در قرن بیستم-انتشارات سوره 858 s.
106-لوکاچ گئورج-رمان تاریخی-انتشارات ثالث 450 s.
107-براهنی رضا-بحران نقد ادبی-انتشارات ویستار 369 s.
108-چایلی صمد-نگاهی به واژه های اساطیری آذربایجان-انتشارات اختر 554 s.

109-پارسی نژاد کامران-هویت شناسی ادبیات و نحله های ادبی معاصر-انتشارات کانون اندیشه جوان .203 s
110-انتشارات پیکان- سیری در تاریخ و لهجه های ترکی- هئیت جواد—s 250
111-یزدانجو پیام-ادبیات پست مدرن-نشر مرکز .458 s
112-مارکوزه هربرت-خرد و انقلاب-انتشارات ثالث .209 s
113-فیستر مانفرد –نظریه و تحلیل درام –انتشارات مینوی خرد .301 s
114-باختین میخاییل-تخیل مکالمه ای-انتشارات مرکز .308 s
115-خزائلی حسن-فرهنگ ادبیات جهان -6جلدی-انتشارات کلبه .300 -506-950 -1500 s
116-ولک رنه –وارن آویستن-نظریه ادبیات- .401 s
117-ویچر دئوید-شیوه های نقد ادبی –انتشارات علمی .405 s
118-وارلیق درگیسی .-28-31-43-30-18- N 15
119-هئیت جواد-آذربایجان ادبیاتینا بیر باخیش –ایکی جلد .600 s
120-زهتابی محمد تقی - ایران تورکلرینین اسکی تاریخی .850